AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

**ISBN 9 7 8 – 9 9 5 2 – 3 7 – 5 6 6 – 4**

# MƏİŞƏT ZORAKILIĞI HALLARININ QARŞISININ ALINMASI İSTİQAMƏTİNDƏ SOSİAL İŞİN TƏTBİQİ BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSININ

## MATERİALLARI

***Konfrans Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26.01.2021-ci il tarixli 1764 nömrəli məktubuna əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.03.21 tarixli 03.11.271/15 saylı qərarına əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir.***

**Bakı – 2021**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

# МАТЕРИАЛЫ

# МЕЖДУНАРОДНОЙ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ НА ТЕМУ ПРИМЕНЕНИЕ СОЦИАЛЬНОЙ РАБОТЫ ДЛЯ ПРЕДОТВРАЩЕНИЯ ДОМАШНЕГО НАСИЛИЯ

**Баку – 2021**

**MINISTRY OF EDUCATION OF THE AZERBAIJAN REPUBLIC**
**AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS**

# MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE ON THE IMPLEMENTATION OF SOCIAL WORK IN THE FIELD OF PREVENTION OF DOMESTIC VIOLENCE

**Baku – 2021**

**Elmi redaktor:** Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent **Sədaqət Əliyeva**

**Məsul katib:** Elm və yaradıcılıq-ifa işləri şöbəsinin müdiri, dosent **Gülşən Qafarova**

**Materialların tərtibi:** Elm və yaradıcılıq-ifa işləri şöbəsinin mütəxəssisi **Səbinə Namazova**

**MƏİŞƏT ZORAKILIĞI HALLARININ QARŞISININ ALINMASI İSTİQAMƏTİNDƏ SOSİAL İŞİN TƏTBİQİ BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSININ MATERİALLARI. Bakı, ADMİU 2021, ______səh.**

## TƏŞKİLAT KOMİTƏSİ

*Ceyran Mahmudova - ADMİU-nun rektoru, professor (sədr)*
*Validə Məmmədova - Tədris işləri üzrə prorektor, professor*
*Sədaqət Əliyeva – Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent*
*Gülşən Əliyeva-Kəngərli - Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektor, professor*
*Gülşən Qafarova - Elm və yaradıcılıq-ifa işləri şöbəsinin müdiri, dosent*
*Vasif Adilov – Kulturologiya falütəsinin dekanı, dosent*
*Mübariz Süleymanov- - Sosial-mədəni fəaliyyət kafedrasının müdiri, professor*
*Tamilla Əhmədova - Sosial-mədəni fəaliyyət kafedrasının dosenti*
*Məftunə İsmayılova - Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*
*Ülkər Rzayeva - Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*
*Lamiyə Rzayeva-Əhmədli - Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*
*Gülnar Abbasova- Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*

## THE ORGANIZING COMMITTEE

*Jeyran Mahmudova - Rector of ASUCA, Professor (Chairman)*
*Valida Mammadova - Vice-Rector for Academic Affairs, Professor*
*Sadagat Aliyeva - Vice-Rector for Science and Creativity, Associate Professor*
*Gulshan Aliyeva-Kangarli - Vice-Rector for International Relations and Education, Professor*
*Gulshan Gafarova - Head of the Department of Science and Creative Performance, Associate Professor*
*Vasif Adilov - Dean of the Faculty of Culturology, Associate Professor*
*Mubariz Suleymanov - Professor of the Department of Social and Cultural Activities*
*Tamilla Ahmadova - Associate Professor of Socio-Cultural Activity*
*Maftuna Ismayilova - Teacher of the Department of Social and Cultural Activities*
*Ulker Rzayeva - Teacher of the department of Socio-Cultural Activity*
*Lamiya Rzayeva-Ahmadli - Teacher of the department of Socio-Cultural Activity*
*Gulnar Abbasova - Teacher of the department of Socio-Cultural Activity*

## MƏRUZƏÇİ EKSPERTLƏR



**Prof. Ceyran Mahmudova**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru*
**Prof. Jeyran Mahmudova**
*Rector, Azerbaijan State University of Culture and Arts*



**Firudin Qurbanov**
*Azərbaycan Respublikasının Təhsil Nazirinin müavini*
**Firudin Gurbanov**
*Deputy Minister of Education of the Republic of Azerbaijan*



**Anar Kərimov**
*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini*
**Anar Karimov**
*Deputy Minister of Labor and Social Protection*



**Dos. Sədaqət Əliyeva**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru*
**Assoc. Prof. Sadagat Aliyeva**
*Vice-rector of Azerbaijan State University of Culture and Arts*



**Prof. Hicran Hüseynova**
*Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin sədri*
**Prof. Hijran Huseynova**
*Family and Women's Committee of the Milli Majlis*



**Ceyran Rəhmətullayeva**
*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri*
**Jeyran Rahmatullayeva**
*Chief of Staff of the State Committee for Family, Women and Children*



**Dr. Ana Radulesku**
*Beynəlxalq Sosial İşçilər Federasiyasının Avropa üzrə prezidenti*
**Dr. Ana Radulesku**
*President of the International Federation of Social Workers for Europe*



**Prof. Annamariya Kampanini**
*Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyasının prezidenti*
**Prof. Annamariya Kampanini**
*President of the International Association of Schools of Social Work*



**Adıgözəl Adıgözəlov**
*Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi*
**Adıgozal Adıgozalov**
*Head of the Main Public Security Department of the Ministry of Internal Affairs*



**Laurinas Totoraitis**
*Tvinninq layihəsinin ölkə üzrə kordinatoru*
**Laurinas Totoraitis**
*Country coordinator of the Twinning project*



**Zeynəb Mutlu**
*Ankara Ədliyyə Ailə Məhkəməsinin sosial işçisi*
**Zeynep Mutlu**
*Social worker of Ankara Family Court of Justice*



**Mehriban Zeynalova**
*Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin Sədri*
**Mehriban Zeynalova**
**C***hairwoman of the Clean World Women's Aid Association*



**Kəyan Hacıyev**
*Dövlət Miqrasiya Xidmətinin baş idarə rəisi*
**Keyan Hajiyev**
*Head of the Main Department of the State Migration Service*



**Engin Fırat**
*Hacettepe Universiteti Sosial İş fakültəsi*
**Engin Fırat**
*Hacettepe University, Faculty of Social Work*



**Doç,Dr Tutu Aydınoğlu**
*İstanbul Üniversiteti Dövlət Konservatoriyası*
**Assoc. Prof. Tutu Aydinoglu**
*İstanbul University State Conservatory*



**Dr.Ögr.Üyesi Nuray Ocaklı**
*İstanbul Sabahattin Zaim Üniversiteti*
**Assoc. Prof. Dr. Nuray Ocakli**
*İstanbul Sabahattin Zaim University*



**Ezgi Yaman**
*Kocaeli Universiteti, ECPAT Türkiyə təmsilçisi*
**Ezgi Yaman**
*Kocaeli University, ECPAT Turkey*



**Doç Dr. Özge Sanem Özateş Gelmez**
*Hacettepe Universiteti*
**Assoc. Prof. Ozge Sanem Ozatesh Gelmez**
*Hacettepe University*



**Mirna MakNit**
*Sosial iş üzrə beynəlxalq ekspert*
**Myrna McNit**
*International expert on social work*



**Prof. Letisiya Villareal-Sosa**
*Dominikan Universiteti*
**Prof. Leticia Villareal-Sosa**
*Dominican University*



**Aslıhan Burcu Öztürk**
*Hacettepe Universiteti*
**Aslıhan Burcu Ozturk**
*Hacettepe University*



**Zəhra Tosun**
*Uzman psixoloq, Kadın Adayları Destekleme Derneği*
**Zahra Tosun**
*Expert psychologist, Women Candidates' Support Association*



**Südabə Məmmədova**
*"TƏMAS" Regional İnkişaf İctimai Birliyinin Sədri*
**Sudaba Mammadova**
*"TƏMAS" Regional Development Public Union*



**Məftunə İsmayılova**
*Sosial Xidmətlər Agentliyinin Departament müavini*
**Maftuna Ismayilova**
*Deputy Department of the Social Services Agency*



**Aytəkin Hüseynli**
*Vaşinqton Universitetinin Braun Sosial iş və İctimai Səhiyyə mərkəzinin doktorantı*
**Aytakin Huseynli**
*Doctoral student at the Brown Center for Social Work and Public Health at the University of Washington*



**Rəna Hüseynova**
*Almaniyanın Vexta Universitetinin doktorantı*
**Rana Huseynova**
*Doctoral student at the University of Vechta, Germany*



**Gülnar Abbasova**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi*
**Gulnar Abbasova**
*Lecturer of Azerbaijan State University of Culture and Arts*



**Ayxan Qəhrəmanov**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi*
**Aykhan Gahramanov**
*Lecturer of Azerbaijan State University of Culture and Arts*



**Həmid Olami**
*İran Sosial İşçilər Assosiasiyası və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndəsi*
**Hameed Olami**
*Social Workers Association of Iran and UN High Commission for Refugees*

**Elm və Arbitraj heyəti**
**Science and Arbitration board**
**Совет по науке и арбитражу**

***Prof. Ceyran Mahmudova***
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru*
***Prof. Jeyran Mahmudova***
*Rector, Azerbaijan State University of Culture and Arts*
***Проф. Джейран Махмудова***

*Ректор Азербайджанского Государственного Университета Культуры и Искусств*
***Prof. Leticia Villareal-Sosa****- Dominican University*
***Prof. Letisiya Villareal-Sosa****- Dominik Universiteti*
***Проф. Летисия Вильярреаль-Сока****- Доминиканский Университет*
***Aytəkin Hüseynli*** *Vaşinqton Universitetində Braun Sosial iş və İctimai Səhiyyə mərkəzi*
***Aytakin Huseynli*** *- Brown Center for Social Work and Public Health at the University of Washington*
***Айтекин Гусейнли*** *- Брауновский центр социальной работы и общественного здравоохране-ния в Вашингтонском университете*
***Məftunə İsmayılova*** *- Sosial Xidmətlər Agentliyinin Departament müavini, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi*
***Мафтуна Исмайлова*** *- Заместитель департамента Агентства Социальных Услуг, преподаватель Азербайджанского Государственного Университета Культуры и Искусств*
***Maftuna Ismayilova*** *- Deputy Department of the Social Services Agency, Lecturer of Azerbaijan State University of Culture and Arts*
***Dos. Sədaqət Əliyeva*** *- Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru*
***Assoc. Prof. Sadagat Alieva****-Vice Rector- Azerbaijan State University of Culture and Arts*
***Доц.Садагат Алиева*** *- проректор - Азербайджанский Государственный Университет Культуры и Искусств*
***Prof. Mübariz Süleymanlı****- Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial-mədəni fəaliyyət kafedrasının müdiri*
***Prof. Mubariz Suleymanli*** *- Head of the Department of Socio-Cultural Activity of the Azerbaijan State University of Culture and Arts*
***Проф. Мубариз Сулейманлы*** *- заведующий кафедрой социально-культурной деятельности Азербайджанского Государственного Университета Культуры и Искусств*
***Prof.Minəxanım Əsədova*** *–Azərbaycan Turizm və Menecment Universiteti*
***Prof. Minakhanim Asadova*** *- Azerbaijan University of Tourism and Management*
***Проф. Минаханим Асадова*** *- Азербайджанский Университет Туризма и Менеджмента*
***Prof. Sabir Əmirxanov –*** *Azərbaycan Biznes Universitetinin prorektoru*
***Prof. Sabir Amirkhanov*** *- Vice-Rector -Azerbaijan Business University*
***Проф. Сабир Амирханов –*** *проректор- Азербайджанский Университет Бизнеса*
***Dos.Rəşad Əsgərov****- Bakı Dövlət Universitetinin dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru*
***Доц. Рашад Аскеров****- Бакинский Государственный Университет*
***Assoc.Prof. Rashad Asgarov*** *- Doctor of Philosophy of Baku State University*
***Ceyran Rəhmətullayeva****- Azərbaycan Ailə, Qadın və Uşaq Problemləri üzrə Komitənin aparat rəhbəri*
***Jeyran Rahmatullayeva*** *- Chief of Staff of the Committee on Family, Women and Children of Azerbaijan*
***Джейран Рахматуллаева*** *- Руководитель аппарата Комитета по делам семьи, женщин и детей Азербайджана.*

## M Ü N D Ə R İ C A T

**"Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
**Hicran Hüseynova.** Məişət zorakılığı dünyanın qlobal problemlərindən biri kimi
**Ceyran Rəhmətullayeva.** Məişət zorakılığından əziyyət çəkən şəxslərlə sosial işin təşkili
**Adıgözəl Adıgözəlov.** Qadınların və qızların hüquqlarının təmin edilməsi, onlara qarşı törədilmiş cinayətlərin açılması və zorakılığının profilaktikası
**Sədaqət Əliyeva.** Mədəniyyət prizmasından görünən gender dünyası
**Məftunə İsmayılova.** Gender əsaslı məişət zorakılığı hallarının sosial səciyyəsi
**Tutu Aydınoğlu. Nuray Ocaklı.** Yıldız Sarayı Opera Sahnesinde La Traviata: Kadın, Psikolojik Şiddet ve Ölüm
**Aslıhan Burcu Öztürk.** Kadın sığınmaevlerinde feminist sosyal çalışma
**Özge Sanem Özateş Gelmez.** Kadına karşı şiddetle mücadelede stratejik bir araç olarak grup çalışmaları
**Engin Fırat.** Toplumsal cinsiyet eşitliğini sağlamak için erkekler ile çalışmak
**Lamiyə Rzayeva-Əhmədli.** Məişət zorakılığı ilə mübarizə və sosial iş təhsili
**Aynur Veysəlova-Abbasova.** COVİD-19 pandemiyasının ailədaxili münasibətlərə təsiri: müsbət və mənfi cəhətlər
**Тамилла Ахмедова.** Значение социального работника в борьбе с насилием в семье
**Savvarə Rzaquluyeva.** Məişət zorakılığında uşaq istismarının qarşısının alınması istiqamətində sosial işin tətbiqi
**Aygün Eyvazlı.** Cəmiyyətin ən böyük bəlası – zorakılıq
**Fəridə Cəbrayılova.** Məişət zorakılığını şərtləndirən amillər və onlara qarşı mübarizə tədbirləri
**Rəşad Əsgərov, Gülşən Əmikişiyeva.** Azərbaycanda məişət zorakılığı ilə mübarizə yolları
**Sevinc Əskərova.** Ailədaxili zorakılıq sosial - nəzəri təhlil kontekstində
**Ayxan Qəhrəmanov.** Ailədaxili münasibətlər uşaqlarda intiharın əsas səbəblərindən biri kimi
**Zahid Bünyadov.** Azərbaycanda məişət zorakılığının qarşısının alınması, insan alverinə qarşı mübarizə
**Ülkər Rzayeva.** Təcridolunma şəraitində ailədaxili münasibətlərin xüsusiyyətləri
**Gülnar Abbasova.** Uşaqlar üçün sosial-psixoloji xidmətin əsasları
**Günel Adıgözəlova.** Ailə-nikah münasibətlərində gender problemi
**Nailə Qasımova.** Cəmiyyətdə baş verən məişət zorakılığına qarşı mübarizə yolları
**Nargilə Bədəlova.** Azərbaycanda qadınlara qarşı zorakılıq problemi və onun aradan qaldırılması yolları
**Динара Алиева.** Хороший международный опыт в проблеме домашнего насилия
**Günay Məmmədzadə.** Gender bərabərliyinə tarixi-sosial aspektdən baxış və bu prosesdə qadının rolu
**Jalə Fərhadova.** Şəxsiyyətin formalaşmasına məişət zorakılılığının mənfi təsirləri
**Lalə Cəfərova.** Məişət zorakılığında uşaq müdafiəsinin təşkili
**Nübar Bayramova.** Uşaqlara qarşı törədilən cəzaların növləri və multikultural sosial səriştə
**Aynur Səfərli.** Məişət zorakılığının növləri və həlli yolları................................................
**Aygün Qurbanova.** Məişət zorakılığının qadınların psixoaktiv maddə istifadəçi olmalarına təsiri
**Nərgiz Nəsirova.** Məişət zorakılığının qarşısının alınmasında Azərbaycan təcrübəsi
**Hökümə Hacıyeva.** Məişət zorakılığı sahəsində beynəlxalq və regional əməkdaşlıq
**Bilqeyis Əliyeva.** Qadınların tarixi dəyərinin işıqlandırılması bəşəriyyətin yarı tarixinin canlandırılmasıdır
**Şükürənə Səfərova.** Məişət zorakılığı ənənəvi ailə modelinin tənəzzül səbəbi kimi
**Firuzə Sadıqova.** Erkən nikahdan məişət zorakılığına gedən yol
**Şalan Novruzov.** Alkoqolizm və məişət zorakılığı

**Akifə Abbasova.** Lars von Triyer filmlərində anti-feminist yanaşmalar
**Reyhanə Abasova.** Məişət zorakılığı və onun yaranma səbəbləri
**Nərgiz Yusifova.** Ailədaxili zorakılıq hallarının yaratdığı problemlər və bu problemlərin həllində sosial işin açdığı qapılar
**Bəhram Şamilov.** Məişət zorakılığı ilə mübarizədə sosial işçilərin rolu

**“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 noyabr 2020-ci il.**

**UOT:31. 327.**

**Hicran Hüseynova**
**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri**
**siyasi elmlər doktoru, professor**

**E-mail: veysalova74@mail.ru**

## MƏİŞƏT ZORAKILIĞI DÜNYANIN QLOBAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Xülasə:** Məqalədə məişət zorakılığı ilə əlaqəli beynəlxalq təşkilatların fəaliyyətləri və dünyadakı statistik məlumatlar təqdim olunur. Ailə zorakılığı ailələri və icmaları bir-birinə bağlayan sosial əlaqələri pozmağa meyillidir. Bu, ölkələrin ümumilikdə sosial sabitliyə və iqtisadi inkişafa nail olmasına mane olur. Məişət zorakılığı da daxil olmaqla hər hansı bir zorakılıq, qadın hüquqlarının ciddi şəkildə pozulmasıdır. Ailə zorakılığının qadınlar, uşaqlar, ailələr və ümumiyyətlə cəmiyyət üçün ciddi fiziki, emosional, iqtisadi və sosial nəticələri vardır. Məqalədə bu məsələnin Azərbaycan hökumətinin diqqət mərkəzində olduğu qeyd edilir. Ölkəmizdəki ən çətin ictimai-siyasi və hərbi vəziyyətdə belə, qadın və uşaq hüquqlarının qorunması həmişə prioritet olmuşdur. Müstəqilliyin bərpasından sonra ölkəmiz gender bərabərliyi və qadın hüquqları sahəsində beynəlxalq standartlara riayət etmək üçün bir sıra öhdəliklər götürdü. Bu prosesin davamı olaraq, Prezident İlham Əliyevin rəhbərliyi və dəstəyi ilə həyata keçirilən insan hüquqları islahatlarının davamı olaraq, 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul edildi və qadın hüquqlarının qorunması üçün möhkəm hüquqi zəmin yaradıldı. Məqalədə ölkəmizdə məişət zorakılığının qarşısının alınmasına dair dövlət siyasəti barədə ətraflı məlumat verilir.

**Açar sözlər:** məişət zorakılığı, insan hüquq və azadlıqları, gender bərabərliyi, inkişaf.

Məişət zorakılığı və gender əsaslı zorakılıq dünyanın hər yerində - həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə insan haqlarının ən çox yayılmış hüquq pozuntularından biridir. Aparılan araşdırmalar da təsdiq edir ki, qadın və qızlar daha çox zorakılığa məruz qalırlar. Qadınlara qarşı zorakılıq dünya miqyaslı bir problemdir. Qadınlara qarşı zorakılığın tərifi 1993-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə"də öz əksini tapır. Bəyannamədə qadınlara qarşı zorakılıq "istər ictimai, istərsə də şəxsi həyatda meydana gəlməsindən asılı olmayaraq, fiziki, cinsi və psixoloji zərər və ya əzabla, o cümlədən təhdidlər, müəyyən hərəkətlərə vadar etmə və ya özbaşına azadlıqdan məhrum etmə ilə nəticələnən və ya nəticələnə bilən istənilən zorakılıq hərəkətləri" kimi təsvir olunur. (1) Qadınlara qarşı zorakılıq ən geniş yayılmış insan hüquqları pozuntularından biri və cəmiyyətdə gender münasibətlərindəki bərabərsizliyin ən kəskin təzahürüdür. Bu, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW), "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə" kimi beynəlxalq sənədlərdə öz əksini tapır və 1995-ci ildə BMT-nin Pekində keçirilmiş Dördüncü Ümumdünya Qadın Konfransında vurğulanmışdır. Pekin Fəaliyyət Platforması (PFP) da hökumətləri kəskin narahatlıq doğuran bir sıra problemlər, o cümlədən qadınlara qarşı zorakılıqla bağlı hərəkətə keçməyə çağırır. PFP-də bəyan edilir ki, "qadınlara qarşı zorakılıq bərabərlik, inkişaf və sülh kimi hədəflərə nail olmağa mane olan amillərdən biridir. Qadınlara qarşı zorakılıq qadınların insan hüquqlarını və əsas azadlıqlarını həm pozur və ya zəiflədir, həm də qadınların bu hüquq və azadlıqlardan istifadə etməsinə imkan vermir. Qadınlara qarşı zorakılığa münasibətdə bu hüquq və azadlıqların uzun müddət qorunmaması və təşviq edilməməsi bütün dövlətlər üçün narahatlıq doğuran məsələdir və həll olunmalıdır... Bütün cəmiyyətlərdə bu və ya digər dərəcədə qız və qadınlar fiziki, cinsi və psixoloji zorakılığa məruz qalırlar ki, bu da gəlir, sinif və mədəniyyət sərhədləri tanımır. Qadınların sosial-iqtisadi statusunun aşağı olması qadınlara qarşı zorakılığın həm səbəbi, həm də nəticəsi ola bilər" (2).

“Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə”yə əsasən, qadınlara qarşı zorakılıq aşağıdakıları əhatə edir: “ailədə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən döyülmə, ailədə qızlara qarşı seksual xarakterli hərəkətlər, cehizlə əlaqədar olan zorakılıq, qadınların məcburi şəkildə həyat yoldaşları tərəfindən zorlanması, qadınların cinsi orqanlarının zədələnməsi və qadınlara zərər gətirən digər ənənəvi üsullar, nikahdan kənar zorakılıq, istismar ilə bağlı zorakılıq; ümumilikdə cəmiyyətdə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən işdə, təhsil müəssisələrində və digər yerlərdə zorlama, seksual xarakterli hərəkətlər, cinsi əlaqəyə təhrik; həmçinin qadın alveri və fahişəliyə məcburetmə; dövlət tərəfindən yol verilən və saxtakarlıqla yanaşılan fiziki, cinsi və psixoloji zorakılıq.”

Bununla yanaşı, Bəyannamə qadınlara qarşı zorakılığı aşağıdakı kimi təsvir etməklə, qadınlara qarşı zorakılıq və qadınların itaətkar statusu arasındakı əlaqələri vurğulayıb: “qadınlara qarşı olan zorakılığın qadın və kişilər arasında bərabər olmayan qüvvələr münasibətinin tarixən mürəkkəbləşmiş təzahür hallarıdır ki, bu qadınlar üzərində hökmranlığa gətirərək, kişilər tərəfindən qadınlara münasibətdə ayrı-seçkilik yaratmışdır, həmçinin qadınların vəziyyətinin hərtərəfli yaxşılaşdırılmasını məhdudlaşdırır; qadınlara qarşı zorakılıq qadınları kişilərə nisbətən itaətkar vəziyyətə düçar edən əsas sosial mexanizmlərdən biridir...”

Zorakılıq, xüsusən də, qadınlara qarşı zorakılıq halları müasir dövrün qlobal problemlərindən biri olaraq qalmaqdadır. Hazırda bütün dünyada hər 3 qadından 1-i öz həyatı boyu fiziki və ya cinsi zorakılığa məruz qalır. 750 milyon qız 18 yaşına çatmamış erkən nikaha girir. Qadın və qızların 71 faizi insan alverinin qurbanına çevrilir. Bütün bunlar onu göstərir ki, zorakılıq nə coğrafi sərhəd, nə də yaş həddi tanıyır.

Məişət zorakılığı və gender əsaslı zorakılığın qarşısının alınmasında bütün ölkələr dövlət səviyyəsində iş aparır, mühüm qərar qəbul edirlər. Beynəlxalq Konvensiyalar və Qətnamələr qəbul olunur. 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) 25 noyabr tarixini rəsmi olaraq “Qadınlara münasibətdə zorakılıqla Beynəlxalq mübarizə günü” və 2011-ci ildə “ Beynəlxalq Qızlar günü” elan edib. Qadınlara qarşı zorakılıq yeni qəbul olunmuş Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi çərçivəsində qlobal dayanıqlı inkişafa maneə kimi qəbul edilib. (3) Qadınlara qarşı zorakılığın aradan qaldırılması ilk dəfə qlobal inkişaf məqsədlərinin (Məqsəd 5.2) prioritetlərindən biri kimi təyin olunub və əldə olunan irəliləyişin monitorinq və qiymətləndirməsini təmin etmək üçün konkret indikatorları olan hədəflər təyin olunub.

Azərbaycanda hər zaman bu məsələ diqqət mərkəzindədir. Hətta ölkəmizin ən ağır ictimai-siyasi və hərbi vəziyyətində belə qadın və uşaq hüquqlarının müdafiəsi hər zaman prioritet olub. Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra gender bərabərliyi və qadın hüquqlarına dair beynəlxalq normalara riayət olunması ilə bağlı öz üzərinə bir sıra öhdəliklər götürdü. Və bu prosesin davamı olaraq cənab Prezident İlham Əliyevin rəhbərliyi və dəstəyi ilə insan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davamı olaraq 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun qəbul edildi, qadın hüquqlarının qorunması, xüsusi ilə də məişət zorakılığının qarşısının alınması sahəsində güclü qanunvericilik bazası yaradıldı. Artıq son illərdə məhkəmə qərarlarında bu sahədə qəbul olunmuş qanun və qoşulduğumuz konvensiyalara, o cümlədən, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi" haqqında Konvensiyaya istinad edilir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, qadınlara (15-49 yaş arasında) qarşı zorakılığın yayılma nisbətləri Qərbi Sakit Okean Bölgəsində 20%, Avropa Bölgəsinin yüksək gəlirli ölkələrində 22% və Amerika Bölgəsində 25%, Afrika bölgəsində 33% arasındadır. Şərqi Aralıq dənizi Bölgəsində 31% və Cənub-Şərqi Asiya Bölgəsində 33% təşkil edir. Azərbaycanda da qadınlar məişət zorakılığına məruz qalır. Hazırda hər 100 min qadına nisbətdə ailə münaqişəsi və məişət zorakılığı cinayətlərinə məruz qalmış qadınların sayı 17 nəfər təşkil edir. Bu rəqəm digər ölkələrlə, xüsusilə, inkişaf etmiş ölkələrlə, müqayisədə çox aşağıdır. Statistika göstərir ki, qanunun işlək olduğu Avropa ölkələrində belə, qadın hüquqları pozulur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə dünyada təxminən hər üç qadından biri (% 30) həyatı boyunca fiziki və ya cinsi zorakılığa məruz qalır. Qadınlara qarşı zorakılıq qadının həyatının istənilən mərhələsində baş verə bilər və bu zorakılığa uşaq yaşında baş verən erkən nikahdan tutmuş cinsi zorakılıq, məişət zorakılığı, hüquqi ayrı-seçkilik və istismara qədər bütün zorakılıq formaları daxil ola bilər. Qadın və qızlar sadəcə yüksək zorakılıq riski ilə üzləşmir. Belə ki, onların zorakılıq vəziyyətindən qaçmaq və ya qurtulmaq, ədaləti bərqərar etmək üçün istifadə edə biləcəkləri vasitələr və resurslar daha azdır. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) əsasən, fiziki və ya cinsi zorakılıq dünyada bütün qadınların üçdə birindən çoxuna təsir edən ictimai səhiyyə problemidir (4). 15-44 yaşlı qadınlar arasında zorakılıq nəticəsində ölən və zərər çəkənlərin sayı xərçəng xəstəliyi, malyariya, avtomobil qəzaları və müharibə qurbanlarının sayından artıqdır. Qadınlara qarşı zorakılıq aktlarının əksəriyyəti həyat yoldaşı (və ya intim partnyor) tərəfindən törədilir. (5) Avropa Birliyinin Statistika İdarəsinin (Eurostat) 2017-ci il məlumatlarına görə, Fransa qadınların qətlə yetirilməsi üzrə AB-də liderdir. 2017-ci ildə Fransada 601, Almaniyada 380, İngiltərədə 227, İtaliyada 130, İspaniyada 113 qadın öldürülmüşdür. Cinsi təcavüz və təqib hadisələrinin sayına görə İngiltərə AB-də birinci yerdədir. 2017-ci ildə İngiltərədə təcavüzə məruz qalan qadınların sayı 48122, Fransada - 14.899, Almaniyada - 7831 və İsveçdə - 6810 olub.

Bütün bu məlumatlar bir daha göstərir ki, bu gün dünyanın ən mühüm problemlərindən biri də məişət zorakılığı hallarının qarşısının alınmasıdır. Bu məsələnin həll edilməsi sahəsində bütün ölkələr dövlət səviyyəsində iş aparır, müxtəlif layihələr həyata keçirir. Azərbaycan da bu prosesdən kənarda qalmayıb. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2010-cu ildə Məişət Zorakılığının qarşısının alınması haqqında Qanun qəbul olub. Cənab Prezident İlham Əliyevin rəhbərliyi və dəstəyi ilə qadın hüquqlarının qorunması, xüsusi ilə də Məişət Zorakılığının qarşısının alınması sahəsində güclü qanunvericilik bazası yaradılıb. Hakimlər, vəkillər üçün spesifik keçirdiyimiz təlimlər öz müsbət nəticəsini verir. Artıq son illərdə məhkəmə qərarlarında bu sahədə qəbul olunmuş qanun və qoşulduğumuz konvensiyalara, o cümlədən, «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi» haqqında Konvensiyaya istinad edilir. Dövlət məmurları üçün maarifləndirmə işləri aparılır, yerli özünü idarəetmə və icra hakimiyyəti strukturlarının nümayəndələri üçün ailə, qadın və uşaq məsələləri üzrə kurslar təşkil olunur.

Artıq bir çox mütəxəssislər tərəfindən bildirilir ki, qadınlara qarşı zorakılıq qadınların fiziki, psixi və reproduktiv sağlamlığına çoxsaylı mənfi təsirlər göstərən qlobal sağlamlıq problemidir. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) əsasən, fiziki və ya cinsi zorakılıq ictimai səhiyyə problemidir və dünyada bütün qadınların üçdə birindən çoxuna təsir edir (4). Qadınlara qarşı zorakılığın sağlamlığa mənfi təsirləri yalnız ölüm və xəsarətlərlə məhdudlaşmır, həm də arzuolunmaz hamiləlik və abortlar, hamiləlik zamanı ağırlaşmalar, aşağı doğum çəkisi, cinsi yolla ötürülən infeksiyalar (məs. İİV), psixoloji problemlər və intihar meyilləri, narahatlıq və depressiya, sosial qabiliyyətlərin zəifləməsi və spirtli içkilərdən istifadə kimi problemlərə gətirib çıxarır. Qadınlara qarşı zorakılığın mühüm nəsillərarası fəsadları da var ki, buraya uşaqların (məs. körpə ölümü səviyyəsinin yüksək olması, təhsil göstəricilərinin aşağı olması, zorakılığa məruz qalma və ya yetkinlik dövründə zorakılıq törətmə), ailələrin (boşanma səviyyəsinin artması və ailələrin dağılması, qeyri-stabil yaşayış yeri və nəsillərarası münasibətlər) məruz qaldığı təsirlər daxildir.

Bundan əlavə, qadınlara qarşı zorakılıq qadınlar və onların ailələri, habelə icmalar və cəmiyyətlər üçün əhəmiyyətli miqyasda iqtisadi yük yaradır. Zorakılığın qlobal iqtisadi nəticələri çox böyükdür. Belə ki, beynəlxalq tədqiqatlar göstərir ki, qadınlara qarşı zorakılığın iqtisadi dəyəri qlobal ÜDM-in 2 faizinə yaxın ola bilər. Bu isə, 1.5 trilyon ABŞ dolları deməkdir ki, bu da, Kanadanın iqtisadiyyatına bərabərdir. (6) Bir çox ölkələrdə intim partnyor zorakılığının doğurduğu xərclər ölkənin ibtidai təhsil xərcləri ilə eynidir və ya hətta onu geridə qoyur. (7) Qadınlara qarşı zorakılıq fərdlər, icmalar, ailələr və dövlət üçün doğurduğu xərclərdən başqa,

bütün səviyyələrdə böyük iqtisadi xərclər doğurur. Zorakılığın qadınların təhsil, məşğulluq və ictimai həyatda iştirakına mənfi təsiri yoxsulluğun azaldılmasına mane olur. Bu, məşğulluğun və məhsuldarlığın aşağı düşməsi ilə nəticələnir, sosial xidmət sistemlərinin, ədliyyə sistemlərinin, tibb müəssisələrinin və işəgötürənlərin resurslarını tükədir (6). Ona görə də burada məsələyə kompleks şəkildə yanaşmaq lazımdır.

Azərbaycanda məişət zorakılığının qarşısının alınması, zorakılığa məruz qalanlarla, zorakılığı törədənlərlə iş aparılır. Zorakılığa məruz qalan insanlara xidmətlər göstərilir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən akkreditasiyadan keçən qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Bütün Yerli İcra Hakimiyyəti orqanlarında Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qruplarına yerli İcra Hakimiyyəti başçısının müavini sədrlik edir. Monitorinq qruplarının üzvləri yerli Təhsil şöbəsinin, Səhiyyə şöbəsinin, Polis şöbəsinin, Prokurorluğun, Əhalinin Sosial Müdafiə Mərkəzinin və rayon Qeydiyyat şöbəsinin rəhbər vəzifəli əməkdaşlarından ibarətdir. Onların fəaliyyətinin və iş keyfiyyətinin təkmilləşdirilməsi, bir-biri ilə əlaqəli şəkildə daha sıx əməkdaşlıq etməsi üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən davamlı seminarlar təşkil olunur. Əsas məsələ hadisə baş verdikdən sonra deyil, hadisəyə qədər mütəmadi qabaqlayıcı və profilaktik tədbirlərin daha da gücləndirilməsidir. Yeni xidmət “Qaynar xətt” yaradılmışdır.

Hökumət çalışır ki, çətin şəraitdə yaşayan, risk qrupuna daxil olan qadınlarımız üçün real tədbirlər həyata keçirsin. Qadınların iqtisadi cəhətdən gücləndirilməsi, onların zorakılığa məruz qalma səviyyəsinə də təsir edir. İqtisadi cəhətdən asılı olmayan qadın özünə inamlıdır, özünü daha rahat ifadə edə bilir. Xüsusilə, nisbətən daha aztəminatlı, sağlamlıq imkanları məhdud, qaçqın və məcburi köçkün qadınların kiçik və orta sahibkarlığa cəlb edilməsi, müxtəlif peşələrə sahib olması çox vacibdir. Bununla bağlı ölkəmizdə Qadın Resurs Mərkəzləri yaranmışdır. Bu sahədə müvafiq dövlət orqanları ilə yanaşı, qeyri - hökumət təşkilatları ilə birgə həyata keçirilən layihələr də öz səmərəsini verir. Bu layihələr Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Əhali Fondu (UNFPA), Uşaq Fondu (UNICEF), Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Beynəlxalq Miqrasiya Təşkilatı (İOM), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) dəstəyi ilə reallaşır.

“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanununun qəbul edilməsindən 10 ildən çox müddət keçir. Hazırda bu Qanunun tətbiqi zamanı yaranan bəzi çətinlikləri müşahidə edirik. Təcrübə göstərir ki, bu Qanunun təkmilləşdirilməsinə ehtiyac vardır. 2020-ci ilin noyabr ayında cənab Prezident İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün” Milli Fəaliyyət Planı təsdiqlənmişdir. Bu Planın icrasının təmin edilməsi ilə bağlı Nazirlər Kabinetinin Sərəncamı da mövcuddur. Məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planının yerinə yetirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi bizim bu istiqamətdə bir sıra nəticələr əldə etməyimizə müsbət təsir göstərəcəkdir. Xüsusilə də, məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün qabaqlayıcı tədbirlərin gücləndirilməsi, zorakılıqdan zərər çəkmiş şəxslərə təxirəsalınmaz və hərtərəfli yardım göstərilməsi, xidmətlərə çıxışın əlçatan olması, sosial işin tətbiqi sahəsində mühüm işlər görülməlidir. Məişət zorakılığı ilə mübarizədə normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılması da qarşıda dayanan məsələlərdəndir. Bunun üçün yerli qanunvericiliyin təhlili aparılmalı, müsbət beynəlxalq təcrübə öyrənilməlidir. “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün” Milli Fəaliyyət Planı”ndan irəli gələrək Milli Məclisin müvafiq Komitəsi tərəfindən keçirilən dinləmələr zamanı bu mövzularda müzakirələr aparılmışdır. Bir məsələni xüsusi ilə vurğulamaq lazımdır ki, hər dəfə məişət zorakılığına məruz qalan qadınlardan danışırıq, onların pozulmuş hüquqlarını dilə gətiririk. Amma unutmaq olmaz

ki, Azərbaycan torpaqları 30 ilə yaxın bir müddətdə Ermənistan tərəfindən işğal olunub. Belə vəziyyətdə qadınların yaşadıqları stress, fiziki və psixoloji zorakılıq uzun müddət, bir çox hallarda isə həyatları boyu davam edir. Dövlətimiz münaqişə müddətində 1440 nəfərin əsir və girovluqdan azad edilməsinə nail olmuşdur ki, bunun da 278 nəfəri qadındır. Onların yenidən ailəyə, cəmiyyətə inteqrasiyası üçün reabilitasiya işlərinin aparılması çox vacibdir. Eyni zamanda, 267 qadın itkin düşüb, 98 qadın isə girovluqdadır (8). Onların taleyi hələ də məlum deyil və bu bizi çox narahat edir. Mən vətəndaş cəmiyyətlərini, beynəlxalq təşkilatları bu məsələyə xüsusi diqqət ayırmağa çağırıram.

Bütün dünyada etiraf edilir ki, qadınlara qarşı zorakılıq halları insan hüquqlarının tam şəkildə həyata keçirilməsinə əsas maneələrdən biridir. Əlbəttə ki, bu da onların cəmiyyətin inkişafında iştirakına öz töhfələrini verməkdə əngəl yaradır. Lakin unutmayaq ki, qadınlar cəmiyyətin yarısını təşkil edir. Məişət zorakılığı hallarının qarşısı alınması istiqamətində əldə olunan uğur, bütövlükdə cəmiyyətin inkişafına təsir edir. Daha yaxşı, dayanıqlı inkişafa nail olmaq üçün bu sahədə səylər birləşdirilməlidir.

**Ədəbiyyat siyahısı:**

1. "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında" Bəyannamə Nyu-York, BMT, 23 fevral 1994
2. http://www.un.org/womenwatch/daw/beijing/platform/index.html.
3. https://sustainabledevelopment.un.org/
4. ÜST (2013). Qadınlara qarşı zorakılığın yayılma səviyyəsi ilə bağlı təxmini qlobal və regional göstəricilər: İntim partnyor və digər şəxslər tərəfindən törədilən cinsi zorakılığın yayılma səviyyəsi və sağlamlığa təsirləri, Ümumdünya Səhiyyə Təşkilatı, Cenevrə
5. UNWomen, Gender Issues ( http://www.unifem.org/gender_issues); UNICEF, 'Women and Children: The Double Dividend of Gender Equality', 2007; UNDP in Action: Women and Girls in Crisis. Key statistics; UN Entity for Gender Equality and the Empowerment of Women.
6. Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri. BMT-nin Baş Katibinin Köməkçisi və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Qurumunun Direktor Müavini Lakşmi Purinin "Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri" üzrə yüksək səviyyəli müzakirədə çıxışı, 21 sentyabr 2016-cı il.
7. Sida (2015). Gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi: İfadələr və strategiyalar, Gender alətləri dəsti
8. http://www.human.gov.az/az/view-page/27/%C6%8FS%C4%B0R%2C+G%C4%B0ROV+V%C6%8F+%C4%B0TK%C4%B0N+D%C3%9C%C5%9EM%C3%9C%C5%9EL%C6%8FR

**Хиджран Гусейнова**

## ДОМАШНЕЕ НАСИЛИЕ КАК ОДНА ИЗ ГЛОБАЛЬНЫХ ПРОБЛЕМ МИРА

**Резюме:** В статье представлена деятельность международных организаций, связанных с домашним насилием в мире и в стране, а также статистические данные по всему миру. Домашнее насилие обычно подрывает социальные связи, объединяющие семьи и сообщества. Это мешает странам достичь социальной стабильности и экономического развития в целом. Любой акт насилия, включая насилие в семье, является серьезным нарушением прав женщин. Домашнее насилие имеет серьезные физические, эмоциональные, экономические и социальные последствия для женщин, детей, семей и общества в целом. В статье отмечается, что этот вопрос находится в центре внимания правительства Азербайджана. Даже в самой сложной социально-политической и военной ситуации в нашей стране защита прав женщин и детей всегда была приоритетом. После восстановления независимости наша страна взяла на себя ряд обязательств по

соблюдению международных норм в области гендерного равенства и прав женщин. Как продолжение этого процесса и продолжение реформ в области прав человека, осуществляемых под руководством и при поддержке Президента Ильхама Алиева, в 2010 году был принят закон «О предотвращении домашнего насилия», обеспечивающий прочную правовую основу для защиты прав женщин. В статье представлена подробная информация о государственной политике по предотвращению домашнего насилия в стране.

**Ключевые слова:** домашнее насилие, права и свободы человека, гендерное равенство, развитие.

**Hijran Huseynova**

**DOMESTIC VIOLENCE IS ONE OF THE WORLD'S GLOBAL PROBLEMS OF THE WORLD**

**Summary:** The article presents the activities of international organizations related to domestic violence in the world and in the country, as well as statistics around the world. Domestic violence tends to undermine the social bonds that bind families and communities together. This prevents countries from achieving social stability and economic development in general. Any act of violence, including domestic violence, is a serious violation of women's rights. Domestic violence has serious physical, emotional, economic and social consequences for women, children, families and society. The article notes that this issue is in the focus of attention of the government of Azerbaijan. Even in the most difficult socio-political and military situation in our country, the protection of the rights of women and children has always been a priority. After the restoration of independence, our country has assumed a number of obligations to comply with international standards in the field of gender equality and women's rights. As a continuation of this process, as a continuation of human rights reforms under the leadership and support of President Ilham Aliyev, the Law on the Prevention of Domestic Violence was adopted in 2010, providing a solid legal basis for the protection of women's rights, especially family rights, violence. The article provides detailed information on the state policy for the prevention of domestic violence in the country.

**Key words:** domestic violence, human rights and freedoms, gender equality, development

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 09. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 12. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:31;342.7.**

**Ceyran Rəhmətullayeva**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**

**E-mail: ceyran_8@yahoo.com**

# MƏİŞƏT ZORAKILIĞINDAN ƏZİYYƏT ÇƏKƏN ŞƏXSLƏRLƏ SOSİAL İŞİN TƏŞKİLİ

**Xülasə**: Bu məqalədə məişət zorakılığından əziyyət çəkən şəxslərlə sosial işin təşkili problemləri araşdırılır. Çətin həyat şəraitində yaşayan şəxslər kimi məişət zorakılığından əziyyət çəkənlərlə sosial işin təşkili sahəsində yaranan problemlər təhlil edilməklə həmin məsələlərin daha da təkmilləşdirilməsi ilə bağlı bəzi təkliflər irəli sürülür. Müəllif hesab edir ki, həmin şəxslərin özünüməşğulluq proqramına cəlb olunmaları üçün qanunvericilik səviyyəsində üstünlük müəyyən edilməli və onların kiçik bizneslərini qurmalarına imkan yaradılmalıdır.

**Açar sözlər:** insan, çətin, sosial, xidmət, məişət, qurban.

Məlumdur ki, qanunla nəzərdə tutulmuş hallarda çətin həyat şəraitində olan şəxslərin sosial xidmət hüququ vardır. Hər bir vətəndaş dövlət sosial xidmət sistemində sosial xidmətin imkanları, növləri, qaydası və şərtləri haqqında pulsuz məlumat almaq hüququna malikdir və AR Konstitusiyasının, beynəlxalq-hüquqi aktların, müddəaları və insanın, vətəndaşın, şəxsiyyətin statusu nəzərə alınmaqla, sosial xidmət hüququ insan hüququ olaraq, təbii və ayrılmaz xarakter daşıyır, dövlətin qanunvericilik aktlarında təsbit olunmasından asılı olmayaraq, beynəlxalq-hüquqi tənzimetmənin obyekti kimi çıxış edir.

«Sosial xidmət haqqında» 30 dekabr 2011-ci il tarixli Azərbaycan Respublikası Qanunda çətin həyat şəraitinə şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi hal kimi anlayış verilir və sosial xidmətin yalnız vətəndaşın həyat fəaliyyətini obyektiv surətdə pozan, onun müstəqil surətdə aradan qaldıra bilməyəcəyi vəziyyətə görə müəyyən edildiyi təsbit olunur [8]. Ədəbiyyatlarda isə çətin həyat şəraiti sosial qeyri-stabillik, yəni, böhranlı, stressli, ekstremal, qeyri-müəyyən və kəskin vəziyyət kimi xarakterizə olunur [8, 465; 7, 89].

«Sosial xidmət haqqında» qanun çətin həyat şəraitində olan şəxslər kateqoriyasına sağlamlıq imkanları məhdud olan uşaqları, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqları, ahılları (70 yaşına çatmış şəxsləri), müəyyən yaşayış yeri olmayanları, ictimai təhlükəli xəstəliyə tutulmuş şəxsləri, insan alveri qurbanlarını və onlarla yanaşı məişət zorakılığından əziyyət çəkən şəxsləri də daxil edir.

22 iyun 2010-cu il tarixdə yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edən və tənzimləyən «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [4]. Məişət zorakılığının qarşısının alınmasının əsas prinsiplərinə hər kəsin Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarının təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi, qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olmaqla hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi, şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi, zərər çəkmiş şəxslərin pozulmuş

hüquqlarının bərpası, məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığı prinsipləri aid edilir.

2011-ci ilin aprel ayında Avropa Şurası tərəfindən **«Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası» (İstanbul Konvensiyası)** qəbul edilmişdir. Bu isə məişət zorakılığı sahəsində beynəlxalq hüquqi öhdəliklərin qəbul edilməsi sahəsində ilk addım kimi qiymətləndirilə bilər. Sənəddə birbaşa şəkildə bəyan edilir ki, qadınlara qarşı zorakılıq yolverilməzdir və harada (ictimai yerdə və ya evdə) baş verməsindən asılı olmayaraq dövlət zorakılığın bütün formalarının qarşısının alınması üçün səmərəli tədbirlər görməlidir. Konvensiyada qadınlara qarşı cinsi zorakılığın qarşısının alınması, zorakılıq faktlarına görə araşdırmaların aparılması və müvafiq məsuliyyət tədbirlərinin tətbiqi, zorakılığa məruz qalmış qadınlara yüksək ixtisaslı yardımın göstərilməsi və onların müdafiəsi üzrə öhdəliklər öz əksini tapmışdır. Konvensiyanı ratifikasiya edən dövlət, qadınlara qarşı zorakılığın qarşısının alınması və zorakılıq hallarına son qoyulması üçün tədbirlər görməlidir. Həmçinin dövlət zorakılıq qurbanları olan qadınlar üçün sığınacaqlar və qaynar xətlər təşkil etməlidir. Dövlət qadınlara qarşı zorakılıq hallarını cinayət kimi müəyyən etməli, həmin halların lazımi şəkildə istintaqının aparılmasını və təqsirli şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etməlidir. Göründüyü kimi Konvensiya Hökumətə ölkədə həyata keçirilən tədbirlərin beynəlxalq standartlara uyğunluğu sxemini və onların zəif tərəflərinin müəyyən edilməsi imkanını təqdim edir. Konvensiyanın müddəalarının tətbiqi qadınlara qarşı zorakılıq halları ilə mübarizədə dövlət və qeyri-hökumət təşkilatlarının birgə, əməkdaşlıq şəraitində qarşılıqlı fəaliyyətini nəzərdə tutur. Qeyri-hökumət təşkilatları üçün bu Konvensiya dövlətin bu sahədə fəaliyyətinin yoxlanılması üçün səmərəli vasitə, qiymətləndirmə meyarı kimi çıxış edir.

«Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikası Qanununun 13.1.2-ci maddəsinə uyğun olaraq məişət zorakılığı sahəsində tədbirlərin növlərindən biri də sosial xarakterli tədbirlərdir. Sosial xarakterli tədbirlər dedikdə, zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 aprel 2012-ci il tarixli 89 nömrəli Qərarı ilə «Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası» təsdiq edilmişdir [5]. Həmin Qaydaya görə yardım mərkəzləri məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi, tibbi, psixi, sosial və digər yardımın göstərilməsi məqsədi ilə yaradılan dövlət və qeyri-dövlət qurumlarıdır. Yardım mərkəzlərində şəxsiyyətin konfidensiallığı təmin edilməklə, zərər çəkmiş şəxsin xahişi (razılığı) ilə ona zəruri yardım göstərilir, müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilir. Fiziki şəxslərin mənzillərindən onların razılığı əsasında xeyriyyəçilik məqsədi ilə yardım mərkəzi kimi istifadə oluna bilər.

2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər) 3.5.2.1-ci bəndinin icrası məqsədi ilə (Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizminin yaradılması) Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Avstriya təcrübəsindən yararlanaraq Prezident Administrasiyasının qarşısında qaldırdığı təşəbbüsü əsasında Yerli İcra Hakimiyyəti orqanlarında Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılıb. Monitorinq qruplarına yerli İcra Hakimiyyəti başçısının müavini sədrlik edir. Qruplarda "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli, 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 24 noyabr, 537 nömrəli Fərmanında göstərilən səlahiyyətli dövlət orqanları təmsil olunurlar (Monitorinq qruplarının üzvləri yerli Təhsil

şöbəsinin, Səhiyyə şöbəsinin, Polis şöbəsinin, Prokurorluğun, Əhalinin Sosial Müdafiə Mərkəzinin və rayon Qeydiyyat şöbəsinin rəhbər vəzifəli əməkdaşlarından ibarətdir.)

Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizmi olaraq yerli monitorinq qrupları yerlərdə vəziyyətin qiymətləndirilməsi, həyata keçirilən tədbirlərin effektivliyinin yoxlanılması, riskli ailələrin müəyyən edilməsi və lazımi dəstəyin göstərilməsi, zorakılığın səbəblərinin araşdırılması və təhlil edilməsi, xüsusilə də baş vermiş ağır zorakılıq hallarının müzakirəsi, zorakılıq qurbanlarının müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi üzrə fəaliyyətlərin əlaqələndirilməsi funksiyası daşıyır.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə 2019-cu ildə 242, 2020-ci ildə 179, 2021-ci ilin 4 ayı ərzində 84 məişət zorakılığına dair illər üzrə müraciət daxil olmuşdur. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən təqdim olunmuş statistik məlumata əsasən respublika üzrə ailə məişət zəminində törədilmiş və qeydiyyata alınmış cinayətlərin sayı:

-2019-cu il ərzində 1216 (1200 –i açılmışdır),

-2020-ci il ərzində isə 1169 (1145-i açılmışdır) olmuşdur.

Ən çox ailə məişət zəminində cinayətlərin qeydə alındığı ərazilər:

| | 2019 | | 2020 | |
|---|---|---|---|---|
| İllər | Qeydə alınmış cinayətlər | Açılmış cinayətlər | Qeydə alınmış cinayətlər | Açılmış cinayətlər |
| **Bakı şəhəri (ümumi)** | **490** | **479** | **443** | **455** |
| *Xəzər rayonu* | *75* | *68* | *89* | *93* |
| *Sabunçu rayonu* | *66* | *59* | *63* | *61* |
| *Qaradağ rayonu* | *66* | 60 | *58* | *49* |
| **Sumqayıt** | **78** | **73** | **77** | **69** |
| **Abşeron** | **62** | **55** | **60** | **50** |

Ən az cinayət hadisəsinin qeydiyyata alındığı ərazi isə hər birində bir hadisə olmaqla Zəngilan, Kəlbəcər, Ağdam, Ağstafa, Xızı, Oğuz rayonlarıdır.

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim olunan 2020-ci il ərzində (15.12.2020-ci il tarixədək) məişət zorakılığı ilə bağlı məlumatlar 3 istiqaməti əhatə edir:

- məişət zorakılığı ilə bağlı prokurorluq orqanlarının icraatında olan cinayət işləri barədə;
- məişət zorakılığı ilə bağlı daxili işlər orqanlarının icraatında olan cinayət işləri və sadələşdirilmiş icraat materialları barədə;
- prokurorluq orqanlarında ibtidai istintaqı aparılmış cinayət işləri üzrə məhkəmə hökmləri barədə.

Təhlil olunan məlumatlar hər qrup üzrə müxtəlif istiqamətlərdə təhlil olunmuşdur. Bura məişət zorakılığı ilə bağlı hüquq pozuntularını törətmiş şəxslərlə zərərçəkmiş şəxslərin qohumluq əlaqələri, cins kateqoriyası, yetkinlik yaşına çatıb-çatmadığı, habelə əməllərin kateqoriya üzrə bölgüsü aiddir.

**Qeyd etmək lazımdır ki, məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 10 QHT akkreditasiya olunmuş** [3] **və həmin təşkilatların yaratdıqları qeyri-dövlət mərkəzləri səmərəli şəkildə fəaliyyət göstərir.** Həmin şəxslərin ehtiyac duyduqları hüququ-psixoloji yardımla təminatı üçün müvafiq işlər aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə icra olunan

sosial xidmət layihələri çərçivəsində son illərdə bu kateqoriyadan olan vətəndaşlar üçün yardım mərkəzləri də yaradılıb.

Məişət zorakılığından zərər çəkmiş şəxslərlə sosial işin daha dolğun təminatı baxımından aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

- məlumatlandırma səviyyəsinin artırılması;
- zorakılıq qurbanlarına yardım xidmətlərinin daha geniş spektrdə fəaliyyət göstərməsi;
- hüquq mühafizə orqanları əməkdaşlarının bu sahədə mütəmadi surətdə maarifləndirilməsi;
- vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin üzləşdikləri hallar, zərər, istismarın xarakteri və dərəcəsi çox genişdir və bu zorakılıq və istismarın qarşısının alınmasında və fərdlərin müdafiəsində kompleks şəkildə sosial işin təşkil olması tələb edilir. Müasir dövrdə respublikamızda sosial xidmət sistemində sosial iş mexanizminin yeni aspekdən inkişafı ilə əlaqədar məişət zorakılığı ilə bağlı vəziyyətin müəyyən edilməsi, qiymətləndirilməsi və müvafiq xidmətlərə istiqamətləndirilməsi sistemli şəkildə təmin edilməmişdir ki, bu da həmin kateqoriyadan olan şəxslərin problemlərinin erkən müəyyən edilməsində əsas çətinliklərdən biri kimi qeyd edilə bilər.

Bu məqsədlə bir sıra qabaqcıl dünya dövlətlərində keys menecment metodundan geniş istifadə edilir. Keys menecment prosesi şəxsin həyatında çətinliklərin yeni yarandığı vaxtdan tətbiq edilməyə başlayır. Bu metod məişət zorakılığından zərər çəkmiş şəxslərin ehtiyaclarının qiymətləndirilməsi, bu ehtiyacların aradan qaldırılması üçün xidmətlər zərfinin təmin edilməsi, aparılan sosial işin koordinasiyası, həyata keçirilən xidmətlərin monitorinqinin təşkili/qiymətləndirilməsi və işin bağlanmasından ibarət bir prosesdir. Keys menecment geniş tətbiq edildiyi ölkələrdə həmçinin qurumlararası birgə əməkdaşlıq və koordinasiya fəaliyyətinin inkişafına müsbət təsir göstərməsi ilə diqqəti cəlb edir. Qeyd edilənlərə əsasən təklif edirik ki, ölkədə məişət zorakılığından zərər çəkmiş şəxslərlə aparılan sosial işin sistemli şəkildə həyata keçirilməsi məqsədilə keys menecment metodunun geniş tətbiq edilməsini özündə əks etdirən təlimat işlənib hazırlanmalıdır.

Məişət zorakılığından zərər çəkmiş şəxslərə münasibətdə sosial işin təşkili zamanı sosial işçilər faktiki olaraq keys menecer kimi çıxış etməlidirlər. Sosial işçilərin sayı az olduğu üçün keys menecer vəzifəsini digər mütəxəssislər də icra edə bilərlər. Keys menecerin gördüyü işlərə aiddir: qiymətləndirmə nəticəsində müəyyənləşdirilmiş ehtiyac və problemlərə uyğun ümumi və spesifik məqsədlərin müəyyən edilməsi, məqsəd və problemlərə uyğun yardım planın hazırlanması, onların icrası, mütəmadi izlənilməsi və monitorinqinin aparılması, ailə ilə əlaqə saxlanılaraq daim əməkdaşlığın təmin edilməsi və tez-tez digər mütəxəssislərin bu barədə məlumatlandırılması.

Obyektiv səbəbdən çətin vəziyyətə düşmüş və təcili sosial xidmətə ehtiyacı yaranan məişət zorakılığından zərər çəkmiş şəxslər üçün təşkil olunmuş sığınacaqlarda aşağıdakı xidmətlər təşkil edilməlidir:

- sanitariya-gigiyena normalarına uyğun şəraitə malik müvəqqəti sığınacaq verilməklə, onların pulsuz yemək, geyim, tibbi yardımla təmin edilməsi və normal inkişafı üçün hər cür şəraitin yaradılması;
- psixoloji və hüquqi yardımın göstərilməsi;
- sosial təhlükəli vəziyyətdə olan ailələrə psixokorreksiya yardımı göstərilməklə ailə mühitinə qaytarılması.

Hesab edirik ki, məişət zorakılığına məruz qalmış şəxslərin özünüməşğulluq proqramına cəlb olunmaları üçün qanunvericilik səviyyəsində üstünlük müəyyən edilməlidir. Onların həmin proqrama daha geniş şəkildə cəlb edilməsi isə öz kiçik bizneslərini qurmalarına imkan verəcək. Bu isə nəticədə qeyd edilən insanların hər hansı şəxsdən iqtisadi asılılıqlarının aradan qalxmasına, müstəqil şəkildə özünü təmin etmələrinə imkanlar yaradacaq.

Fikrimizcə, məişət zorakılığının qarşısının alınması üzrə yerli İcra Hakimiyyətləri tərkibində yaradılan Monitorinq Qruplarının fəaliyyəti qanunvericiliklə tənzimlənməli və bu qruplar ictimai əsaslarla deyil, Türkiyə, Avstriya və digər ölkələrin təcrübələrində olduğu kimi dövlət tərəfindən tənzimlənən və multidisiplinar qrup formasında həm sosial - psixoloji işi, həm də hüquqi müstəvidə məişət zorakılığının baş verdiyi hallarda məsul olan yerli səviyyəli xidmətə çevrilərək əsasən aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- qurumlararası əlaqələndirməni həyata keçirmək;
- baş vermiş məişət zorakılığı halları ilə bağlı dərhal, təcili təxirəsalınmaz tədbirləri həyata keçirmək;
- məişət zorakılığının qarşısının alınması sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin təmin edilməsi məqsədi ilə tədbirlər görmək;
- məişət zorakılığı ilə bağlı vəziyyəti monitorinq etmək və qiymətləndirmək;
- məişət zorakılığı ilə bağlı açıq məlumatların toplanması və təhlilini təşkil etmək;
- məişət zorakılığının qarşısının alınması üzrə maarifləndirmə tədbirləri təşkil etmək;
- məişət zorakılığının qarşısının alınması sahəsində mütəxəssislərin hazırlanması və onların mütəmadi təlimləndirilməsi üzrə tədbirlər təşkil etmək;
- qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Konstitusiyası//www.e-qanun.az
2. «Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamı //www.e-qanun.az
3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytı. http:// www.mlspp.gov.az
4. «Məişət zorakılığının qarşısının alınması haqqında» 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az
5. «Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası»nın və «Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 aprel tarixli 89 nömrəli Qərarı. http://www.cabmin.gov.az/?/az/pressreliz/view/662/
6. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az
7. Буянова М.О. Социальное обслуживание граждан России в условиях рыночной экономики: Дисс. … докт. юр. наук. М., 2003, 325 с.
8. Мачульская Е.Е. Право социального обеспечения. Учебник для бакалавров. М.: Юрайт, 2012, 575 с.

**Джейран Рахматуллаева**

## ОРГАНИЗАЦИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ С ЛИЦАМИ, СТРАДАЮЩИМИ ОТ ДОМАШНЕГО НАСИЛИЯ

**Резюме:** В этой статье рассматривается проблемы организации социальной работы с лицами страдающими от домашнего насилия. Анализируются проблемы, возникающие в сфере организации социальной работы с лицами, находящимися в трудных жизненных условиях, страдающими от домашнего насилия, и выдвигаются некоторые предложения по дальнейшему совершенствованию правовой базы по этим вопросам. Автор считает, что для того, чтобы эти лица были вовлечены в программу самозанятости, на законодательном уровне должно быть установлено преимущество и создана возможность для создания ими малого бизнеса.

**Ключевые слова:** человек, сложность, социальное обслуживание, быт, жертва

**Jeyran Rahmatullayeva**

**ORGANIZATION OF SOCIAL WORK WITH PERSONS SUFFERING FROM DOMESTIC VIOLENCE**

**Summary:** This article deals with the problems of organizing social work with persons suffering from domestic violence. In analyzing the problems arising in the organization of social work with persons suffering from domestic violence as people living in difficult conditions, a number of proposals are made to further improve the legal framework on these issues.

According to the author, in order to attract these people to the self-employment program, priority rights should be determined for them and create a condition for them to create their business

**Key words:** person, difficulty, social, service, human, household victim

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:342.7**

**Adıgözəl Adıgözəlov**
**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi**

**E-mail: aadigozlov946@gmail.com**

# QADINLARIN VƏ QIZLARIN HÜQUQLARININ TƏMİN EDİLMƏSİ, ONLARA QARŞI TÖRƏDİLMİŞ CİNAYƏTLƏRİN AÇILMASI VƏ ZORAKILIĞININ PROFİLAKTİKASI

**Xülasə:** Məqalədə qadınların və qızların təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materiallar mütəmadi təhlil olunması, onları cinayətə vadar və sövq edən amillərin öyrənilib aradan qaldırılması, aidiyyəti orqan və təşkilatlara vəsatətlər verilməsi təmin edilməsi haqqında məlumat verilmişdir.

**Açar sözlər:** insan hüquqları və azadlıqları, məişət zorakılığı, qadınlara qarşı zorakılıq.

Qadınların və qızların hüquqlarının təmin edilməsi, onlara qarşı törədilmiş cinayətlərin açılması və zorakılığın profilaktikası daxili işlər oqranlarının əsas vəzifələrindən olmaqla müvafiq istiqamətdə fəaliyyət planlı şəkildə həyata keçirilir.

Daxili İşlər Nazirliyi sistemində həyata keçirilən davamlı islahatların tərkib hissəsi olaraq ictimaiyyətlə polis orqanları arasında əlaqələr və məlumat mübadiləsi daim təkmilləşdirilmiş, habelə cinayətlərin, o cümlədən ailə-məişət xarakterli zorakılıq əməllərinin qarşısının vaxtında alınması və operativ tədbirlər görülməsi məqsədilə respublikanın bütün şəhər və rayonlarını əhatə edən “102” və “902” xidməti-zəng mərkəzi, həmçinin “Məlumat portalı”, “Qaynar xətt”, “Təhlükəsiz şəhər” müşahidə və nəzarət kameraları o cümlədən elektron poçt fəaliyyət göstərir.

Qadın və qızlara qarşı törədilən cinayətlərin, o cümlədən zorakılıqla müşayiət olunan əməllərin ümumiləşdirilməsi və təhlili regionların demoqrafik və kriminogen durumu nəzərə alınmaqla qiymətləndirilir.

Mövcud vəziyyətin nəzarətdə saxlanılması məqsədilə müvafiq informasiya bazasının yaradılması və sistemləşdirilməsi təmin edilmiş, dövri hesabat formalarında cinayətlərin, cinayət törədən şəxslərin və cinayətin qurbanlarının təsnifatı üzrə göstəricilər əlavə edilmişdir.

Azərbaycan Respublikasının inzibati xətalar və cinayət məcəlləsinə edilən əlavə və dəyişikliklər nəticəsində qadınların və qızların zorakılığın müxtəlif formalarından müdafiəsinin təmini kimi maddələr nəzərdə tutulmuşdur.

Daxili İşlər orqanları əməkdaşları münaqişəli ailələr ətrafında profilaktik tədbirlərin həyata keçirilməsində ictimai şura üzvləri, ictimaiyyət nümayəndələri, yerli icra və bələdiyyə orqanları habelə gənclərlə iş üzrə orqanlar, qeyri-hökumət təşkilatları ilə birgə konfliktlərin və qeyri-sağlam münasibətlərin mövcud olduğu ailələrin müəyyən edilib zəruri profilatik tədbirlərlə əhatə olunması məsələsini daim diqqət mərkəzində saxlayır.

Ailə-məişət zəminində baş vermiş hüquq pozmalarla bağlı müraciətlərin hərtərəfli yoxlanılması, münaqişəli tərəflərin şəhər, rayon polis orqanları rəisləri tərəfindən şəxsən qəbul edilərək qaldırılan məsələlərin operativ həll edilməsi, daxil olan müraciətlərin və məlumatların təhlili əsasında münaqişəli ailələrin profilaktik uçota götürülməsi ilə bağlı qərarların qəbul edilməsi təmin edilir.

Profilaktik qeydiyyatda olan münaqişəli ailələrin üzvləri ilə izahedici söhbətlər aparılaraq tərəflərin münasibətlərinin normallaşdırılması üçün bütün zəruri tədbirlər görülür.

Cinayət xarakterli müraciətlər üzrə aparılan araşdırmaların nəticəsindən asılı olaraq müstəntiq və tədqiqatçılar tərəfindən münaqişəli ailələrin profilaktik uçota götürülməsi barədə aidiyyəti xidmətlər qarşısında vəsatətlər qaldırılır. Təhqiqat və istintaqın predmetinə çevrilmiş müraciətlər araşdırılarkən cinayət tərkibi yaratmadığına görə rədd edilmiş materiallar üzrə bildirişlər gələcəkdə belə hadisələrin təkrarlanmaması məqsədilə yerli icra hakimiyyəti

orqanlarına göndərilərək zərərçəkmişin və yaxın qohumlarının razılığı əsasında qısa müddətli mühafizə orderlərin verilməsi təmin edilir.

Beynəlxalq təcrübədən faydalanaraq məişət-zorakılığından zərər çəkmiş şəxslərlə işləyən əməkdaşlar üçün məişət zorakılığının qarşısının alınması üzrə aparılan işin təkmilləşdirilməsi məqsədilə "Məişət zorakılığının və sağlamlıq əleyhinə olan inzibati xətaların qarşısının alınması sahəsində əlavə tədbirlərə dair metodik vəsait hazırlanmış və şəhər-rayon polis orqanlarına göndərilməklə icrası nəzarətdə saxlanılmışdır. Həmçinin DİN-in Polis Akademiyasında Məişət zorakılığına qarşı mübarizə tədbirləri ilə bağlı mövzu tədris olunur. Məişət zorakılığından əziyyət çəkmiş şəxslərə yardım göstərən və akkreditasiyadan keçmiş mərkəzlərlə qarşılıqlı əməkdaşlıq yaradılmış, polis orqanlarına müraciət etmiş məişət zorakılığından əziyyət çəkmiş şəxslərin zərurət yarandıqda yardım mərkəzlərinə yerləşdirilməsi işi təşkil edilmişdir.

Məişət zorakılığı – yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması yəni fiziki, psixi, iqtisadi və cinsi zorakılıq nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının inzibati xətalar və cinayət məcəlləsinə edilən əlavə və dəyişikliklər nəticəsində inzibati xətalar məcəlləsinin 157-ci maddəsində döymə, 158.1. məişət zəmnində psixi zorakılıq maddələrinə görə cərimə və inzibati həbs nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində qadınların müdafiəsini təmin edən maddələr, o cümlədən cinsi zorakılığa (108-ci maddə), özünü öldürmə həddinə çatdırmaya (125-ci maddə), qəsdən sağlamlığa müxtəlif dərəcəli zərər yetirmək məqsədilə edilən zorakılıq nəticəsində sağlamlığın və əmək qabiliyyətinin itirilməsinə (126,127, 128-ci maddələr), zorakı davranış və davamlı döyülmələrlə müşayiət olunan işgəncə verməyə (133-cü maddə), həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə (149-153-cü maddələr), qadını nikaha daxil olmağa məcbur etmə (176-1.1.), erkən nikaha məcbur etmə (176-1.2.), qadınların hüquqlarının məhdudlaşdırılması (164-cü maddə) kimi maddələr nəzərdə tutulmuşdur.

Hazırda müvafiq istiqamətdə fəaliyyət "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1.Hicran Hüseynova. Ailə cəmiyyətin özəyidir, Bakı-2020, "Günəş-B" nəşriyyatı.

2. Bridget Busch, NoËl, "Male Customers of Prostituted Women: Exploring Perceptions of Entitlement to Power and Control and Implications for Violent Behavior Toward Women." Violence Against Women, vol. 8, no. 9, Sept. 2002.

**Адигозел Адыгозалов**

**ОБЕСПЕЧЕНИЕ ПРАВ ЖЕНЩИН И ДЕВОЧЕК, ВЫЯВЛЕНИЕ ПРЕСТУПЛЕНИЙ В ОТНОШЕНИИ ПРОТИВ НИХ И ПРЕДОТВРАЩЕНИЕ НАСИЛИЯ**

**Резюме.** В статье представлена информация обо всех уголовных делах, совершенных женщинами и девушками в качестве обвиняемых или потерпевших, включая регулярный анализ материалов, изучение и устранение факторов, побуждающих их к совершению преступлений, а также подача ходатайств в соответствующие органы и организации.

**Ключевые слова**: права и свободы человека, насилие в семье, насилие в отношении женщин.

**Adigozal Adigozalov**

**PROVIDING THE RIGHTS OF WOMEN AND GIRLS, DETECTING CRIMES AGAINST THEM AND PREVENTING VIOLENCE**

**Summary**. The article provides information on all criminal cases of women and girls as accused or victims, including regular analysis of materials, study and elimination of factors that push them to commit crimes, and petitions to the relevant authorities and organizations.

**Key words:** human rights and freedoms, domestic violence, violence against women

**Məqalənin redaksiyaya daxil olma tarixi: 07. 04. 2021**

**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12. 04. 2021**

**Məqalənin çapa qəbul olunma tarixi: 13. 04. 2021**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dos. Rəşad Əsgərov**

**UOT:008.390**

**Sədaqət Əliyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: sadagat-aliyeva@mail.ru**

## MƏDƏNİYYƏT PRİZMASINDAN GÖRÜNƏN GENDER DÜNYASI

**Xülasə:** Qərbi Avropada qadın fenomeninə münasibətin əhəmiyyətli bir şəkildə dəyişməsində Kurtuaz dövrünün təsiri danılmazdır. Kurtuaz ənənəsində Gözəl Xatun anlayışının təbliğini də görmək mümkündür. İngiltərədə qadına sitayiş II Henrixin dövründə özünün ən yüksək məqamına yüksəldi. Məqalədə bu məqamlara toxunulur, islam Şərqi və Qərb mədəniyyətinin qadına münasibəti müqayisəli təhlil olunur.

**Açar sözlər:** mədəniyyət, cinsiyyət aspekti, mədəniyyətdəki qadınlar, Viktoriya dövrü, qadın bərabərliyi

Mədəniyyət və dünya eynilik təşkil etmir. Bu isə ondan irəli gəlir ki, cəmiyyətdə mövcud olan bir sıra sosial hadisələri mədəniyyət özünə daxil olmağa icazə verilmir. Kulturoloji nəzəriyyələr öz növbəsində, konkret mədəniyyəti modelləşdirərək belə bir suala cavab axtarır: niyə mədəniyyət dünyanı, məhz, bu cür məhdudiyyətlərlə göstərir?

Nəzəriyyələr çoxdursa, deməli, sualın cavabı da müxtəlif olacaq. Yəni bir nəzəriyyə mədəniyyətin bir modelini, digər nəzəriyyə isə başqa modelini təqdim edir. Bu zaman hər hansı bir nəzəriyyədə mədəniyyətin cəmiyyətə istinad edib özündə təcəssüm etdirdiyi hər hansı bir nüans aşkar edilib izah olunur. Bu situasiyadan da təyin edilmiş modellərin obyektini, hədəfini, eynilik və fərq məsələsini aşkar etmiş oluruq.

Müasir Qərb mədəniyyətində cəmiyyətdəki insan münasibətlərinin bioloji aspektləri (motivləri, determinantları) daha çox göstərilir, nəinki Viktorian dövrünün mədəniyyətində. Hal-hazırda Azərbaycanda «əsl xanım» ideyası o qədər populyarlaşıb ki, İngiltərədə XIX əsrin 50-ci illərindən dəbdə olan «əsl qadın» ideyasının formalaşdırılmasını xatırlatmağa başlayıb.

Qərbi Avropada qadın fenomeninə münasibətin hörmətəlayiq istiqamətdə dəyişməsinin əsasında Kurtuaz dövrünün təsirini görmək olar. Məhz, Kurtuaz ənənəsində Gözəl Xatun (Donna) «taxta» çıxarılmışdı. Xatuna sitayiş Britaniyada, Burqundiyada, II Henrixin vaxtında İngiltərədə yüksəklərə qalxmışdı. Yeni qaydaya görə, əsl cəngavər kişi Xatunun bütün nazına, ərköyünlüyünə dözməli, usanmadan Xatunun xidmətində durmalı idi. Necə ki, Füzuli, Nəsimi qəzəllərində də aşiq sevgilisinin şıltaqlığına belə dözüm göstərir.

Viktorian mədəniyyətindəki gender təkamülündə bu cəhətlər yenidən özünü göstərir. Mədəniyyət elə bir sistemə çevrilir ki, qadın idealı önəm qazansa da, qadın cazibədarlığı mədəniyyət modelinə buraxılmır. Səbəb odur ki, XIX əsrdə İngiltərədə qadınların statusunun müəyyənləşməsində evangelist, yəni protestant, reformist ideyaların böyük rolu olmuşdu. Artıq 1790-cı ildə İngiltərədə mənəvi islahatlar uğrunda hərəkat yaranmışdı. Bu hərəkat «əsl qadınlıq» doktrinasını formalaşdırıb həyata keçirirdi. Həmin doktrinada qadının özəllikləri kimi təmizlik, kövrəklik, ərə, uşağa, ailəyə bağlılıq, incəlik, mehribanlıq sadalanırdı. Məhz, bu sifətlər əsl qadınlığın, qadın təbiətinin göstəriciləri sayılırdı.

1861-ci ildə İzabella Bitonun kitabında qadınla bağlı «ev ocağının generalı» termini ortaya çıxmışdı. Viktorian mədəniyyətində bu termin qadını ucaltmaq üçün istifadə olundu. Qadın ocağın generalı kimi evin, uşaqların, ərin qayğısına qalmaqla yanaşı xidmətçilərin, aşağı təbəqədən olan adamların da dərdinə yanaraq xeyriyyəçi mənəviyyatını daşımalı idi.

Qadınla bağlı qoyulmuş bu qaydalara bəzi tədqiqatçılar belə şərh verirdilər ki, qadının bədəni müqəddəsdir və o həyat yoldaşından başqa digər kişilərə məxsus ola bilməz.

Maraqlıdır ki, açıq bədənin təhrikedici olması fikri Viktorian dövründə kişilərlə də bağlı qadağalara gətirib çıxarmışdı. Onlar da açıq-saçıq geyinməməli idilər. Həm qadına, həm kişiyə

qoyulan maksimum qapalı geyim təəccübdoğurucu şəkildə bəzi islam mühitində, məsələn, İranda, bəzi Bakı kəndlərində də öz oxşarını tapmışdı.

Müşahidə etdiklərimizi mərhələlərə ayırsaq, birinci mərhələ mədəniyyətin öz səviyyəsidir və onun dünyanı, cəmiyyəti necə modelləşdirməsi müstəvisidir. Bu səviyyədə müəyyən mədəniyyət tipi özünün din, sənət, elm kimi altsistemlərinə, hətta tərcümədə təhriflərə yol vermək bahasına olsa belə, kişi-qadın münasibətlərinin görünməyən tərəflərini buraxmır. O biri səviyyə ideologiya və nəzəriyyəni özündə əks etdirir. Bu səviyyədə Kurtuaz dünyasının, xristianlığın nəzəri araşdırmalarından çıxış edərək nə üçün Viktorian mədəniyyətində göstərdiyimiz halın yer almasını izah etdik. Bəs necə oldu ki, XX əsrdəki mədəniyyətin dünya modelində vəziyyət dəyişdi? Bu vəziyyətin dəyişməsini biz Viktorian mədəniyyətinin böhranında, modernizmin ənənəvi dəyərlərə qarşı qiyamında, feminist hərəkatın nəticələrində izləyirik. Məşhur freydist Vilhelm Rayxın böyük qalmaqallara səbəb olan bir fikri var: qadınlar öz bədənlərinin sahibi olmalıdırlar – Rayxın bu fikri yalnız Viktorian dövrünün qadınlarla bağlı yuxarıda gətirdiyimiz müddəası ilə qarşılaşdırıldıqda aydın dərk olunur (1, s.111). Deməli, bütün patriarxal cəmiyyətlərdə qızların tərbiyəsində onlara ailə qurmaq və nəsil artırmaq fikirləri aşılanır. Rayx bu hala qarşı çıxaraq epataj prinsipində qadınlara söylədi: “Öz bədəninə, məhz, öz mülkiyyətin kimi bax! Onu heç kimin mülkiyyəti sayma, yoxsa bu fikir səni boyunduruğa hazır olan məxluqa çevirəcək”.

XX əsrin mədəniyyət sahələrinin Viktorian mədəniyyətinə alternativlər baxımından monitorinqini aparsaq, ötən əsrdə qadın-kişi münasibətlərinin daha açıq-saçıq göstərilməsinə dair bir çox nümunələr ortaya çıxar. Niyə görə belə olmasının isə müxtəlif nəzəri modellər vasitəsi ilə izahı var. Marksizm-leninizm XIX əsrin sonu, XX əsrin əvvəllərindəki Qərb mədəniyyətində qadın - kişi münasibətlərinə əxlaqi qadağaların azalmasını və ya yumşalmasını imperializmin çürüyən kapitalizm olması ilə izah edirdi. Bu rakursdan yanaşanda XX əsr mədəniyyəti böhran terminlərində açılırdı.

Halbuki artıq, XIX əsrdə böhran Amerika və Avropada dəbdə olan paradiqma idi və təsadüfi deyildi ki, Nitsşenin, Kirkoqorun fəlsəfəsindən böhran əhval-ruhiyyəsi əskilmirdi. Artur Hermann kitabında yazmışdı: “Biz elə bir çağda yaşayırıq ki, pessimizm istisna yox, normadır”. Con Kennet Qalbreyt də maraqlı bir faktı xəbər vermişdi: “Hər naşir istəyir ki, müəllif kitabına «Amerika demokratiyasının böhranı» tipində ad qoysun, çünki belə adı olan kitab yaxşı satılacaq” (2, s.2). Doğrudan da XIX – XX əsrlərdə Qərb mədəniyyətinin həm demokratik planda, həm də dəyərlər sistemində böhranından külli miqdarda kitab çıxmasını təsadüf hesab etmək olmaz. Fakt göstərir ki, mədəniyyəti böhran paradiqmasında düşünmək epistemoloji planda əhəmiyyətli olduğu qədər bazarda yaxşı satılan mal, bestseller planında da keçərli idi. Onu da deyək ki, böhran kateqoriyasının paradiqma vəziyyətinə düşməsində Osvald Şpenqlerin «Avropanın qürubu» əsəri xüsusi rol oynamışdı.

XIX əsrin sonu, XX əsrin əvvəlləri böhranın müxtəlif səbəblərdə, müxtəlif qiyafələrdə açılmasını təhlil etməkdə məqsədimiz Viktorian dövründəki qadın-kişi münasibətlərinin bioloji tərəflərinə göz yumulmasının və sonradan nə üçün diqqət mərkəzinə cəlb edilməsini aydınlaşdıraq. Əlbəttə, Viktorian dövrü daha çox Britaniya imperiyasının sənaye və mədəni istehsalının təsir dairəsində olan ölkələrə aid idi. Fransa və İtaliya kimi ölkələrə bu mədəni faktorun yalnız əks-sədaları çatırdı. Ancaq Britaniyanın dünyaya təsirini nəzərə aldıqda ABŞ, Avstraliya və Kanada kimi ölkələrə təsirini yadda saxlayanda Viktorian mədəniyyəti qlobal miqyasda açılır (bu zaman Amerikadakı puritan etikasının ingilis protestantları ilə bağlılığını da nəzərə almaq olar).

Viktorian mədəniyyətini bölüşməyən bir çox mədəniyyətlər də qeydə alınmışdı. Xristian puritanizminin, Viktorian əxlaqının çox ciddi analogiyasını müsəlman dünyasında görmək olar. Düzdür, Viktorian dəbində hicab yox idi. Ancaq islam diskurslarından biri o idi ki, «əsas məsələ qadında fiziki yox, mənəvi hicabın olmasıdır». Bu diskursdan çıxış edib demək olar ki, Viktorian

etikasının məqsədi Avropa üsulunda mənəvi hicabı qadınla və qadın-kişi münasibətləri ilə bağlı totallaşdırmaq olub.

Qərbdə qadını «mənəvi hicabla» məhdudlaşdırıb, «əxlaqlı» etməyin səbəbləri Həvva mifologeminin yozumundan çıxırdı. Bu yozumda İlanın (İblisin), məhz, Həvvanı yoldan çıxarması və bəşəriyyətin günah silsiləsinin Həvvadan başlaması qadın üçün ağır nəticələr vermişdi.

XX əsrin əvvəllərində Qərbdə qadın azadlıqlarına nail olunmasının nəticələri yerdə qalan dünyada, xüsusilə xeyli müsəlmanın qavrayışında sərbəst, asanlıqla zina edən xristian qadını imicini yaratmışdı. Bu imicin təsiri ətalət prinsipi ilə o qədər davam etmişdir ki, hətta indinin özündə də islamçı fundamentalist ideologiyaya «pozğun Qərb və mənəvi Şərq» dixatomiyası üçün geniş materiallar verir. Fundamentalistlər düşmənçilik bəslədikləri Avropa və Amerikanı çox şeylərdə ittiham edə bilərdilər, məsələn, istismarçılıqda, irqçilikdə, bank siyasətində. İslamçılar Qərb bank sistemini kredit zamanı faiz götürdüyünə görə sələmçilikdə ittiham edirdilər və nəticədə bu sistem neqativ sələmçi imicində görünürdü. Halbuki ciddi teoloqlar Şəriətin faizlə bağlı formalaşdırdığı mənfi münasibəti Quranda deyilənlərdən ayırırlar (3). Ancaq daha ağıllı və əsaslı tənqidi Qərbin böhranından yazmış Husserl, Orteqa-i-Qasset, Adorno, Markuze kimi filosoflardan götürmək olardı.

Qərb elminin açıq-saçıqlıq problemlərinə senzurasız yanaşması müsəlman dünyasında mənəvi fəsadlar verdi və bu zaman Qərb qadını həmin münasibəti qat-qat gücləndirən ideoloji obraza çevrilirdi. İslam və eləcə də başqa Şərq dünyalarında ailə fenomeni öz patriarxallığını xeyli təkidlə saxladığı üçün qadın ana kimi, qadın zövcə kimi, qadın atanın namusunu təhlükəyə salmayan bala kimi Şərq insanı üçün çox əziz və dəyərlidir. Ona görə də Şərq insanı bu sevimli, üstündə əsdiyi qadın imicinə Qərbdən təhlükə görəndə daha asanlıqla anti-Qərbçi olur. Fundamentalistlər bundan istifadə edərək xristian qadınını Qərbin emosional imicinə çevirirlər. Halbuki bu imic bütün xristian tarixi ilə ziddiyyətə girir. Yəni şərqli üçün tərbiyəsiz, abırsız görünən, halbuki XX əsrin sivilizasiyaya mənsub insanı üçün emansipasiya olunmuş (buxovlardan qurtulmuş) müasir qadın, əslində, xristianlığın yox, sənaye dünyasının məhsuludur və Viktorian, Katolik, Pravoslav əxlaqı göstərir ki, ənənəvi dindarlığın bütün qollarında narazılıq doğururdu. Bu mənada orta əsr xristianlığında qadına münasibət şəriət ideologiyası ilə yaşayan müsəlmanlara daha doğma idi və hətta bəzi məqamlarda daha riqorist, yəni daha sərt idi.

Qərbi Avropanın xristian dünyasında qadına aşağılayıcı münasibət, qadına etibarsızlıq müxtəlif əlamətlərdə özünü göstərirdi. Erkən orta əsrlərdə qadının separat, ayrıca şəkildə ruha sahib olması şübhə altına alınmışdı. Diskussiyalarda belə bir fikir səslənirdi ki, insan cisim və ağıl daxil olmaqla ruhun vəhdətidirsə, o zaman bu meyar baxımından qadın tamamlanmamış məxluqdur, yəni onda insanlıq tam dolğun təcəssüm etməyib. Arqument kimi götürülürdü ki, Tövratda Tanrının Həvvanı yaradanda ona ruh üfürməsi yazılmayıb. Deməli, Adəmin insan təbiəti tam «komlektdə» olduğu halda bunu qadınla bağlı söyləmək olmaz. Həvvanın cismi Adəmin qabırğasından alınmışdı. Belə çıxırdı ki, Həvvanın və uyğun olaraq bütün qadınların insan təbiəti müstəqil, substansional deyildi: cismi kişidən alındığı kimi ruhu da kişi ruhunun inikası idi, şam alovunu kənar mənbədən götürdüyü kimi. Ona görə də hesab olunurdu ki, qadın həmişə kişinin qəyyumluğu altında olmalıdır. Kristiya Qrössünger bunu belə izah edirdi: xristian ataları qadınla bağlı kişiləri yoldan çıxaran məxluq obrazını yaratdıqlarına görə məsuliyyət daşıyırlar. Qadınlardan uzaq qalmaq üçün bu adamlar asketik həyat yaşayırdılar. Onlar üçün İblis və Şər ət və qan idi. Sənətdə Müqəddəs Antoninin şirnikləndirilməsi qadın simvolu ilə bildirilirdi. Müqəddəs Ceromi asketik həyatı mədh edirdi və hətta qadınlara toxunmağı belə pis sayırdı. İlk Xristian atalarından qadınların tərəfini saxlayan yalnız Müqəddəs Avqustin idi. O, qadını kişiyə tabe etsə də, hesab edirdi ki, nə bədəndə, nə evlənmədə pis heç nə yoxdur (4, s. 3).

Mənbələr göstərir ki, VI əsrdə yepiskop Makon «qadınlar ruha sahibdirlərmi?» sualına həsr olunmuş diskussiyalarda iştirak etməyə xeyli vaxt sərf edirdi. Bu o deməkdir ki, mövzu xristianlar üçün, artıq, həmin vaxtdan aktual idi. XVI əsrin sonlarında bir anonim kitab çıxmışdı

və orada ciddi-cəhdlə sübut olunurdu ki, qadın insan növü deyil, vəhşi canlılarla insan arasında keçiddir.

1854-cü ildə Filadelfiyada qadın haqları ilə bağlı müqavilə bağlananda buna etiraz edənlər qışqırmışdılar: qoy əvvəlcə onlar sübut etsinlər ki, ruhları var (5, s.56-66). Beləcə, o zaman qadının müstəqil olaraq ruh daşıyıcısı olmasını kilsə də, dövlət də inkar edirdi. Bu, diqqətəlayiq faktdır. Çünki hətta bir vaxtlar Katolik kilsəsinin əlindən Amerikaya qaçmış xeyli kolonist cinslərin ruhən bərabərliyinə inansalar da, bu dünyada gender bərabərliyini tanımırdılar. Ona görə də qadınların camaat qarşısında çıxışını, kişisiz səyahətə çıxmasını qadağan edirdilər . Oxşar münasibət islam peyğəmbərinin hədislərində də vardır.

«Qaranlıq çağ» («Dark age») adını almış Avropa Orta əsrlərində hesab olunurdu ki, qadınlarda İblisə gizli meyl var, ona görə də günahlar, məhz, qadınlardan dünyaya yol tapır. Qadınların bütün günahların mənbəyi olması və bu günahların cazibə aktı vasitəsi ilə bütün yeni nəsillərə keçməsi haqqında Kilsə təlimi Qərbi Avropada qadın nüfuzuna çox böyük ziyan vurmuşdur. İkili standartlar hər iki cinsin əxlaqi deqradasiyasına (fr.tənəzzül) gətirib çıxarmışdır (5, s.42-55).

Xristianlığın başqa bir təlimi – qadının kişi ilə bərabər yaradılmaması haqqında təlimi Kilsədə və Dövlətdə onun tam hüquqlu yer tutmasını inkar etməklə nəticələnmişdir. Bu səbəbdən də Katolisizmdə qadınlar ruhani vəzifələrə buraxılmırdılar (qadın monastırlarındakı vəzifələr istisna olmaqla). Halbuki bütün qədim dünyada qadının ruhani olmaq hüququ tanınırdı.

Beləliklə, XIX əsrdə Viktorian mədəniyyətində dövrün situasiyasını gözdən keçirəndə gördük ki, qadın-kişi münasibətlərinin bioloji «zənginliklərinin» rəsmi mədəniyyətə girməməsi üçün qadağaların qoyulması əslində dünyanın hər yerində olan patriarxal mədəniyyətlər üçün xarakterik idi. Patriarxallıq güclü olan hər yerdə qadının cazibəsini nəzərə alaraq mədəniyyətlər elə dissiplinar və əxlaqi situasiyalar yaradırdılar ki, bu təhlükə minimuma ensin. Ənənəvi cəmiyyətlərdə təhlükəli davranışların (məsələn, uca tutulan bəzi simvollarla zarafatın), təhlükəli şeylərin (lazımsız hədiyyələrin) sayı həddən artıq çox olur. Hətta belə bir qanun formalaşdırmaq olar: mədəniyyətdə ənənəvilik nə qədər çoxdursa, təhlükəli şeylərin sayı da o qədər çoxalır. Belə mədəniyyətlərdə həm qadının özü təhlükə kimi daha tez-tez düşünülür, həm də qadınla bağlı təhlükəli sayılan halların sayı daha çox olur. Ona görə də mədəniyyət təhlükələrə müqaviməti özünə məqsəd qoyanda bir vasitə də qorxulu şeyləri rəsmi mədəniyyətə buraxmamaq olur. Biz bunu Viktorian mədəniyyətində aydınca görürük. Və dedik ki, qadına oxşar münasibət islamda da var. İslamda gerçək, yəni fiziki hicab Viktorian mədəniyyətində mənəvi hicabla əvəzlənmişdi. İkisini də tutuşduranda fərq və eynilikləri düşünmək maraqlı kulturoloji perspektivlər açır.

**Ədəbiyyat siyahısı:**

1. Райх В.Л. Психология масс и фашизм. Санкт-Петербург.:1977, 380 с.
2. Herman A.L. The Idea of Decline in Western History. The Free Press, 2007, 528 p.
3. Qasımoğlu N. Q. Faiz məsələsi // 525-ci qəzet, 19.05.2012 .
4. Christa G. Picturing women in late Medieval and Renaissance art. Manchester University Press ND, 1997, 173 p.
5. Gage M. J. Woman, Church and State: A historical account of the status of woman through the christian ages with reminiscences of the matriarchate. Chicago: Arno Press Inc, 1893, 570 p

**Садагат Алиева**

## ГЕНДЕРНЫЙ МИР СКВОЗЬ ПРИЗМУ КУЛЬТУРЫ

**Резюме:** В статье: Влияние эпохи Куртуаз на существенное изменение отношения к женскому феномену в Западной Европе неоспоримо. Также можно увидеть продвижение концепции Прекрасной Дамы в традициях Куртуаз. В Англии поклонение женщинам достигло своего пика во время правления Генриха II. В статье затрагиваются эти моменты

и проводится сравнительный анализ отношения исламской восточной и западной культур к женщинам.

**Ключевые слова:** культура, гендерный аспект, женщины в культуре, викторианская эпоха, равенство женщин

**Sadagat Aliyeva**

**GENDER WORLD THROUGH THE PRISM OF CULTURE**

**Summary:** In the article: The influence of the Courteous period on the significant change in attitudes towards the female phenomenon in Western Europe is undeniable. It is also possible to see the promotion of the concept of the Beautiful Lady in the courtesy tradition. In England, the worship of women reached its peak during the reign of Henry II. The article touches on these points and makes a comparative analysis of the attitude of Islamic Eastern and Western cultures towards women.

**Key words:** culture, gender aspect, women in culture, Victorian era, equality of women

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 14. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**

**UOT:390.342.7**

**Məftunə İsmayılova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**E-mail: maftuna_i@mail.ru**

# GENDER ƏSASLI MƏİŞƏT ZORAKILIĞI HALLARININ SOSİAL SƏCİYYƏSİ

**Xülasə:** Ölkəmizdə qadın hüquqlarını dəstəkləyən və müdafiə edən əhəmiyyətli qanunverici baza yaradılmışdır (Azərbaycan Respublikasının Konstitusiyası, AR Cinayət Məcəlləsi, “Məişət zorakılığının qarşısının alınması haqqında” AR Qanunu, məişət zorakılığının qarşısının alınması üzrə Milli Fəaliyyət Planı, respublikanın qoşulduğu bir sıra beynəlxalq Konvensiyalar);

- Lakin bir çox dünya ölkələrində olduğu kimi Azərbaycanda da həm hüquqi, həm cəmiyyətdəki stereotiplər səbəbindən ictimai həyatın müxtəlif sahələrində qadınların kişilərə qarşı kəmiyyət baxımından nisbəti aşağıdır və gender problemi cəmiyyətimiz üçün həssas məsələ olaraq qalır;
- Hüquqi müstəvidə tam tənzimlənmə prosesləri həyata keçirilsə də, cəmiyyətdə hələ də məişət zorakılığı hallarına rast gəlinir. Xüsusən də bir çox hallarda bu hadisələr latent xarakteri daşıdığına görə və yerli səviyyədə təcili təxirə salınmaz tədbirlərin görülməsi üçün mexanizmlərin olmaması qadınlarda inamsızlığın yaranmasına səbəb olur;
- Ölkəmizdə məişət zorakılığından zərər çəkənlər üçün hərtərəfli və səmərəli müdafiə vasitələrinin, xüsusilə də məişət zorakılığı qurbanları üçün dövlət yardım mərkəzlərinin yaradılmasına böyük ehtiyac vardır.
- Qadınlara qarşı zorakılığın qarşısını almaq mümkündür!

**Açar sözlər:** məişət zorakılığı, hüquqi cəmiyyət, Milli Fəaliyyət Planı, qadın kişi bərabərliyi

Hər bir ölkə həyata keçirdiyi dövlət siyasəti çərçivəsində insan hüquqlarından istifadə üçün qadın və kişilərə bərabər şərait yaratmalı və təminat verməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində qadınlarla kişilər arasında bərabərlik prinsipi təsbit edilir və ayrı-seçkiliyin yol verilməzliyi bəyan edilir. Bərabərlik hüququnu pozma AR Cinayət Məcəlləsində cinayət əməli kimi müəyyən edilib.

Gender - ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhətidir. Gender bərabərliyi isə qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyətidir. Gender siyasətinin ölkənin ümumi inkişaf strategiyasına inteqrasiya olunması bu strategiyanın həyata keçirilməsinin səmərəsinin artırılmasını, iqtisadi artıma və əhalinin yoxsul qruplarının rifahına yönəldilmiş proqramlarda nəzərdə tutulmuş mənfəətlərin insanlar arasında bərabər şəkildə paylanılmasını təmin edir.

Ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində mühüm addımlar atılmaqdadır. Bunlardan biri, 2006-cı ildə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi olmuşdur. Qanunun mühüm cəhəti onun qadınların insan hüquqlarından və fundamental azadlıqlardan istifadə etmələrinə mane olan, onlara qarşı müəyyən kök salmış ayrı-seçkiliyin təzahürlərinin tanıdılıb ortaya qoyulmasıdır və 3-cü maddə də, müvafiq olaraq, de-facto bərabərliyi sürətləndirmək və qadınlar üçün əsaslı bərabərliyi təmin etmək üçün zəruri olan xüsusi tədbirlərin görülməsini nəzərdə tutur.

Birləşmiş Millətlər Təşkilatı “qadınlara məhz qadın cinsinə mənsub olduqları üçün fiziki, cinsi və ya psixoloji zərər və ya əzab verə bilən və ya ehtimal olunan hər bir zorakılıq aktı, həmçinin bu cür hərəkətlər etmək təhdidi, ictimai və ya şəxsi həyatda əsassız və ya məcburi azadlıqdan məhrumetmə daxil olmaqla” qadınlara qarşı zorakılıq hesab edir. (BMT. Qadına

Qarşı Şiddətin Aradan qaldırılmasına dair Bəyannamə. New York, 1993) Qadın hüquqlarının müdafiəsi, məişətdə, xüsusilə qadınlara qarşı zorakılığın qarşısının alınması baxımından 22 iyun 2010-cu ildə qəbul edilmiş "Məişət zorakılığının qarşısının alınması haqqında" AR Qanununun mühüm əhəmiyyəti vardır. Qeyd etmək lazımdır ki, Azərbaycan qadın hüquqlarını dəstəkləyən və müdafiə edən bir sıra konvensiyalara qoşulmuşdur:

Bərabər dəyərli əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında, Beynəlxalq Əmək Təşkilatının «Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında» 156 nömrəli Konvensiya,

"Ərdə olan qadının vətəndaşlığı haqqında" Konvensiya,

"Ailə kəndli təsərrüfatı haqqında" Konvensiya,

"Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyanın, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında» Konvensiya,

"Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında" Konvensiya,

"İş vaxtının azaldılıb 40 saata endirilməsi haqqında" Konvensiya,

"Analığın mühafizəsi haqqında 1952-ci Konvensiyasına yenidən baxılması haqqında" - 183 nömrəli Konvensiya,

Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Konvensiya və s.

Azərbaycan Respublikasında hüquqi müstəvidə qadın və kişilərin bərabərliyi tam şəkildə təmin olunmuşdur. Lakin bir çox dünya ölkələrində olduğu kimi ölkəmizdə də ictimai həyatın müxtəlif sahələrində qadınların kişilərə qarşı kəmiyyət baxımından nisbətinin aşağı olduğu nəzərə çarpır.

Təhlillər göstərir ki, həm hüquqi, həm cəmiyyətdəki stereotiplər səbəbindən qadınların işləməsini, karyera qurmasını dəstəkləməyən cəmiyyətlərin iqtisadi vəziyyəti daha ağır olur.

McKinsey Global İnstitutunun araşdırmalarına əsasən, qadınların iqtisadi sektorda kişilərlə bərabər iştirakı 2025-ci ilədək qlobal ÜDM-ə 28 trilyon dollara qədər (və ya 26%) əlavə gəlir gətirə bilər.

Dünya İqtisadi Forumunun (World Economic Forum) hər il hazırladığı "Qlobal Gender Fərqi"("The Global Gender Gap Report 2018") hesabatlarında yer alan ölkələrin sıralaması da bu fikri təsdiqləyir. Beynəlxalq qurumun 2018-ci ildə hazırladığı "Qlobal Gender Fərqi" hesabatında İslandiya, Norveç və İsveç qlobal indeksdə ilk 3 pilləni tutub. 146 ölkənin yer aldığı indeksin son üç pilləsində isə İraq, Pakistan və Yəmən gəlir. Bu, o ölkələrdir ki, həmin dövlətlərdə həm qanunla, həm də dini baxışlarla və cəmiyyətdə mövcud olan stereotiplərlə qadınların diskriminasiyası mövcuddur. Sözügedən indeksdə Azərbaycan 97-ci yeri tutmaqla DİF-in hesabatlarının tam orta intervalında qərarlaşmalı olub. Bu o deməkdir ki, gender problemi cəmiyyətimiz üçün həssas məsələ olaraq qalır.

Qeyd etməliyik ki, ölkəmizdə aparılan gender siyasətinin nəticəsi olaraq ictimai-siyasi həyatın bütün sahələrində qadınların iştirakı artmışdır. 9 fevral 2020-ci il tarixində keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 1038 (79%) kişi, 276 (21%) qadın olmaqla, cəmi 1314 namizəd qeydə alınmışdır. Onlardan 99 (81,82%) kişi və 22 (18,18%) qadın ali qanunverici orqana seçilmişdir. Halbuki, 2005-ci ildə ölkədə keçirilən parlament seçkilərində qadın deputatlar 14 nəfər (11%), 2010-cu ildə 20 nəfər (16%)-ə, 2015-ci ildə 21 nəfər (17%) təşkil etmişdir. Yerli özünüidarəetmə orqanlarında da qadınların təmsilçiliyi artmaqdadır. 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü olan qadınlar 4% idisə, 2009-cu ildə 26,5%, 2014-cü ildə 35 %, 2019-cu ildə isə 39 % olmuşdur. Belə ki, 23 dekabr 2019-cu il tarixində keçirilmiş bələdiyyə seçkilərində respublika üzrə 29330 kişi, 12132 (29.26%) qadın olmaqla, cəmi 41462 bələdiyyə üzvlüyünə namizəd qeydə alınmış, onlardan 9226 (61.20% kişi, 5849 (38.80%) qadın bələdiyyə üzvü seçilmişdir.

Gender zorakılığının bir növü olan qadınlara qarşı zorakılıq, bütövlükdə məişət zorakılığı və doğulan uşaqlar arasında cins nisbətinin pozulması həm cəmiyyətimiz, həm də dövlətimiz üçün çox aktual olan mövzulardandır. Son günlər sosial mediada bu hadisələrin kontekstdən çıxarılaraq müxtəlif məzmunda gündəmə gətirilməsi insanlarda çaşqınlıq yaradır.

Bu gün cəmiyyəti narahat edən bir sıra məsələlər vardır ki, diqqəti buna yönəltmək lazımdır. Belə ki, bütün dünyada olduğu kimi, son illər məişət zorakılığı zəminində xüsusi amansızlıqla qətl hadisələrinin baş verməsi, nikahların azalması, boşanmaların artması, doğulan uşaqların sayının, ümumnəsilvermə əmsalının aşağı düşməsi, o cümlədən doğulan uşaqlar arasında cins nisbətinin pozulması ailədaxili münasibətlərin tənzimlənməsi sahəsində bir sıra boşluqların olmasını sübut edir. Və bu tendensiyanın davam etməsi gələcəkdə bir sıra demoqrafik problemlərin, eyni zamanda, genefonda mənfi təsirlərin və daha ağır fəsadların yaranmasına səbəb ola bilər. Baxmayaraq ki, bu məsələlər dövrü olaraq aktuallaşdırılır, lakin demək olar ki, hər gün qadına qarşı zorakılıq törədilir, qadın xəsarət alır və ya qətlə yetirilir. Bunun bir çoxu isə müxtəlif səbəblərdən uşaqların gözü qarşısında baş verib. Ümumiyyətlə, 2018-ci ildə məişət zorakılığı cinayətləri nəticəsində doqquz yüz on beş qadın zərər çəkib. Onlardan 6,7 faiz qadın qəsdən sağlamlığa yüngül zərər vurmaya məruz qalıb. Məişət zorakılığı nəticəsində ölən qadınlar isə 4,5 faiz təşkil etmişdir. Əlbəttə bu rəsmi qeydə alınmış zorakılıqların göstəricisidir. Lakin bir çox hallarda bu hadisələr latent xarakter daşıyır, eyni zamanda, yerli səviyyədə təcili təxirə salınmaz tədbirlərin görülməsi üçün mexanizmin olmaması qadınlarda inamsızlıq yaradır. Bu hadisələrlə bağlı sosial mediada və KİV-də gedən müzakirələr, naşı insanların qeyri-obyektiv və bir çox hallarda əsası olmayan fikirlər səsləndirməsi ölkəmizin həm beynəlxalq imicinə zərbə vurur, həm də ölkə daxilində narahatlıq yaradır.

Bu gün ölkəmizdə qadın hüquqlarının müdafiəsi baxımından məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Hüquqi müstəvidə tam tənzimlənmə prosesləri həyata keçirilsə də, cəmiyyətdə məişət zorakılığı hallarına hələ də rast gəlinir. Belə ki, ölkəmizdə il ərzində orta hesabla qadınlara qarşı məişət zorakılığı halları insan alveri hallarından 8-9 dəfə çoxdur. Belə halların ağır fəsadlara səbəb olduğunu, ailələri sarsıtdığını nəzərə alaraq məişət zorakılığından zərər çəkənlər üçün hərtərəfli və səmərəli müdafiə vasitələri yaradılmalıdır. Xüsusilə də məişət zorakılığı qurbanları üçün dövlət yardım mərkəzinin yaradılmasına ehtiyac vardır. Həmçinin qadınlara qarşı zorakılığın bütün növlərinə dair statistik məlumatların toplanması istiqamətində işlər gücləndirilməlidir. 2020-ci ildə məişət zorakılığının qarşısının alınması üzrə Milli Fəaliyyət Planının qəbul edilməsi bu istiqamətdə aparılan işlərin gücləndirilməsi baxımından çox təqdirəlayiqdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Konstitusiyası//www.e-qanun.az
2. «Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamı //www.e-qanun.az
3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytı. http:// www.mlspp.gov.az
4. «Məişət zorakılığının qarşısının alınması haqqında» 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az
5. «Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası»nın və «Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25/04/2012 – ci tarixli 89 nömrəli Qərarı. http://www.cabmin.gov.az/?/az/pressreliz/view/662/
6. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az
7. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 10 oktyabr 2006-cı il, № 150-IIIQ

8. BMT Əhali Fondu (UNFPA) "Azərbaycanda qadınlara qarşı sorğu hesabatı". 2008
9. BMT-nin "Qadınlara Qarşı Zorakılığın Aradan Qaldırılması haqqında" Bəyənnamə 20 dekabr,1993-cü il tarixli,48/104 saylı Qətnamə.

**Мафтуна Исмайлова**

## СОЦИАЛЬНЫЙ ХАРАКТЕР СЛУЧАЕВ БЫТОВОГО НАСИЛИЯ ПО ПРИЗНАКУ ПОЛА

**Резюме:** В нашей стране создана важная законодательная база, поддерживающая и защищающая права женщин (Конституция Азербайджанской Республики, Уголовный кодекс Азербайджанской Республики, Закон Азербайджанской Республики о предотвращении домашнего насилия, Национальный план действий по предотвращению быеового насилия, ряд международных конвенций);

- Однако, как и во многих странах мира, в Азербайджане из-за правовых и общественных стереотипов соотношение женщин и мужчин в различных сферах общественной жизни низкое, и гендерная проблема остается чувствительной проблемой для нашего общества;
- Несмотря на то, что на законодательном уровне действуют все регулирующие процессы, в обществе все еще имеют место случаи домашнего насилия. В частности, во многих случаях эти события носят латентный характер, а отсутствие механизмов для принятия срочных мер на местном уровне приводит к появлению у женщин недоверия, чувства безысходности;
- В нашей стране существует большая потребность в создании всеобъемлющих и эффективных средств правовой защиты жертв бытового насилия, особенно острая необходимость в государственных центрах помощи жертвам бытового насилия.
- Насилие в отношении женщин можно предотвратить!

**Ключевые слова:** Гендерное насилие в сем ье, насилие в семье, насилие в отношении женщин, права женщин

**Maftuna Ismayilova**

## SOCIAL CHARACTERISTICS OF GENDER-BASED DOMESTIC VIOLENCE

**Summary:** In our country, an important legislative framework has been created that supports and protects the rights of women (Constitution of the Republic of Azerbaijan, Criminal Code of the Republic of Azerbaijan, Law of the Azerbaijan Republic on the Prevention of Domestic Violence, National Action Plan for the Prevention of Domestic Violence, a number of international conventions);

- However, as in many countries of the world, in Azerbaijan, due to the existing legal and social stereotypes, the ratio of women in various spheres of public life of the country in relation to men is low, and the gender issue remains a sensitive problem for our society;
- Despite the fact that all regulatory processes are in place at the legislative level, there are still cases of domestic violence in society. In particular, in many cases these events are latent, and the lack of mechanisms for taking urgent measures at the local level leads to the emergence of mistrust in women and a sense of hopelessness;
- In our country, there is a great need for the creation of comprehensive and effective remedies for victims of domestic violence, especially an urgent need for state centers for assistance to victims of domestic violence.
- Violence against women is preventable!

**Key words:** Gender-based domestic violence, domestic violence, violence against women, women's rights.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 18. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**UOT:792.342.7**

Respondentlərin 8,1%-i "əvvəl həyat yoldaşıma kifayət qədər vaxt ayıra bilmirdim", 6,7%-i "əvvəl vaxtımın çoxu işə və dostlarıma sərf olunurdu, indi isə ailəmə, övladıma", 6,9%-i "həyat yoldaşımla, övladım və ya övladlarımla bu qədər səmimi ünsiyyətim olmamışdı" fikirlərini qeyd etmişlər. Bu cavablar bir daha göstərir ki, ailə üzvləri arasında ünsiyyət problemi mövcuddur. Eyni zamanda, sürətli həyat tərzi, iş rejimi, sosial-iqtisadi proseslər ailə həyatına dolayısı – psixoloji (ər və arvadın fərdi xüsusiyyətləri, ailə münasibətlərinin xüsusiyyətləri və s.) təsir göstərir.

Ailədə uşaqların ata-ana ilə ünsiyyət tələbatı çox vaxt təmin olunmur. Belə ki, respondentlər əvvəl övladlarının maraq və məşğuliyyətlərini bu qədər yaxından müşahidə etmədiklərini (17,7%) və ya onların problemlərini bu qədər yaxından görə bilmədiklərini (7,9%) fikirlərini qeyd etmişlər. Uşaqlar, yeniyetmələr və gənclər ətrafındakı yaxınları ilə, yəni ailə üzvləri ilə danışmaq, ünsiyyət yaratmaq əvəzinə sosial şəbəkələrdə tanımadığı insanlarla ünsiyyət qurmağa üstünlük verir və uzun müddət virtual məkanda vaxt keçirirlər. Vaxt ötdükcə ailə üzvləri arasında münasibət soyuyur, onların arasındakı məsafə günbəgün çoxalır. Buna görə də heç olmazsa, ailənin hər bir üzvü – istər ata, istər ana, istərsə də uşaqlar üçün psixoloji rahatlıq yaradılmalıdır.

Diqqət çəkən məqamlardan biri də kişi və qadınların ev təsərrüfatı daxilində gördükləri işi dəyərləndirmələri idi. Belə ki, sorğuda iştirak edən kişi respondentlərin 37,7 %-i "arvadımın gün ərzində nə qədər zəhmət çəkdiyini bu qədər yaxından izləməmişdim"- deyə cavablandırmışlar ki, bu da bütövlükdə kişinin gün ərzində qadının gördüyü işə verdiyi qiymətdir. Qadın respondentlərinin 14.6%- i isə "ərimin bu qədər ailəcanlı, evə bağlı bir insan olduğunu bilmirdim" demişlər. Ümumiyyətlə, elmdə "haqqı ödənilməyən əmək" anlayışı mövcuddur. Bu ev daxilində qadın və kişilərin gördükləri bütün işləri, hərəkət və davranışları özündə ehtiva edir.

Alimlər hesablayıblar ki, əgər qadınların bir il ərzində evdə gördükləri işin müqabilində onlara əmək haqqı verilsə idi, bu dövlətə milyonlarla vəsaitin xərclənməsi ilə nəticələnərdi. Kişilərin 62,3%-i, qadınların isə 85,4%-i bu sualı cavablandırmayıblar. Burada isə iki məqam ola bilər: ya çoxluq öz həyat yoldaşlarında bu keyfiyyətləri müşahidə etmirlər, ya da onların zəhmətini qiymətləndirməkdə o qədər də həvəsli deyillər. Bu isə ailədaxili münasibətlərin düzgün tənzimlənməməsi, ailədə rol və vəzifələrin, eləcə də məsuliyyətin ədalətli bölgüsünün olmaması məsələləri önə çıxarır. Ailədə qadın və kişinin rol və vəzifə bölgüsü olmalıdır ki, qadın da özünü bir şəxsiyyət kimi formalaşdıra bilsin. Digər tərəfdən kişi yalnız ailəni iqtisadi cəhətdən təmin edən bir şəxs deyil, onun ər və ata kimi sosial vəzifə və öhdəlikləri var.

Ailə daxilində şəxsi münasibətlərin tənzimlənməsi, ailədə baş verən mübahisələrin səbəbləri hər zaman aktuallıq kəsb etmişdir. Karantin dövründə isə bu aktuallıq daha da artıb. Çünki, bir qayda olaraq, tədqiqatçılar bildirirlər ki, böhranlı vəziyyətlərdə hər zaman ailələrdə münaqişələrin sayı artır. Bu baxımdan da sorğunun müəyyən hissəsi karantin dövründə ailələrdəki vəziyyətin müəyyən edilməsinə həsr edilmişdir. Sorğuda iştirak edənlərin 21,3%-i "adi vaxt daha tez-tez olurdu", 25,7%-i "adi vaxtda biz heç vaxt mübahisə etməmişik, amma indi hərdən kiçik mübahisə olur", 17,6%-i "bizdə mübahisə həmişə olur, istər adi vaxtda, istərsə də karantin dövründə", 35,4%-i isə "bizim ailədə heç vaxt mübahisə olmayıb" deyə cavablandırıblar. Ailədə meydana çıxan çətinliklərin vaxtında aydınlaşdırılması, ailə həyatının böhranlı mərhələsində düzgün qərarların qəbul olunması ailə üzvlərinin psixoloji sağlamlığının qorunmasına xidmət etmiş olar.

Ailədə yaşanan hər bir gərginlik, mübahisə, münaqişə uşaqlara təsir edir, bu təsir hətta uzunmüddətli olub, həyatı boyu da davam edə bilər. Sorğuda iştirak edənlər "Həyat yoldaşınızla olan münasibətlərinizin (gərginlik yaşandıqda) övladlarınıza təsiri?" sualına əsasən bunu gizlətməyə çalışdıqlarını bildiriblər. Belə ki, respondentlərin 78,8%-i "ailədə yaşanan gərginliyi mümkün qədər gizlədirəm" cavabını vermişdir. 21,2 % isə ailədə yaşanan gərginliyin uşaqlara təsir göstərdiyini bildirmişdir. Ailədə birlikdə qərar vermək, digər ailə üzvlərinin, xüsusilə də həyat yoldaşının bu və ya digər sahədə fikrini öyrənmək həmin ailənin üzvlərinin bir-birinə bəslədiyi hörmətin, anlayışın göstəricisidir.

Respondentlərə təqdim olunan "ümumiyyətlə, həyat yoldaşınız sizin fikrinizlə hesablaşırmı?" sualına 47,3% "bəli, həmişə hesablaşır", 41,5% "xeyir, hesablaşmır", 11,2% isə "qismən, bəzi hallarda hesablaşır" cavablandırmışlar. Burada da digər hesablama əsasında məlum olmuşdur ki, sorğuda iştirak edən kişi respondentlərin böyük əksəriyyəti, yəni 78,2%-i həyat yoldaşlarının onun fikri ilə həmişə, 19,5%-i bəzi hallarda hesablaşdığını bildirmişdir.

Onların çox kiçik bir hissəsi, yəni 2,3%-i həyat yoldaşının onunla hesablaşmadığını bildirmişdir. Lakin qadın respondentlərin fikirləri fərqlidir. Belə ki, qadınların 22,1%-i həyat yoldaşlarının onun fikri ilə həmişə, 15,3%-i bəzi hallarda hesablaşdığını bildirmişdir. Onların əsas hissəsi isə, yəni 62,6%-i həyat yoldaşının onunla hesablaşmadığını bildirmişdir. Göründüyü kimi, qadınlar daha çox hesablaşan, kişilər isə daha çox təkbaşına qərar verəndirlər. Bu da ailədə bərabərliyi pozur. Ailə daxilində şəxsi münasibətlər cəmiyyətdaxili münasibətlərin güzgüsüdür. Bu güzgünün aydın, gözəl və dayanıqlı inkişaf etməsi üçün hər kəs üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir.

Təhlilin nəticələri bir daha göstərir ki, ailə daxilində zorakılıqdan heç kim sığortalanmayıb, ailənin hər bir üzvü zorakılığa məruz qala bilər**.** Lakin burada daha çox kimin zorakılığa məruz qalması məsələsi də önəmli məsələdir. Maraqlıdır ki, sorğuda iştirak edənlərin 65,7%-i zorakılıq halının baş vermədiyini bildirsə də, onların 68,7%-i "mənə", 27,4%-i "valideynlərimə", 3,9%-i isə "uşaqlara" qarşı zorakılığın olduğunu qeyd etmişlər. Ayrılıqda isə qadın respondentlərin 68,2%-i, kişi respondentlərin isə 15,1%-i zorakılıq hallarının onlara qarşı baş verdiyini qeyd etmişlər. Kişilərin 84,9%-i, qadınların isə 31,8%-i isə sualı cavablandırmamışdır. Bir daha xatırlatmaq istərdim ki, tədqiqatın əsas vektoru ailə daxilində şəxslər arasındakı münasibətin öyrənilməsi olduğu üçün burada zorakılığın daha çox mənəvi-psixoloji, emosional forması nəzərdə tutulur. Respondentlərin də fikirlərində bu məsələ bir daha təsdiqlənir. Belə ki, onlar bir-birini anlamaqda çətinlik çəkdiklərini, qarşılıqlı səbrsizlik nümayiş etdirdiklərini bildirmişlər. Lakin zorakılığın digər formaları da qaçılmaz deyil. Belə ki, respondentlərin 14,4%-i maddi sıxıntını, 9,3%-i etik qaydaların qarşılıqlı pozulmasını (kobudluq, xəyanət, hörmətsizlik), 8,1%-i zərərli vərdişlərə aludəçiliyi (spirtli içkilər, narkotik maddədən istifadə etmək və s.), 6,1%-i qısqanclığı ailədə mübahisələrin pozulması səbəbi kimi göstərmişdir ki, bu da zorakılığın digər formalarının baş verməsi hallarına əsas ola bilər. Patriarxal mədəniyyət, dünyagörüşü və stereotiplərin təsirindən yaranan "kişi hər zaman haqlıdır", "onun istəyi əsasdır", "kişiyə olar, qadına olmaz" və s. bu kimi birtərəfli və yanlış yanaşmalar bir çox hallarda zorakılığın əsasını təşkil edir.

Respondentlər "Çətin vəziyyətə düşdükdə kimə müraciət edirsiniz?" sualına əsasən valideynlərinə (51,3%), dost və ya rəfiqələrinə (35,6%) müraciət etdiklərini bildiriblər. Sorğuda iştirak edənlərin 9,7%-i yaxın qohumlara, 3,4%-i isə psixoloqa müraciət etdiklərini bildiriblər. Bütövlükdə, respondentlərin 96,6%-i yaxın insanlara, ailə üzvlərinə müraciət edirlər ki, biz bunun acı nəticələrini, ağır fəsadlarını müşahidə edirik. İstənilən mübahisədə tərəf varsa, maraq varsa, orada məsələnin həllinin obyektiv olması bir qədər çətin olur. Əfsuslar olsun ki, biz hələ də o stereotiplərin daşıyıcılarıyıq və inanırıq ki, bizi qanımızdan, canımızdan olan biri daha yaxşı qoruya bilər. Baş verən məişət zorakılığının səciyyəvi kriminoloji xüsusiyyətlərindən biri onların latentliyinin yüksək olmasıdır. Ailədə baş verən zorakılıq haqqında vəziyyətin ən son həddində polis orqanlarına məlumat verilir. Bir çox hallarda isə bu haqda uzun müddət informasiya verilmədiyindən zorakılığın ağır nəticələri ilə müşahidə olunan cinayətlər baş verir. Bu isə öz növbəsində ailə-məişət zorakılığının qurbanlarının sayına təsir edir.

Lakin bununla yanaşı, son dövrlərdə vətəndaşlar dövlət qurumlarına müraciət edirlər. Bu fikirlərimizi sorğunun digər sualına verilən cavablarla da əsaslandıra bilərik. Belə ki, respondentlər "Ailədə problemlə üzləşsəniz kimin köməyinə arxalanarsınız?" sualına cavab olaraq daha çox özünə (34,1%), valideynlərinin (28,7%) köməyinə arxayın olduqlarını bildirmişlər. Ümumilikdə 37,2% dövlətə (25,3%) və hüquq - mühafizə orqanlarının (11.9%) köməyinə arxayın olduqlarını bildirmişdilər. Artıq vətəndaşlar problemlərini hüquqi müstəvidə həll edilməsinə üstünlük verirlər. Çünki ancaq bu halda o özünü tam müdafiə olunmuş hesab edə bilər.

Fövqəladə vəziyyətdə, böhranlı dövrdə vahid fəaliyyət proqramına ehtiyac yaranır. Belə bir proqramın olması ailə institutumuzun qorunması və daha da möhkəmləndirilməsi, xüsusilə də zorakılığa məruz qalan qadın və qızların müdafiə olunması baxımından əhəmiyyətlidir.

**Ədəbiyyat siyahısı:**

1. «Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamı //www.e-qanun.az
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytı. http:// www.mlspp.gov.az
3. «Məişət zorakılığının qarşısının alınması haqqında» 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az
4. «Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası»nın və «Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 aprel tarixli 89 nömrəli Qərarı. http://www.cabmin.gov.az/?/az/pressreliz/view/662/

**Айнур Вейсалова-Аббасова**

**ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ: ПОЛОЖИТЕЛЬНЫЕ И НЕГАТИВНЫЕ**

**Резюме:** Пандемия Covid-19 заставила людей жить в социальной изоляции. Спустя долгое время население мира столкнулось с такой проблемой, пришлось привыкать к критическим и напряженным условиям жизни. Этот вирус и объявленная пандемия дали возможность всему населению мира увидеть, что происходит вокруг них. К сожалению, мы не осознаем, что быстрая и напряженная жизнь уводит нас от семьи, родственников и даже самих себя. В частности, из-за нехватки времени и большого количества работы люди иногда не могут проводить достаточно времени со своими детьми или супругами. В статье исследуются эти проблемы и даются указания по их решению.

**Ключевые слова:** пандемия, семейные отношения, домашнее насилие, коммуникативные проблемы, психологическая среда в семье.

**Aynur Veysalova-Abbasova**

**THE IMPACT OF THE COVID-19 PANDEMIC ON FAMILY RELATIONSHIPS: PROS AND CONS**

**Summary:** The Covid-19 pandemic has forced people to live in social isolation. After a long time, the world's population faced such a problem and had to get used to the critical and tense living conditions. This virus and the declared pandemic were an opportunity for the whole population of the world to see what was happening around them. Unfortunately, we do not realize that a fast and stressful life takes us away from family, relatives, and even ourselves. In particular, because of a lack of time and a lot of work, people sometimes cannot spend enough time with their children or their spouses. The article examines these problems and provides directions for solutions.

**Key words:** pandemic, family relationships, domestic violence, communication problems, psychological environment in the family

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 28. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**УДК: 31. 390.398.**

**Тамилла Ахмедова**
**Азербайджанский Государственный Университет Культуры и Искусств**
**Доцент**
**E-mail: tamillahikmetqizi@mail.ru**

# ЗНАЧЕНИЕ СОЦИАЛЬНОГО РАБОТНИКА В БОРЬБЕ С НАСИЛИЕМ В СЕМЬЕ

**Резюме**: В статье исследует значимость социального работника в борьбе с домашним насилием. Разрыв между циклами культурной эпохи и социальной динамики ведет за собой размывание традиционных ценностей. Общество, будучи в состоянии аномии неизбежно сталкивается с растущей агрессии. Разрушительный импульс дисгармоничной социальной динамики затрагивает самое ядро, базовую ячейку общества-семью. Построение гражданского общества невозможно без здоровой семьи и домашнее насилие серьезный вызов. Социальная работа в борьбе с домашним насилием- важный инструмент в адаптации традиционных ценностей семьи к деструктивным тенденциям современного мира. Подготовка высококвалифицированных кадров в области социальной работы во многом способствует гуманизации и выживаемости семьи.

**Ключевые слова:** насилие в семье, социальный работник, агрессия, семья, дегуманизация, традиционные ценности.

Все более глубокое внедрение в повседневную жизнь высочайших достижений науки и технологий, наряду с очевидными достижениями, ведет к своеобразной аномии общества. Еще в начале XX столетия философы предупреждали о том, что противоречия между развитием материальной культурой и нравственной стагнации общества ведет к дефициту гуманизма и росту агрессии. Разрушительные Вызовы традиционным ценностям не обошли стороною и атом общества-семью. Определение понимания семьи, ее исторические формы становления, основные признаки и характеристики в современном мире предмет исследования не только этнологии, социологии, философии, антропологии. На сегодняшний день все больше актуализируется правовое осмысление феномена семьи как базовой ячейки общества. Со дня возрождения государственной независимости в Азербайджане, построение гражданского общества является одной из жизненно необходимых задач государственной политики. Правовая, философская, морально-нравственная оценка бытового насилия и формы борьбы с этим злом одна из главных задач в построении общества устойчивого развития. Так 27 ноября 2020 года Президент Азербайджана Ильхам Алиев подписал распоряжение об утверждении «Национального плана действий по борьбе с бытовым насилием в Азербайджанской Республике на 2020-2023 годы».

Изучение международного опыта дает возможность рационализации социальной работы в борьбе с бытовым насилием в семье. Бытовому насилию, наряду с ментальными особенностями, так же присущи и обобщающие характеристики. Международные соглашения по борьбе с бытовым насилием в семье, так же способствуют искоренению зла. Онтология семьи в эпоху глобализации, все чаще затрагивает все большее пространство: страны и континенты. Размежевание в пространстве уязвимых членов семьи вовсе не гарантирует их избавления от различных форм давления агрессора.

Актуализация значимости здоровой семьи для человека и общества, во многом способствует искоренению бытового насилия. Однако у каждой эпохи с присущей именно ей ценностями, существует свое понимание идеальной семьи. Конечно, фундаментальное значение имеют общечеловеческие ценности взаимопомощи и взаимопонимания. Сегодня, когда многие формы традиционного существования семьи испытывают на

прочность вызовы социальной динамики, встает вопрос о ревизии ценностей семьи на предмет ее выживаемости как важнейшего социального института.

Реальность требует принятия новых мер для создания жизнеспособной модели идеальной семьи, в фундаменте которой и общечеловеческие и национальные ценности. Тенденция эксплуатации и спекуляция ценностями с каждым днем увеличивает масштабы. В применении к семье такие созидательные ценности: свобода, верность, долг, самоотверженность, толерантность, родительское почтение, забота, в чрезмерном проявлении, будучи предметом монетизации и спекуляции, несут разрушение. Таким образом, если всестороннее обоснование модели идеала семьи как ядра общества, устойчивого к вызовам, еще переживает свое становление, масштабность деформации семьи ведет к пропасти дикости и варварства.

Влияние идеологии постиндустриального общества на образ жизни семьи стимулирует ее андрогинный характер, что так же удобряет почву противоречий микроклимата ячейки общества. «Девиациям в сфере семейных отношений способствуют такие достижения современной медицины как трансплантация, пластические операции, изменяющие пол и внешний облик, искусственное оплодотворение, выращивание плода in vitro (в пробирке), а также усыновление детей от суррогатных матерей маргиналами, придание легитимности сомнительному родительству гомосексуальных союзов. В семейной сфере происходят деструктивные социальные процессы. Среди них: дезорганизация систем родства, рост межпоколенных конфликтов, ослабление чувств отцовства и материнства, утрата сплоченности родителей и детей. Возрастает угроза целостности и устойчивости семьи - фундаментальной клеточки человеческого общества, объединяющей в себе на протяжении тысячелетий ключевые начала существования любого государства. [1.3]. В числе факторов, влияющих на рост насилия в семье, указываются: алкогольная и наркозависимость, игромания, десоциализация и неумение адаптироваться к изменениям внутри семьи и в окружающей среде, низкий уровень материального достатка и культуры, деструктивная агрессия членов семьи и т.д. Все факторы деформации семьи взаимодополняемы и зачастую выступают в комплексе. Часто порочное влияние виртуального пространства выступает как корень агрессии в семье . Агрессивное поведение подростков объясняется порочным влиянием развлекательной индустрией виртуального мира. Тем не менее исследования доктора Томаса Робинсона из Стэнфордского Университета в 2001 году, Фредерика Зиммермана из Университета Вашингтона в 2005 году приводят к заключению о том, что насилие на экране не есть источник насилия в жизни. Чрезмерное во времени проведение досуга у экрана, ведет к агрессивному поведению зрителя, независимо от содержания сюжета. Таким образом увлеченность виртуальным миром, означает беспризорность ребенка, оторванность его от родительской опеки, нарушение его психогигиены, и является таким образом следствием, а не причиной агрессии подрастающего поколения. Безответственное поведение, отсутствие простейших педагогических знаний и навыков у родителей, а не триллеры и боевики, компьютерные игры-стрелялки делают детей жестокими и бездушными. Тема деформации семьи, ведущей к масштабному хаосу в обществе, занимает значительное место в современной философии. Великий гуманист Альберт Швейцер в книге «Культура и этика» исследует проблему неравномерности развития материальной и духовной культуры, ведущей к глобальному дефициту гуманизма. «Ставшая обычной сверхзанятость современного человека во всех слоях общества ведет к умиранию в нем духовного начала. Косвенно он становится жертвой этого уже в детстве. Его родители, поглощенные жестокими трудовыми буднями, не могут уделять ему нужного внимания. В результате для него безвозвратно оказывается утраченным нечто органически необходимое для его развития. Позже, сам став жертвой перенапряжения, он все больше испытывает потребность во внешнем отвлечении» [2.42] Угроза узкой специализации,

жестокая конкуренция, инфляция значимости сообразительности, практических знаний, творческого и художественного начала в повседневном труде, внушаемая идеология легкомыслия и бездумья, ведет по мнению мыслителя к тому, что « Мы уже не страдаем от того, что в таких-то и таких-то ситуациях не можем больше проявлять подлинно человеческое участие к своим ближним, и в конечном счете деградируем к отречению от истинно человеческих отношений и там , где они возможны и уместны… Мы утрачиваем чувство родства со своими ближними и скатываемся таким образом на путь антигуманности. Когда исчезает сознание, что любой человек нам в какой-то мере небезразличен как человек, тогда расшатываются устои культуры и этики. Регресс гуманности в этом случае является лишь вопросом времени» [2.43]. О разрушительном эффекте привнесения идеологии рыночной экономики в ценностный мир семьи напоминает американский ученый Френсис Фукуяма: «Семья составляет самый нижний уровень общественной жизни, но во многих отношениях и самый важный… Но для многих американцев семья, уже не в широком смысле, а в очень узком («ядерная» семья), является практически единственной знакомой формой общественной жизни или единственной общиной. Столь презираемая пригородная американская семья пятидесятых годов была на самом деле средоточием некой моральной жизни, потому что американцы, не желая бороться, жертвовать собой или терпеть трудности ради своей страны или великого международного дела, часто готовы на это ради своих детей.

Но семья не бывает действенной, если построена на либеральных принципах – то есть когда члены семьи относятся к ней как к акционерному обществу, созданному ради их пользы, а не как к семье, основанной на долге и любви. Воспитание детей или сохранение брака на всю жизнь требует личных жертв, которые выглядят иррациональными с точки зрения расчета затрат и выгод, поскольку истинные плоды прочной семейной жизни зачастую пожинаются не теми, кто берет на себя самые трудные обязанности, а только последующими поколениями. Многие проблемы современной американской семьи – высокий процент разводов, отсутствие родительского авторитета, отчужденность детей и так далее – возникают именно из того факта, что отношение семьи к своим членам строится на строго либеральной почве. То есть, когда семейные обязанности выходят за те рамки, на которые подписывался участник контракта, он пытается условия этого контракта отменить. [3.485]

Маргарет Мид, Эрих Фромм, Конрад Лоренц, Зигмунд Фрейд, Карл Ясперс, исследуя Духовную ситуацию времени, выражали свою неудовлетворенность современной культурой. Эта неудовлетворенность выражалась в том, что современная культура, внеся существенные изменения в значимость традиционных ценностей, не смогла создать адаптационные механизмы выживания для семьи как основы общества. Сегодня таким адаптационным механизмом представляется созидательная, профилактическая деятельность социального работника. Для результативной и эффективной деятельности социального работника в борьбе с бытовым насилием требуется постоянный рост высококвалифицированных кадров. Только высокообразованный, обладающий профессиональной честностью специалист способен вести профилактическую работу по борьбе с бытовым насилием. Профилактика бытового насилия, его квалификация и объективное оценивание, оздоровительная работа с жертвами бытового насилия требует специалиста, обладающего знаниями глобального характера и философского осмысления. Обратим внимание на далеко не полный перечень специальностей в международной практике, исследующих бытовое насилие на академическом уровне: социология культуры и духовной жизни, психология, уголовное право и криминология, уголовно-исполнительное право, социальная структура, социальные институты и процессы, педагогика и т.д. Не секрет так же, что иной раз художественное восприятие сильнее, чем логические доводы, то есть социальный

работник в своей созидательной деятельности, будет более успешен, благодаря знаниям фольклора, эстетики, ораторского искусства. Практические навыки, опыт социального работника, обладающего фундаментальной базой теоретических знаний, дает возможность дальнейшего развития и научного обоснования социальной работы. Подготовка кадров высококвалифицированных социальных работников требует больших ресурсов, но эти кадры во многом решают жизненно важные задачи по оздоровлению общества. Разрыв между новым образом жизни и традиционными ценностями несет к разобщению в семье, ее негуманному характеру взаимоотношений, провоцируя рост насилия в ней.

**Литература:**

1. ХАРЛАМОВ Валентин Станиславович Теория и практика противодействия преступному насилию в семье (системное криминологическое и уголовно-правовое исследование) https://mvd.ru/upload/site125/dissertaciy/uridich_nauki/kharlamov_v_s/Kharlamov_Avtoreferat_27.06.19.pdf
2. Альберт Швейцер. Культура и этика. Издательство «Прогресс». Москва 1973.
3. Фрэнсис Фукуяма. Конец истории и последний человек. Издательство ЕРМАК. Москва 2004.

**Tamilla Əhmədova**

## AİLƏDAXİLİ ZORAKILIQLA MÜBARİZƏDƏ SOSİAL İŞÇİNİN ƏHƏMİYYƏTİ

**Xülasə:** Məqalədə ailə şiddətinə qarşı mübarizədə sosial işçinin əhəmiyyəti araşdırılır. Mədəniyyət ilə sosial dinamikalar arasındakı fərq ənənəvi dəyərlərin aşınmasına səbəb olur. Anomiya vəziyyətində olan cəmiyyət istər-istəməz artan aqressiya ilə qarşılaşır. Uyğun olmayan sosial dinamikanın dağıdıcı impulsu cəmiyyətin əsas hissəsinə - ailəyə təsir edir. Vətəndaş cəmiyyəti qurmaq sağlam bir ailə olmadan mümkün deyil və məişət zorakılığı ciddi bir problemdir. Ailə zorakılığına qarşı mübarizədə sosial iş, ailənin ənənəvi dəyərlərini müasir dünyanın dağıdıcı meyllərinə uyğunlaşdırmaq üçün vacib bir vasitədir. Sosial iş sahəsində yüksək ixtisaslı kadrların hazırlanması ailənin humanistləşməsinə və yaşamasına böyük dərəcədə kömək edir.

**Açar sözlər:** məişət zorakılığı, sosial işçi, aqressiya, ailə, dehumanizasiya, ənənəvi dəyərlər.

**Tamilla Ahmadova**

## THE IMPORTANCE OF A SOCIAL WORKER IN COMBATING DOMESTIC VIOLENCE

**Summary:** In the article, the author explores the importance of the social worker in combating domestic violence. The fundamental challenge of the modern age is: the growing intolerance of society and the lack of humanism. Weakness of traditional values, science and technology, mechanisms of adaptation to high rates of development create ample conditions for the growth of destructive tendencies in society.. Destructive aggression continues to have a negative effect on the family, which is the core of society. The importance of social workers in the fight against domestic violence is vital.

**Key words:** domestic violence, social worker, aggression, family, dehumanization, traditional values.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 22. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:342.7.31.**

**Savvarə Rzaquluyeva**
**Sumqayıt Dövlət Universiteti**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: rsevvare@mail.ru**

# MƏİŞƏT ZORAKILIĞINDA UŞAQ İSTİSMARININ QARŞISININ ALINMASI İSTİQAMƏTİNDƏ SOSİAL İŞİN TƏTBİQİ

**Xülasə**. Uşaq hüquqlarını pozan bütün hallar uşaq zorakılığı sayılır. Psixi və fiziki travmaya səbəb olan davranışlar-zorakılıq, qayğısızlıq və etibarsızlıq uşaqların həyatında ömürlük iz qoyur. Zorakılıq - yaralanma, ölüm, psixoloji zərər, inkişaf pozuntusu, məhrum etməklə nəticələnən və ya böyük ehtimalla nəticələnə biləcək özünə, bir başqa insana qarşı, ya da bir qrup icmaya qarşı təhlükə altında və ya mövcud olan fiziki gücü məcburi olaraq istifadə etməkdir.

**Açar sözlər:** zorakılıq, uşaq, məişət, ailə, sosial, cəmiyyət

Zorakılıq - yaralanma, ölüm, psixoloji zərər, inkişaf pozuntusu, məhrum etməklə nəticələnən və ya böyük ehtimalla nəticələnə biləcək özünə, bir başqa insana qarşı, bir qrup və ya icmaya qarşı təhlükə altında mövcud olan fiziki gücü məcburi olaraq istifadə etməkdir. Dünyada hər beş uşaqdan biri zorakılığa məruz qalır. Daxili İşlər Nazirliyinin məlumatına görə ölkəmizdə uşaqlara qarşı törədilən cinayətlərin 40 faizini məişət zorakılığı təşkil edir. Lakin MDB ölkələri ilə müqayisədə bizdə uşaqlara qarşı cinayətlər və onun cinsi istismar növləri iki – dörd dəfə aşağıdır. [1, 50s]

Ölkəmizdə məişət zorakılığı üstünlük təşkil edir. Bunun səbəbi isə, daha çox valideynlərin övladlarını öz əmlakı hesab etməsi ilə əlaqədardır. Məişət zorakılığının baş vermə səbəblərinə gəldikdə isə buna ailənin gəliri, iqtisadi durumu, valideynlərin işləyib – işləməməsi təsir göstərir. Zorakılığın qarşısı alınmazsa, bu hal təkrarlanır, zorakılıq törətmiş şəxs cəzalanmazsa o əməlinə bəraət qazandırır və eyni hal yenidən baş verir. Hazırda uşaqlara qarşı zorakılığın profilaktikasının üç səviyyəsi müəyyən edilir: İlkin profilaktika, ikinci dərəcəli profilaktika, üçüncü dərəcəli profilaktika. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, dünyada hər il 1 milyon 500 min uşaq zorakılığa məruz qalır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq zorakılığının qarşısının alınması istiqamətində hazırladığı təkliflər əsasında qanunvericilik bir qədər sərtləşdirilib. Bu tip cinayətlərin 14 yaşına çatmayanlara qarşı törədilməsinə və habelə əməlin yetkinlik yaşına çatmayanı tərbiyə etmək və ya ona nəzarət etmək vəzifəsi daşıyan şəxslər tərəfindən törədilməsinə görə, Cinayət Məcəlləsinin 152-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) və 153-cü (əxlaqsız hərəkətlər) maddələrində daha ağır cəza müəyyən edilib. Qanunvericiliyə əsasən, 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olmaya görə (zor tətbiq etmədən) üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Qanunvericiliyə edilən dəyişikliyə əsasən, uşaq 14 yaşadək olduqda bu müddət üç ildən altı ilədək müəyyən edilib” [3, 45 s.].

Uşaq istismarı, ömürlük ciddi nəticələri olan qlobal bir problemdir. Bəzi aşağı və orta gəlirli ölkələrdə son zamanlarda araşdırmalar aparılsa da, hələ də çox məlumat yoxdur. Uşaq zorakılığının öyrənilməsi çətin və məsuliyyətli bir problemdir. Mövcud araşdırmalar ölkədən və istifadə olunan tədqiqat metodundan asılı olaraq çox dəyişir. Araşdırmalar aşağıdakı aspektlərdən asılıdır:

- uşaq zorakılığının tətbiq olunan tərifləri;
- öyrənilmiş uşaq istismarı növü;
- rəsmi statistikanın əhatə dairəsi və keyfiyyəti;
- qurbanlardan, valideynlərdən və ya baxıcılardan hesabat tələb edən sorğuların əhatə dairəsi və keyfiyyəti.

Bununla birlikdə, beynəlxalq araşdırmalar bütün yetkinlərin dörddə birinin uşaqlıq dövründə fiziki istismara məruz qaldığını və hər 5 qadından 1-nin və 13 kişidən 1-nin uşaqlıq dövründə cinsi istismara məruz qaldığını göstərir. Bundan əlavə, bir çox uşaq emosional (psixoloji) istismar və laqeydliyin qurbanıdır.

Hər il təxminən 15 yaşınadək 41.000 uşaq öldürülür. Bu rəqəm problemin həqiqi miqyasını qiymətləndirmir, çünki uşaqlara təcavüzdən ölümlərin əhəmiyyətli bir hissəsi səhvən yıxılma, yanıq, boğulma və digər səbəblərlə əlaqələndirilir. Silahlı qarşıdurma vəziyyətində və qaçqın düşərgələrində qızlar hərbi, təhlükəsizlik qüvvələri, icmalarının digər üzvləri, humanitar işçilər və başqaları tərəfindən cinsi istismara, məruz qalırlar.

**Risk faktorları:** Uşaqlara qarşı sui-istifadə üçün risk faktorları müəyyən edilmişdir. Bu risk faktorları bütün sosial və mədəni mühitlərdə mövcud deyil, lakin uşaq istismarının səbəblərini anlamağa çalışarkən ümumi fikir yürüdülür. Ailələr içərisində və ya cinsi tərəfdaşlar, dostlar və yaşıdları arasındakı münasibətlərdə bir sıra amillər uşaq istismarı riskini artıra bilər, məsələn:

- bir ailə üzvünün fiziki və ya ruhi sağlamlığı və ya inkişaf problemləri;
- digər ailə üzvləri arasında ailə ixtilafı və ya zorakılıq;
- cəmiyyətdə təcrid və ya dəstək dairəsinin olmaması;
- uşağın böyüməsində digər ailə üzvlərindən dəstək olmaması.

**Sosial amillər:** Sosial amillərin bir sıra xüsusiyyətləri uşaqlara qarşı sui-istifadə riskini artıra bilər. Bunlara daxildir:

- cinsiyyət və sosial bərabərsizlik;
- uyğun yaşayış və ya ailə dəstək xidmətləri və qurumlarının çatışmazlığı;
- yüksək səviyyədə işsizlik və yoxsulluq;
- alkoqol və narkotik maddələrə asanlıqla giriş;
- uşaq istismarı, uşaq pornoqrafiyası, uşaq fahişəliyi və uşaq əməyinin qarşısını almaq üçün uyğun olmayan strategiya və proqramlar;
- başqalarına qarşı şiddəti dəstəkləyən və ya tərifləyən, fiziki cəzanın tətbiq olunmasını dəstəkləyən, güclü cinsiyyət rolları tələb edən və ya valideyn-övlad münasibətlərində uşağın statusunu aşağılayan sosial və mədəni normalar;
- yoxsul yaşayış standartlarına və ya sosial-iqtisadi bərabərsizliklərə və ya qeyri-sabitliyə səbəb olan sosial, iqtisadi, sağlamlıq və təhsil strategiyaları.

Sosial işin uşaq zorakılığında tətbiqi uşaq istismarının qarşısının alınması çoxsektorlu bir yanaşma tələb edir. Valideynləri dəstəkləyən və müsbət valideynlik bacarıqlarını aşılayan proqramlar effektivdir. Bunlara daxildir:

- tibb bacılarının dəstək, təhsil və məlumat üçün valideynlərə və uşaqlara ev ziyarətləri;
- valideynlik bacarıqlarını inkişaf etdirmək, uşağın inkişafı ilə bağlı məlumatları genişləndirmək və uşaqlara müsbət münasibət strategiyalarını stimullaşdırmaq üçün ümumiyyətlə qrup şəklində yetişdirmə;
- ümumiyyətlə valideyn dəstəyi və təhsili, erkən uşaqlıq təhsili və uşaq baxımı ilə əlaqəli çoxkomponentli fəaliyyətlər.

Digər profilaktika proqramları da bəzi cəhətlərdən perspektivlidir.

Baş zədələnməsinin qarşısının alınması proqramlarından sui-istifadə (sarsılmış uşaq sindromu və travmatik beyin xəsarəti də adlanır). Tipik olaraq, bunlar sarsılmış körpə sindromunun zərərləri haqqında məlumat vermək və anlaya bilməyən uşaqlara müdaxilələri tövsiyə etmək üçün xəstəxanadan əvvəl gənc valideynləri hədəf alan xəstəxana səviyyəsində proqramlardır.

Uşaqlara qarşı cinsi istismarın qarşısını alan proqramlar. Bunlar ümumiyyətlə məktəblərdə keçirilir və uşaqlara aşağıdakı sahələri öyrədir: bədənə "sahib" olmaq; yaxşı və pis toxunma arasındakı fərq; təhdid edən vəziyyətləri necə tanımaq; necə yox demək;

Etibarlı bir yetkinə sui-istifadə barədə necə danışmaq olar.

Bu cür proqramlar, uşağın cinsi istismarına qarşı qoruyucu amilləri artırmaqda təsirli olur (məsələn, cinsi istismar və qoruyucu davranışlar haqqında məlumat), lakin bu cür proqramların digər şiddət növlərini azaltması barədə məlumat yoxdur.

Bu cür fəaliyyətlər bir uşağın həyatında nə qədər əvvəl baş verərsə, uşaq üçün (məsələn, idrak inkişafı, davranış və sosial səriştəsi, təhsili) və cəmiyyət üçün (məsələn, hüquq pozuntuları və cinayətlərin sayının azaldılması) o qədər faydalıdır.

Əlavə olaraq, hadisələrin erkən tanınması, qurban uşaqlarına və ailələrinə davamlı qayğı ilə birlikdə təkrar istismarı və nəticələrini azaltmağa kömək edə bilər.

Bu cür proqramlar, uşağın cinsi istismarına qarşı qoruyucu amilləri artırmaqda təsirli olur (məsələn, cinsi istismar və qoruyucu davranışlar haqqında məlumat), lakin bu cür proqramların digər şiddət növlərini azaltması barədə məlumat yoxdur.

Qarşısının alınması və qayğı müdaxilələrinin təsirini maksimum dərəcədə artırmaq üçün ÜST bunların dörd addımlıq bir ictimai səhiyyə yanaşması çərçivəsində həyata keçirilməsini tövsiyə edir:

- problemin tərifi;
- səbəblərinin və risk faktorlarının müəyyənləşdirilməsi;
- risk faktorlarının minimuma endirilməsinə yönəlmiş tədbirlərin hazırlanması və sınaqdan keçirilməsi;
- müdaxilələrin effektivliyi barədə məlumat yaymaq və sübut olunmuş effektiv müdaxilələri genişləndirmək.

Uşaq istismarının qarşısının alınmasına dair dəlillərə əsaslanan texniki və normativ rəhbərlik ÜST tərəfindən həyata keçirilir. ÜST uşaq istismarının dəlillərinin əsaslı qarşısının alınması və bu sahəyə investisiya qoyuluşu üçün beynəlxalq dəstəyin artırılmasına çağırışlar, seçilmiş aşağı və orta gəlirli ölkələrdə dəlil əsaslı uşaq istismarının qarşısının alınması proqramlarına texniki dəstək verir.

Bu problemdə ilk növbədə zorakılığın qurbanları olan uşaqlarla işlənməlidir. Daha sonra zorakılığın yaranma səbəbini araşdırmaq bu istiqamətdə profilaktik tədbirlər həyata keçirilməlidir. Uşaq zorakılığının yaranmasının əsas səbəbi uğursuz ailələrin sosial vəziyyətidir və bu səbəbdən maarifləndirmə işləri daha da genişləndirilməlidir. Uşaqlar cəmiyyətin zəif təbəqəsidir və hüquqlarının pozulması hallarına məruz qalırlar. Uşaqlar özlərini müdafiə edə bilmirlər, çünki onlar yaxınları tərəfindən zorakılığa məruz qalırlar. Uşaqlar üçün ən təhlükəsiz yer onların doğulub boya-başa çatdıqları evləri və ailələridir. Statistikaya görə, dünyada 14 yaşına qədər 2,5 milyon həddi-buluğa çatmamış uşaq valideyni tərəfindən döyülür. Sərt rəftardan xilas olmaq üçün 50 mindən çox uşaq hər il evdən qaçır. Məişət zorakılığına məruz qalan uşaqların sayı 50 faizi keçib. Məişət zəminində ailələrdə baş verən cinayətlərin 30-40 faizi uşaqlarla bağlı olur. Azyaşlılara qarşı törədilən mənəvi və fiziki zorakılıq ailə çərçivəsindən çıxaraq cəmiyyətin müxtəlif sferalarını əhatə etməyə başlayıb. Bir çox valideynlərin inadla "uşaqların özləri zorakılığın yaranmasına səbəb olur" deməsinə baxmayaraq, qanun bütün hallarda valideyni məsuliyyətə cəlb edir.

**Ədəbiyyat siyahısı:**

1. Bayramov Ə.C., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Azərbaycan Dövlət Nəşriyyat. Bakı, 1986, 210s
2. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, ADPU, 2005, 150s.
3. Erix Fromm"Marksın İnsan konsepsiyası", Solfrant, 2012, 144s.
4. AZSIIB Sosial işdə etik qaydalar .
5. Sosial iş. https://az.m.wikipedia.org/wiki/Sosial_i%C5%9F
6. Sosial iş mütəxəssisi.http://psikososyalhizmet.com/blog/shu/
7. Social Work Values and Ethics Frederic.G.Reamer.1970

**Саввара Рзакулуева**

## ПРИМЕНЕНИЕ СОЦИАЛЬНОЙ РАБОТЫ В СФЕРЕ ПРЕДОТВРАЩЕНИИ ЭКСПЛУАТАЦИИ ДЕТЕЙ ПРИ ДОМАШНЕМ НАСИЛИЯХ

**Резюме:** Все случаи нарушения прав ребенка считаются жестоким обращением с детьми. Поведение, которое вызывает психическую и физическую травму-насилие, отсутствие заботы и отсутствие безопасности-накладывает пожизненный отпечаток на жизнь детей. Насилие - это применение физической силы, находящейся под угрозой или имеющей место в отношении себя, другого человека или группы сообществ, которое может привести к травме, смерти, психологическому повреждению, нарушению развития или лишению свободы или же, с большой вероятностью, к смерти.

**Ключевые слова:** насилие, ребенок, домохозяйство, семья, социальная, общество.

**Savvara Rzaquluyeva**

## APPLICATION OF SOCIAL WORK OF PREVENT CHILD ABUSE IN DOMESTIC VIOLENCE

**Summary:** All cases of violation of children's rights are considered child abuse. Behaviors that cause mental and physical trauma — violence, carelessness, and insecurity — leave a lasting mark on children's lives. Violence is the use of physical force that endangers or threatens to kill oneself, another person, or a group of communities, resulting in injury, death, psychological damage, developmental disorder, or death.

**Key words**: violence, children, household, family, social, society.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 14. 04. 2021**
**Məqaləni çapa tovsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: dos. Rəşad Əsgərov**

**UOT:342.7: 390.**

**Aygün Eyvazlı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Kulturologiya üzrə fəlsəfə doktoru**
**E-mail: nigar.mustafayeva.96@bk.ru**

# CƏMİYƏTİN ƏN BÖYÜK BƏLASI – ZORAKILIQ

**Xülasə:** Cəmiyyətin bu gün də, ən aktual və həlli vacib problemlərindən biri olan zorakılıq bizi daim düşündürür. Zorakılıq qurbanı olan şəxslər, onların ailələri, övladları da mütləq şəkildə bundan öz mənfi paylarını alırlar. Həyata keçirilən çoxsaylı layihələr, qəbul edilən qanunlar sırf zorakılığın qarşısının alınması məqsədini daşıyır. Lakin nəzərə almaq lazımdır ki, yalnız başqalarının bu sahədə yeniliklər etməsini gözləmək düzgün addım və yanaşma deyildir. Kimliyindən asılı olmayaraq, hər kəs öz öhdəsinə düşən məsuliyyəti düzgün dərk etməli və mühüm problemin həlli istiqamətində əlindən gələni etməyə çalışmalıdır.

**Açar sözlər:** gender, zorakılıq, psixoloji zorakılıq, məişət zorakılığı, bərabərlik, qadın, kişi

XXI əsrdə keçmiş zamanlardan miras qalmış, həll olunması böyük çətinliklərlə müşayiət edilən ümumbəşəri problemlərdən biri zorakılıq problemidir. Dərin kökləri olan zorakılıq müasir dövrdə sosial bəlaya çevrilmişdir və sözlə təhqirdən tutmuş terror aktlarına qədər, dövlətlər arasında baş verən müharibələrdə təzahür edir, qəddarlıq səviyyəsinə görə ağır və ya daha ağır cinayətlərin törədilməsinə gətirib çıxarır. Dünya Səhiyyə Təşkilatının verdiyi tərifə görə, zorakılıq - fərdi, qrup, sosial, mədəni və mühit faktorlarının qarşılıqlı təsiri nəticəsində meydana çıxan ümumbəşəri fenomendir. İnsan hüquqları ilə bağlı beynəlxalq qanunvericilik sənədlərində zorakılıq şəxsin fəaliyyəti və iradəsinin məhdudlaşdırılması və ya dəyişdirilməsi məqsədilə ona qarşı fiziki, mənəvi, psixoloji və digər hüquqa zidd əməllərin işlədilməsinə deyilir. Zorakılığın yaşla, eləcə də cinslə əlaqəsi vardır, müxtəlif növləri (kollektiv, şəxsiyyətlərarası, özünə qarşı) və formaları (fiziki, cinsi, psixoloji, qayğı göstərməmək və qəsdən zərərvurma) mövcuddur.

Dünya təcrübəsinə əsasən məişət zorakılığı yoxsulluqla sıx əlaqəlidir. İfrat yoxsulluq və marginalizasiya şəraitində məişətdə zorakılıq halları artır, onun dərk edilməsi çətinləşir və qarşısının alınması tədbirləri zəif və aşağı səviyyədə olur.

Hal-hazırda yoxsulluq hər bir ölkənin tərəqqisi üçün ən ciddi maneələrdən biri hesab edilir. Onunla mübarizə hökumətlərin və beynəlxalq təşkilatların diqqət mərkəzində duran əsas problemdir. Bu istiqamətdə aparılan işlər göstərmişdir ki, yoxsulluğu yalnız iqtisadi məsələlərin həlli ilə aradan qaldırmaq mümkün deyil. Görülən işlərin səmərəsi və davamlılığı, eyni zamanda insan potensialının gücləndirilməsi, mənəviyyatın saflaşdırılması şəxsiyyətlərarası münasibətlərdə tolerantlığın, xoşməramlığın üstün tutulması vasitəsilə cəmiyyətdə qeyri-aqressiv mühitin yaradılmasından asılıdır.

Şiddət, güc və təzyiq tətbiq etmək bir insana fiziki və ya mənəvi zərər verən vəziyyətlərdir. Bunu ümumilikdə zorakılıq adlandırırıq. Zorakılıq dedikdə "hücum etmək", "güc tətbiq etmək" kimi hallar nəzərdə tutulur. Zorakılıq və onun növləri müxtəlifdir və onları bu cür qruplaşdıra bilərik:

- Psixoloji zorakılıq
- Fiziki zorakılıq
- İqtisadi zorakılıq

Zorakılıq qarşı tərəfi və ya tərəfləri öz istəyinə uyğun davranışa məcbur edən, zorlayan güc tətbiqi üsuludur. Zorakılıq dedikdə çox insanın ağlına ilk olaraq, "döymək", "təzyiq göstərmək" kimi fiziki məsələlər gəlir. Lakin zorakılıq sadəcə fiziki deyil, eyni zamanda psixoloji olaraq da həyata keçirilir və bu heç də fiziki zorakılıqdan geri qalmır.

Psixoloji zorakılıq bir çox fərqli yoldan izah edilə bilər və psixoloji təzyiqdən əsl zorakılıq hadisələrinə qədər inkişaf edə bilər. Psixoloji zorakılıq insanların bir-biri ilə ünsiyyət halında olduğu hər hansı bir mühitdə - məktəb, ailə, iş, ev və s. yerlərdə meydana gələ bilər. Psixoloji zorakılıq ictimai qruplar və sosial siniflər arasında belə mövcuddur.

Psixoloji zorakılıq davranışları ləqəb qoyma, şifahi ya da yazılı istismar, fəaliyyətlərin xaricində tutulma, fiziki istismar ya da təzyiq etməyi əhatə edə bilər.

Ailə zorakılığı bir ailə üzvünün ailənin digər üzvlərinə qarşı təcavüzkar davranışıdır. Buraya hər cür münasibət və davranış, təhqir, təhdid, təcavüz, məcburi evlilik və s.) daxildir. Qeyd etmək lazımdır ki, şiddət insanların bədənində və mənəvi aləmində bərpa edilməsi çətin olan yaralara səbəb olur. Elə yaralar ki, onların mənfi əks-sədası daim xatırlanır, unudulmur və insanın bütün həyatı boyu onunla yaşayır.

Məişət zorakılığı və ya ailədaxili şiddət dedikdə, adətən ərin arvadını döyməsi, qadına qarşı tətbiq olunan şiddət, ailə üzvlərinə güc tətbiq etmək, dava kimi hallar nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, məişət zorakılığının kliniki və hüquqi aspektləri vardır. Hüquqi aspekt dedikdə, burada məişət zorakılığının qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikası qanunları nəzərdə tutulur. Həmin qanuna əsasən, "yaxın qohumluq münasibətlərindən, hal-hazırda və ya əvvəllər birgə yaşamaq halından sui-istifadə etməklə, bu qanunun aid edildiyi şəxslərdən birinin digərinə qarşı qəsdən fiziki və ya mənəvi zərər yetirməsidir". Kliniki aspektə gəldikdə isə o, yeniyetmələr, gənclər və böyüklərin öz intim partnyorlarına qarşı törətdikləri fiziki, cinsi zorakılıq halları nəzərdə tutulur.

Müasir dövrümüzdə də əfsuslar olsun ki, çox yayılmış olan ailədaxili zorakılıq qurbanın ruhi sağlamlığına mənfi təsir göstərir. Uşaqlıq dövründə ailədə emosional, fiziki zorakılığa məruz qalan uşaqların yetkin yaşlarında müxtəlif formalarda və zehni problemlərlə qarşılaşmaları qaçınılmazdır.

Qeyd etmək lazımdır ki, bu zorakılığı həyata keçirən şəxs əslində bilərək və ya bilməyərək hər hansısa bir nəzarət funksiyasını yerinə yetirməyə çalışır. Zorakı şəxs bir növ bu yolla qurban üzərində dominantlıq nümayiş etdirməyə, nəzarət əldə etməyə çalışır, özünü mütləq güc sahibi kimi qəbul etdirmək istəyir. Həmçinin, qeyd etmək lazımdır ki, məişət zorakılığı zamanı zorakı şəxsin istifadə etdiyi zorakılıq bir növ olmur, sanki daim biri digərini əvəz edir. Adətən, fiziki və psixoloji zorakılıqla yanaşı, məişət zorakılığı qurbanları cinsi zorakılığın qurbanına da çevrilə bilirlər. Azərbaycanda ailədə şiddət görən qadınların və uşaqların sayı digər ölkələrdən az deyil, bəlkə də əksinə, bəzi ölkələri üstələyir. Ona görə də, ailədaxili zorakılıqla üzləşənlər üçün də sığınacaqların yaradılmasına böyük ehtiyac var. Lakin bəzi mütəxəssislər hesab edir ki, hazırkı dövrdə cəmiyyətimiz buna hazır deyil. Fikirlərini onunla əsaslandırırlar ki, Azərbaycan qadınlarında komplekslər çox olur, ətrafın onun haqqında nə düşünəcəyinə böyük diqqət yetirir, hətta çıxılmaz vəziyyətlərdə qalsalar belə, bir çox hallarda bunu gizlətməyə çalışırlar. Belə ki, təzyiq görmüş qadın özünü müdafiə etmək üçün sığınacağı seçərək bir neçə gün və ya bir neçə ay evindən uzaqlaşarsa, sonradan cəmiyyətin, ata-anasının onu qəbul etməyəcəyini düşünür. Bir sözlə, milli xüsusiyyətlərdən gələn bəzi məsələlər sığınacağın yaradılmasının reallaşması üçün maneədir.

Şiddət istər fiziki, istər emosional, istərsə də cinsi olsun, insanın bədənində və mənəvi aləmində düzəlməz yaralar əmələ gətirir. Bu səbəbdən də gözardı edilməməli, inkar edilməməli və son dərəcə mühüm əhəmiyyət kəsb edən bir mövzu olduğu bilinməlidir.

Ailə daxilində uşaqlar şiddətdən çox təsirlənirlər. Ailə zorakılığına şahid olan uşaqlar qorxularını, hirslərini, kədərlərini göstərməyə və ya onları basdırmağa meyillidirlər. Bu səy şüurlu bir səy deyildir. Ailə üzvlərinin bu vəziyyəti və hissləri uşaqla müzakirə etmələri vacibdir. Uşağa güvən, inam verilməli, ailə təməli dərindən qorunmalıdır.

Şiddətə şahid olan uşaq, şiddətə görə özünü günahlandıra bilər və məsuliyyət hiss edə bilər. Bu müddətdə valideynlərin ona bu vəziyyətin onunla əlaqəli olmadığını dəqiq və aydın şəkildə söyləməsi vacibdir. Bundan əlavə, uşaq ananı və ya atanı günahlandıra bilər. Bu

vəziyyətdə uşaq mühakimə, tənqid və müdafiə olmadan dinlənilməlidir. Axı həyata yenicə qədəm qoyan və sadəcə ailədaxili şiddət görən övlad bu dünyaya inam hissini özündə formalaşdırmaqda çətinlik çəkəcək.

Ailədə şiddətə şahid olan bir uşaq şiddət göstərməyə başlaya və ya gələcəkdə buna meyilli ola bilər. Məsələn, dostunu vurmaq və ya dostunu incitmək kimi problemli davranışlar məktəbdə özünü göstərə bilər. Bu zaman şiddətin əslində yanlış bir davranış olduğu izah edilməli və duyğularını necə ifadə edəcəyi və bu şiddət hissi ilə necə davranacağına dair təlimat vermək vacibdir. Ancaq ailədəki şiddətli hadisələr davamlı olaraq baş verirsə və çox şiddətlidirsə, uşaq bu hadisələrdən yalnız təklif və rəhbərliklə təsirlənməyəcəkdir. Belə bir vəziyyətdə peşəkar dəstək alınması mütləqdir.

Ailə uşağa daşıya bilmədiyi yükləri verməməlidir. Zorakılığın qurbanı tərəfindən uşaqdan kömək istəmək, uşaqdan tərəf tutmasını istəmək və ya ona işarə etmək, aralarında olanları uşağa izah etməsi kimi hallar, digər valideynləri ləkələmək uşağın duyğu inkişafını son dərəcə narahat edir və səhv yanaşmalardır. Uşaq dözə bilmədiyi bu yüklərlə yüklənir və patoloji təsir ortaya çıxmağa başlayır. Eşitməməsi lazım olsa da, uşaq daxili aləmində eşitdiklərindən özünə tapşırıqlar çıxarır. Bu tapşırıqları heç vaxt yerinə yetirə bilmədiyi üçün patoloji olaraq anormal bir günah yaranır. Sonrakı yaşa və yetkin yaşa qədər psixoloji problemləri olan bir insan günahkarlıq psixologiyası altına girir və əlaqəsi olmayan bir çox vəziyyətdə özünü günahlandırır.

Şiddət, ünsiyyət və dialoqun yetərli olmadığı, insanların hörmət və inamının zədələndiyi yerlərdə olur. Kişi sözünü keçirmək, qadını sıxışdırmaq, çatışmazlıqlarını örtmək və gücünü göstərmək üçün şiddət tətbiq etməyə başlayır. Şiddət tətbiq etdiyi an, kişinin ən zəif olduğu zamandır. Başqa sözlə, özləri ilə problemi olan və özünə inam problemi olan kişilər şiddətə əl atırlar.

Şiddətdən istifadə edilməsi öyrənilə biləcək bir davranışdır. Ən vacib öyrənmə mənbəyi cinayətkarın öz ailəsidir. Uşaqlıqda və yeniyetməlikdə məişət zorakılığının tətbiq olunduğu bir mühitdə böyüyənlərin şiddət göstərmək meylinin daha yüksək olduğu müşahidə edilmişdir. Bundan əlavə, şiddətin cəmiyyət tərəfindən paylaşılan və çox pis olmayan, hətta lazımlı bir davranış forması kimi qəbul edilməsi və nəsildən-nəslə ötürülməsi bizə şiddətin mədəni və sosial ötürülməsinin olduğunu göstərir. Cəmiyyətlərin ünsiyyət bacarıqlarının qeyri-kafiliyi, hissləri və düşüncələri təxribat xarakterli şəkildə ifadə etmə vərdişi, şüursuz və digər insanı anlamadan etdiyimiz ittihamlar, problemli şərəf və əxlaq anlayışı, müraciət meylinin sosial səbəbləri sırasına daxil edilə bilər. Yoxsulluq, həyatda uğursuz olmaq və gözləntilərin yerinə yetirilməməsi kimi sosial-iqtisadi təzyiq amilləri də şiddətə səbəb olur. Həyatda yaşanan çətinliklər, haqsızlıqlar, məruz qaldığımız travmalar insanlarda hiddət yığılmasına səbəb olur.

Zorakılıq probleminin mürəkkəbliyindən irəli gələn ümumiləşdirilmiş yanaşma əsasında preventiv siyasətin işlənib hazırlanması zərurəti ön plana çıxır. Bu siyasət yüksək səmərəlilik, insan ehtiyatlarından istifadə, hərtərəfli koordinasiya, inteqrasiya səviyyəsi (üfüqi inteqrasiya - bütün səviyyələrdə, zorakılığın hər cür növü ilə bağlı müxtəlif insanlar və agentliklər arasında əlaqələr; şaquli inteqrasiya - ümummillidən yerli səviyyəyə qədər zorakılıqla bağlı müxtəlif sahələr üzrə strateji əlaqələndirmə), səbəblərin araşdırılması əsasında işlərin görülməsi, ehtiyat və cəza tədbirlərinin təşkili, gender məsələləri, əlil insanların problemlərinin həlli və digər məsələləri əhatə etməlidir. Preventiv siyasətin əsas prinsiplərini zorakılıq qurbanlarını nəzərdə tutan yanaşma (onlara dəstək və məsləhətlərin verilməsi, müxtəlif ehtiyacların təmin edilməsi, gender, etnik mənsubiyyət faktorlarının nəzərə alınması, sosial ədalətin bərpası, ictimai könüllülərin cəlb edilməsi, fərdi yanaşma və lokal çeviklik (yerli təşəbbüskarlıq), obyektiv planlaşdırma və mütəmadi qiymətləndirmə) təşkil edir. Bu siyasət çərçivəsində zorakılığın qarşısının alınması üzrə yeni üsulların işlənməsi, yeni bacarıqların və funksiyaların inkişaf etdirilməsi, sahələrarası araşdırmalar taktikasının (sosial strukturlar və sosial həmrəylik, mədəniyyət, iqtisadiyyat, informasiya mübadiləsi, gender məsələləri, metodologiyanın inkişafı və s.) müəyyən edilməsi zəruridir.

Məişət zorakılığı spesifik olaraq, genderlə bağlı olan bir davranışdır. Zorakılığı törədən tərəflərin əfsuslar olsun ki, böyük əksəriyyətini kişilər təşkil edir. Məişət zorakılığı çox zaman qadına qarşı törədilən bir zorakılıq olduğu üçün buna gender əsaslı zorakılıq da deyilir. BMT-nin Baş Assambleyasının 1993-cü il tarixli deklarasiyasına əsasən, "gender əsaslı zorakılıq ictimai və şəxsi həyatda qadına qarşı törədilən cinsi, fiziki, psixoloji zədə və sarsıntı ilə nəticələnən və ya nəticələnə biləcək zorakılıq aktıdır".

**Ədəbiyyat siyahısı:**


1. http://www.scfwca.gov.az/store/media/cedaw_az_ministries%5B1%5D.pdf
2. http://anl.az/el/Kitab/2016/2014-159.pdf
3. Etika və gender: sosial əxlaqi davranışın təhlili. Bakı- 2007
4. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Bakı- 2018


**Айгюн Эйвазли**

**ВЕЛИЧАЙШИЙ БЕДА ОБЩЕСТВА - НАСИЛИЕ**

**Резюме:** Насилие - и по сей день является одной из самой актуальной и важной социальной проблемой современного общества, которая заставляет постоянно задумываться над ней. Жертвы насилия, их семьи и дети всегда неизбежно получают свою долю насилия. Реализованы многочисленные проекты и законы по предотвращению насилия. Однако следует отметит, что просто ждать, пока другие начнут вводить новшество в этой области, не является правильным шагом и подходом. Независимо от своей личности каждый должен осознавать свои обязанности и делать всё возможное, чтобы решить эту важную проблему.

**Ключевые слова:** пол, насилие, психологическое насилие, домашнее начилие, равенство, женщина, мужчина

**Aygun Eyvazli**

**THE GREATEST SCOURGE OF SOCIETY IS VIOLENCE**

**Summary:** Violence is one of the most complicated social problems on a top of nowadays society, which is considering be solving and brainstorming on it. Victims of violence, their families and children inevitably get their share of it. Numerous projects and laws are aimed at preventing violence. However, it is important to keep in mind that just waiting for others to innovate in this area is not the right step and approach. Regardless of their identity, everyone should be aware of their responsibilities and try to do their best to solve an important problem.

**Key words:** gender, violence, psychological violence, domestic violence, equality, woman, man

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 16. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**

**UOT: 342.7:390: 327.**

**Fəridə Cəbrayılova**
**Sumqayıt Dövlət Universiteti**
**Fəlsəfə üzrə fəlsəfə doktoru**
**E-mail : cebrayilova_fira@mail.ru**

# MƏİŞƏT ZORAKILIĞINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR VƏ ONLARA QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

**Xülasə:** Təqdim olunan məqalədə insan hüquq və azadlıqları problemi şərh olunmuş, məişət zorakılığı və onun aradan qaldırılması yolları işıqlandırılmışdır.

**Açar sözlər:** zorakılıq, insan hüquqları, məişət zorakılığı, ailə, zərərçəkmiş şəxs

Tarixə nəzər salsaq görərik ki, insanların rifahını və ədaləti təmin etmək üçün müxtəlif sistemlər və bəyannamələr mövcud olmuşdur: Böyük Azadlıqlar Xartiyası (15 iyun 1215-ci il İngiltərə), Hüquqlar haqqında qanun (1689-cu il Böyük Britaniya), İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi (Fransa, 1789-cu il), Amerika Konstitusiyası və Hüquqlar Qanunu (1791-ci il) və s. Sonralar insan hüquqlarının və bununla bağlı qanunauyğunluqların tənzimlənməsi missiyasını 20-ci əsrdə Beynəlxalq Millətlər Təşkilatı öz üzərinə götürdü. İyirminci əsrin ortalarında insan hüquqlarının ortaya çıxmasına iki amil təsir etdi. Birinci amil - müstəmləkə xalqlarının öz müqəddəratlarını təyinetmə hüquqlarından irəli gələrək xarici təsirlərdən azad olmaları üçün apardıqları mübarizə idi. Digər amil ikinci Dünya müharibəsinin nəticələri ilə bağlı idi: Nasist Almaniyasının küllü sayda insan məhvi bütün dünyanı dəhşətə gətirmişdi və bununla bağlı dünyanın hər yerindən insan hüquqları standartlarının qurulmasına çağırışlar edilirdi. Bu çağırışlar 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılmasında əsas rol oynadı və insan hüquqları ilə bağlı bəyannamə BMT-nin Nizamnaməsində öz əksini tapdı.

İnsan hüquq və azadlıqlarının qorunması demokratik inkişafın və vətəndaşlıq üzrə təlimlərin ayrılmaz tərkib hissəsidir. Bununla belə, ədalət və insanlıq problemi yalnız hüquqi sənədlərdə öz əksini tapmayıb, bu məsələ əksər dünya dinləri üçün səciyyəvi olan xüsusiyyətlərdir.

Bəs insan hüququ nədir? Bütün insanlara həmişə və hər yerdə bərabərhüquqluluq xasdır. İnsan hüququ insanın əsas tələbatlarını əks etdirir: təməl standartları hazırlayır, bu standartlar insan ləyaqətini qoruyub saxlamaqla insanın onsuz mövcudluğunu qeyri-mümkün hesab edir [1.16].

Zorakılıq insanın hüquq və azadlıqlarının pozulması, bir insanın digərinə qarşı öz məqsədi naminə emosional və ya məcburi hərəkətidir. Bu problemin mahiyyəti fəlsəfi, psixoloji, kulturoloji və eyni zamanda maarifləndirici yanaşma tələb edir.

Məişət zorakılığı dedikdə, daha çox ailədaxili zorakılıq nəzərdə tutulur. Yəni bu ifadə özünü adında ehtiva edir, belə ki, məişət zəminində baş verən zorakılıq bir-biri ilə şəxsi münasibətdə - nikahda və ya keçmiş nikahda olan insanlar, övladla valideyn arasında baş verir. Məişət zorakılığı zamanı xəsarət alan tərəflə zor tətbiq edən tərəf daima ünsiyyətdə olur və çox zaman xəsarət alan tərəf digər tərəfdən maddi cəhətdən asılı olur. Yəni, küçədə bizə zor tətbiq edən insanla hər gün görüşmürük və eyni evdə yaşamırıq. Bu zaman ailədaxili konfliktlə zorakılığı bir-birindən fərqləndirmək lazımdır. Konfliktlə zorakılığın prinsipial fərqi ondan ibarətdir ki, ailədaxili konflikt hansısa konkret problemin mənbəyində baş verir və həlli hardasa nəzəri cəhətdən mümkün sayılır, məsələn psixoloqun köməyi ilə və s. Belə demək mümkünsə, konfliktin başlanğıcı və sonu var. Məişət və ya ailədaxili zorakılıq isə ailənin bir üzvünün digərinə qarşı mənəvi və ya fiziki zor tətbiq etməsidir ki, bunun da mənbəyində hökmranlıq, digərinin davranışlarına nəzarət və ya müxtəlif səviyyələrdə şəxsiyyətinə təzyiq etmək niyyəti dayanır.

Cəmiyyətdə məişət zorakılığı ifadəsi dedikdə, ilk ağla gələn fiziki zor tətbiq etməkdir;

yəni, qarşı tərəfə əl qaldırmaq. Qeyri-sağlam münasibətlər zamanı çox zaman qadına cəmiyyət və mentalitet adından basqılar tətbiq edilir: "camaat nə deyər", "uşağa ata lazımdır", "hər söz-söhbətə görə ailə dağıtmaq olmaz" və s. Digər yanlış tendensiya "qurban"ı günahlandırmaqdan ibarətdir, guya ki, kişi və ya qadın ümumi dil tapa bilsələr zorakılığa son qoyulacaq.

Belə bir psixoloji faktor mövcuddur ki, uzun müddət davam edən təzyiq, zor tətbiqetmə nəticəsində zorakılığın qurbanı olan şəxs inanır ki, əgər qarşı tərəfin dediklərinə əməl etsə aqressor yumşalacaq, rəhmə gələcək və buna görə də qarşı tərəfin hər istəyini yerinə yetirməyə, onunla emosional bağ qurmağa çalışır. Lakin bunlar illüziyadan başqa bir şey deyildir.

Çox zaman zorakılıqla üzləşən şəxs onun müxtəlif növləri ilə üzləşmiş olur:

- mənəvi
- fiziki
- psixoloji
- iqtisadi

Məişət zorakılığının bu növləri bir-birilə sıx əlaqədədir. Məsələn, zorakılıq zamanı fiziki zərbə ilə yanaşı zərərçəkən daha çox mənəvi zərbə alır. İqtisadi zor tətbiqetmə zamanı digərinin maliyyə vəsaitinin manipulyasiya edilməsi və ya istismar edilməsi baş verir. Belə ki, zorakılıq zamanı aqressor çox zaman bütün bu vasitələrin hamısından istifadə edir.

Bəs məişət zorakılığı hansı nəticələrə gətirib çıxara bilər və nədən qaynaqlanır? İlk növbədə onu qeyd edək ki, məişət zorakılığı ailənin bütün üzvlərinə təsir edir və onlarda ilk növbədə qorxu yaradır (yuxu pozğunluğu, qaranlıqdan qorxma və s.) Məişət zorakılığı zamanı əgər ailədə uşaq varsa, o fiziki zərbə almasa belə, dərin mənəvi travma almış olur. Zorakılıq zamanı bir sıra sinir pozğunluğu və komplekslər yaranır: əsəbilik, daima gərginlik, intihara, zərərli vərdişlərə meyillilik, özünəqapanma, həyatın mənasızlığı barədə düşüncələr, stress, depressiya, həqiqi, sağlam münasibətlərin mövcudluğuna inamsızlıq və s. Fiziki səviyyədə orqanizmin müxtəlif hissələrində müxtəlif səbəbsiz ağrılar müşayiət olunur.

Müasir cəmiyyətdəki gender stereotipləri ailə həyatının bütün aspektlərinə təsir etməyə davam edir. Cinsi stereotiplərin təsiri altında oğlan və qız uşaqlarının "xüsusi" təhsili həyata keçirilir. Qədim zamanlardan bəri qızlara, onların davranışlarına daha sərt tələblər qoyulur.

Oğlanlarla ünsiyyət qurarkən isə onlar fiziki gücə, liderliyə təşviq olunur. Ənənəvi olaraq kişi rəhbərlik (başçı), təminatçı (çörək verən), mühafizəçi kimi, qadın isə gündəlik məsələlərin həllinə, rahatlıq yaratmağa, uşaq böyütməyə daha çox istiqamətlənir. Kişilərlə qadınların münasibətlərində qarşılaşdıqları problemlərin çoxunun kişilərlə qadınların tamamilə fərqli olduqlarının iddia edilməsidir.

A.V. Lysova, ailədaxili zorakılığın səbəbini aşağıdakı faktorlarla müəyyənləşdirir: yoxsulluq, aşağı gəlir, ailənin sosial bir qurum kimi yaxınlığı (məxfiliyi, həyat şərtləri ilə əlaqəli stres, ilk növbədə emosional gərginlik və sıxlıq, həmçinin ər və arvad arasında paylaşmada bərabərsizlik [2.12].

Cəmiyyətin müasir inkişaf dövründə məişət zorakılığı, şiddət problemi bəşəriyyətin güclü və zəifə bölünməsi ilə əlaqəli deyil, cinslərin özünü təsdiq etməsi və statuslarından və ya güclərindən sui-istifadə, həmçinin emosionallıq və özünə hakim olmamaqla əlaqəlidir. Yaxın insana qarşı hörmət hissinin itməsi də zorakılığı şərtləndirən amillərdəndir.

Məişət zorakılığının qarşısının alınması çox aktual, həlli vacib sayılan problemdir. Bunun bir çox həlli yolları mümkündür: həm inzibati, həm hüquqi, həm maarifləndirici istiqamətlərdə. İlk növbədə zorakılığa qarşı qanunvericilikdir ki, respublikamızda bu "Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu" ilə tənzimlənir [3, 2]. 20 bənddən ibarət bu qanunda məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər, qarşısının alınması üçün qabaqlayıcı tədbirlər, qanunun pozulmasına görə məsuliyyət və s. qaydalar nəzərdə tutulmuşdur.

İkincisi, ailə zorakılığının kökünü kəsmək üçün effektiv dövlət proqramının həyata keçirilməsidir. Hüquq-mühafizə orqanlarının işçiləri, məhkəmələr və digər dövlət qurumlarının

nümayəndələri məişət zorakılığı hallarına cavab verən və zorakılıq qurbanlarının müdafiəsini təmin etmək üçün müxtəlif təlimlərin aparılmasıdır.

Üçüncüsü, ictimaiyyəti məişət zorakılığı barədə məlumatlandırma: siyasi liderlər, nüfuzlu dövlət məmurları, həmçinin tanınmış ictimai xadimlər məişət zorakılığını ictimailəşdirməli, ictimai rəyi nəzərə alaraq bu halı qınaq obyektinə çevirməlidirlər. Cəmiyyətdə heç kim məişət zorakılığına göz yummamalı və ona haqq qazandırmamalıdır.

**Ədəbiyyat siyahısı:**


1. “Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu” Bakı şəhəri, 22 iyun 2010-cu il, № 1058-IIIQ
2. Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, сентябрь 2008, с.350
3. Лысова, А. В. Физическое насилие над женщинами в Российских семьях / А. В. Лысова // Социологические исследования. – 2008. – № 9


**Фарида Джабраилова**

**ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ ДОМАШНЕМУ НАСИЛИЮ, И МЕРЫ ПО БОРЬБЕ С НИМИ**

**Резюме:** В статье раскрывается проблема прав и свобод человека, освещается насилие в семье и способы его устранения.

**Ключевые слова:** насилие, права человека, домашнее насилие, семья, жертва

**Farida Jabrailova**

**FACTORS CONTRIBUTING TO DOMESTIC VIOLENCE AND MEASURES TO COMBAT THEM**

**Summary:** The presented article explains the problem of human rights and freedoms, highlights domestic violence and ways to eliminate it.

**Key words:** violence, human rights, domestic violence, family, victim

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 28. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Məftunə İsmayılova**

**UOT:31: 342.7:390.**

**Rəşad Əsgərov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**dosent**
**Gülşən Əmikişiyeva**
**magistrant**
**E-mail: asgarov_rashad@mail.ru**

## AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI İLƏ MÜBARİZƏ YOLLARI

**Xülasə:** Tezisdə qadınlara qarşı törədilən zorakılıq halları müxtəlif aspektlərdən tədqiq olunur. Burada zorakılığın müxtəlif formaları və ona qarşı mübarizənin yolları elmi cəhətdən araşdırılır. Xüsusilə də son zamanlar məişət zəminində zorakılıq hallarının artması bu sahədə sosial işin daha təkmil və müasir texnologiyalardan istifadə edilməsini zərurətə çevirir. Zorakılıq hallarının qarşısının alınmasında əsas olaraq zorakılığı törədən səbəblərin aradan qaldırılması problemin həllində mühüm dönüş yarada bilər. Fikrimizcə problemin həlli istiqamətində dünya və milli təcrübədən, fərqli yanaşma yollarından istifadə zorakılıqla mübarizədə müsbət nəticələr əldə edilməsinə səbəb ola bilər. Bu sahədə isə sosial işçilərin yeri və rolu olduqca vacib və əhəmiyyətlidir.

**Açar sözlər:** zorakılıq, sosial işçi, gender bərabərliyi, insan alveri, ayrı-seçkilik

Qadınlara qarşı törədilən zorakılıq aktları qadının başlıca insan hüquqlarını və azadlıqlarını pozur, əmin-amanlığa, təhlükəsizliyə, inkişafa zərbə vurur. Bu kimi halların qarşısını almaq üçün bu sahədə real və praktiki addımların atılması zəruridir. Qadınlara qarşı törədilən zorakılıq hallarının aradan qaldırılması və zorakılığa məruz qalmış şəxslərin yenidən sağlam cəmiyyətə transformasiyası sosial işçilərdən xüsusi bacarıq və peşə vərdişləri tələb edir. Bu işdə sosial işçilər əsasən beynəlxalq təcrübəyə əsaslanmalıdırlar. Dünyanın müxtəlif ölkələrində zorakılığa məruz qalanlarla aparılan sosial işin istiqamətləri ölkələrin inkişaf səviyyəsindən asılı olaraq fərqlənsə də sonda əsas məqsəd həmin şəxslərin reabilitasiyası və sağlam cəmiyyətə qovuşması olmalıdır.

Azərbaycanda əsasən zorakılığa məruz qalan qadınların xüsusi çəkisini məişət zorakılığına məruz qalanlar təşkil edir. Bu zorakılıq halları çox vaxt ailə daxilində baş verdiyindən latent qalaraq cəmiyyət üçün həmin informasiyalar əlçatan olmur. Burada Azərbaycan cəmiyyəti üçün mövcud olan patriarxal münasibətlər də zorakılıq hallarına qadınların bəzən göz yumması və yaxud da ona loyal yanaşması ilə nəticələnir. Belə olduqda isə zorakılığın daha ağır halları cəmiyyət daxilində münasibətlərin daha da kəskinləşməsinə, ailə institutunun dağılmasına gətirib çıxara bilər. Bu kimi sadalanan hallarla mübarizədə sosial işçilərin maarifçilik fəaliyyəti, onların fərdi və qrup halında apardıqları işin əhəmiyyəti olduqca vacibdir. Məhz sosial işçilərin cəmiyyətdə apardığı iş nəticəsində zorakılıq qurbanları öz hüquq və azadlıqları bilərək hara müraciət etməli olduqlarını öyrənirlər.

Bu sahədə dünya təcrübəsindən istifadə və milli qanunvericiliyimizin təkmilləşdirilməsi məqsədilə Azərbaycan dövləti tərəfindən mütəmadi olaraq islahatlar aparılır və bu gün də bu islahatlar davam etdirilməkdədir. Ölkəmizdə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və "Məişət Zorakılığının Qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunları problemin həlli üçün atılmış uğurlu addımlardandır.

Qadınlara qarşı zorakılıq gender əsaslı ayrı-seçkilik olmaqla yanaşı qadınların yaşamaq, şəxsi təhlükəsizlik, azadlıq, işgəncələr və digər qeyri-insani rəftara məruz qalmaq kimi hüquqlarının pozulması ilə nəticələnir.

1995-ci ildə Pekində keçirilmiş Dünya Qadınlarının Dördüncü Konfransının qəbul etdiyi Pekin Bəyannaməsində və Fəaliyyət Planında qadınlara qarşı zorakılıq qadınların insan

hüquqlarının pozulması və qadınların bütün insan hüquqlarından bəhrələnməsi istiqamətində maneə kimi xüsusi vurğulanmışdır. Pekin Fəaliyyət Planında qadınlara qarşı zorakılıqla bağlı əhəmiyyətli sahələr üzrə üç strateji məqsəd müəyyən edilmişdir [6].

1. Qadınlara qarşı zorakılığın qarşısının alınması və aradan qaldırılmasına dair kompleks tədbirlərin həyata keçirilməsi.
2. Qadınlara qarşı zorakılığın səbəblərini və fəsadlarının, həmçinin, qabaqlayıcı tədbirlərin səmərəliliyinin araşdırılması.
3. Qadın alverinin aradan qaldırılması, fahişəlik və alverin qurbanı olmuş qadınlara sosial yardımın göstərilməsi.

2000-ci ildə keçirilmiş Minilliyin Zirvə Görüşündə dövlət və hökümət başçıları qadınlara qarşı zorakılıqla rəsmən mübarizəyə başlamaq qərarına gəlmişlər. 2005-ci ildə keçirilmiş Ümumdünya Sammitində qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasının və qadınlara qarşı zorakılığın təxirəsalınmaz məsələ olduğu ön plana çıxarılmış və bu məsələ Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq amalı ilə əlaqələndirilmişdir. Bununla belə, ÜST, BMT-nin Əhali Fondu, BMİP, BMT Uşaq Fondu (UNICEF) kimi BMT qurumları qadınlara qarşı zorakılıqla mübarizə aparmaq üçün proqram və layihələr həyata keçirmişlər [4].

Dünyanın müxtəlif dövlətləri yol verməməlidirlər ki, dini və ya mədəni-milli adətlər hər hansı bir qadının bu məişət zorakılığı əleyhinə qanunun çərçivəsində müdafiə olunmasına mane olsun. Ayrı-ayrı dövlətlər siyasi iradə nümayiş etdirmədən qadınlara qarşı zorakılığın aradan qaldırılması mümkün olmayacaq. Bu səbəbdən beynəlxalq məcburi sazişlər, həmçinin tövsiyələr və qətnamələr kimi qeyri-icbari beynəlxalq hüquqi vasitələr müvafiq istiqamətdə atılan addımların sürətləndirilməsində tale yüklü məsələ olduqları üçün qəbul edilməlidir [4].

Beləliklə, qadınlara qarşı zorakılıqla mübarizənin aparılmasına dair ayrı-ayrı dövlətlərin öhdəliklərinin icra edilməsi beynəlxalq səviyyədə davam etdirilə bilər. Sadalanan vasitələr qadınlara qarşı zorakılıqla mübarizəyə dair beynəlxalq prinsiplərin və standartların yaradılmasını da mümkün edir. Fikrimizcə, qəbul edilmiş standartlarda milli və regional çalarların nəzərə alınması bu sahədə sosial işin daha uğurlu aparılmasına öz töhfəsini verə bilər.

**Ədəbiyyat siyahısı:**

1. “Məişət Zorakılığının Qarşısının alınması Haqqında”, 2 oktyabr 2010-cu il tarixli,1058-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu.
2. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 10 oktyabr 2006-cı il, № 150-IIIQ
3. 3 Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin Həyata Keçirilməsi haqqında" 289 saylı 6 mart 2000-ci il tarixli Fərmanı, Bakı.
4. BMT Əhali Fondu (UNFPA) “Azərbaycanda qadınlara qarşı sorğu hesabatı”. 2008-ci il.
5. BMT-nin “Qadınlara Qarşı Zorakılığın Aradan Qaldırılması haqqında” Bəyənnamə 20 dekabr,1993-cü il tarixli,48/104 saylı Qətnamə.
6. http://www.genderbasedviolence.az/az/content/show/61/gender-sasli-zorakiliq-azrbaycanda.html
7. Sosial İşin Əsasları. Bakı Təhsil Məlumat Mərkəzi və BDU, 1, Bakı, Bakı Universiteti nəşriyyatı 2006.

**Рашад Асгаров**
**Гульшан Амикишиева**

**ПУТИ БОРЬБЫ С НАСИЛИЕМ В СЕМЬЕ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме:** В статье рассматриваются различные аспекты насилия в отношении женщин. Здесь научно исследуются различные формы насилия и способы борьбы с ним. Особенно в последнее время рост случаев насилия на бытовой почве делает необходимым

использование более совершенных и современных технологий социальной работы в этой сфере.Устранение причин, послуживших основанием для предотвращения случаев насилия, может стать важным поворотным моментом в решении проблемы. На наш взгляд, использование мирового и национального опыта, различных подходов к решению проблемы, может привести к достижению положительных результатов в борьбе с насилием. А в этой сфере место и роль социальных работников очень важны и значимы.

**Ключевые слова:** насилие, социальный работник, гендерное равенство, торговля людьми, дискриминация.

**Rashad Asgarov**
**Gulshan Amikishiyeva**

**WAYS TO FIGHT DOMESTIC VIOLENCE IN AZERBAIJAN**

**Summary:** The article examines various aspects of violence against women. Here, various forms of violence and ways of combating it are scientifically investigated. In particular, the recent increase in domestic violence makes it necessary to use more sophisticated and modern technologies in this area of social work. Elimination of the main causes of violence in the Prevention of violence can lead to a significant turn in the solution of the problem. In our opinion, the use of world and national experience and different approaches to the solution of the problem can lead to positive results in the fight against violence. And in this area, the place and role of social workers is very important and significant.

**Key words:** violence, social worker, gender equality, trafficking, discrimination.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**UOT:390:31.**

**Sevinc Əskərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**E-mail: pinko88@mail.ru**

# AİLƏDAXİLİ ZORAKILIQ SOSİAL - NƏZƏRİ TƏHLİL KONTEKSTİNDƏ

**Xülasə:** Təqdim olunan məqalədə konkret olaraq ailədaxili zorakılıq halları haqqında sosioloji-nəzəri təhlil verilmişdir. Alman və rus sosioloqlarının fikirləri təqdim olunmuşdur. Həmçinin zorakılığın gender aspekti haqqında statistik göstəricilər nəzərdən keçirilmişdir.

**Açar sözlər**: zorakılıq, ailə, gender, sosial, cəmiyyət, problem, sistem

Ailədaxili zorakılıq problemi bütün sosiumlarda mövcuddur və demək olarki, qlobal xarakter daşıyır. Məişət zorakılığı heterogen bir fenomendir, müxtəlif ədəbiyyatlarda da, "ailədaxili zorakılığı"n bir çox tərifi təklif edilmişdir; məişət zorakılığı, təcavüz, sui-istifadə, asosial davranış, destruktiv sosial münasibətlər, neqativ ailədaxili transformasiyalar və s. Bu sahə özündə psixoloji, sosioloji, hüquqi, tibbi aspektləri cəmləşdirir. Yəni interdisiplinar bir mövzudur. Ailə zorakılığının bir sosial fenomen kimi öyrənilməsi nəzəri və praktik təhlillərlə yanaşı, eyni zamanda sintez və analiz əsasında aparılmalıdır. Ailə zorakılığı problemi qanunvericilik, gender, sosial və digər aspektlər arasında mümkün olan müxtəlif əlaqələri nəzərə almaqla ayrılmaz bir sistem çərçivəsində nəzərdən keçirilməlidir. Eyni zamanda, mövzunun işıqlandırılması üçün nəzəri və metodoloji konsepsiyalara (funksionalizm, münaqişə, patriarxal, neomarksist, neopsixoanalitik, feminist, anomiya (cəmiyyətdə mövcud normalara məhəl qoymamaq), simvolik materializm, sosial rollar) da diqqət yetirmək lazımdır.

Ailə içi zorakılıq, ailənin, dünyanın mövcud olduğu gündən bəri var və tarixi sənədlərlə də bu öz təsdiqini tapmışdır. Bütün bu faktalar kompleks şəkildə onu göstərir ki, məhz ailədaxili zorakılıq mövzusu müasir cəmiyyət üçün hələ də aktual olaraq qalır. Bu səbəbdən də ailə institutuna həm dövlət, həm də cəmiyyətdən xüsusi diqqət tələb olunmalıdır. Ailə cəmiyyətin fundamental təməlidir. Məhz burada fərd daha sonra sosiumda fəaliyyət göstərməsi üçün ehtiyac duyduğu əsas sosial normaları öyrənir.

Ailədə zorakılıq problemi müasir cəmiyyətin aktual mövzusundan biri olaraq qalır. Ailədaxili zorakılıq cəmiyyətdəki ən kəskin və geniş yayılmış sosial problemlərdən biridir. Ailə zorakılığı yaşayan bir şəxs psixoloji olaraq özünə hörmət etmir və tam şəxsi və ictimai həyat sürə bilmir. Məzlumlaşdırılmış və alçaldılmış bir ananın cəmiyyət üçün güclü, azad və aktiv bir övlad böyüdə biləcəyi ehtimalı da çox azdır. Zorakılığın mövcud olduğu ailələrdə şiddət anlayışının psixologiyada yer almasına və gələcək nəslə ötürülməsinə kömək edən sabit davranış nümunələri məhz valideynlər vasitəsi ilə uşaqlara keçir. Beləliklə, bu fenomen ölkənin gələcəyi üçün ən təhlükəli təsirlərdən birini yaradır. Buna görə bu problemin öyrənilməsi aktuallığını itirməməlidir.

Həm Azərbaycan respublikası, həm də dünya üzrə fərqli illərə aid statistik göstəricilərə nəzər salmaqla cəmiyyətdəki problemin rəqəmlərlə olan ifadəsini dəqiq şəkildə görmüş oluruq. 2015-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatına əsasən qəsdən adam öldürmə və ona cəhdin 52,2%-i ailə-məişət münaqişələri zəminində baş vermişdir (6). Bu, zorakılığa məruz qalan insanların sırasında təəssüf ki, qadınların sayı üstünlük təşkil edir. Statistik rəqəmlərdə 2019-cu ildə məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərin cins bölgüsündəki faizlə verilmiş göstəricilərdə qadınların 84.1 faiz təşkil etməsi əyani sübutdur (5).

2016-cı ildə BMT-nin ixtisaslaşmış qurumu olan ÜST-ün yaydığı məlumata əsasən hər il 15 yaşadək 41000 uşaq öldürülməsi halına rast gəlinir. Uşaqlara qarşı zorakılığın nəticəsi olan ölüm hallarının bir çox hissəsi suda boğulma, yanıqlar, yıxılmalar hesabına yazıldığı üçün bu

rəqəm problemin həqiqi miqyasını göstərmir. Həmçinin ÜST-ünün məlumatlarına görə: bütün böyük əhalinin 25%-i uşaq yaşlarında zorakılığa məruz qaldıqlarını qeyd edir. Hər 5 qadından biri və hər 13 kişidən biri uşaqlıq yaşlarında seksual zorakılığa məruz qaldıqlarını qeyd edirlər (2,7).

Nəzərə alsaq ki, elmin inkişafı daha çox XIX əsrdən başlanıb hazırkı dövrdə ən yüksək tərəqqi həddinə yaxındırsa bəs cəmiyyəti təhlil edən sosiologiya elmində bu məsələ həllini necə tapmışdır? Sosiologiya elminin baniləri ailə münasibətlərindəki zorakılıq mövzusunu xüsusi olaraq araşdırmamışdılar. Məsələn K.Marks və F.Engels, cəmiyyətdə kişilərin qadınlar üzərində hökmranlığını qəbul etmiş, lakin məişət zorakılığı mövzusunu xüsusi olaraq təhlil etməmişdi. Alman sosioloqu M.Veber də məişət zorakılığına diqqət ayırmayaraq, kişilərin qadınlar üzərində zorakılığından səthi formada bəhs edərək dövlətin buna müdaxiləsini vacib hesab etmişdir. E. Dürkheim, əlbəttə ki, şiddət, hərbi şiddət, intiharla maraqlanırdı, lakin ailədaxili şiddət məsələsi onun diqqətindən qaçmışdır (3,67).

XX əsrin sosioloji ənənələrində, zorakılıq problemi institusional və kollektiv səviyyədə qiymətləndirildi və məişət zorakılığı nəzərə alınmırdı. Ötən əsrin əvvəllərində məişət zorakılığının nadir hallarda baş verdiyini və müəyyən zehni xəstəliklərin fəsadı olduğu düşünülürdü. Bundan əlavə, bu məsələyə müdaxilə etmək adət halını da almamışdır və şəxsi həyatın bir imtiyazı hesab edilirdi. Bu fenomenin tədqiqi XX əsrin 60-cı illərində uşaqların problemlərinə yönəldilməklə başlanılır və sosial-psixoloji bir problem olaraq ailələrdə qadınlara qarşı zorakılıq problemi isə ABŞ-da və Qərbi Avropada qadın hərəkatının aktivləşməsi sayəsində 70-ci illərdə tədqiq olunmağa başlanıldı.

Rus sosioloqu, professor A.Bescetnova hesab edir ki, ailədaxili zorakılığa mənəvi, emosional, psixoloji, fiziki və ya cinsi zorakılıq yolu ilə ailə üzvünə sistematik olaraq zərər vurulması başa düşülür. Hüquqi ədəbiyyatda isə, zorakılıq – şəxsiyyətin toxunulmazlıq hüququnu pozmaqla bir şəxsin digər şəxsə fiziki və psixi təsir göstərməsidir (3,69).

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Zorakılığa “YOX” deyək-ailəmizi qoruyaq!” məişət zorakılığıyla bağlı maarifləndirmə işinin təşkili layihəsi çərçivəsində nəşr olunan kitabçada qeyd olunur ki, ekspertlərin fikrinə əsasən, "məişət zorakılığı" dedikdə, beynəlxalq termin kimi ailədaxili zorakılıq başa düşülür. Yəni, bu bir ailə üzvünün digər ailə üzvünü öz nəzarəti altında saxlamaq istəyidir. Bu xüsusən keçmiş patriarxal adət-ənənələrin qaldığı, üstünlük təşkil etdiyi regionlarda daha qabarıq şəkildə müşahidə olunur (2,6).

Müasir ailə müxtəlif sosial qarşılıqlı təsir formalarına daxildir və bu səbəbdən də ölkəmizdə baş verən sosial-iqtisadi kataklizmlər ailə münasibətlərinin vəziyyətinə təsir göstərməyə bilməz. Ailə daxili zorakılığa sosial mühitdə baş verənlər mütləq təsir edir. Belə ki, qazanc axtarmaq, işdə həddindən artıq yüklənmə və digər bu kimi problemlər də valideynlər üçün boş vaxtın azaldılmasına, fiziki və zehni vəziyyətlərinin pisləşməsinə, əsəbilik, yorğunluq və stresin artmasına səbəb olur. Bütün bunlar ər-arvad, valideyn və övlad münasibətləri çərçivəsində problemləri daha da artırır.

Həmçinin istər hüquqi, istərsə də, sosioloji baxımdan latent şəkildə mövcud olan bu məsələnin genişmiqyaslı elmi və ictimai təhlili hardasa digər sosial məsələlər fonunda arxa plana atılmışdır. Məişət zorakılığı mövzusu empirik olmaqla yanaşı həm də müasir elmi, nəzəri, təcrübi yanaşma tələb edən bir sahədir. Qeyd etmək lazımdır ki, bu sahədə qadın və uşaqlara qarşı zorakılıq geniş təhlil olunmasına baxmayaraq yaşlılar üzərində zorakılıq hallarının araşdırılması qismən kölgədə qalmışdır. Zorakılığın müxtəlif növlərinə qarşı istər beynəlxalq istərsə də, milli hüququn bazasında müvafiq cəzalar nəzərdə tutulsa da, bu problemin günü-gündən artdığının şahidi oluruq. 1995-ci ildə BMT-nin Pekində keçirilən konfransında qadınlar üzərində mövcud zorakılıq hətta “epidemiya” olaraq adlandırılmışdır (3,67).

Sosioloq Əhməd Qəşəmoğlu deyir ki, bu cür münaqişələrin cinayət hadisəsi ilə nəticələnməsinin bir və əsas sayıla biləcək səbəbi maddiyatın mənəviyyatı arxa planda

qoymasıdır. Sosioloq deyir ki, əvvəllər də ailələrdə belə münaqişələr olub. Amma çox nadir hallarda kişi arvadının, arvad isə kişisinin üstünə bıçaq qaldırıb: "Çünki əvvəllər cəmiyyətimiz belə mənəvi aşınmalara məruz qalmamışdı. Ailə institutunu tənzimləyən maddi və mənəvi dəyərlər olsa da, maddi amillər mənəvi amilləri üstələyib".

Ə. Qəşəmoğlu həmçinin, ölkədə sosial-iqtisadi təbəqələşmənin də ailələrdə zorakılıq hallarının artırdığını söyləyir. Onun sözlərinə görə, indiki şəraitlə uyğunlaşmayan ailələrdə maddi problemlər ortaya çıxır. Bu da ailələrdə münaqişələrin sayını artırır (4).

Müasir dövrün özünəməxsus problemləri və ona müvafiq həll yolları vardır. Sosial iş peşəsi insanların onları əhatə edən mühitdə mümkün qədər daha yaxşı fəaliyyət göstərmələri üçün onlara yardım etməyə istiqamətlənmiş bir peşədir. Bu problemin cəmiyyətdə konsensus şəkildə həllini tapmasında bacarıqlı və təcrübəli "sosial işçi"lərə çox böyük, ümdə bir şəkildə ehtiyac duyulması açıq aşkar görünməkdədir. Son olaraq vurğulanmalıdır ki, sosial-mədəni mühiti əsas götürməklə dünya təcrübəsindən (mühafizə orderi, ailələrlə görüş) istifadə etmək lazımdır.

**Ədəbiyyat siyahısı:**

1. Əliyev Ş. Cinayətkarlığın elm kimi öyrənilməsi. Bakı.2012
2. İsmayılova N. Zorakılığa "Yox" deyək ailəmizi qoruyaq. Bakı.2017
3. Симонова О.А Херн Дж. Социологическое значение домашнего насилия: Напряжения, парадоксы и следствия. Журнал социологии. Москва 2015(2)
4. http://www.anl.az/down/meqale/xalqcebhesi/2011/mart/165212.htm
5. https://www.stat.gov.az/source/gender/
6. http://mia.gov.az/index.php?/az/content/29873/

**Севиндж Аскерова**

**ДОМАШНЕЕ НАСИЛИЕ В КОНТЕКСТЕ СОЦИАЛЬНО-ТЕОРЕТИЧЕСКОГО АНАЛИЗА**

**Резюме:** В представленной статье конкретно представлен социолого-теоретический анализ домашнего насилия. Представлены мнения немецких и российских социологов. Также были рассмотрены статистические данные о гендерном аспекте насилия.

**Ключевые слова:** насилие, семья, гендер, социальная, общество, проблема, система.

**Sevinj Askerova**

**Domestic violence in the context of socio-theoretical analysis**

**Summary:** The presented article specifically provides a sociological-theoretical analysis of cases of domestic violence. Opinions of German and Russian sociologists have presented. Statistics on the gender aspect of violence were also reviewed.

**Key words:** violence, family, gender, social, society, problem, system

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:342.7:340:31.**

**Ayxan Qəhrəmanov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**E-mail: ayxanshahbazoglu@mail.ru**

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏR UŞAQLARDA İNTİHARIN ƏSAS SƏBƏBLƏRİNDƏN BİRİ KİMİ

**Xülasə:** Son illərdə uşaqların və yeniyetmələrin intihar davranışları getdikcə daha çox elmi araşdırma obyektinə çevrilir və bu istiqamətdəki müzakirələr böyük ictimai rezonans doğurur. Ümumdünya Səhiyyə Təşkilatının statistik göstəricilərinə görə, Azərbaycanda və dünyanın digər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin əhalisi arasında intihar nisbəti durmadan artmaqdadır. 5-14 yaş qrupunda son on ildə intiharların sayının iki dəfə artması birmənalı olaraq, valideyn - uşaq münasibətlərinə, ailədaxili problemlərə yenidən müraciət etməyə səbəb yaradır. İntiharın qarşısının alınması problemi valideynlərlə birlikdə, psixoloqların, psixiatrların, sosial işçilərin, sosioloqların, müəllimlərin və s. mütəxəssislərin müdaxiləsini tələb edir.

**Açar sözlər:** intihar, uşaq, yeniyetmə, ailə, valideyn, psixoloq, sosial işçi.

"İntihar" ifadəsi bir şəxs tərəfindən əksər hallarda könüllü və qəsdən öz həyatına son qoymağa yönəlmiş hərəkətlərin həyata keçirilməsi kimi başa düşülür. İntihar hadisəsinin səbəblərini araşdırdıqda, mütləq şəkildə intiharın zorakılığın bir növü olduğunu görə bilərik. İntihar edən şəxs özünə qarşı zorakılıq tətbiq edir. İntihar davranışı ümumiyyətlə kompleks şəkildə qurulur. Bu həm bioloji səbəblərdən və həm də insanın fərdi inkişafından, stresli həyat hadisələrindən, sosial mühitindən və bunun altında yatan zehni xəstəliklərdən asılıdır. Əsasən, şəxsiyyət daxilindəki dərin motivlərin toqquşması intihar cəhdinə səbəb ola bilər.

Ümumdünya Səhiyyə Təşkilatı dünyada intihar hadisələrinin sayında kəskin artımın və intihar yaşının ilbəil cavanlaşması həyəcanını verir. Ümumdünya Səhiyyə Təşkilatı hər il təxminən bir milyon insanın intihar nəticəsində öldüyünü təxmin edir ki, bu da 100.000 nəfərə 16 nəfər və ya 40 saniyədə bir ölümlə qlobal ölüm nisbətini təmsil edir. 2020-ci ildə isə bu nisbətin hər 20 saniyədə bir intiharın baş verməsinə gətirib çıxardığı vurğulanır. ÜST əlavə olaraq bildirir ki, son 45 ildə intihar nisbətləri dünyada 60% artmışdır. İntihar indi 15-44 yaş (kişi və qadın) arasında ölümün əsas üç səbəbindən biridir. İntihar nisbətləri yaşlı insanlar arasında ənənəvi olaraq ən yüksək səviyyədə olsa da, yeniyetmə uşaqlar arasındakı nisbətlər o dərəcədə artmaqdadır ki, indi bütün ölkələrin üçdə birində ən yüksək risk qrupuna çevrilmişdir.

İntiharın ilkin qığılcımları erkən uşaqlıq dövrünə təsadüf edir. Bir qayda olaraq, bu qığılcımlar ailə daxilində, uşaqlarının tərbiyələrində həddən artıq qəddarlıq nümayiş etdirən avtoritar valideynlər tərəfindən yaradılır.

Keçid yaşı, yetkinlik bir şəxsiyyətin formalaşmasında ən çətin mərhələdir. Buna görə də bu yaş kateqoriyası arasında intihar nisbəti son dərəcə yüksəkdir. Bu dövrdə intiharın aşağıdakı səbəbləri qruplaşdırılır.

- valideynlər və ya dostlarla münaqişələr;
- çətin ailə vəziyyəti;
- şəxsiyyətə edilən təhqirlər;
- birtərəfli məhəbbət.

Təsadüfi hal deyildir ki, belə proseslərin başlanğıcında ailədaxili münasibətlər, valideyn-uşaq əlaqələri durur. Həmin dövrdə intiharın baş verməsinə yol açan xüsusi bir səbəb yoxdur. Lakin, bəzi hadisələr və vəziyyətlər intihar prosesini sürətləndirir. Məsələn, depressiyaya düşmüş bir uşaq atası tərəfindən danlandığı və ya döyüldüyü zaman intihar edə bilər. Bu vəziyyətdə ata

birbaşa olaraq intihara səbəb olmur, sadəcə intiharı sürətləndirir. Bu baxımdan, keçid yaşı mərhələsində intiharı sürətləndirən bir sıra risk faktorları var:

- valideynlər arasında şiddətli mübahisələr, ayrılıqlar, döyülmə, şifahi və ya fiziki zorakılıq;
- valideynlərin problemlərin öhdəsindən gəlmək üçün uşaqların qarşısında zorakılıq cəhdləri sərgiləməsi və bu mövzuda uşaq üçün səhv bir model olması;
- uşağın özünü dəyərsiz hiss etməsi, həyatdan zövq almaq, yuxusuzluq və s. kimi depressiv əlamətləri özündə göstərməsi;
- xüsusilə yetkinlik yaşında, qız və ya oğlan dostluqlarında yaşanan ayrılıqlar;
- zehni müalicə tələb edən xəstəliklərin olması - tədqiqatlarda ruhi xəstəliklərdən müalicə alan uşaqların əksəriyyətində intihar meyilləri müşahidə edilmişdir;
- uşağın dərs müvəffəqiyyətlərində azalma;
- zərərli maddələrin istifadəsi və ya meyli;
- sosial təzyiqlər;
- sevdiyi birini itirmə - uşaq sevdiyi dostunu, anasını, atasını və ya qardaşını itirirsə, bu, zehni depressiyaya səbəb ola bilər. Bundan əlavə, validey nlərin boşanmasından sonra da intihar davranışları görülə bilər;
- keçmişdə intiharla əlaqəli belə bir cəhdin olması - əvvəlki intihar cəhdi, gələcək intihara möhkəm bağlıdır. İntihar etmək istəyən uşaqlar hadisədən uzun müddət təsirlənir və lazımi tədbir alınmasa yenidən intihara cəhd edə bilərlər;
- intihar və intihara cəhd variantları haqqında kütləvi informasiya vasitələrində verilən məlumatlar;
- uşağın ölümdən tez-tez danışması, ölümün necə hiss olunduğunun izahını istəməsi, ölümlə maraqlanması, ölümlə bağlı suallar verməsi, ölümlə əlaqəli rəsmlər çəkməsi və s.

Tədqiqatlar göstərir ki, intihar düşüncələri və davranışları intiharın ən böyük göstəricisidir. İntihar düşüncələrinin əsas əlaməti intihar haqqında danışmaq və ya özünə zərər vermək üçün bir şey etməkdir. Bəzən, uşaqların valideynlərinə həyatlarına son qoyacaqlarını söyləmələri ailə tərəfindən şantaj kimi anlaşılır və ciddi qəbul edilmir. Hətta, bəzi valideynlər uşaqla zarafat edərək, "özünü öldür də görüm", "səndə o cəsarət haradadır", "çox qorxdum!" və s. kimi sözlərlə uşağın intihara cəhd müddətini sürətləndirirlər.

Heç bir uşaq intihar riskinə qarşı immunitet daşımır, lakin statistik məlumatlar göstərir ki, bəzi uşaqlar həyatlarını sona çatdırmaq düşüncələrinə görə digərlərindən daha həssas ola bilərlər. İntihar riskinə bir çox fərqli faktor və bunların birləşməsi səbəb ola bilər. Yuxarıda göstərdiyimiz risk faktorlarından xəbərdar olmaq, valideynlərin övladının əlavə nəzarət, dəstək və danışmaq şansına ehtiyac duyduğunu anlamalarına kömək edə bilər.

Araşdırmalar göstərir ki, bir ailə üzvünün intiharı ailənin digər üzvləri arasında intihar riskini artırır. Davam edən ailə münaqişələri, zorakılıq, ailə münasibətlərinin düzgün qurulmaması eləcə də, valideynlərin zehni sağlamlıq problemləri də uşağın intihar riskini artırır.

Depressiyaya düşən uşaqların intihar riski daha yüksəkdir. Depressiya simptomları bəzən göz qabağındadır (məsələn kədərli, ümidsiz, darıxdırıcı, boğulmuş, narahat və ya əsəbi görünmək). Uşaqların intiharında hakim hisslər hirs və qəzəbdir. Unudulmaması lazım olan vacib bir məsələ intihar cəhdinin bir kömək fəryadı olduğudur. İntihar cəhdi, özündə o vaxta qədər heç bir dəyişiklik hiss etməyən uşağın və ya gəncin ailəsinə qarşı son çağırışıdır. Ancaq bəzi uşaqlar hisslərini gizlədir və ya onları necə paylaşacaqlarını bilmirlər. Hər 5 yeniyetmədən 1-i yeniyetməlik dövründə depressiya yaşadığından intihar riski də o qədər yüksəkdir.

Bu baxımdan, valideynlərin övladlarında intihar riskinin qarşısını alması və əvvəlcədən profilaktik tədbirlər görmələri fonunda aşağıdakıları qruplaşdıra bilərik.

- Hər şeydən əvvəl, valideynlər övladlarına problemlərinin həlli ilə bağlı variantlar təklif etməli və intiharın həll yolu olmadığını söyləməli, hər məsələdə övladının yanında olduqlarını və onu qeyd-şərtsiz sevdiklərini vurğulamalıdırlar.

- Valideynlər uşağın və ya gəncin yaşına uyğun televiziya proqramları və kompüter oyunları ilə maraqlanmasını təmin etməli, izlədikləri proqramlarda və ya oynadıqları oyunlarda intihara cəhd və səhnələr varsa, bunun səhv olduğu izah edilməli və uşaqla birlikdə digər variantlar müzakirə edilməlidir.
- Ailədə demokratik bir mühit yaradılmalı və ailə övladları ilə yaxından maraqlanmalıdır. Uşaq evə gəldikdə əvvəlcə dərsləri soruşmaq əvəzinə, ona xoş gəldin deyilməli, uşağa gülərüz bir simayla isti yanaşılmalı və uşağı narahat edən bir vəziyyət olduğu təqdirdə ailə bu vəziyyəti onlarla bölüşməyə təşviq etməlidir.
- Valideynlər uşağa laqeyd yanaşmamalı və vaxt ayırmalıdırlar.
- Ailənin istəmədən də olsa uşağa qarşı tətbiq etdiyi zorakılığın bir gün uşağın özünə qarşı zorakılığa səbəb ola biləcəyini dərk etməli və davranışlarına diqqət yetirməlidir.
- Evdə yaralayıcı, öldürücü, uşağın özünə zərər verən məsələn, silah kimi alətlərin evdən kənarlaşdırılmasını təmin etməlidir.
- Valideynlər yetkinlik dövründə özlərinin də bu mərhələni keçdiklərini düşünərək, yeniyetməyə qarşı səbirli və anlayışlı olmağa çalışmalıdırlar.
- Ailəcə müəllimlərlə əməkdaşlıq etməli və uşağa gələcək üçün müəyyən hədəflər qoymasına kömək etməlidir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, əsasən orta məktəblərdə hələ də hər hansı bir ixtisası seçəcəyini bilməyən, "mən kiməm" sualına cavab tapmayan və şəxsiyyət böhranını aşmayan bir çox yeniyetmə var. Bu mərhələdə müəllimlər məktəbdə sosiallaşma problemi olan şagirdlərə diqqətlə yanaşmalıdırlar. Lazım olduqda ailəni məlumatlandırmalı və şagirdi kömək üçün bir mütəxəssisə göndərməlidirlər. Dərs müvəffəqiyyətinin qəfil düşməsi və davamsızlıq halında, uşağın ailəsindəki vəziyyətinə diqqət yetirilməli və ailədən məlumat alınmalıdır.

ÜST-nün 2019-2020 proqnozu Azərbaycanda da intiharların artım dinamikasının əhalinin say artımına nisbətdə yüksəldiyini göstərir. Rəsmi olaraq, ölkəmizdə 2019-cu il ərzində respublika üzrə 585, 2020-ci ildə isə 597 intihar hadisəsi qeydə alınmışdır. Statistika göstərir ki, Azərbaycan da dünyada artan intihar hallarından kənarda qalmayıb. Eyni zamanda, bu rəqəmlərin şişirdilmiş yaxud az sayda təqdim edildiyini bilsək də, əsas məsələ son illərdə yeniyetmə və gənclər arasında baş verən intihar hadisələri həyəcan siqnalından xəbər verir. Bu isə, respublikamızda intiharların gəncləşməyə doğru getdiyini göstərir.

Təbii olaraq, qeyd etmək olar ki, intihar hər zaman asanlıqla qarşısı alınası bir proses deyil. Bu istiqamətdə 7 dekabr 2018-ci ildə “Psixoloji Yardım Haqqında Azərbaycan Respublikasının Qanunu” qüvvəyə minmişdir. Həmin qanunda psixoloji problemlərinin yaranması riski yüksək olan əhali qrupları arasında mürəkkəb psixoloji vəziyyətlərin və onların nəticələrinin profilaktikası və aradan qaldırılması, Azərbaycan Respublikası əhalisinin psixoloji rifahını təmin edən və həyat keyfiyyətlərini yüksəldən şəraitin yaradılması, psixi sağlamlığın profilaktikası, psixi inkişafın optimallaşdırılması, adaptasiya, şəxsin cəmiyyətə inteqrasiyası və reabilitasiyanın dəstəklənməsi, psixoloji konsultasiya və maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi, o cümlədən sosial reklam çarxlarının hazırlanması və yayımlanması, qaynar xəttin təşkili və s. psixoloji yardım sahəsində dövlətin vəzifələri göstərilmişdir. Qeyd olunanlar dövlət siyasətinin prioritet istiqaməti kimi həyata keçsə də, bəzi mental davranışlardan, steriotiplərdən xalq olaraq xilas ola bilməməyimiz (mənim övladım dəli deyil ki, psixoloqa müraciət etsin) intihar riskini ölkəmizdə artırmaqdadır.

Dövlət siyasətindən öncə, uşaqlarda intiharın qarşısının alınması istiqamətində valideyn önəm daşıdığı kimi, psixoloqların, psixiatrların, sosial işçilərin, sosioloqların, müəllimlərin və s. mütəxəssislərin kompleks tədbirlər görməsi zərurət daşıyır. Bu istiqamətdə, sosial dialoqun inkişafı üçün ilk növbədə sosial-psixoloji istiqamətdə ünsiyyətin davamlılığının təmin edilməsi vacib amildir.

Digər istiqamətdə, Azərbaycan məktəblərində psixoloqların sosial fəaliyyətinin gücləndirilməsi, sosial işçilərin mövcud sosial durumu qiymətləndirməsi üçün şəraitin

yaradılması, məktəb-ailə, məktəb-şagird, məktəb-valideyn münasibətlərinin tənzimlənməsi, həssas qrupa aid olan şagirdlər haqqında məlumatların əldə olunması, sosial işçilər və psixoloqlar tərəfindən valideynlərlə birgə profilaktik işin aparılması, xüsusi anonim psixoloji yardım otaqlarının yaradılması, reklam xarakteri daşımayan sosial çarxların KİV-də mütəmadi olaraq verilməsi, televiziyalarda mənəvi verilişlərin təşkili, valideyn-övlad münasibətlərini əks etdirən kitabların yazılması və təmannasız paylanması, narkotik və digər asılılıq yaradan maddələrin zərərləri haqqında məlumatların artırılması, ailədaxili münasibətləri tənzimləmək üçün maarifləndirmə işlərinin aparılması və s. zərurət hesab edilir.

**Ədəbiyyat siyahısı:**

1. Psixoloji Yardım Haqqında Azərbaycan Respublikasının Qanunu - http://www.e-qanun.az/framework/41280
2. Azərbaycanda intihar hadisələrinin statistikası - https://m.modern.az/az/news/252685
3. Cəmiyyətdə sosial dialoqa ehtiyac zərurəti: intihar hadisələri nümunəsində - https://stm.az/publications/meqaleler/cemiyyetde-sosial-dialoqa-ehtiyac-zerureti-intihar-hadiseleri-numunesinde
4. Dünya intihar statistikası - https://www.befrienders.org/suicide-statistics
5. Neurologen und Psychiater im Netz - https://www.neurologen-und-psychiater-im-netz.org/kinder-jugend-psychiatrie/warnzeichen/suizidabsichten-suizidversuch/vorbeugende-massnahmen/
6. Tattered Teddies Handbook – An Interactive Handbook about the Awareness and Prevention of Suicide in Children.
7. Little Cub- Preventing suicide in Indigenous children workshop
8. Little Cub is a one-day, discussion-based workshop examining suicide in Indigenous children and communities.
9. Влияние нежелательности ребенка на суицидальное поведение в подростковом и юношеском возрасте -
10. https://www.dissercat.com/content/vliyanie-nezhelatelnosti-rebenka-na-suitsidalnoe-povedenie-v-podrostkovom-i-yunosheskom-vozr
11. Социально-психологические аспекты суицидальных отравлений у детей и подростков-https://www.dissercat.com/content/sotsialno-psikhologicheskie-aspekty-suitsidalnykh-otravlenii-u-detei-i-podrostkov

**Айхан Кахраманов**

## ВНУТРИСЕМЕЙНЫЕ ОТНОШЕНИЯ КАК ОДНА ИЗ ОСНОВНЫХ ПРИЧИН СУИЦИДА У ДЕТЕЙ

**Резюме**: В последние годы суициды среди детей и подростков стали предметом научных исследований, а дискуссии по упомянутой нежелательной проблеме вызвали большой общественный резонанс. Согласно статистическим показателям, публикуемым ВОЗ, уровень самоубийств растет почти во всех развивающихся странах, включая Азербайджан, причем самый резкий рост наблюдается среди подростков. Действительно, детское самоубийство стало многогранной проблемой, ведущей к моральным опасностям для всего общества. Коэффициент самоубийств, удвоившийся среди населения в возрастной группе 5–14 лет за последнее десятилетие, определенно требует, чтобы мы уделяли пристальное внимание отношениям между родителями и детьми, а также вопросам внутрисемейных конфликтов. Решение растущей проблемы в нашем обществе требует сотрудничества родителей и психолога, социальных работников, социолога, учителей и других специалистов.

**Ключевые слова:** самоубийство, ребенок, подросток, семья, родитель, психолог, социальный работник.

**Aykhan Kahramanov**

**FAMILY RELATIONSHIPS ARE ONE OF THE LEADING CAUSES OF SUICIDE IN CHILDREN**

**Summar:** In recent years, the suicide acts among children and teenagers has become the subject for scientific research, and discussions in this area have caused great public resonance. Indeed, just as child suicide has become a multifaceted problem, it causes moral damage to parents, peers, and society as a whole. According to the statistics of the World Health Organization, the suicide rate among the population of Azerbaijan and other economically developed countries is constantly growing. The doubling of the number of suicides in the 5-14 age group over the last ten years unequivocally leads to a renewed appeal to parent-child relationships and family problems. The problem of suicide prevention requires the intervention of parents, psychologists, psychiatrists, social workers, sociologists, teachers and other specialists.

**Key words:** suicide, child, teenager, family, parent, psychologist, social worker.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 30. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Rəşad Əsgərov**

**UOT:31:342.7:37.**

**Zahid Bünyadov**
**Sumqayıt Dövlət Universiteti**
**Baş müəllim**
**E-mail: bunyadov82@mail.ru**

## AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI, İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ

**Xülasə:** Zorakılıq bütün bəşəriyyəti narahat edən problemlərdən biridir. Müxtəlif növləri olan zorakılıq arasında məişət zorakılığı da özünəməxsus yer tutur. Bir çox ölkələrdə məişət zorakılığı geniş yayılmışdır. Azərbaycan Respublikasında da məişət zorakılığına qarşı dövlət səviyyəsində mübarizə aparılır.

**Açar sözlər:** zorakılıq, insan, hüquq, azadlıq, mübarizə, maarifləndirmə

Zorakılıq bütün bəşəriyyəti narahat edən problemlərdən biridir. Müxtəlif növləri olan zorakılıq arasında məişət zorakılığı da özünəməxsus yer tutur. Bir çox ölkələrdə məişət zorakılığı geniş yayılmışdır. Azərbaycan Respublikasında da məişət zorakılığına qarşı dövlət səviyyəsində mübarizə aparılır. "Məişət zorakılığının qarşısının alınması haqqında qanun" 2010-cu il 22 iyun tarixində qəbul olunmuşdur. Məişət zəminində fiziki zorakılıq - bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırmasıdır. Məişət zəminində psixi zorakılıq - bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləridir. Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətlərdir.

Məişət zorakılığının yaranma səbəbləri: Məişət zorakılığının hansı səbəbdən törədilməsi ilə bağlı tədqiqatların çoxu məişət zorakılığının qazanılmış və ya sonradan öyrənilmiş bir davranış forması olduğu fikrini dəstəkləyir. Məişət zorakılığı daxil olmaqla digər zorakılıqlarda da baş verən insidentlərin araşdırılması zamanı məlum olub ki, bu halları çox vaxt öz ailəsində zorakılıq görmüş və birbaşa olaraq valideyni tərəfindən şiddətə məruz qalmış şəxslər törədir. Bütün növ zorakılıq halları öz motivləri və törədilmə səbəblərinə görə bir-biri ilə sıx bağlı olduğu üçün bu fikri məişət zorakılığına da aid etmək olar (Michallic və Elliot 1997, 26). Belə ki, evdə anasına və eləcə də özünə qarşı şiddət görmüş kəslər gələcəkdə şiddət törətməyə daha çox meyilli olurlar. Belə insanlar şiddətin normal olaraq qəbul edildiyi ailə və ya sosial mühitdə (məsələn, uşaq bağçası və məktəb) böyüyərək, bunu gündəlik həyat norması kimi qəbul edir. Valideynləri arasında və özünə qarşı şiddət görmüş şəxslərin gələcəkdə zorakılıq törətmədiyi hallar da var. Lakin zorakılığın sonradan öyrənilən bir davranış forması olduğu nəzəriyyəsi üzərində daha çox fikir mübadiləsi aparılmış və bu fikir əsaslandırılmışdır.

Zorakı mühitdə böyüyən qızlara gəlincə, mümkündür ki, ailəsində anasına qarşı törədilən zorakılığa şahid olmuş qızlar öz gələcək ailələrində şiddətlə üzləşməsin, lakin çox zaman vəziyyət bunun əksini göstərir. Bu, iki səbəbdən baş verir: Birinci səbəb odur ki, öz anasına qarşı şiddətə şahid olmuş və şiddət əsnasında anasının kömək axtarmadığını görmüş qız gələcəkdə ərindən zorakılıq görərsə, kömək axtarmağa meyilli olmayacaq və göstərilən şiddət əksər hallarda ona normal hal kimi görünəcək. Yaxud da ərindən şiddət görməməsi üçün onun dediyi hər işi yerinə yetirəcək, çünki öz uşaqlıq və yeniyetməlik təcrübəsində anasının da ərinin dediklərini etmədikdə şiddətə məruz qaldığını görüb. Xüsusilə də az təhsilli, dünyagörüşlərinin inkişafına imkan yaradılmamış qadınlar alternativlərlə tanış olmadıqlarından ərlərinin hər istəyinə müsbət qarşılıq verməyi şiddətdən yayınmağın əsas yolu kimi görəcəklər. Lakin bəllidir

ki, zorakılıqla təhsilli və dünyagörüşlü qadınlar da üzləşirlər. İkinci səbəbə gəlincə, öz ailəsində şiddət görmüş qadın gələcəkdə şiddətə meyilli partnyorla yaşaya bilər və şiddət bu dəfə ona partnyoru tərəfindən törədilə bilər.

Məişət zorakılığının insan sağlamlığına mənfi təsirləri nələrdir: Qadınlara qarşı zorakılıq problemi insan hüquqlarının bir hissəsi olan sağlamlıq məsələlərinə də toxunur. Əksər vaxt ölüm halları, əlillik, reproduktiv yaş həddində olan qadınların sağlamlıqlarında baş verən pozuntularının əsas səbəbi, məhz ailədə zorakılığın nəticəsidir. Dünyada ən azı beş qadından biri nə vaxtsa kişilər tərəfindən fiziki və ya cinsi zorakılığa məruz qalır. Ailədaxili zorakılığın miqyası və ondan doğan təhlükələrə nəzər salsaq, müəyyən edirik ki, zorakılıq ailənin yalnız bir üzvünə qarşı yönəldiyi halda, onun təsirindən ailənin digər üzvləri də zərər çəkir. Bu hal mütəxəssislər tərəfindən "ikinci dalğa" və ya "təkrar qurban" adlanır. Belə ki, bu hallar daha çox uşaqlara təsir edir. Bu zaman uşaqlarda görülən əlamətlər aşağıdakılardır:

- zorakılıqdan dərhal sonra zədə hissinin yaranması;
- uşaqda inkişafın normal prosesində dəyişiklik baş verir;
- onlar özləri və analarına görə qorxu hissi yaşayaraq, əsəb sarsıntısı keçirir və digər problemlərlə bağlı əzab çəkir;
- amansız kişilər onlar üçün nümunə modelinə çevrilir. Belə uşaqlar böyüdükdə daha çox risk nümayiş etdirir;
- onlar fiziki və psixoloji problemlərlə yanaşı müxtəlif asılılıqlara malik olur, eyni zamanda daha tez kriminal fəaliyyətə cəlb edilirlər.

Məişət zorakılığının qarşısının alınması - məişət zorakılığı təhlükəsinin aradan qaldırılması məqsədilə həyata keçirilən sosial, hüquqi və qabaqlayıcı tədbirlərdir. Məişət zorakılığı ilə bağlı daxil olmuş şikayətdə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat olduqda həmin şikayətin aidiyyatı üzrə göndərilməsi, müraciət etmiş şəxsə onun hüquqlarının izah edilməsi, müraciətə səbəb olmuş hərəkətlərin təkrarlanmaması və məişət zorakılığının qarşısının alınması üçün tədbirlərin gücləndirilməsi, onun yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə, tibbi və psixoloji yardımla təmin edilməsi, zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi təmin edilir.

Mühafizə orderi - məişət zorakılığı törətmiş şəxsin zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında aktıdır. Zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər. Qısamüddətli mühafizə orderi məişət zorakılığını törətmiş şəxsə zorakılığın təkrar törədilməsi, zərər çəkmiş şəxsin olduğu yer məlum olmadıqda həmin şəxsin axtarılması, zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsini qadağan edə bilər. Qısamüddətli mühafizə orderi icra hakimiyyəti orqanları tərəfindən 30 gün müddətinədək verilir. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Uzun müddətli mühafizə orderi 30 gündən 180 gün müddətinə verilir.

Yardım mərkəzləri və sığınacaq nədir? Yardım mərkəzləri - zərər çəkmiş şəxslərə hüquqi, tibbi, psixi, sosial və digər yardımın göstərilməsi məqsədilə yaradılan dövlət və qeyri-dövlət qurumlarıdır. Zərərçəkmiş şəxslər üçün dövlət yardım mərkəzləri tərəfindən Əmək və Əhalinin Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunmuşdur. Dövlət Yardım mərkəzlərinin göstərdiyi xidmətlər ödənişsizdir. Yardım mərkəzlərinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Zərərçəkmiş şəxsləri hüquqi və tibbi yardımla təmin etmək;
- Zərərçəkmiş şəxslərin işlə təmin edilməsinə, yeni peşələrə yiyələnməsinə kömək göstərmək;
- Zərərçəkmiş şəxslər üçün psixoloji reabilitasiya kursu təşkil etmək;
- Zərərçəkmiş şəxslərin sosial müdafiəsi üçün müvafiq sənədlərin hazırlanmasında və ya sosial müavinətlərin alınmasında kömək göstərmək;
- Zəruri hallarda zərərçəkmiş şəxsləri müvəqqəti sığınacaqla təmin etmək;

• Zərərçəkmiş şəxslərin ailələrində normal həyat tərzinin bərpa edilməsi üçün tədbirlər görmək;

• Məişət zorakılığı ilə bağlı müvafiq qabaqlayıcı tədbirlər həyata keçirmək.

İnsan alveri nədir?

İnsan alveri - zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədəqorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınmasıdır. Həmçinin uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, bu maddədə göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir. İnsan alverinə qarşı mübarizənin məqsədləri: şəxsiyyətin və cəmiyyətin insan alverinin istənilən formalarından müdafiəsindən; insan alverinin aşkar edilməsi və qarşısının alınmasından, habelə nəticələrinin aradan qaldırılmasından ibarətdir.

Göstərilən məqsədlərə: insan alverinin səbəblərinin, insan alverinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması; şəxslərin insan alverinin qurbanına çevrilməsi riskinin azaldılması; insan alveri qurbanlarının hüquqlarının bərpası və sosial reabilitasiyası vasitəsilə nail olunur.

İnsan alverinin ünsürləri.

ƏMƏL:

• Cəlbetmə;
• saxlanılma;
• gizlədilmə

VASİTƏ:

• Güc tətbiq etmək;
• Aldatma;
• Məcburetmə;
• Oğurlama;
• Dələduzluq
• Hakimiyyətdən sui-istifadə;
• Vəziyyətin zəifliyindən sui-istifadə

MƏQSƏD:

• İstismar
- cinsi istismar;
- əməyin istismarı;
- orqanların çıxarılması;

İnsan alverinin profilaktikası.

Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" 28.06.2005-ci il tarixli, 958-IIQ saylı Qanununa əsasən insan alverinin profilaktikası müxtəlif dövlət proqramları çərçivəsində xüsusi tədbirlər sistemi əsasında təşkil edilir.

İnsan alverinin profilaktikası üzrə tədbirlər sisteminə aşağıdakılar daxildir:

• İnsan alverinin qarşısının alınması, xüsusilə də gender aspektləri üzrə tədqiqatların aparılması;

• İnsan alverinə şərait yaradan sosial problemlərin həllinə yönəldilmiş proqramların hazırlanması və həyata keçirilməsi;

• Qadın və uşaqların hüquqi və sosial müdafiəsinin gücləndirilməsi;

• İnsan alverinin potensial qurbanlarının ictimai-faydalı əməyə cəlb edilməsi, onların məşğulluğunun təmin edilməsi;

• İnsan alverindən zərər çəkmiş şəxslərin işə götürülməsi üçün sahibkarların həvəsləndirilməsi;

- İnsan alverinin potensial qurbanları arasında maarifləndirmə və təbliğat işinin təşkil edilməsi, onların insan alveri qurbanlarını gözləyən təhlükə, dövlət tərəfindən təmin edilən müdafiə tədbirləri, insan alverinə qarşı dövlət tərəfindən həyata keçirilən inzibati, cinayət-hüquqi və digər tədbirlər barədə məlumatlandırılması;
- Uşaqların baxımsızlığına və kimsəsizliyinə şərait yaradan səbəb və halların aşkar edilməsinə və aradan qaldırılmasına yönəldilmiş sosial, hüquqi, pedaqoji və digər tədbirlər sisteminin yaradılması və ondan səmərəli istifadə edilməsi;
- Təhsildən yayınan uşaqların aşkar edilməsi, onların tərbiyə edilməsi və təhsil almaları üçün tədbirlərin görülməsi;
- Təhsil müəssisələri, uşaq evləri, internat məktəbləri və yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirən digər orqan və müəssisələrdə xüsusi proqramların hazırlanması və həyata keçirilməsi;
- İnsan alverinə qarşı mübarizəni həyata keçirən orqanların əməkdaşları üçün xüsusi tədris kurslarının təşkil edilməsi.

Sonda qeyd etmək istərdim ki, məişət zorakılığının qarşısının alınması və insan alverinə qarşı mübarizə sahəsində əsas istiqamətlərdən biri məhz maarifləndirmədir. Bu sahədə istər paytaxtda, istərsə də bölgələrdə vaxtaşırı təlim və treninqlər təşkil edilməli, insanlara hüquq və azadlıqları haqqında mütəmadi bilgilər verilməlidir.

**Ədəbiyyat siyahısı:**

1. 22 İyun 2010-cu il tarixli 1058-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu.
2. Həsənov R. Sosial siyasət. Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 480 s.
3. Rəcəbli H. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komporativ təhlili. Bakı, Gənclik, 2003, 464 s.
4. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, MBM, 2012, 408 s.
5. Bent-Goodley, Tricia B. "Health Disparities and Violence Against Women: Why and How Cultural and Societal Influences Matter.
6. Hopper, E. və Hildalqo, J.,2006-cı il, Görünməyən zəncirlər; İnsan alveri qurbanlarını psixoloji məcburetmə, Mədəniyyətlərarası İnsan Hüquqları Hüququnun İcmalı
7. https://bakuresearchinstitute.org/az/domestic-violence-a-common-problem-of-state-and-society/
8. https://www.caa.gov.az/index.php?option=com_k2&view=item&id=354:insan-alverin-qars-muebariz-haqq-nda&lang=az

**Захид Буньядов**

**ПРЕДОТВРАЩЕНИЕ ДОМАШНЕГО НАСИЛИЯ В АЗЕРБАЙДЖАНЕ, БОРЬБА С ТОРГОВЛЕЙ ЛЮДЬМИ**

**Резюме:** Насилие - одна из проблем, волнующих всё человечество. Среди различных видов насилия, домашнее насилие занимает особое место. Домашнее насилие широко распространено во многих странах. В Азербайджанской Республике также ведется борьба с домашним насилием на государственном уровне.

**Ключевые слова:** насилие, человек, закон, свобода, борьба, просвещение.

**Zahid Bunyadov**

**PREVENTION OF DOMESTIC VIOLENCE IN AZERBAIJAN, FIGHT AGAINST HUMAN TRAFFICKING**

**Summary:** Violence is one of the problems that worries all mankind. Among the various types of violence, domestic violence has a special place. Domestic violence is widespread in many countries. The Republic of Azerbaijan also fights against domestic violence at the state level.

**Key words:** violence, human, law, freedom, struggle, enlightenment

**Məqalənin redaksiyaya daxil olma tarixi: 07. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**UOT:31:342.7:311.**

**Ülkər Rzayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**E-mail: hesen84@mail.ru**

# TƏCRİDOLUNMA ŞƏRAİTİNDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə pandemiya şəraitində ailədaxili münasibətlər, qadın zorakılığı və sosial həyatdan təcrid olunma problemləri araşdırılmışdır. Aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, pandemiya zamanı bəzi ailələr zorakılığa məruz qalsa da, bəzi ailələr daha da möhkəmlənmişdir. Belə ki, pandemiya bəzi ailələrdə ər-arvadın bir-birləri ilə daha çox ünsiyyətdə olmasına, problemləri birlikdə həll etməsinə və övladlarına daha çox vaxt ayırmalarına səbəb oldu. Bu vəziyyətdə ailələrin daha da möhkəmlənməsi prosesi baş verir.

**Açar sözlər:** COVID-19, pandemiya, sosial təcrid, ailə içi şiddət

Pandemiya tarix boyu insan cəmiyyətlərinə dərindən təsir edən mühüm demoqrafik, sosial, siyasi və iqtisadi problemlər kimi rast gəlinmişdir. Bununla əlaqədar şirkətlər və təhsil müəssisələri yeni rabitə texnologiyaları sayəsində uzaqdan fəaliyyətlərini davam etdirməli oldular. Bu səbəbdən insanlar öz yaşayış sahələrində bir karantin prosesinə girərək eyni zamanda gündəlik işlərini uzaqdan idarə edərək sosial həyatdan təcrid olunmuş bir həyat yaşamalı idilər. Pandemiyaya görə karantin prosesi həm fərdi, həm də ailə münasibətlərində bir çox problem yaratdı.

Lakin proses uzandıqca həm xəstələnənlərin, həm ölümlərin sayının artması xəbərləri, həm də prosesin qeyri-müəyyənliyi narahatlıqları artırır.

Digər tərəfdən, lazım olan istirahət imkanlarından, uşaqlar üçün məktəb və dost görüşmələrindən, iş və ictimai həyat kimi mühitlərdən məhrum qaldıqca bir-birimizə qarşı müasibətlərimiz də dəyişir, tamam başqa bir müstəvidə inkişaf edir.

Evdə təhsil ilə bağlı uşaqların uyğunlaşma proseslərindəki çətinliklər problem yaradan səbəblərdən idi. Bu, hər bir ailə üçün fərqli bir vəziyyətdir. Hesab edirəm ki, ailə üzvlərinin bir-birləri ilə oturub söhbət etmək və özləri üçün lazım olan fəaliyyətləri müəyyənləşdirmək olduqca vacibdir. Birlikdə idmanla məşğul olmaq, kitab oxumaq və daha sonra oxuduqlarını müzakirə etmək, seriallara baxmaq, tənqidi fikir söyləmək, kompüter oyunları, stolüstü oyunları oynamaq və s. kimi məşğuliyyət növlərindən istifadə etmək lazımdır.

Qadına qarşı zorakılıq həm insan hüquqları pozuntularına, həm də gender əsaslı mənfi ayrıseçkiliyə səbəb olan cinsiyyətlə əlaqəli bir universal problemdir. Ümumiyyətlə, böhranlar və fövqəladə hallar sosial xaos mühiti yaratdı və qadınlara qarşı şiddətin artması ilə əlaqələndirildi. Qadına qarşı zorakılıq gündən-günə artmaqdadır və hal-hazırda da qlobal bir problemdir. Həyat yoldaşının şiddətinə fiziki və cinsi şiddət, təqib, emosional baxımsızlıq və təhqir ilə müşayiət olunur.

COVID-19 pandemiyasında məcburi ev təcrid olunması ailə münasibətlərində gərginliyə və mənfi nəticələrə səbəb olur. Evdəki təcrid qorxu, narahatlıq, depressiya, asılılıq yaradan davranışlar, həddindən artıq alkoqol istifadəsi, məişət zorakılığı, travma sonrası stress intihara səbəb ola bilər [4]. Bundan əlavə, xəstəliyə yoluxma qorxusu, sosial hərəkətliliyin məhdudlaşdırılması, ailəsi və dostları ilə görüşə bilməməsi, ünsiyyət maneələri, hər biri insanın həyatına təsir edir.

COVID-19 pandemiyası şəraitində tətbiq olunan məcburi karantin prosesi əsnasında ailə üzvlərinin evdə daimi birlikdə yaşamaları, pandemiyanın yaratdığı maddi sıxıntı, qorxu və stress səbəbiylə məişət zorakılığında əhəmiyyətli bir artım var. Məcburi karantin tətbiqi qadınların ev mühitini daraldır və qadınların yükünü artırır. Evdə kişi nəzarəti, gücü və hökmranlığı qadınların

ailəsi, dostları və qohumları ilə daha az ünsiyyət qurmasına səbəb oldu və şiddət halında kömək almaq və ətrafdan uzaqlaşma ehtimalını azaltdı.

Ümumdünya Səhiyyə Təşkilatı, hökumətlərin və siyasətçilərin pandemiya vəziyyətində artan şiddət riskinə qarşı təcili bir fəaliyyət planı hazırlamalarını təklif etdi. Milli yardım xətləri, tele səhiyyə, müvəqqəti xidmətlər, sığınacaqlar, təcavüz böhran mərkəzləri, qurbanlara məsləhət xidmətləri, həmçinin təhlükəsizlik tədbirlərinin artırılması və psixoloji dəstək verilməsi barədə bir açıqlama verdi. Pandemiyada görülən tədbirlər çərçivəsində, qadınların dəstək xidmətlərinə çatması üçün təməl xidmətlər kəsilməməli və şiddətin qarşısının alınması və onlarla mübarizə sahəsində yeni texnologiyalara üstünlük verilməlidir [3].

COVID-19 pandemiya prosesi zamanı sosial təcrid praktikası qadına qarşı zorakılığın azaldılması üçün ciddi bir tədbir olsa da, eyni zamanda qadınlara və məişət əleyhinə şiddətin artması üçün əsasdır. COVID-19 pandemiya prosesi ilə əlaqəli şiddətə dair ədəbiyyat araşdırıldıqda, şiddətə qarşı və məişət zorakılığının artdığı müşahidə edildi [5].

Özbəkistanda keçirilən sorğuya əsasən respondentlərdən:

71%-i karantin dövründə ailə münasibətlərinin möhkəmlənməsini qeyd edib;

27%-i zorakılığa səbəb olan mübahisələr ailələrdə daha tez-tez baş verməsini göstərib;

61%-i ataların uşağın tərbiyəsinə olan diqqətin artmasını qeyd edib;

33%-i ər və arvad arasında artan anlaşılmazlıq və münaqişələri qeyd edib;

22%-i qayınana ilə gəlin arasındakı fikir ayrılığının artması göstərilib;

44%-i ailə münasibətlərində heç bir şeyin dəyişmədiyini göstəriblər [6].

Yaşamaq hüququnu təmin etmək üçün şiddətə qarşı mübarizə çərçivəsində dəstək təşkilatları yaradılmalı və qadınların istifadəsinə verilməlidir. Alınan tədbirlər və siyasətləri həyata keçirərkən cəmiyyətlə əməkdaşlıq edərək bütün cəmiyyət mübarizə aparmaq üçün səfərbər edilməlidir. Bundan əlavə, qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair məlumatlılığın artırılması üçün cəmiyyətdə çox təsirli olan sosial media təşkilatlarına kömək edilməli və məlumatlılıq artırılmalıdır.

Eyni zamanda tədqiqatlar göstərir ki, pandemiya ər-arvadın bir-birləri ilə daha çox ünsiyyətdə olmaq, problemləri birlikdə həll etmək, güzəştə getmək və hisslərini ifadə etməyi öyrənmək ehtiyacını daha açıq şəkildə göstərəcəkdir [7]. Bu vəziyyətdə ailələrin daha da möhkəmlənməsi prosesi baş verəcək. Beləliklə, pandemiya ailə münasibətlərini yaxşılaşdırmaq üçün bir əsasdır.

**Nəticə:**

Bütün dünyaya təsir edən bu pandemiya gözlənilmədən həyatımıza girdi və bizə çox mənfi təsirlər göstərdi. Ətrafımızda inkişaf edən bu vəziyyəti idarə etmək və aradan qaldırmaq üçün üsulların müəyyənləşdirilməsi və mübarizə aparmaq, bu prosesi ən az zərərlə aradan qaldırmaq əsas şərtdir. İstər qabaqlayıcı tədbirlər, istərsə də psixoloji özümüzü qorumaq üçün edəcəyimiz işlərlə şübhəsiz bu çətin prosesi geridə qoyacağıq. Psixoloji gərginlik zehni sağlamlığımızı mənfi təsir edə bilər, ancaq düzgün mübarizə üsullarını tətbiq edə və lazımi tədbirləri görsək, qalib gələcəyik.

**Ədəbiyyat siyahısı:**

1. Pandemiya ailədağıdan obrazda: Evlənən yoxdur, amma bir ucdan boşanırlar // https://sputnik.az/life/20210102/425791175
2. Pandemiya ailədaxili münasibətlərə mənfi təsir göstərir // https://ikisahil.az/post/202201
3. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusu "pandemiya" elan edib // https://www.bbc.com/azeri/international-51821526
4. Как самоизоляция повлияет на семейные отношения // https://rg.ru/2020/04/05
5. Ковид и счастье // https://www.vedomosti.ru/lifestyle/articles
6. “Как карантин повлиял на семейные отношения в Узбекистане?” // https://uzbekistan.unfpa.org/ru/news

**Улькер Рзаева**

**ОСОБЕННОСТИ ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЙ В УСЛОВИЯХ ИЗОЛЯЦИИ**

**Резюме:** В статье исследуются проблемы семейных отношений, насилия в отношении женщин и изоляции от общественной жизни в условиях пандемии. В результате проведенного исследования выяснилось, что, хотя некоторые семьи подверглись насилию во время пандемии, некоторые  же семьи стали более сплоченными. Таким образом, пандемия заставила супругов больше общаться друг с другом, например, решать проблемы вместе и уделять больше времени своим детям. В этой ситуации происходит процесс дальнейшего укрепления семьи.

**Ключевые слова:** COVID-19, пандемия, социальная изоляция, домашнее насилие.

**Ulker Rzayeva**

**FEATURES OF FAMILY RELATIONSHIPS IN ISOLATION**

**Summary:** The article examines the problems of family relations, violence against women and isolation from public life in a pandemic. The study found that while some families were exposed to violence during the pandemic, some families became stronger. . The pandemic has allowed couples to spend more time with each other, solve problems together, and spend more time with their children. In this situation, the process of further strengthening of families takes place.

**Key words:** COVID-19, pandemic, social isolation, domestic violence

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Məftunə İsmayılova**

**UOT:342.7:31:340.**

**Gülnar Abbasova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**E-mail:gulnaralverdiyeva@mail.ru**

## UŞAQLAR ÜÇÜN SOSİAL-PSİXOLOJİ XİDMƏTİN ƏSASLARI

**Xülasə:** Bu məqalədə risk altında olan uşaqların sosial-psixoloji durumlarından, hansı hallarda onların təhlükələrlə qarşılaşa biləcəklərindən danışılır. Müəllif, BMT-nin Uşaq Hüquqları Konvensiyasının bu gün də özünü doğrultmadığını, hələ də dünyada baş alıb gedən uşaq zorakılığının səbəblərindən söz açır. Bu sahədə KİV-lərin rolunu müsbət tərəfə yönləndirilməli, xidmət sahəsində qaynar-xəttin inkişaf etdirilməsi və təbliğ edilməsi ön plana çıxarılır.

**Açar sözlər:** risk altında uşaqlar, risk, virtual risk, uşaq istismarı, uşaq zorakılığı

Uşaq istismarı qədim zamanlardan bəri mövcud olan qlobal və ümumbəşəri bir problemdir. 1959-cu ildə BMT-də uşaq hüquqlarının elan edilməsi və dünyanın əksər ölkələrinin bu aktı imzalamasına baxmayaraq uşaqlara qarşı zorakılıq halları hələ də səngimək bilmir.

Ədəbiyyatlarda uşaq zorakılığının dörd formasından daha çox danışılır. Bunlar fiziki, cinsi, emosional və etinasızlıqdır. Uşaqlara qarşı zorakılığı törədə bilən insanlar kimlərdir? Valideynlər (baba, nənə), bacı, qardaş, qəyyumlar, ögey valideynlər, uşaqların yaşadığı müəssisələrin, məktəblərin, uşaq bağçalarının işçi heyəti, dayələr, qohumlar, ailəvi dostlar, digər uşaqlar və s. tərəfindən zorakılıq hallarının yaşandığının şahidi oluruq. Uşaqlara verilən qayğı və tərbiyədə valideynlərinin rolu olduğu qədər cəmiyyətin də payı vardır. Uşaq istismarı, mürəkkəb səbəbləri və faciəli nəticələri olan tibbi, hüquqi və psixi-sosial əsaslı ciddi bir problemdir. Uşaqlara qarşı olunan zorakılıqların çoxu ölümlə nəticələnir. Eyni zamanda uşaq ölümləri yoxsulluqla da sıx bağlıdır. Dünya üzrə uşaq ölümləri hər il ümumi ölümlərin 1/3 təşkil edir. Ən böyük göstərici Cənubi Asiya və Sab-Saharan Afrikadadır. Uşaq ölümlərinin əsas səbəbləri – pnevmaniya (19%), diareya (17%), malariya (8%), qızılca (4%) və QİÇS (3%). Aclıq, əlverişsiz sanitar şərait, təmiz içməli suyun olmaması da bu səbəblər arasındadır. Müharibə və münaqişələrin də uşaq ölümlərini artırdığını qeyd etmək lazımdır. OECD) (2018).

Bu məsələlərdən irəli gələrək uşaqlar risk qruplarına görə müxtəlif kateqoriyaya bölünür.

-Uşaq əməyi- həddindən artıq təhqiramiz və istismar olunan şəraitdə uşaqların işləməsidir. Erkən yaşlarından uşaqların ağır işlərdə işləməsi, bu nöqtədə onların fiziki və zehni inkişaflarına mənfi təsir göstərir və gələcəkdə sağlam inkişaf göstərə bilməzlər.

-Tək valideynə sahib uşaqlar - tək valideynli ailə, valideynlərdən birinin, çox zaman anaların uşaqlarının qayğı və məsuliyyətini yalnız həyata keçirdiyi ailə formasıdır. Bu ailələr üzərində aparılan araşdırma onu göstərir ki, tənha valideynlər ev təsərrüfatında hər bir işi özləri görür, həm ailənin iqtisadi gəlirini təmin edir, həm ev işlərini görür, həm də uşaqların qayğı və tərbiyəsi ilə məşğul olur. Çox zaman vaxt çatışmazlığından uşaqlara yetərincə diqqət göstərilməməsi və qayğıdan kənar olmaları özünü onların yaşamlarının hansısa nöqtəsində müəyyən davranış pozuntularında göstərəcəkdir.

- Qaçqın və məcburi köçkün olan uşaqlar- Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasına görə (1989), 18 yaşına qədər hər bir şəxs uşaq sayılır və uşaqların hər şəraitdə qorunmasının vacib olduğunu vurğulayır. Müharibə, təbii fəlakət səbəblərindən ev-eşiklərini itirmiş və ölkələrindən çıxan qaçqın uşaqların daha çox risk altında qaldıqları göz qabağındadır. Bu risklərə qarşı müdafiəsiz vəziyyətdə olan uşaqların təhsil, sağlamlıq, sığınacaq və qidalanma kimi əsas ehtiyaclarını təmin etmək BMT-nin uşaq hüquqları konvensiyasını imzalayan hər bir dövlətin borcudur.

- Cinayət törədən və cinayətə məcbur edilən uşaqlar- Balciyə (2011) görə uşağın cinayət törətməsinə səbəb olan bir çox amil vardır. Qloballaşan dünyada mühacirət, nizamsız şəhərləşmə, gecəqondular və kütləvi informasiya vasitələrinin mənfi təsirləri uşaqların cinayəti törədən deyil, cinayəti törətməyə məcbur edilən səbəblərdəndir.

- Sağlamlıq imkanları məhdud uşaqlar- Ayyıldıza (2018) görə sağlamlıq imkanları məhdud olan uşaqların səhhətlərindəki problemlər onların təhsillərində, sosial mühitə adaptasiyalarında böyük çətinliklər yaradır. Çünki uşağın hal-hazırdakı sağlamlıq problemləri, onun tez-tez xəstəxanada yerləşdirilməsi, uzun müddət müalicə alması, ailənin sosial-iqtisadi durumu və s. səbəb yaradır ki, onlar, gələcəkdə sosial davranışlarında öz həmyaşıdlarından geri qalırlar.

- Küçə həyatına məruz qalan uşaqlar- Bildiyimiz kimi, dünyada milyonlarla oğlan və qız uşaqları küçə həyatına məruz qalır. Eyni zamanda, biz bu cür uşaqların istismara məruz qaldığının şahidi oluruq. Küçə uşaqları iki kateqoriyaya bölünür: istismara cəlb edilənlər və əmək fəaliyyəti ilə könüllü məşğul olanlar. İstismara cəlb edilənlər əsasən dilənçilik, cibgirlik və narkotik maddələrinin daşınması və ötürülməsidir. Uşaq əməyinin istismarı qanunla qadağandır. Onların istismarına qarşı məktəb, polis, efir və mətbuat birgə mübarizə aparmalıdır. (Alabay, 2018: 186-190)

Azərbaycan Respublikasında uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Azərbaycan Respublikası Uşaqların hüquqlarının müdafiəsinə dair "Uşaq Hüquqları haqqında Konvensiya"nı ratifikasiya etmiş və Uşaq hüquqları haqqında qanun qəbul etmişdir (6). Uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması da dövlət siyasətinin əsas prioritetlərindən biridir. "Uşaq Hüquqları haqqında Konvensiya"nın 19-cu maddəsində uşaqlara qarşı zorakılığın qarşısının alınması üçün müxtəlif hərəkətlərin həyata keçirilməsini dövlətlər üzərinə öhdəlik kimi qeyd edir. Uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması üçün 22 iyun 2010-cu ildə "Məişət Zorakılığı haqqında qanun" qəbul edilib və 2019-cu il 22 oktyabr tarixində "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" (Lanzarote) Avropa Şurasının Konvensiyasına Azərbaycan Respublikasının 1681-VQ nömrəli qanunu ilə qoşulub (7).

2 iyun 2020-ci il tarixində uşaqların hüquqlarının müdafiəsinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün strategiyası qəbul edilib. Strategiya uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması üçün 4.1.8-ci bəndində uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması ilə bağlı qanunvericiliyin təhlili və təkmilləşdirilməsi; bəndini özündə ehtiva edir. Strategiyanın 4.3.9. aidiyyəti dövlət orqanlarına (qurumlarına) uşaqların məruz qaldıqları zorakılıq hallarına dair məlumat verilməsi və onların yardım almaq imkanlarının genişləndirilməsi üçün qaynar xətt xidmətlərinin təşkil edilməsini özündə nəzərdə tutur ki, hal-hazırda uşaq hüquqlarının müdafiəsinə dair beynəlxalq 116, 111 Uşaq Qaynar xətti fəaliyyət göstərir (5).

Uşaqlara qarşı zorakılıq, erkən nikah hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması istiqamətində problemlərin öyrənilməsi məqsədilə statistik müayinələr aparılması Uşaqlara dair Strategiyanın əsas prioritet məqsədlərindəndir.

Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üçün qəbul edilən Fəaliyyət Planı 2020-2025-ci illərdə uşaq hüquqlarının müdafiəsinə dair müxtəlif tədbirləri nəzərdə tutur.

Həmin tədbirlər aşağıda göstərilir:

-Sosial həyatın bütün sahələrində (ailə, təhsil, idman, mədəniyyət və s.) uşaqlara qarşı zorakılığın qadağan olunmasına dair normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması;

-Uşaqlara qarşı zorakılıq hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması istiqamətində problemlərin öyrənilməsi məqsədilə statistik təhlillər aparılması;

-Tərbiyə məqsədilə uşaqlara qarşı hər cür zorakılığın mənfi nəticələri haqqında maarifləndirmə tədbirlərinin kütləvi informasiya vasitələrini cəlb etməklə əhatə dairəsinin genişləndirilməsini özündə ehtiva edir.

Məişət zorakılığı haqqında qanunun 15-ci maddəsinə əsasən zorakılığa məruz qalmış uşaqlar:

uşaqların sosial qayğı ilə təmin edilməsi üçün tədbirlərin görülməsi; dövlət vəsaiti hesabına tibbi yardımın göstərilməsi; psixoloji reabilitasiya *və psixoloji korreksiya* kurslarının təşkili;

zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin yaradılması, təhsilin davam etdirilməsində kömək göstərilməsi, sosial müdafiəsinin təşkili, onlara müvafiq sənədlərin və ya qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi məişət zorakılığının qarşısının alınması üçün müxtəlif sosial tədbirləri əks etdirir (9).

Respublikamızda hər il uşaqlara qarşı zorakılıq, cinsi istismar və əməyin istismarı hallarının qarşısının alınması məqsədilə "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" tərəfindən maarifləndirici tədbirlər keçirilir. Təhsil ocaqlarında, kitabxanalarda, iş yerlərində, yeniyetmə və gənclərin sıx olduğu yerlərdə, uşaq zorakılığının qarşısının alınması ilə bağlı müzakirələr təşkil olunur.

Uşaqlara qarşı heç də bütün zorakılıq faktları aidiyyəti orqanlara müraciət edilmədiyinə görə qeydə alınmır və sosial, hüquqi, psixoloji tədbirlər görülmür. Bir çox hallarda məişət zorakılığı halları ilə bağlı müraciət etmə mexanizmi barədə vətəndaşlarda məlumatsızlığın olması bu halların gizli qalmasına və həll edilməməsinə səbəb olur. Zorakılıq halları vaxtında müəyyən edilmədikdə uşağın sosial-psixoloji vəziyyəti daha da ağır vəziyyətə düşür və təcrübə göstərir ki, bu hallar gec aşkar edildikdə uşağın reabilitasiyası işinin təşkilində əlavə çətinliklər yaranır. Bu istiqamətdə müvafiq xidmətlər barədə əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsinə ehtiyac var. Xüsusilə, müvafiq qaynar-xətt xidmətinin inkişaf etdirilməsi və təbliğ edilməsi buna misal ola bilər. Zorakılıq halları bəzən intihar hallarına da gətirib çıxara bilər. Bu baxımdan çətin həyat şəraitində olan uşaqlara yönəlmiş psixoloji dəstək xidmətlərinin genişləndirilməsi, eləcə də bu xidmətə çıxış imkanlarının təmin edilməsi olduqca vacibdir. Ailə münaqişələrinin mənfi fəsadlarından, məişət zorakılığı hallarından uşaqların müdafiəsi, eləcə də bu hallarla rastlaşan şəxslərin hüquqlarının müdafiəsi istiqamətində sosial xidmətlərin şəbəkəsinin daha da genişləndirilməsinə ehtiyac var.

**Ədəbiyyat siyahısı:**

1. Ayyıldız, E. (2018). Sağlık Sorunu Olan Çocuklar ve Eğitimleri. Risk Altındaki Çocuklar ve Eğitimleri (313-326). Ankara: Eğiten Kitap.

2. Alabay, E. (2018). Sokak Çocukları ve Eğitimleri. Risk Altındaki Çocuklar ve Eğitimleri (185-200). Ankara: Eğiten Kitap

3. Azərbaycan Respublikası Konstitusiyası//www.e-qanun.az

4. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytı. http:// www.mlspp.gov.az

5. "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" https://nk.gov.az/az/document/4506/print/

6. Balci, H. (2011). Çocuk suçluluğu ve toplumsal nedenleri. Yüksek lisans tezi, Dumlupınar Üniversitesi Sosyal Bilimler Enstitüsü, Kütahya

7. Birləşmiş Millətlər Təşkilatı, "Uşaq hüquqları konvensiyası" https://www.unicef.org/turkey/%C3%A7ocuk-haklar%C4%B1na-dairs%C3%B6zle%C5%9Fme

8. OECD, O. (2018). Stat. Acesso em, 31

9. «Məişət zorakılığının qarşısının alınması haqqında» 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az

**Гульнар Аббасова**

## ОСНОВЫ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОЙ ПОМОЩИ ДЕТЯМ

**Резюме:** В данной статье рассказывается о социально-психологическом положение детей из группы риска и ситуации, в которых они могут столкнуться с опасностями. Автор говорит о том, что Конвенция ООН о правах ребенка до сих пор себя не оправдывает, и о причинах жестокого обращения с детьми, которые все еще происходят в мире. Роль СМИ в

этой сфере должна быть направлена в положительную сторону, приоритетное внимание уделяется развитию и продвижению службы горячей линии.

**Ключевые слова**: дети в группе риска, риск, виртуальный риск, жестокое обращение с детьми.

**Gulnar Abbasova**

**BASICS OF SOCIAL AND PSYCHOLOGICAL SERVICES FOR CHILDREN**

**Summary:** In this thesis discusses the socio-psychological situation of at-risk children and the situations in which they may face dangers. The author speaks about the fact that the UN Convention on the Rights of the Child still does not justify itself, and the causes of child abuse that still occur in the world. The role of the media in this area should be directed in a positive direction, the development and promotion of the service hotline is given priority.

**Key words:** Children at risk, risk, virtual risk, child abuse

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

**UOT:31: 314:390.**

**Günel Adıgözəlova**
**Sumqayıt Dövlət Universiteti**
**Müəllim**
**E-mail: adigozelli.87@ mail.ru**

# AİLƏ - NİKAH MÜNASİBƏTLƏRİNDƏ GENDER PROBLEMİ

**Xülasə:** Ölkəmizdə məişət zorakılığı hallarının mövcudluğu hüquqi müstəvidə bu hallarla mübarizəni gündəmə gətirir. Məişət zorakılığına qarşı mübarizə bütün cəmiyyətlərdə olduqca mürəkkəb bir problemdir. Ona görə də, məişət zorakılığı və ya ailədə zorakılıq halları yalnız bir ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün təhlükəlidir. Məişət zorakılığı probleminin həlli hərtərəfli yanaşma və məqsədli tədbirlərin həyata keçirilməsini tələb edir.

**Açar sözlər**: ailə, cəmiyyət, qadın, dəyərlər, mənafe, əhəmiyyət, insan

**Giriş:**

Ümummilli lider Heydər Əliyev ölkəmizdə ailə siyasətinin formalaşması mərhələsinə böyük diqqət yetirmiş, həmin sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Müstəqil Azərbaycanda həyata keçirilən dövlət ailə siyasəti milli mənəvi dəyərlərdən qaynaqlanır. Bu da ölkədə ailəyə verilən qiymətin bazis ifadəsidir. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda ölkə başçısı bu məqamları xüsusi vurğulamışdır: "Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır''.

Ailə-cəmiyyətin özünü təşkilinin mexanizmlərindən biridir, hansı ki, əhəmiyyətli sayda ümümbəşəri dəyərlərin təsdiqi ilə əlaqəlidir. Bütün dövrlərdə insan cəmiyyətində ailə-nikah münasibətləri mühüm əhəmiyyət kəsb etmişdir: möhkəm ailələr tarix boyu onun stabilliyinin qaranti rolunda çıxış etmişdir, ümümbəşəri dəyər və norma kimi çıxış etmişdir. Ailə elə çox aspektli qurumdur ki, sosiologiyanın bütün sahələrində ondan bəhs olunması təəccüblü deyil. O, özündə sosial təşkilatın, sosial strukturun, institutun və qrupun xassələrini təcəssüm etdirir. Nikah kişi və qadın arasında cəmiyyət tərəfindən təsdiqlənən və onların bir-birinə və onların uşaqlarına nəzərən hüquq və vəzifələrini tənzimləyən münasibətlər formasıdır. Hüquqi baxımdan nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü bərabərhüquqlu ittifaqıdır. Ölkəmizdə yalnız vətəndaşlıq aktlarının dövlət qeydiyyatı (VADQ) orqanlarında bağlanmış nikah etibarlı hesab olunur. [1, 23] Nikah seçimi prosesinin əsas xüsusiyyətləri onunla bağlıdır ki, müxtəlif mədəniyyətlərdə və tarixi inkişafın müxtəlif mərhələlərində istər mümkün seçim imkanı, istərsə də fərdi seçim azadlığının dərəcəsi müxtəlifdir. Birinci münasibətdə yəni nikah tərəfdaşının seçimlərini mümkün imkanının müəyyənləşdirilməsində bütün mədəniyyətlər bir-birindən təkrar nikahlara yol verilib verilməməsi ilə fərqlənir. Əgər təkrar nikahlara seriyalı monoqamiyaya yol verilirsə, onda nikah tərəfdaşının seçimi zamanı aparılan məcmu çox geniş olur və özündə həm nikahda olanları, həm də nikahda olmayanları ehtiva edir. Burada mahiyyət ondan ibarətdir ki, bəzi mədəniyyətlərdə kişi və qadının nikahda olub olmamasından asılı olmayaraq nikah onlar üçün daim mümkün olur.

Respublikamızda ailə problemlərinin həllinə xüsusi qayğının göstəricisi kimi 2006-cı ildə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitənin qarşısında duran ən mühüm vəzifələrdən biri də

ailə institutunun hər tərəfli inkişafı və möhkəmləndirilməsi, ailə dəyərlərini qorunması ümumən ailənin cəmiyyətdə rolunun yüksəldilməsi və rifahının artırılmasıdır. [2 , 34]

Qeyd etdiyimiz kimi cəmiyyətin və dövlətin formalaşması və inkişafında ailə sağlam cəmiyyətin, güclü dövlətin özülüdür.

Feminizmin əsas hədəfi, qadının kişinin obyekti olaraq aşağı dəyərdə görülməsi və xilası özbaşına qazanmasıdır. Latınca qadın mənasını verən femine sözündən törədilən bu yanaşma qadınların, yalnız qadın olduğu üçün qarşı-qarşıya olduqları təzyiq və əzilmə əlaqəsini araşdıran bir elm sahəsi olaraq hər sinifdən, irqdən, millətdən və dindən qadının bu problemlərlə qarşılaşdığını ifadə etməkdədir. Tarixin daha əvvəlki dövrlərində bəzən insan olaraq belə qəbul edilməyən qadınlar, ilk dəfə 17-ci əsr İngiltərəsində səslərini yüksəltməyə başlamışlar. Feminizm üzərinə yazılmış ən əhəmiyyətli ilk əsər Meri Uolstonkraftın 18-ci əsrdə yazdığı və qadınların təhsil, hüquq və siyasət sahələrində kişilərlə eyni hüquqlara sahib olduğunu iddia etdiyi "Qadın Hüquqlarının Müdafiəsi (Vindication of the Rights of Woman)" adlı kitabıdır. [5, 31] Uolstonkraft yazdığı bu kitab ilə bir çox inqilabi tələblər irəli sürdü. Ona görə qadınların ev işinə məhkum edilməsi, Russonun dediyi kimi qadın təbiətinin gərəyi deyildi. Uolstonkraftın o illərdə bəhs etdiyi fikirlərin yenidən gündəmə gəlməsi bir yarım əsr sonra reallaşdı. Uolstonkraft bütün feministlərin mənimsədiyi bu sözləri də tələffüz etdi: "Artıq qadınların həyat tərzində bir inqilab həyata keçirilməsinin zamanı gəldi. Qadınlara itirdikləri qürurlarını yenidən verməк və insan nəslinin bir parçası olaraq dünyanın dəyişdirilməsində iştirak etmələrini təmin etmək üçün gec belə qalınmışdı. Qadın və kişi arasında cinsi istəkdən başqa heç bir fərq qalmayana qədər mübarizə!.." [4, 43]

Qadınlar kütləvi, mütəşəkkil və təşkilati səviyyədə isə ilk dəfə inqilab xüsusiyyətindəki iqtisadi və siyasi dəyişikliklərin yaşandığı bir dövrdə (19-cu əsrdə) ortaya çıxmış və haqlarını müdafiə etməyə başlamışlar. Sözügedən dövrdə xüsusilə avropalı qadınlar ictimai və siyasi hərəkatlara qatılaraq səslərini eşitdirməyə çalışmışlar. Çünki sənaye inqilabı, sənaye, kapitalizm və dövlətlərin siyasi nizamlarının təmsili demokratiyaya keçməsi ilə birlikdə, avropalı qadınların vəziyyəti və mövqeyi dərindən sarsılmış, xüsusilə ailənin iqtisadi və siyasi əhəmiyyətinin azalması, feministlərin səslərini daha da yüksəltmələrini tələb edən bir mühit yaratmışdı. Bununla birlikdə qadınların iqtisadi və siyasi bir "problem" halına gəlməsi nəticəsində, təşkilati feminizm bu problemi həll etməyə istiqamətli cavablar axtaran bir hərəkat və ideya olaraq ortaya çıxmışdır. Dövri olaraq feminist nəzəriyyə üç dövrdə araşdırılır ki, bu üç dövr əslində ilk dövr liberal feminizmin, ikinci dövr radikal və marksist feminizmin və son dövr postmodernist feminizm yanaşmalarının üstünlük təşkil etdiyi zaman aralığına uyğun gəlir. Sivil cəmiyyət özlüyündə və onun sosial təbəqəsi olan qadınlar geniş "Qadın güzəştləri" sisteminin varlığında maraqlıdırlar. Lakin onlar arasında balans elə qurulmalıdır ki, qadının analıq funksiyasının stimullaşdıran güzəştlər onun əmək, ictimai-siyasi və bu kimi digər sahələrdə kişilərlə bərabər rəqabət aparmaq imkanı əlindən almasınlar. Qadın güzəştləri kişinin atalıqla bağlı güzəştlərinə xələl gətirməməlidir. Kişi və qadın üçün güzəştlərin optimal ölçülərinin təyin etməkdə hüquq və genderologiya elmləri yardımçı ola bilər. Gender problemi və gender bərabərliyinin təmin olunması dünyanın bir çox ölkələrində aktual problemlər sırasında durur. Bu, ilk növbədə iqtisadi və sosial sahədə gender bərabərsizliyi amilinin insan resurslarının keyfiyyətinin pisləşməsindən irəli gəlir. Belə ki, problemin ciddi xarakter alması sosial-iqtisadi tərəqqiyə mane olur, insan kapitalının inkişafında mövcud sistemin səmərəliliyini aşağı salır və nəhayət, cəmiyyətdə sosial ədalətsizliyin dərinləşməsinə gətirib çıxarır.

İnsan cəmiyyətini qadın və kişilər təşkil edir. Bu cinslər arasında bioloji və fizioloji fərqlər olduğu məlumdur və dəyişməzdir. Lakin bu o demək deyil ki, kişi və qadının cəmiyyətdə tutduğu yer dəyişməzdir. Qadın hərəkatının tarixi, bu sahədə əldə edilmiş nailiyyətlər qadınların cəmiyyətdə oynadığı rolun dinamik sürətdə dəyişməsindən xəbər verir. Son əsrlərin texnoloji nailiyyətləri qadınların həm məişətdə, həm də istehsalatda oynadığı rolu dəyişdirib. XX əsrin sonunda "Gender" anlayışı formalaşmışdır ki, bunu da "Sosial Cins" kimi xarakterizə etmək

olar. Gender anlayışının əsasında qadın hərəkatı durur. Gender termininin bir çox tərifi məlumdur. Ümumiləşdirilmiş şəkildə gender anlayışı altında qadın və kişilərin cəmiyyətdəki sosial rolu nəzərdə tutulur. Qadın və kişilər arasında sosial bərabərlik gender bərabərliyi kimi qəbul edilir. [7, 21]

Qeyd etmək lazımdır ki, cinslərin sosial bərabərlik nəzəriyyəsini qəbul etməyənlər və gender konsepsiyasının tənqidçiləri də mövcuddur. Onların əsas arqumenti odur ki, qadın və kişilərin təbiəti fərqlidir və bu fərqlər yalnız fizioloji deyil, psixoloji sahəni də əhatə edir. Belə tənqidi nəzəriyyənin tərəfdarları iddia edirlər ki, texniki və texnoloji tərəqqiyə baxmayaraq, elə fəaliyyət sahələri mövcuddur ki, orada əsasən qadınların və yaxud kişilərin çalışmaları daha məqsədəuyğundur. Gender nəzəriyyəsinin tənqidçilərinə görə cəmiyyətdə kişi və qadınlar arasında fəaliyyət sahələrinin psixoloji amillərə əsaslanan bölümü hər iki qrupu daha çox xoşbəxt edə bilər. Tənqidçilər gender probleminin həlli yolunu inkişaf üçün eyni şəraitin yaradılmasında görürlər. Onların fikrincə cəmiyyət üçün belə yanaşma daha əhəmiyyətlidir. Bu baxışlara görə, gender probleminin həlli qadınları qadın kimi, kişiləri isə kişi kimi xoşbəxt etməkdən keçir.

Gender probleminin həll edilməsi məqsədilə Azərbaycan Respublikasında bir sıra tədbirlər həyata keçirilməkdədir. Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və səmərəli fəaliyyəti nəticəsində ölkədə bir çox gender problemi aradan qalxmaqdadır. Milli Məclis Aparatı rəhbərinin xidmətinin Gender məsələləri sektorunun müdiri Vəfa Əfəndiyeva bildirib ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində, o cümlədən qadınların hüquqlarının təmin edilməsində, cinsi ayrı-seçkiliyə son qoyulmasında, məişət zorakılığı ilə mübarizədə böyük nailiyyətlərə imza atıb. Belə ki, ölkəmiz 1992-ci ildə "Qadınların siyasi hüquqları haqqında" Konvensiyaya, 1995-ci ildə isə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya qoşulub. [8, 22]

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında kişi və qadınlara bərabər hüquq və imkanların təmin edilməsi bu istiqamətdə atılmış ən böyük addımlardan biridir. Kişi və qadınları siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın digər sahələrində bərabər imkanlarla təmin edən, gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılmasının vacibliyini özündə əks etdirən "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" Qanun 2006-cı il oktyabrın 10-da Azərbaycan Prezidenti tərəfindən imzalanıb. Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli qərarı ilə qəbul edilən "Demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Respublika Kompleks Proqramı" ölkədə gender əsaslı zorakılıqla mübarizəyə zəmin yaradan əsas sənədlərdəndir. 2010-cu ildə Milli Məclisdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilib. "Qanunvericilik gender bərabərliyi üçün hüquqi bazadır. Qanunlar öz-özlüyündə dövlətin siyasi iradəsinin bir göstəricisi kimi çox vacib rol oynayırlar. [9, 33]

Bundan başqa, qanunların mövcudluğu konkret məsələlərə (məs., gender bərabərliyi) diqqəti cəlb etməklə yanaşı, digər dəyişikliklər üçün də katalizator rolunu oynaya bilər. Buna görə də bir çox ölkələr gender bərabərliyinin təmin edilməsi məqsədi daşıyan qanunlar qəbul edib. 2011-ci ilin may ayında gender siyasətinin təhlili və həyata keçirilməsi üçün müvafiq icraedici orqanlar, digər dövlət strukturları və vətəndaşlar arasında əlaqələndirmənin və qanunvericilikdə nəzərdə tutulmuş gender bərabərliyinin təmin edilməsi monitorinqi məqsədilə Milli Məclis Aparatı rəhbərinin xidmətində Gender məsələləri sektoru yaradıldı. Sektor gender bərabərliyi sahəsində Azərbaycan qanunvericiliyinin Aİ-nin gender bərabərliyi üzrə qanunlar toplusu və CEDAW Konvensiyasına uyğunlaşdırılması, bərabər imkanların yaradılması üçün müvafiq dövlət qurumları və sosial tərəfdaşların institusional və inzibati potensialının artırılması, Azərbaycanda gender bərabərliyi sahəsində qanunvericiliyin uyğunlaşdırılması və icra olunmasında Milli Məclisə dəstək məqsədi ilə Tvinninq layihəsini Avropa Birliyinə təqdim edib.

Hər bir sahədə olduğu kimi gender bərabərliyində də dövlətin dəstəyi ilə nailiyyətlər əldə olunub və bu nailiyyətlərin daha da artırılması üçün biz əlimizdən gələni etməliyik” [5, 61].

Müşahidələr isə göstərir ki, ölkəmizdə qadınlar kişilərlə eyni hüquqlara malik olsalar da, kişilərə təklif olunan imkanlar qadınlar üçün eyni dərəcədə əlçatan deyil. Baxmayaraq ki, qadınlarımız bütün ictimai sferalarda, siyasətdə və biznesdə iştirak edir, pozitiv dəyişikliklər baş verir, amma hələ görüləcək işlər çoxdur. Xüsusilə də ölkənin regionlarında.

Ekspert Rafiq Təhməzov Azərbaycan hökuməti tərəfindən gender bərabərliyinin təmin olunması istiqamətində ciddi addımların atıldığını bildirib. Onun sözlərinə görə, son 10 ildə ölkədə qadın və kişilər arasında bərabərliyin təmin olunması yönündə atılan addımlar müsbət qiymətləndirilə bilər. Ekspertin fikrincə, hazırda gender problemi və gender bərabərliyinin təmin olunması dünyanın bir çox ölkələrində aktual problemlər sırasında durur. [2, 12] Bu, ilk növbədə iqtisadi və sosial sahədə gender bərabərsizliyi amilinin insan resurslarının keyfiyyətinin pisləşməsindən irəli gəlir. Belə ki, problemin ciddi xarakter alması sosial-iqtisadi tərəqqiyə mane olur, insan kapitalının inkişafında mövcud sistemin səmərəliliyini aşağı salır və nəhayət, cəmiyyətdə sosial ədalətsizliyin dərinləşməsinə gətirib çıxarır. Bu baxımdan insan hüquq və azadlıqları beynəlxalq hüququn fundamental prinsiplərinin təsiri əsasında müasir dövlətlərin əksəriyyətinin qanunlarında təsbit olunub.

"Təmiz Dünya" İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova isə hesab edir ki, Azərbaycanda gender bərabərliyində müəyyən problemlər olsa da, müsbət işlər də az deyil. Belə ki, icra başçılarının müavinləri vəzifələrinə qadınlar gətirilib və qadınların idarəçilikdə rolunun artırılması istiqamətində digər addımlar atılıb: “Ancaq nəzərə almaq lazımdır ki, gender bərabərliyi təkcə kadr siyasəti ilə ölçülmür. Qanunvericilikdə də bir sıra yeniliklərin edilməsi gender bərabərliyi ilə bağlı aparılan siyasətin tərkib hissəsidir. Bələdiyyə orqanlarında qadınlarla kişilər arasında balans yaradılıb. Ötən bələdiyyə seçkilərində bu yöndə bir sıra işlər görülüb. Ancaq bundan fərqli olaraq dövlət qurumlarında bununla bağlı tarazlıq varmı? Bunu birmənalı söyləmək çətindir. Bir sıra sahələrdə bu tarazlıq pozulub. Məsələn, qadın müəllimlərin, həkimlərin sayı daha çoxdur. Yəni, bu sahədə hələ ki, kifayət qədər işlərin görülməsinə ehtiyac var".

Gender məsələləri üzrə ekspert Sadiq Fətaliyev isə mövcud vəziyyətin ictimaiyyətə çatdırılmasında medianın rolunu qeyri-kafi qiymətləndirib: Belə ki, son illərdə Azərbaycanın əsasən, cənub bölgələrində qadınların hüquqlarının pozulması qeydə alınır. Media yalnız informasiya xarakterli məlumatla kifayətlənir. Ancaq bu olayların haradan qaynaqlandığını, necə yayıldığını araşdırmaq və ictimaiyyətə təqdim etmək medianın boynuna düşür. Bu istiqamətdə təsadüf yazılara rast gəlmək olar. Əsasən, media gender bərabərliyi haqqında məqalələri hansısa QHT-nin Bakıda və ya rayon mərkəzlərində keçirdiyi tədbirlər haqqında yazır. Belə tədbirlərdə, adətən, eyni insanlar iştirak edir. Bu da qanunun tam ictimaiyyətə əsasən kənd sakinlərinə media ilə əlaqəsi olmayan insanlara çatmamasına səbəb olur. Demək olar ki, onların keçirilən tədbirlər haqqında heç bir məlumatı olmur. Bütün bunları aradan qaldırmaq və ictimaiyyətə gender bərabərliyi haqqında geniş məlumat çatdırmaq üçün kənddən başlamaq lazımdır. Bunun üçün hər bir jurnalist kəndlərdə olmalı, əhalinin sosial-iqtisadi durumu və qadın-kişi münasibətlərini öyrənməlidir. Ondan sonra gender bərabərliyi haqqında məqalələr yazaraq ictimaiyyəti mövcud vəziyyətlə tanış edə bilər”.

Ekspert Sevda Məmmədli isə deyib ki, Azərbaycan cəmiyyətində qadın hələ kişinin mövqeyinə çata bilməyib. Bu yanaşmanın nəticəsidir ki, hazırda Azərbaycanda bütün sahələrdə, o cümlədən idarəetmədə, qərar qəbulunda, biznes fəaliyyətində, ailədə kişilər qadınları böyük faizlə üstələyir. Deməli, təkcə hüquqi bazanın olması kifayət etmir. Onun fikrincə, qadının önə çıxa bilməsi, özünü təsdiqləməsi üçün çox işlər görülməlidir: “Bəzən hətta qadın kişidən ağıllı olsa da, kişilərin hegemonluğu zərif cinsdən olanların önə çıxmasına imkan vermir. “Gender bərabərliyi o vaxt olacaq ki, qadınla kişi qərar qəbulunda, təkcə sözdə deyil, praktikada da bərabərhüquqlu olacaqlar”. [6 , 41]

S.Məmmədli deyib ki, regionlarda qadınlar gender bərabərliyi haqda o qədər də xəbərdar deyillər. Eyni zamanda rayonlarda kişilərin də maarifləndirilməsinə ehtiyac var ki, bu, onların düşüncə tərzinin dəyişməsinə təsir göstərsin. Rayonlarda həm qadınlar, həm də kişilərin əksəriyyəti mentalitetə uyğun olaraq düşünürlər ki, qadının rolu ondan ibarətdir ki, kişiyə, ailəsinə qulluq etsin. Amma bunun ifrat dərəcədə qəbul edilməsi vəziyyətə mənfi təsir göstərir. Azərbaycan rayonlarında qadınlar hələ də ictimai problemlər ucbatından, məsələn, zorakılıq, siyasi və iqtisadi həyatdan sıxışdırılma, işəgötürmədə ayrı-seçkilik və peşə həyatı ilə şəxsi həyatın uzlaşdırılmasında çətinliklər səbəbindən heç də kişilərlə eyni imkanlara malik deyillər.

**Nəticə:**

Ümumilikdə ekspertlərin fikrincə, cinslərin oturuşmuş rolları və dərin kök atmış mədəni amillər gələcək tərəqqiyə mane olur. Mədəni dəyişikliyə ehtiyac var. Bu dəyişiklik yalnız məktəbdə və ailələrdə maarifləndirmə vasitəsilə və medianın bu sahəyə tam cəlb olunması ilə mümkündür. Gender stereotipləri qaldıqca ayrı-seçkilik davam edəcək, çünki bu gün qadınların inkişafında əsas maneə qanunlar və ya qanun qüvvəli aktlar deyil, məhz onlardır.

**Ədəbiyyat siyahısı:**

1.Aqiyə Naxçıvanlı, Şəxsiyyətin qüdrəti, Bakı, Yazıçı. 2012 səh 304-səh 157

2. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001, 122 s.

3. İbadova A. Azərbaycanda parlament demokratiyasının inkişafı. AMEA, Sosial-siyasi problemlər, №11, 238-247 s., 133 s.

4. İbrahimli X. Politologiya: İnteraktiv dərs materialları. Bakı: Qanun-2008, 55 s.

5. İnsan hüquqları: Bəşər rifahının təməli. Pərvizoğlu Bakı: Azərbaycan, 2001, 122 s.

6. İnsan hüquqlarının tədrisi: Müəllimlər üçün metodik vəsait, 124 s.

7. İsmayılov İ. Azərbaycan Respublikası Konstitusiyası və hüququnun əsasları. Bakı: Qanun 2002, 45 s.

8. Rasim Əliyev. Aqrar bazar və ərzaq təhlükəsizliyi, Bakı 2005, Azərnəşr. 432 s,

9. Fəzail Ağamalı. İlham Əliyev bu günün və gələcəyin uğur faktorudur. Bakı.Azərbaycan nəşriyyatı.səh 552

10. Heydər Əliyev; Mənəviyyat, Mənəvi dəyərlər, Mənəvi tərbiyə-.Bakı 2008 637 səh

**Гюнель Адыгозалова**

**ГЕНДЕРНАЯ ПРОБЛЕМА В СЕМЕЙНО-БРАЧНЫХ ОТНОШЕНИЯХ**

**Резюме:** Наличие в нашей стране случаев домашнего насилия поднимает вопрос борьбы с этими случаями в правовом поле. Борьба с бытовым насилием является достаточно сложной проблемой во всех обществах. Поэтому случаи домашнего насилия опасны не только для семьи, но и для общества в целом. Решение проблемы домашнего насилия требует комплексного подхода и целенаправленных мер.

**Ключевые слова:** семья, общество, женщина, ценности, интересы, важность, мужчина

**Gunel Adigozalova**

**GENDER PROBLEM IN FAMILY AND MARRIAGE RELATIONS**

**Summary:** The existence of cases of domestic violence in our country raises the issue of combating these cases in the legal field. The fight against domestic violence is a complex issue in all societies. Therefore, cases of domestic violence or domestic violence are dangerous not only for the family, but for society as a whole. Addressing the problem of domestic violence requires a comprehensive approach and targeted measures.

**Key words:** family, society, woman, values, interests, importance, man

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14. 04. 2021**

**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16. 04. 2021**

**Məqalənin çapa qəbul olunma tarixi: 19. 04. 2021**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**UOT:340:342.7:390.**

**Nailə Qasımova**
**Sumqayıt Dövlət Universiteti**
**Müəllim**
**E-mail: kulturoloq1@gmail.com**

# CƏMİYYƏTDƏ BAŞ VERƏN MƏİŞƏT ZORAKILIĞINA QARŞI MÜBARİZƏ YOLLARI

**Xülasə:** Müasir dünyamızda siyasiləşmiş məişət zorakılığı Azərbaycanda da dövlətin bilavasitə diqqət mərkəzindədir. Azərbaycan sosial dövlətdir. Ölkəmizdə insan hüquqlarının təmin olunması ilə bağlı məsələlər içərisində məişət zorakılığının qarşısının alınması problemi olduqca aktualdır. Əsaslı şəkildə bu problem Avropada keçən əsrin 70-80-ci illərindən sonra öyrənilməyə başlanmışdır. Azərbaycanda isə artıq 90-cı illərdən sonra məqsədyönlü dövlət siyasətinin aparılması məqsədi ilə ailə, qadın və uşaq problemləri sahəsində xüsusi institut fəaliyyət göstərir. Məişət zorakılığına qarşı mübarizənin səmərəliliyi həm dövlətimizin, həm də cəmiyyətin hüquqi yardımının göstərilməsi səviyyəsindən asılıdır.

**Açar sözlər:** Cəmiyyət, siyasi mübarizə, fiziki zorakılıq, gender bərabərliyi, psixoloji təzyiq, insident, sosial həyat

Məlum məsələdir ki, artıq bir çox dünya ölkələri məişət zorakılığının qarşısının alınmasına böyük maliyyə vəsaitləri ayırır. Son araşdırmalar onu göstərir ki, həmin vəsait zorakılığa məruz qalmış insanlara xərclənməsinə imkan yaradır. Hazırkı şəraitdə zorakılığın qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün tədbirlərin gücləndirilməsi, beynəlxalq standartlara uyğun müvafiq infrastukturun yaradılması, dövlət orqanlarının potensialının artırılması və kompleks yanaşma tələb olunur. Müasir cəmiyyətimizdə məişət zorakılığına hər bir insan məruz qala bilir. Amma dünya təcrübəsi göstərir ki, əsasən qadınlar və kiçik yaşlı qız uşaqları məişət zorakılığının qurbanı olur. Qadınların məişətdə qarşılaşdığı zorakılıq həm ləyaqətin, həm də gender bərabərsizliyi problemidir. Məişət zorakılığı Azərbaycanda da geniş yayılmışdır. Demək olar ki, əksər ailələrdə məişət zorakılığı özünü büruzə verir. Cəmiyyətdə bu, insanlarda həm fiziki, həm cinsi, həm də psixoloji təzyiq və təcrid edilmə kimi formalarda müşahidə olunur. Bir çox ölkələrdə olduğu kimi Azərbaycan cəmiyyətində müşahidə edilən məişət zorakılığı halları digər cəmiyyətlərdə baş verən zorakılıq halları ilə oxşardır.

Dünya təcrübəsi göstərir ki, qadınlar məhz qadın olduqlarına görə psixoloji təzyiqə məruz qalırlar. Əks cins tərəfindən təzyiq və sarsıntılara məruz qalan qadınlar öz hüquqlarını cəmiyyətdə qorumağa çalışırlar. Qadınlara qarşı ayrı seçkilik və zorakılıq bir çox beynəlxalq təşkilatların, o cümlədən BMT-nin mübarizə apardığı əsas məsələlərdəndir. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası qanun qəbul etmişdir. Bu qanun məişət zorakılığının qarşısının alınması, məişət zorakılığı ilə mübarizənin və qurbanların müdafiəsinin güclənməsi məqsədini daşıyır. Ölkəmizdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna əsasən, məişət zorakılığı deyiləndə, yaxın qohumluq münasibətlərindən, birgə yaşamaqlarından sui - istifadə etməklə, bir şəxsin başqa bir şəxs üzərində şiddəti, ona mənəvi zərər yetirilməsi başa düşülür.[ 1, 38 ]

Zorakılıq təkcə fiziki güc deyildir, eyni zamanda insanların kriminal həyata təhrik olunması deməkdir. Bütün dünya qanunlarına görə məişət zorakılığının qarşısının alınması insanların fiziki, psixi, iqtisadi və cinsi zorakılığı məişət zorakılığının formaları kimi qəbul edir. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və "Dünya, Ana və Uşaqlar" İctimai Birliyinin ölkəmizdə apardığı mübarizə məhz insanların məişət zorakılığına düçar olmamasına yardım dəstəyinin bariz nümunəsidir. Beynəlxalq qanunvericilik nizamnamələrini dəstək tutaraq adları qeyd olunan

təşkilatlar daima cəmiyyətin müxtəlif təbəqələri ilə sıx ünsiyyət qururlar. Ölkəmizdə ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin olunması istiqamətində bir sıra mühüm qanunlar, dövlət proqramları qəbul edilmişdir. Bu sahədə son dövrlər davamlı olaraq islahatlar aparılmaqdadır. Məişət zorakılığının qarşısının alınması istiqamətində Azərbaycan Respublikasının Qanunu, 2012- Xəritələri qəbul edilmişdir. BMT-nin 2016-2030-cu illər üçün dayanıqlı inkişaf "Azərbaycan 2020: Gələcəyə baxış, inkişaf konsepsiyası, 2016-cı ildə Strateji Yol xəritəsinə qoşulmuşdur [ 2, 29]. Qanunvericiliyin təkmilləşdirilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir. Lakin bütün bunlara baxmayaraq, hələ qadınlara qarşı zorakılıq tam şəkildə aradan qaldırılmayıb. Hazırkı dövrdə güclü mübarizə aparılmalı və bu sosial problemin kökü araşdırılmalıdır. Cəmiyyətdə xüsusən qadınlara qarşı zorakılıq əsas insan hüquq və azadlıqlarının pozulması kimi qəbul edilir. Təbii ki, hər bir zorakılıq əməli, o cümlədən məişət zorakılığı qadınlar, uşaqlar, qocalar və ailələr bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional iqtisadi və sosial nəticələr doğurur. Qeyd etmək lazımdır ki, məişət zorakılığı ailədə böyüyüb boya-başa çatmış uşaqların tərbiyəsinə, psixologiyasına, sağlam düşüncə tərzinə çox böyük zərbə vurur. Psixoloji zorakılıq təcrid etmək, xəsarət vermək, daima qorxu altında saxlamaq, hədsiz qısqanclıq, alçaltmaq, daima tənqid etmək insanın demək olar ki, həyat tərzini əlindən alır.

Müasir cəmiyyətlərdə zorakılığın qarşısının alınması multisektorial yanaşma tələb edir. Bu necə izah oluna bilir? Yəni bu fəaliyyətə hüquq mühafizə sisteminin qəyyumluq və himayə orqanlarının, sosial və pedaqoji dairələrin, tibbi polis və sosial xidmətlər arasında informasiya mübadiləsinin əsas şərtidir. Bir əsas məsələni də vurğulamaq lazımdır ki, zorakılıq hallarında tibbi müayinə çox vacib şərtdir. Bəzi hallarda digər mütəxəssislərin təkrar müayinə aparmaması üçün ilkin tibbi müayinənin video formatda çəkilişi olmalıdır. Videolayihələrin geniş aparılması daha dəqiq dürüst material əldə etməyə kömək edər. Müasir dünyada insan hüquqları ilə bağlı, insan hüquqlarının təmin olunması ilə bağlı məsələlər içərisində məişət zorakılığının qarşısının alınması problemi getdikcə daha da aktuallaşır. Dünya statistikası da sübut edir ki, cəmiyyətdə hər üç qadından və ya uşaqdan biri məişət zorakılığının qurbanı olur. Döyülərək şiddət göstərilir, bəzi hallarda isə qətillərin qurbanı olurlar. Təəssüf ki, bu məsələ uzun müddət ərzində öyrənilməmiş qalmış və məxfi saxlanılmışdır. Maraqlı faktdır ki, hələ qədim yunan filosofları Sokrat və Homer kimi antik müəlliflərin əsərlərində qadınlara qarşı neqativ, mənfi baxış və münasibətin olmasından söhbət açılmışdır [3, 97].

Bu problem Avropada əsaslı şəkildə ötən əsrin 70-80-ci illərindən başlayaraq tədqiq edilməyə başlanmışdır. Avropa insan hüquqları Məhkəməsinin müvafiq məsələyə dair qərarları, həmçinin BMT tərəfindən bu yaxınlarda aparılmış əhatəli tədqiqatlar problemlərin aşkar edilməsini və səylərimizin artırılmasının vacib olduğu sahələrin müəyyənləşdirilməsinə yardım etmişdir. Sözsüz ki, məişət zorakılığının qurbanı qeyd etdiyimiz kimi qadınlar və azyaşlı uşaqlardı. Bizim ölkəmiz də istisnalıq təşkil etmir. Ölkəmizdə bu məsələ qonşu Ermənistanın işğalçılıq fəaliyyəti nəticəsində 1 milyon qaçqın və köçkünlərin meydana gəlməsi daha da kəskinləşmişdir. Ermənistandan şiddətlə qovulan insanların çoxu psixoloji gərginliyə düçar olmuşdular. Bu da onların sonrakı həyatlarından izsiz ötüşməmişdir. Dövlətimiz tərəfindən bərabərliyin bərqərar olunması üçün ciddi maneə olan gender probleminin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Hələ 1995-ci ildə Azərbaycan Konstitusiyası qadınlara qarşı siyasi, hüquqi, sosial, psixoloji ayrı-seçkiliyin bütün formalarını aradan qaldırdı. Ailə, qadın və uşaq problemləri sahəsində məqsədyönlü dövlət siyasətinin aparılması məqsədilə vəzifələrindən biri gender bərabərliyinə nəzarətin olmasıdır. Nazirlik statusuna malik Ailə, Qadın və Uşaq problemləri institutunun fəaliyyəti demək olar ki, cəmiyyətin ən aparıcı təşkilatlarından birinə çevrilmişdir [4, 102].

Məişət zorakılığının qarşısının alınması, məişət zorakılığı qurbanlarının dövlət tərəfindən qorunması və zorakı şəxslərin məsuliyyətə cəlb edilməsini tələb etmək siyasi mübarizənin tərkib

hissəsidir. Bu öhdəliyi dövlət olduğu üçün Azərbaycan Respublikası da öz üzərinə götürür. Belə ki, bütün siyasi ideologiyalara yanaşma fərqlidir. Lakin İnsan resursu məsələsi tam fərqli bir münasibətdədir.

Cəmiyyətin ictimai həyatında insanların, xüsusən qadınların mövqeyi uzun tarixi bir dövr keçərək formalaşmış və inkişaf etmişdir. Təbii ki, bu inkişaf heç də tarix səhnəsində asan başa gəlməmişdir. Məişət zorakılığı ilə sıx bağlı olan təhsildən yayınma, intihar hallarının aradan qaldırılmasına və qanunun işləmə mexanizmi istiqamətində fikir mübadiləsinə həmişə ehtiyac olmuşdur. Son dövrlərdə demək olar ki, bu intihar hallarının sayı da sürətlə artmaqdadır. Məişət zorakılığının subyektləri, cəmiyyətdə və məişətdə qadın zorakılığı, zorakılığın formaları, erkən və məcburi nikah barədə cəmiyyətdə ətraflı məlumat var. Problemlə mübarizədə müdafiə mexanizmləri ilə yanaşı, qanunvericilik sahəsində islahatların aparılması və təşəbbüslərin əhəmiyyətli şəkildə olması çox vacibdir. Bu gün məişət zorakılığı dövlət və cəmiyyətin demək olar ki, ortaq problemidir. [ 5, 27 ] Bu gün ölkəmizdə qadın hüquqlarının təminatını bir sıra yer və qanunvericilik orqanları yerinə yetirir. Məişət zorakılığı və mübarizə sahəsində ən mühüm boşluqlardan biri faktlara əsaslanan informasiyaların zəif olmasıdır. Zorakılıq hallarının qarşısının alınması istiqamətində hüquq orqanlarında məlumat bazalarının olması və oraya informasiyaların yerləşdirilməsi mexanizmlərinin inkişafına müsbət təsir edəcəkdir. Məlumat bazasında faktların toplanması və təhlili ölkəmizdə gender zorakılığının azaldılması üçün qabaqlayıcı səmərəli tədbirlərin görülməsinə, müdafiə mexanizmlərinin təkmilləşdirilməsi üçün hüquqi və siyasi mühitin formalaşmasına kömək edəcəkdir. Hazırda Azərbaycanda aparılan bu sahədəki islahatlar dərin tədqiq edilərək öyrənilir [6, 38].

Ölkə prezidenti cənab İlham Əliyev müvafiq siyasəti davam etdirərək, əlavə tədbirlərin həyata keçirilməsinin təşəbbüskarı kimi çıxış etmişdir. Belə ki, dövlət başçısının 2006 - cı ilin sonunda təsdiq etdiyi "İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, tibbi və psixoloji yardımla təmin olunmasına dair ayrıca fəaliyyətləri nəzərdə tutulmuşdur. Bununla yanaşı, Avropa Şurasının xüsusi Kompaniyasında fəal iştirak edilmiş, BMT ilə birgə "XXI əsrdə qadınlara qarşı zorakılıqla Mübarizə Layihəsi" hazırlanmış və həyata keçirilmişdir.Vətəndaş cəmiyyətinin fəal iştirakı ilə BMT və ATƏT-in tövsiyələri, EKOSOS model qanunu, həmçinin bir sıra Avropa dövlətlərinin qanunvericilik təcrübəsi nəzərə alınaraq müvafiq layihə hazırlanmışdır. Bütün hallarda qətiyyətlə pislənən məişət zorakılığı təkcə Azərbaycanda deyil, bütün dünyanın insanları tərəfindən bir mənalı olaraq qəbul edilməzdir. Çünki bu təkcə ölkəmiz üçün deyil, bütün dünya ölkələrinin problemi kimi mövcuddur. Yalnız dövlət qurumları deyil, həmçinin vətəndaşlar da bir-birləri ilə əməkdaşlıqda bu sosial məsələnin həllinə yardım etmiş olar.

**Ədəbiyyat siyahısı:**


1. Hicran Hüseynova, Əmir Əliyev, Elgün Səfərov, Pərvanə Bayramova, Aydın Səfixanlı, Qulamhüseyn Əlibəyli. "Qadın hüquqlarının müdafiəsi: Beynəlxalq və milli aspektləri" Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı-2018, 187 səh
2. Hicran Hüseynova. Ailə cəmiyyətin özəyidir, Bakı-2020, "Günəş-B" nəşriyyatı. S.Rüstəm, 59. 66 səh
3. K.C.Ağayeva. Etika və gender: sosial-əxlaqi davranışın təhlili. Bakı-2007, "Sabah" nəşriyyatı, 196 səh
4. K.Ağayeva. Azərbaycanda gender məsələləri. Dərs vəsaiti, Bakı-2014, 211 səh
5. Nailə İsmayılova, Nəzakət Balabəyova. Zorakılığa "YOX" deyək-ailəmizi qoruyaq! "Yeni həyat" Hümanitar və Sosial Dayaq İctimai Birliyi, Bakı-2017, 44 səh
6. S.İsmayılova, G.Həsənova, S Babazadə, A.Balayeva, K, Ağayeva. U-74" Uşaq və Yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması " metodik vəsait. Bakı-2017, 60 səh.

**Наиля Касумова**

## СПОСОБЫ БОРЬБЫ С ДОМАШНИМ НАСИЛИЕМ В ОБЩЕСТВЕ

**Резюме:** Политизированное домашнее насилие в современном мире находится в центре внимания и Азербайджанского государства. Азербайджан - социальное государство. Среди вопросов, связанных с обеспечением прав человека в нашей стране, достаточно актуальна проблема предотвращения домашнего насилия. В основном эту проблему начали изучать в Европе после 70-80-х годов прошлого века. В Азербайджане с 1990-х годов действует специальный институт в области семьи, женщин и детей, который проводит целенаправленную государственную политику. Эффективность борьбы с домашним насилием зависит от уровня правовой помощи, оказываемой как нашим государством, так и обществом.

**Ключевые слова:** общество, политическая борьба, физическое насилие, гендерное равенство, психологическое давление, инцидент, социальная жизнь и так дале

**Naile Gasimova**

## WAYS TO COMBAT DOMESTIC VIOLENCE IN SOCIETY

**Summary:** In our modern world, politicized domestic violence is also in the focus of the state in Azerbaijan. Azerbaijan is a social state. Among the issues related to ensuring human rights in our country, the problem of prevention of domestic violence is very relevant. Basically, this problem began to be studied in Europe after the 70s and 80s of the last century. In Azerbaijan, a special institute in the field of family, women and children has been operating since the 1990s in order to pursue a purposeful state policy. The effectiveness of the fight against domestic violence depends on the level of legal assistance provided by both our state and society.

**Key words:** society, political struggle, physical violence, gender equality, psychological pressure, incident, social life.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 26. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:342.7:390:340.**

**Nargilə Bədəlova**
**Sumqayıt Dövlət Universiteti**
**Müəllim**
**E-mail: nargilebedelova@gmail.com**

# AZƏRBAYCANDA QADINLARA QARŞI ZORAKILIQ PROBLEMİ VƏ ONUN ARADAN QALDIRILMASI YOLLARI

**Xülasə:** "Şiddət" sözü günümüzdə dilimizdə ən çox istifadə olunan sözlərdən biridir. "Şiddət" sözü "hücum" deməkdir. Şiddət, başqa bir tərəfə və ya tərəflərə qarşı güc tətbiq etmək, onları öz mənafeləri naminə iradələrinə uyğun hərəkət etməyə məcbur etməkdir.

**Açar sözlər:** qadın, zorakılıq, insan, hüquq, sosial

Bu gün dilimizdə ən çox işlənən sözlər siyahısına zorakılıq sözü də aiddir. Bu anlayış barədə indi hətta körpə uşaqlarımız da xəbərdardır. Bəlkə də, səbəb bu dövrümüzdə zorakılığın çox baş verməsidir?! Əvvəllər də, yəni yüz il bundan əvvəl də zorakılıq olub, yüz il bundan sonra da olacaq və bu gün də aktual məsələlər sırasındadır. Zorakılıq sözünün mənası “hücum etmək” deməkdir. Zorakılıq qarşı tərəfi və ya tərəfləri öz istəyinə uyğun, öz mənafeyinə uyğun davranması üçün zorlayan, ona zor tətbiq etmək deməkdir. Zorakılıq deyəndə əksəriyyətimizin beynində “döymək”, “cinsi zorlama” və s. fiziki zorakılıqlar canlanır. Amma zorakılıq təkcə bunlarla məhdudlaşmır. Zorakılığın 3 növü var: fiziki zorakılıq; psixoloji zorakılıq; sosial zorakılıq.

Fiziki zorakılıq deyəndə adından da bəlli olduğu kimi insanı döymək, cinsi təzyiq və s. fiziki güc hesabına edilən davranış nəzərdə tutulur.

Psixoloji və ya mənəvi zorakılığa hədələmə, verbal təhqir, gözlə və jestlə təzyiq, şantaj, cinsi zorakılıq və s. aiddir. Biz zorakılıq deyəndə təkcə fiziki mənada başa düşsək də insana ən böyük travma verən və uzunmüddətli təsir, iz qoyan məhz psixoloji zorakılıqdır. Sözlə (verbal) təzyiq - vulqar və ya şəxsiyyəti alçaldıcı sözlərlə edilən təhqirdir. “Söz var kəsdirər başı, söz var kəsər savaşı”. Doğurdan da sözün gücü böyükdür. Verbal təhqirə əqli və fiziki inkişafı əngəlləyən bütün sözlər daxildir. Gözlə təzyiq - deyəndə insanın öz aqressiyasını gözləri ilə göstərməsi nəzərdə tutulur. Əslində bu doğru deyil. Çünki, insan öz aqressiyasını başqasının üzərinə tökməməlidir. Belə ki, hər bir insanın daxilində sevinc, nifrət hissi ilə yanaşı aqressiya hissi də var və bu aqressiya insanın özünə xasdır. Kənar qıcıqlandırıcılar olsa da, bizim aqressiyamızın üzə çıxmasına şərait yaransa da insan fikirlərinə hakim olduğu kimi, öz hisslərinə də hakim olmağı bacarmalıdır. Jestlə təzyiq - əsasən əl-qol hərəkətləri ilə göstərilən davranışlar daxildir.

Sosial zorakılıq – bu növ şiddət də ölkəmizdə çox yayılıb. Adından da göründüyü kimi bir insanı cəmiyyətdən kənar edərək sosial hüquqlarından məhrum edilən zorakılıqdır. məs: Kişilər qadınlarını işləməyə qoymurlar və ya hər hansı bir yerə getməyə icazə vermirlər.

Qarşı tərəfin aqressiyasının başqasının üzərinə tökülməsi zorakılıqdır. Hər bir insanın daxilində sevinc, nifrət, sevgi, kin, hörmət, ehtiram hissləriylə yanaşı aqressiya hissi də var. Aqressiya dedikdə insanın başqa adamlara problem yaratması, fiziki, maddi və mənəvi ziyan vurması başa düşülür. Aqressivlik insanlara bilərəkdən xələl yetirmək cəhdidir. Bu gün aqressiyanın hamı tərəfindən qəbul edilən izahı yoxdur. Çünki hamı aqressiyanı öz psixikasına, öz şəxsi həyat təcrübəsinə görə izah edir. Delqadoya görə aqressiya dedikdə ədavətlilik, hücum, dağıdıcılıq aktları, yəni digər insanlara və obyektlərə xələl gətirən, ziyan yetirən əməllər nəzərdə tutulur. Morrison aqressiyanı hökmranlığa meyl kimi, Xorni və From isə insanı əhatə edən ədavətli reallığa şəxsiyyətin reaksiyası kimi izah edirdi.

Zorakılığın kökündə də aqressiya durur. Zorakılıq da insanın aqressiyasının müəyyən şəraitdə və ya situasiyada mənfi reaksiya olaraq büruzə verilməsidir. Psixoloji zorakılıq dedikdə

isə insanın mənəvi təzyiqə məruz qalması başa düşülür. Kütləvi informasiya vasitələrindən demək olar ki, hər gün ən çox eşitdiyimiz sözlərdən biri də zorakılıqdı. Zorakılıqlar çoxdur. Amma bunların arasında insana ən acı və daha təsirli olanı psixioloji zorakılıqdı. İstər fiziki zorakılıq, istərsə də sosial zorakılıq az müddətdə keçir. Psixoloji zorakılıq isə digərlərindən fərqli olaraq qalıcı və uzunmüddətli təsirə malikdir. Travmaların yaranmasının bilavasitə kökündə psixoloji zorakılıq dayanır. Zorakılığa meyilli olan insanların keçmişdə yaşadıqları zorakılığı gələcəkdə tətbiq etməsindən heç kimin şübhəsi olmasın.

12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Konstitusiyasının 25-ci maddəsinə əsasən qadın və kişilərə tam bərabərlik hüququ verilir. 34-cü maddə də isə evlilik daxilində qadın və kişilərin statusunun bərabər olduğu bildirilir. Azərbaycan Konstitusiyası və Cinayət Məcəlləsində qadınların müdafiəsinin təmin olunması ilə bağlı maddələrin öz əksini tapmasına baxmayaraq, hələ də onların statusu kişilərin statusu ilə barəbər deyil. Qadınların rolu ilə bağlı mövcud ənənəvi yanaşmalar qadınlara qarşı olan zorakılıq və onların kişilərlə bərabərlik qazanmaq uğrunda apardıqları mübarizəyə diqqəti azaltmışdır. ABŞ Dövlət Departamentinin 2004-cü ildə yaydığı insan haqları üzrə hesabatına əsasən, qadınlar işçi qüvvəsinin yuxarı səviyyələrində müvafiq olaraq təmsil olunmurlar və Əmək Məcəlləsi hamilə və himayəsində azyaşlı uşaqları olan qadınların işləyə biləcəkləri yeri, vaxtı və iş saatlarını məhdudlaşdırır.

Qadınların çox az hallarda üzləşdikləri zorakılıqla bağlı məlumat vermələri səbəbindən ailə daxilində baş verən zorakılıqların həcmini müəyyən etmək çətindir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin təqdim etdiyi statistik məlumatlara əsasən Beynəlxalq Xilasetmə Komitəsinin “Azərbaycanda Qadın və Zorakılıq” adlı sorğusunda 2002-ci ildə qadınlara qarşı baş vermiş zorakılıqla bağlı 317 cinayət halının və 2003-cü ildə isə 289 cinayət halının qeydə alındığı bildirilir. Azərbaycanda 2001-ci ildə 39, 2003-cü ildə isə 46 zorlama halı müəyyən olunub. 7668 qadının cəlb olunduğu ən son və geniş araşdırma Azərbaycanda ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən 2001-ci ildə aparılıb. Azərbaycanda Reproduktiv Sağlamlıq Araşdırması üzrə aparılan sorğuda əsasən reproduktiv sağlamlıq problemlərinə diqqət yönəlib və eyni zamanda ailə daxili zorakılıq hallarına da yer ayrılıb. Sorğunun nəticələrinə əsasən hal hazırda əvvəllər evli olan qadınların 30%-i təhqirlərə, 20%-i fiziki zorakılığa və 10%-i isə həyatlarının müəyyən dövrlərində həyat yoldaşları və ya keçmiş həyat yoldaşları tərəfindən zorakılıqlara məruz qaldığını bildirib.

İqtisadi çətinlik və hərbi münaqişə səbəbindən yaranan qadın alveri də önəmli problemdir. Beynəlxalq Miqrasiya Təşkilatının 2002-ci ildə yaydığı hesabata əsasən, Azərbaycan insan alveri üçün mənbə və tranzit ölkə rolunu oynayır. Qadınlar əsasən Türkiyə və Birləşmiş Ərəb Əmirliklərinə aparılırlar. Azərbaycanın Cinayət Məcəlləsində insan alveri ilə bağlı xüsusi maddə olmasa da, 106-cı maddə məcburi qul kimi işlədilməni və 173-cü maddə azyaşlılarla alver edilməsini qadağan edir. İnsanlardan qul kimi istifadə edilməyə görə cəza beş ildən on ilədək azadlıqdan məhrum etməni nəzərdə tutur, lakin cinayət “insan alveri” məqsədilə törədilibsə onda cəza müddəti yeddi ildən on ilədək artırılır.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü ilin may ayında qəbul etdiyi fərmana əsasən bütün hökümət orqanları İnsan Alverinin Qarşısının Alınması üzrə Milli Fəaliyyət Planını həyata keçirməlidirlər. İlk dəfə olaraq Milli Fəaliyyət Planında insan alverinin qurbanları “zərərçəkmiş insanlar” kimi qəbul olunublar və onların təhlükəsizliyi və hüquqlarının qorunması üçün normativ aktların qəbul edilməsi nəzərdə tutulub. Bu məsələlər üzrə Daxili İşlər Nazirliyinin nəzdində Milli Koordinasiya İnstitutu yaranıb və Nazirin Müavini Milli Koordinator təyin olunub.

Azərbaycan Respublikasının Milli Məclisi 28 iyun 2005-ci ildə ”İnsan Alverinə Qarşı Mübarizə Üzrə Qanunu” yekdilliklə qəbul etdi. Qanunda İnsan Alveri, İnsan İstismarı, İnsan Alveri ilə Məşğul Olanlar və İnsan Alverinin Qurbanları hüquqi baxımdan ayrı-ayrılıqda təyin olunurlar. Bu cür cinayətkarların ədalət məhkəməsi qarşısında dayanmasını təmin etmək üçün Cinayət Məcəlləsi də daxil olmaqla ölkə qanunlarına əlavələr qəbul olunacaq. Qəbul olunmuş

Qanuna əsasən insan alverinə görə mühakimə olunanların cəza müddəti 15 ilədək uzadılıb. Eyni zamanda qanunda insan alverinin qurbanlarına kömək göstərilməsi və müdafiə olunması eləcə də insan alverindən əziyyət çəkmiş insanlar üçün Azərbaycanda reabilitasiya mərkəzlərinin yaradılması nəzərdə tutulur.

Qadın hüquq və azadlıqlarının müdafiə və təminatı istənilən demokratik ölkədə olduğu kimi, Azərbaycan Respublikasının milli qanunvericiliyində, xüsusən də ölkənin Konstutsiyasında, Cinayət Məcəlləsində, Mülki Məcəlləsində, Ailə Məcəlləsində, digər qanunlarda və normativ sənədlərdə öz əksini tapmışdır. Cəmiyyətdə kişi ilə qadının eyni hüquqlara və azadlıqlara malik olması, cinsi mənsubiyyətinə görə qadının həmin hüquqlarının məhdudlaşdırılması ilə bağlı qadağalar Konstitusiyada xüsusilə vurğulanan prinsiplərdir. Ölkənin əsas qanununda hüquq və azadlıqların istifadəsində cinsi bərabərliyin təsbit edilməsi dövlətin idarə olunmasında, habelə seçkili orqanlarda qadınların iştirakının təmin olunması üçün lazımi siyasi və hüquqi şərait yaradır.

Qadın və kişinin qanun qarşısında bərabər olmaq prinsipi Azərbaycan Respublikasının bütün qanunlarında, xüsusən də 1995-2009-cu ilə qədərki Azərbaycan Respublikasının Prezidentlərinin fərman və sərəncamlarında öz əksini tapmışdır. Bir sıra qanunlarda isə qadının xeyrinə olan bəzi müddəalar onların spesifikasından, xüsusiyyətlərindən irəli gələn və onlar arasında mövcud fərqləri göstərən məqamlardır ki, bu da bir çox tədqiqatçılar tərəfindən "pozitiv diskriminasiya" kimi dəyərləndirilir. Lakin pozitiv diskriminasiyanı ayrı-seçkilik kimi dəyərləndirmək yanlışlıqdır. Bu məqam Azərbaycan Respublikasının hətta Əmək Məcəlləsində də öz əksini tapmışdır. Orada deyildiyi kimi qadınlara, əlillərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir. Məsələn: qadınların reproduktiv funksiyaları, fiziki imkanları və ailədəki vəziyyətləri ilə əlaqədar, işlədikləri yerlərdə güzəştli əmək rejimi müəyyənləşdirilmişdir ki, bunun da bəzi neqativ incəlikləri vardır.

Azərbaycan Respublikasında qüvvədə olan Əmək Məcəlləsində pozitiv diskriminasiya ilə bağlı məqamlar vardır ki, bu da təqdirəlayiq haldır. Məlum məsələdir ki, analığın mühafizəsində mühüm rol oynayan hüquqlardan biri də əmək hüququdur. Əmək məcəlləsinin müvafiq maddəsində ananın, hamilə qadının və azyaşlı uşağı olmasına rəğmən işləyən qadınların sağlamlığı mühafizə edilir. Həmin maddələrdə hamilə və ya 3 yaşına çatmamış uşağı olan qadınlarla əmək müqaviləsi bağlanmasının xüsusiyyətləri, qadın əməyinin tətbiqi qadağan olunan iş yerləri və işlər, hamilə və yaş yarımadək uşaqlı qadınların daha yüngül işə keçirilməsi və pozitiv diskriminasiya kimi dəyərləndirilə bilən digər məsələlər də öz əksini tapmışdır. Onlardan birinə nəzər yetirək. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 59.1.3 maddəsinə əsasən cinayətin hamilə qadın tərəfindən törədilməsi cəzanı yüngülləşdirən hallara aiddir. Ümumiyyətlə, hamiləliyin cəzanı yüngülləşdirən hal kimi nəzərdə tutulması hər şeydən əvvəl humanizm prinsipi ilə bağlıdır ki, bu da uşağın və qadının sağlamlığına qayğıdan irəli gəlir. Bəzən hamiləlik tez qıcıqlanma, özündən çıxma ilə müşahidə olunur. Bu da cəza təyin olunarkən nəzərə alınmalıdır.

Pozitiv diskriminasiya barəsində danışarkən biz həmin məsələnin təsirinin müsbət tərəflərinə diqqət yetiririk. Lakin onun təsirinin müəyyən mənada mənfi tərəfləri də mövcuddur. Əvvəl qeyd etmişdik ki, qadınlar istənilən ölkədə cəmiyyətin daha az müdafiə olunan və hüquqları tapdanan, bu səbəbdən zorakılığa daha çox məruz qalan təbəqəsidir. Keçid dövrü yaşayan ölkələrdə isə həmin təbəqənin vəziyyəti daha da ağırlaşmağa məhkumdur. Bu səbəbdən də burada müvəqqəti də olsa, keçid dövrünə xas ziddiyyətli qanunlar və yanaşmalar hökm sürür. Qadına münasibətdə bu cür yanaşmanın səbəbləri onun reproduktiv funksiyası ilə bağlıdır. Həmin mənfi münasibətlə, diskriminasiya halları ilə mübarizə aparmaq üçün Əmək Məcəlləsində xüsusi müddəalar var. Məsələn: Əmək Məcəlləsi 240-cı maddəyə görə hamiləlik və uşağı yedizdirməklə əlaqədar və digər səbəbdən qadınları işə götürməkdən imtina etmək qadağan edilir.

Azərbaycan cəmiyyətində formalaşmış stereotip və reallıqları yada salsaq, qeyd edə bilərik ki, nikahın bağlanması həmişə iki tərəfin razılığı ilə olmur. Kişi tərəfi bir çox hallarda zorakılığa əl ataraq məcbur edir ki, əks tərəf onunla nikaha girsin. Bu hal Azərbaycanın rayonlarında xüsusilə geniş yayılmışdır. Nikah zorla bağlandığı halda, yəni məcburetməyə əl atıldığı zaman qadına hədə qorxu gəlinir ki, bu da psixoloji və fiziki zorakılıq əlamətidir. Təzyiq altında bağlanan nikahın qanunsuz olduğuna baxmayaraq, zorakılıq işlədən şəxsi birbaşa hansısa bir maddə ilə hüquqi məsuliyyətə cəlb etmək çətindir. Çünki bununla bağlı milli qanunvericilikdə maddə yoxdur. Ailədə baş verən zorakılıq hallarının fəsadlarından biri də qadınlara qarşı baş verən fiziki zorakılıqla bağlıdır. Çünki yetirilən xəsarətlər sonradan onların əlilliyinə səbəb olur. Əlil Qadınlar Cəmiyyətinin məlumatına əsasən son 10 ildə əlillərin sayı 50 min artıb. Ailədə və cəmiyyətdə təşəkkül tapan zorakılıq fərqli səviyyələrdə olmasına baxmayaraq, mənşə etibarilə eynidir. Ona görə də cəmiyyətdə qadınlara qarşı diskriminativ münasibət əsrlərlə formalaşmış patriarxal yanaşmanın məntiqi nəticəsidir. Onunla mübarizə aparmaq, qadınlara qarşı baş verən zorakılıqların, haqsızların aradan qaldırılması üçün mütəşəkkil yanaşma və bunun davamı olaraq mütəşəkkil mübarizə üsullarının işlənib hazırlanması və həyata keçirilməsi gərəkdir. Müasir şəraitdə dünyanın müxtəlif bölgələrində və fərqli səviyyələrdə çiçəklənməkdə olan qadınlara qarşı zorakılıq problemi əksər cəmiyyətlərdə elə dərin kök salmışdır ki, onunla mübarizə aparmaq üçün həmin cəmiyyətin bütün təbəqələrinin iştirakı vacibdir.

Cəmiyyətin müxtəlif sahələrində mövcud olan problemləri, o cümlədən sosial münasibətlərdəki ziddiyyətləri tədqiq edən bir çox nəzəriyyəçilər bildirirlər ki, cəmiyyətdə, o cümlədən ailədə mövcud olan problemlə mübarizə aparmaq üçün 5 səviyyədə həyata keçiriləcək tədbirlər planını özündə ehtiva edən və eyni zamanda özünün fundamentallığı və konseptuallığı ilə səciyyəvi strateji fəaliyyət proqramını hazırlamaq lazımdır. Bunlara aşağıdakı sahələr daxildir:

- Hüquqi sahə və bu sahəyə xas bazanın təkmilləşdirilməsi;
- İnstitutsional dayaqların inkişaf etdirilməsi;
- Operativ qaydada həyata keçiriləcək fəaliyyət istiqamətləri;
- Tədris və təlim proqramlarının artırılması;
- Cəmiyyətin geniş təbəqələrinin maarifləndirilməsi və məlumatlandırılması.

Ailə və cəmiyyətdə qadınlara qarşı baş verən zorakılıq problemi mürəkkəb olması ilə yanaşı həm də kompleks səciyyə daşıyan məsələdir. Bu səbəbdən də onun həlli yalnız o zaman mümkün ola bilər ki, iştirak edən tərəflər, sturukturlar sərf etdikləri bacarıq və potensiallarını səfərbər etsin, əlaqələndirsinlər. Digər tərəfdən isə problemin həlli ilə məşğul olan şəxslər kifayət qədər professional olmalıdırlar və yalnız öz ixtisaslarından irəli gələrək zorakılıqla mübarizə aparmalıdırlar. Bu mübarizə həm formal, həm də qeyri formal, ənənəvi, klassik və həm də müasir tələblərə cavab verən üsullar istifadə olunmalıdır. Yuxarıda sadaladığımız şərtlər yerinə yetirildikdən sonra aparılan mübarizədə uğur qazanmaq mümkündür.

Zorakılığın qarşısını almaq üçün ümumi konteksdəki işləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Cəmiyyətdə həqiqi gender bərabərliyinin təmin olunması məqsədilə qanunların təkmilləşdirilməsi;
- İnsan hüquqlarının təmin olunması və qorunmasında qadın və kişilər üçün bərabər imkanların yaradılması;
- Kütləvi informasiya vasitələrində insanların şüurunda patriarxal stereotiplərin dəyişdirilməsi və bu yolla qadınlarla münasibətdə baş verən zorakılığa dair mövcud ictimai rəyin düzgün ədalətli məcrada formalaşdırılması;
- Qadınların iqtisadi müstəqilliyinin təmin olunması üçün zəruri şəraitin yaradılması;
- Qadınlara münasibətdə sosial siyasətin təkmilləşdirilməsi;

- Qadınların ölkənin tamhüquqlu vətəndaşı kimi hərtərəfli inkişafı üçün əlverişli imkanların və şəraitin yaranması.

Fərdi səviyyədə həyata keçirilən tədbirlər:

- Ailədə və cəmiyyətdə qadınlara qarşı baş verən zorakılıq hallarının həm ümumi, həm də konkret şəkildə səbəblərini öyrənmək;
- Qadınlara qarşı baş verən zorakılıq haqda məlumat bazasını yaratmaq;
- Zorakılıq əməllərinin təzahür formalarını uyğun şəkildə qruplaşdırmaq və hər bir formanın təkamülünü göstərmək yolu ilə onlardan yayınmaq imkanlarını müəyyən etmək;
- Zorakılığa məruz qalmaq ehtimalı olduğu halda kömək üçün hara müraciət etməyə dair dəqiq və konkret məlumatı yaymaq;
- Gənc ailə üzvlərini, xüsusən də qadınları ailə hüququ sahəsində hüquqi baxımdan maarifləndirmək.

Sonda qeyd etmək istərdim ki, pandemiya dövründə yaranan işsizlik və yoxsulluq halları ailə-məişət zorakılığının sayını artırmış, bu isə boşanmaların daha da artmasına səbəb olmuşdur. Hesab edirəm ki, gənc ailələrə dövlətin sosial-iqtisadi qayğısı və mənəvi-psixoloji dəstəyi çox vacibdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. 22 İyun 2010-cu il tarixli 1058-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu.
3. Həsənov R. Sosial siyasət. Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 480 s.
4. Rəcəbli H. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komporativ təhlili. Bakı, Gənclik, 2003, 464 s.
5. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, MBM, 2012, 408 s.

**Наргила Бадалова**

**ПРОБЛЕМА НАСИЛИЯ В ОТНОШЕНИИ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНЕ И ПУТИ ЕЁ ПРЕОДОЛЕНИЯ**

**Резюме:** Слово «насилие» является одним из наиболее часто используемых слов в нашем языке в наши дни. Слово «насилие» означает «атаковать». Насилие - это применение силы к другой стороне или сторонам, чтобы заставить их действовать в соответствии с их волей во имя своих собственных интересов.

**Ключевые слова:** женщина, насилие, мужчина, закон, социальное.

**Nargila Badalova**

**THE PROBLEM OF VIOLENCE AGAINST WOMEN IN AZERBAIJAN AND WAYS TO ELIMINATE IT**

**Summary:**The word violence is one of the most used words in our language today. The word violence means "to attack." Violence is the use of force against the other party or parties, forcing them to act in accordance with their will, in their own interests.

**Key words:** woman, violence, man, law, social.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 19. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Məftunə İsmayılova**

**УДК:31:342.7:390.**

**Динара Алиева**
**Бакинская Академия Хореографии**
**Помощник ректора, диссертант**
**E-mail: alievadinar@yahoo.com**

# ХОРОШИЙ МЕЖДУНАРОДНЫЙ ОПЫТ В ПРОБЛЕМЕ ДОМАШНЕГО НАСИЛИЯ

**Резюме:** В данной статье говориться о положительных примерах и о международной практике в деле регулирования и решения домашнего насилия, а так же насилия по отношению к женщинам.

**Ключевые слова:** право, насилие, женщина, международный опыт, практика, хороший пример, домашнее насилие

Проблема домашнего насилия актуальна не только в Азербайджане, но и во всем мире. Общество и государство должны обеспокоятся о фактах насилия, и для жертв насилия следуют создавать условия для сообщения об этих фактах, получения психологической и иной помощи.

Хотя жертвой домашнего насилия может стать человек любого пола, законодателям стоит учитывать, что оно связано с гендерным неравенством и представляет собой злоупотребление властью. Домашнее насилие происходит во всех социальных группах и может включать в себя **физическое, сексуальное, экономические и эмоциональное** насилие. Совершать такие преступления могут как действующие, так и бывшие партнеры.

Азербайджан отстает от других развитых государств во всех аспектах борьбы с домашним насилием. В стране даже нет официальной статистики пострадавших от домашнего насилия и порой оно воспринимается как нормальное явление.

Чаще всего жертвами домашнего насилия становятся женщины, иногда дети и крайне редко мужчины. Поэтому домашнее насилие можно так же обозначить как, насилие в отношении женщин. Насилие в отношении женщин (НОЖ) – одно из самых распространенных и устойчивых нарушений прав человека в мире, происходящее от глубоко укоренившегося представления о неравноправном положении женщин. Как основная, но предотвратимая причина плохого здоровья и смертности среди женщин, насилие в отношении женщин является и проблемой здравоохранения. Насилие в отношении женщин имеет разрушительное воздействие на общество в целом, влияя на производительность женщин и выливаясь в общие экономические потери. По крайней мере, каждая третья женщина хотя бы раз в жизни прошла через физическое, сексуальное или психологическое насилие, как правило, со стороны сексуального партнера. Согласно всемирному исследованию Всемирной организации здравоохранения (ВОЗ) распространенность физического и/или сексуального насилия варьирует от 29% до 62% женщин, участвовавших в исследовании.

Эксперты, работающие в сфере зашиты прав человека считают, что для решения проблемы домашнего насилия необходим комплекс мер, а не отдельный закон. Работать эти меры будут только при наличии политической воли и на первых этапах могут встретить сопротивление. Для этого руководство на всех уровнях - от министров до начальников отделов полиции - должно давать подчиненным понять, что меры против домашнего насилия должны исполняться, а неисполнение грозит негативными последствиями.

В Литве в 2013 году внесли поправки об обязательном возбуждении предварительного расследования во всех случаях, когда обнаружены признаки такого насилия, даже если жертва не подавала заявление. До этого дела о домашнем насилии

попадали под категорию частно-публичного обвинения. Эксперты считают эффективной мерой борьбы с таким насилием перевод подобных преступлений в категорию именно публичного обвинения, когда доказательства собирает государство.

В Молдове в нынешнем виде статья о домашнем насилии (201.1 УК Республики Молдова) подразумевает и физическое, и психологическое насилие, в том числе изоляцию и унижение, а также лишение средств к существованию. Понятие «члена семьи» расширили: оно включает бывших мужей или жен, сожителей, а также бабушек, дедушек, братьев, сестер и внуков, даже если они не живут вместе с агрессором.

Существуют хорошие примеры программ по контролю в целях улучшения ответа на насилие в отношении женщин, проводимых и правительствами, и НПО. В 2008 году Министерство социальных дел и здоровья Финляндии и Ассоциация финских местных и региональных властей выпустили рекомендации, согласно которым измерения предотвращения и ответа на межличностное и домашнее насилие должны быть интегрированы в муниципальную стратегию социального обеспечения. В частности, муниципалитеты призываются принять «межсекторный» и «мультипрофессиональный» подход.58 В 2011 году финское правительство проведет национальную оценку того, как эти рекомендации были исполнены. Контролирующий компонент этой министерской инициативы – важное побуждение муниципальным правительствам взять на себя ответственность за разработку программ по предотвращению насилия и координации работы служб помощи.

В Соединенных Штатах Америки для того, чтобы дать жертвам насилия возможность сообщить об этом в Нью Йорке действует телефонная горячая линия 1-800-621-HOPE. Она работает 24 часа в сутки, а диспетчеры говорят на десяти разных языках. Звонки принимают опытные психологи, главная задача которых – выслушать обратившегося и дать совет.

В Италии также действует номер многоязычного телефонного центра помощи 1522. Вдобавок малоимущим, включая иностранцев, гарантируется защита в гражданском и административном суде - выбранный жертвой адвокат будет полностью оплачен государством, которое также берет на себя все судебные издержки и связанные с ведением дела расходы. По законодательству Германии жертвы домашнего насилия могут заявить в полицию в течение трех месяцев. Если же правоохранителей вызывали непосредственно на место совершения преступления, то заявление писать нет необходимости – дело возбудят без просьбы пострадавшего. Также полиция на месте может назначить срок запрета на контакты, нарушение которого уже считается криминалом.

Особо эффективным способом борьбы с семейным насилием является возможность правоохранительных органов самостоятельно возбуждать производство по факту насилия в семье. В Швеции преступления, связанные с домашним насилием, также отнесены к категории дел публичного обвинения. Полиция обязана проводить предварительное следствие, которое возглавляет прокурор, а жертва не может воспрепятствовать продвижению дела (например, не может отозвать заявление). Чтобы инициировать предварительное следствие, необходимо основание предполагать, что преступление публичного обвинения было совершено. То есть для начала следствия достаточно располагать информацией о наличии признаков преступления. Например, основанием возбуждения дела может быть наличие синяков, ран или других травм, полученных от близкого человека. Также полиция Швеции проводит оценку угрозы и степени риска, чтобы понять, нужна ли жертве защита. Существуют разные степени защиты в зависимости от степени угроз. Полиция может предоставлять консультации и различные технические средства для защиты (экстренный телефон с поддержкой GPS и акустическая

сигнализация). Жертве также предоставляют собственное контактное лицо для переговоров о безопасности.

Национальные кампании, направленные на борьбу с домашним насилием, изнасилованиями, насилием на рабочем месте, принудительными браками и женским обрезанием правительством Франции это значительные шаги, направленные на борьбу с насилием в отношении женщин, проблемой, которая была относительно скрыта во французском обществе. Министерство занятости, социальных связей и жилья, работая с региональными «Офисами женщин за права и равенство», разработало и провело четыре больших кампании по повышению осведомленности на национальном и региональном уровнях: «Пробивая молчание» (2001), «Остановим насилие: говорить об этом – значит действовать» (2006), «Говори, пока не поздно» (2007), «Не позволь насилию укорениться. Реагируй» (2008). Между 2001 и 2006 годами французское правительство провело пять крупномасштабных исследований по теме насилия в отношении женщин. Информация, полученная в результате, была использована для кампаний. Исследование 2001 года выявило, что каждая десятая женщина является жертвой домашнего насилия. Первая кампания, «Пробивая молчание», была направлена на женщин и использовала сообщение-посыл о том, что в их ситуации нет ничего стыдного, но для того, чтобы получить помощь, они должны говорить о проблеме.

В 2007 году была открыта единственная национальная бесплатная телефонная линия, и третья кампания, «Говори, пока не поздно», была использована для широкой рекламы этой службы. Печатные материалы с информацией о телефонной линии также содержат сообщения, что все формы насилия против женщин – наказуемы по закону и информацию о юридических аспектах и различных профессионалах, которые могут оказать помощь. В этой кампании также использовался короткий фильм, распространенный через интернет, показывающий потенциально смертельные последствия молчания о насилии. Было создано большое количество печатной продукции в формах брошюр, карточек и плакатов. Видеоролики и печатная реклама были использованы в основных СМИ, например, на телевидении, в интернете и популярных журналах. Французское правительство поддерживает сайт, где можно найти материалы кампаний, более подробную информацию о типах насилия в отношении женщин, а также помощь. Сайт предоставляет возможность ознакомиться с видео роликами, показаниями потерпевших и свидетелей, а также выразить свое собственное мнение.

Французский благотворительный фонд «Нулевая терпимость» ставит своей целью предупреждение мужского насилия, направленного против женщин и детей, путем изменения общественного отношения и оценки этого явления, которое поддерживает неравенство и само насилие. Проект повышает осведомленность всего общества о насилии по отношении женщин, его природе и распространенности. «Нулевая терпимость» связывает насилии по отношении женщин с более широкими вопросами равенства и прав человека. Все кампании взяли на вооружение подход, который говорит о том, что только лишь образования общества недостаточно и поддерживали всесторонний ответ на проявления насилия, подразумевающий три «П» – предупреждение, предоставление поддержки (защита) и юридическая защита (судебное преследование).

В 1992 году после проведения местного исследования о насилии по отношении женщин, Женский комитет эдинбургского (Шотландия) регионального совета начал первую кампанию нулевой терпимости, сфокусированную на предупреждении мужского насилия в отношении женщин, первую такого рода в Британии. Кампания продолжалась 6 месяцев и использовала 4 черно-белых плаката для изменения преобладающего мнения о насилии по отношении женщин. Используя схожую модель первого проведенного исследования, фонд «Нулевой терпимости» провел серию очень заметных кампаний, которые обращались к специфическим проблемным областям, например, недостатке

знаний о распространенности насилии по отношении женщин (распространенность); объяснениям, используемым мужчинами в оправдание совершения насилия (оправдания); недостаточной реакции системы правосудия (правосудие). Другая образовательная работа была направлена на молодежь через уроки о гендерной дискриминации и насилии, а также пропаганде ненасильственных отношений, основанных на равенстве и обучение навыкам общения. С того времени, кампания служила примером для многих других организаций, например, кампании Совета Европы, направленной на борьбу с насилием в отношении женщин, включая домашнее насилие. Целью данного проекта было перенесение вопросов прав женщин в группу основных вопросов, обсуждаемых в обществе, через использование профессиональных медийных проектов, таких как музыка и видео.

В сентябре 2007 года в Венесуэле началась первая в истории превентивная исключительно венесуэльская кампания, направленная на мужчин и мальчиков. Основной целью кампании было преодоление стереотипов, которые легитимизируют насилии по отношении женщин в близких отношениях. Кампания «Сосчитай до трех» отличалась от предыдущих, которые фокусировались на женщинах и призывали их сообщать о домашнем насилии. Эта кампания была направлена на мужчин, призывая их «сосчитать до трех» и подумать о своем агрессивном поведении, не осуждая и не обвиняя их. Это совместный проект НПО и Государственного института женских вопросов, а также агентств ООН и частного банка, кампания проводится с 21 сентября (Международный день мира) до 25 ноября (Международный день за искоренение насилия в отношении женщин). Материалы кампании размещаются в печатных средствах массовой информации, в кинотеатрах, на радио, телевидении и общественном транспорте. Частью проекта является наблюдение за изменением отношения к вопросу. До начала кампании был проведен опрос 1,200 мужчин в возрасте от 13 до 55 лет 85. Второе исследование было проведено после завершения кампании, чтобы измерить ее влияние.

В 2002 году, НПО «Помощь женщинам Шотландии» начала 3-х летнюю кампанию «Слушай громче» – инициативу, направленную на предоставление возможностей говорить для детей и поощрить политиков слушать то, что детям есть сказать о домашнем насилии. Эта кампания, направленная на людей, определяющих политику в правительстве, и тех, кто предоставляет услуги, предоставила молодым людям платформу для описания своего уникального опыта, типов поддержки, которые им необходимы, а также служб, которые были на самом деле полезными в их случаях. «Помощь женщинам Шотландии» работала в тесном сотрудничестве с молодыми людьми по написанию петиции в шотландский парламент с просьбой обратить внимание на пробелы в предоставлении услуг потерпевшим от домашнего насилия женщинам и детям. Молодые люди также выпускали информационные бюллетени и создавали мультимедийные презентации. Во время второй фазы кампании «Помощь женщинам Шотландии» распространяла открытки, плакаты и образовательные материалы в каждой школе в Шотландии. Другая деятельность включала в себя «текстофон», в котором молодые люди посылали сообщения и электронные послания, показывающие их поддержку. В заключении, дети и молодые люди напрямую обратились к политикам и практикам через различные СМИ для передачи своего уникального опыта насилия и пожелания конкретных улучшений, которые хотели бы видеть дети и молодежь, в ситуациях семейного насилия. Молодые люди также были активными участниками составления, разработки и контроля над исполнением исследовательских проектов совместно с «Помощью женщинам Шотландии», которые пролили свет на специализированную поддержку, в которой нуждаются дети.

Хотелось рассказать об эффективных мерах по противодействии домашнего насилия. Это прежде всего защитные ордера — юридический инструмент предотвращения внутрисемейного насилия. Обычно они бывают двух видов: **временный** чрезвычайный

ограничительный ордер и **судебный** охранный ордер. По сути оба вида ордеров запрещают агрессору причинять вред пострадавшим и их родственникам, вынуждают его покинуть дом, ограничивают доступ к жертве на работе и в общественных местах, к детям, ограничивают единоличное использование совместного имущества. Выдаются эти ордера по просьбе пострадавшего, родственников или социальных органов. Временный ордер выдает полиция, суд или органы юстиции после акта насилия, его нарушение грозит арестом или уголовным наказанием. Судебный охранный ордер выдает судья, который и определяет срок его действия.

**Шелтеры и бесплатная горячая линия**, по мнению экспертов, тоже эффективны. Когда жертве некуда идти, увеличивается риск для жизни и здоровья - как самой пострадавшей, так и ее детей. Убежища должны быть легкодоступны, в них должна предоставляться психологическая и юридическая помощь.

**Координация.** Необходимы законы или практики, которые позволяют наладить сотрудничество между разными учреждениями. Но даже в тех юрисдикциях, где подобные практики были успешны, не обошлось без проблем.

Решение задач по борьбе с домашним насилием зависит только от политической воли, без которой невозможно справиться с культурными стереотипами и контекстом. Если учесть опыт и уроки других стран, Азербайджан окажется в выгодном положении - ей не придется самой прокладывать эту дорогу.

Предотвращение домашнего насилия невозможно без масштабной реформы образования, повышения осведомленности общества о гендерном насилии и кампаний, направленных на изменение норм поведения.

Можно привести еще много хороших примеров по предотвращения домашнего насилия, а в частности насилии по отношении женщин. Но важным и главным в жизни каждого рационального человека не допустить нарушение прав кого либо и постараться предпринять попытки для улучшения жизни в целом.

**Литература:**

1. Информационно-аналитический журнал «Политическое образование». – М.: 2008 г. свидетельство о регистрации СМИ Эл № ФС77-34639 [Электронный ресурс] URL: http://lawinrussia.ru/
2. Электронный ресурс www.osce.org

**Dinarə Əliyeva**

## MƏİŞƏT ZORAKILIĞI PROBLEMİNDƏ YAXŞI BEYNƏLXALQ TƏCRÜBƏ

**Xülasə:** Bu məqalədə qadın zorakılığının aradan qaldırılması, ailədaxili şiddətin tənzimlənməsi və həllində müsbət nümunələrdən və beynəlxalq təcrübədən bəhs olunur.

**Açar sözlər:** hüquq, şiddət, qadın, beynəlxalq təcrübə, təcrübə, yaxşı nümunə, məişət zorakılığı.

**Dinara Aliyeva**

## GOOD INTERNATIONAL EXPERIENCE IN DOMESTIC VIOLENCE

**Summary:** This article talks about positive examples and international practice in the regulation and solution of domestic violence, as well as violence against women.

**Key words:** law, violence, woman, international experience, practice, good example, domestic violence.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 12. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**

**UOT:31:390.**

**Günay Məmmədzadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**E-mail: mammadzadamgh@gmail.com**

# GENDER BƏRABƏRLİYİNƏ TARİXİ-SOSİAL ASPEKTDƏN BAXIŞ VƏ BU PROSESDƏ QADININ ROLU

**Xülasə:** Məqalədə "gender" məsələsinə tarixi-sosial aspektdən yanaşılmış, müxtəlif cəmiyyətlərdə qadına verilən dəyər haqda məlumatlar qeyd olunmuşdur. Məqalədə eyni zamanda Azərbaycanda gender probleminin həlli istiqamətində qadınların rolu müəyyənləşdirilmişdir. Burada eyni zamanda Azərbaycan dövləti tərəfindən gender bərabərliyi məsələsi ilə bağlı atılan addımlara da diqqət çəkilmişdir.

**Açar sözlər:** Gender, Azərbaycan, qadın, bərabərlik

"Gender bərabərliyi" məsələsi XX əsrin ikinci yarısında sosiologiya elminə daxil olmuş, sonrakı illərdə isə hüquqi termin statusuna yüksəlmişdir. "Gender" məsələsi ilə məşğul olan beynəlxalq dövlət qurumları, o cümlədən qeyri-hökumət təşkilatları "gender" termininin daşıdığı sosial yüklə bağlı verdikləri izahı belə şərh edirlər: "Gender termini cəmiyyət daxilində müvafiq olaraq kişi və qadınların rollarını, vəzifələrini, davranış tiplərini, habelə qadınlarla kişilər arasında mövcud olan və qarşılıqlı hörmətə söykənən münasibətlər sistemini, bu münasibətlərlə bağlı geniş şəkildə qəbul olunmuş gözlənti və normaları ifadə edir". Bu baxımdan "gender" termini "kişilik" və "qadınlıq" anlayışlarına aydınlıq gətirməklə bərabər, həm də kişilərlə qadınlar arasında olan münasibətləri və bu münasibətlər kompleksinə zəmin hazırlayan mühiti bildirir.

"Gender" sözünün daşıdığı məna yükü, işlənmə yerindən asılı olaraq "cinsiyyət", "cinsi fərq" və ya "əks cinslər" anlamına gəlir. Bu söz dilimizin lüğət fonduna təxminən 2005-2006-cı illərdə daxil olmuşdur.

Dünya elmi-texniki tərəqqi baxımından günbəgün dəyişir. Hərəkətdə olan, inkişaf edən və dəyişən dünya "kişilik konsepsiyası"nın yeni formalarının yaranması ilə müşayiət olunur. Yeni formalar və dəyişmələr daha çox şiddət və avtoritarlıqla seçilən "kişiliy"in yenidən şəkillənməsi ilə səciyyələnir. Bütün bu amillər bir daha təsdiq edir ki, sosial-iqtisadi inkişafın zəif olduğu mühitlərdə, kişilərin gender bərabərliyinə münasibətini və təcrübəsini daha yaxşı dərk etmək, olduqca zəruridir.

Hazırda "sosial libas" geyinərək, cəmiyyət həyatının müxtəlif sahələrinə, o cümlədən mədəni və mənəvi sferalarına ayaq açan "gender bərabərliyi", "gender bərabərliyi tərbiyəsi" və "gender tərbiyəsində qadının rolu" məsələləri, müasir dünyamızda yüksələn xətlə inkişaf edən, önə çəkilən və daima diqqət mərkəzində saxlanan problematik məsələlərdən birinə çevrilmişdir. Məsələ beynəlxalq səviyyədə institusional hadisə olaraq dəyərləndirildiyindən, bir çox aspektlərdən öyrənilir.

Gender bərabərliyi tərbiyəsində qadının rolu dedikdə, ailənin sütunları hesab olunan ananın ata (qadın və kişinin) ilə, eləcə də ailənin və cəmiyyətin gələcəyi olaraq dəyərləndirilən övladların, yəni qızların və oğulların hüquqi müstəvidə bərabərliyinə nail olunması başa düşülür.

Gender qanunu ilə bağlı sənədlərdə, qadınların kişilərlə bərabər olaraq, eyni hüquqi müstəvidə, cəmiyyətin müxtəlif sferalarında təmsil olunmaları, seçkili orqanlara, o cümlədən iqtisadiyyatın, ictimai-siyasi həyatın bütün sahələrinə cəlb olunmalarının və təşviq edilmələrinin əhəmiyyəti qeyd olunur. Cinsindən asılı olmayaraq, tərəflərin eyni fəaliyyət imkanlarına, bərabər səviyyəli məsuliyyətə və iştirakçılığa malik olmasının zəruriliyi vurğulanır. Gender bərabərliyi həm də qadınların və kişilərin mövcud resurslara çıxış imkanlarının yaradılması, mövcud olan

fərqli baxışların aradan qaldırılması və resursların onların arasında bərabər şəkildə bölüşdürülməsini nəzərdə tutur.

Gender məsələsi və gender bərabərliyi tərbiyəsi ilə bağlı BMT, ATƏT və Avropa Şurası kimi qurumlar daxil olmaqla, siyasi təşkilatlar və qeyri-hökumət təşkilatlarının əksəriyyəti eyni mövqedən çıxış edirlər. Çıxışlarda cinsi xüsusiyyətlərindən asılı olmayaraq, doğulduğu andan qızların (qadınların) və oğlanların (kişilərin) bərabər hüquqlara malik olması təbliğ olunur. Lakin cəmiyyətimizdə, kişinin qadınla eyni davranış tipinə malik ola bilməsi kimi də başa düşülən gender bərabərliyi tərbiyəsi məsələsinə, müsbət yanaşanlarla bərabər, loyal yanaşanlar və ya tam əksinə, olduqca yanlış və təhlükəli düşüncə olaraq dəyərləndirənlər də var. Gender məsələsinə fərqli bucaqlar altında baxılması "köhnələr"lə "yenilər"in, mühafizəkarlarla liberalların toqquşmasına gətirib çıxarır.

Mahiyyətin qavranması ilə bağlı olan yanlışlıqlar və fərqli yanaşmalar, fikir ayrılıqlarına gətirib çıxarmaqla bərabər, ciddi fəsadların yaranmasına səbəb olur. Məsələnin bu cür şəkillənməsi, gender bərabərliyi tərbiyəsində qadınların rolunun aktivlik dərəcəsini aşağı salır.

Gender bərabərliyi məsələsinin mahiyyətini anlamaq üçün fərqli zamanlarda fərqli ölkələrdə yaşayan qadınların statusuna baxmaq və öyrənmək zəruridir.

Orta əsr Avropasında qadınların heç bir hüququ yox idi. Kilsəyə və orta əsr ənənələrinə görə qadın günaha meyilli zəif, ağılsız, idarə olunan və sözsüz olaraq kişiyə tabe edilən bir varlıq idi. Qadınların əsas vəzifəsi evlənmək və dünyaya uşaq gətirmək idi. Orta əsr Avropa qadını məhkəmədə iştirak edə bilməzdi. Qanunla bağlı olan bütün işləri ailə başçısı həyata keçirirdi. Kişi mülkiyyəti hesab olunan qadını, istədiyi vaxt, istədiyi şəkildə cəzalandırmaq hüququna malik idi.

Orta əsrlərdə qadına kölə kimi baxılan Ərəbistanda vəziyyət daha acınacaqlı idi. Bədəvi ərəblərin bir qismində yeni doğulmuş qız uşaqlarının diri-diri torpağa basdırılması kimi vəhşi adətin mövcudluğu hamı tərəfindən bilinən faktdır. Ərəb ailə əxlaqına görə, heç bir hüququ olmayan qadın, dəvədən dəyərsiz idi. Ərəbistan yarımadasının qadınları yalnız islam dini meydana çıxdıqdan sonra nəfəs almağa başladılar. Doğrudur, islam dini qadını düşdüyü burulğandan xilas edərək, onu əvvəlki dəyərsizlik statusundan uzaqlaşdırdı. Lakin qadın hüquqlarının kişilərlə bərabər səviyyəyə qaldırılması məsələsini həll edə bilmədi.

Qədim mədəniyyət mərkəzlərindən biri olan Çində də, qadına olan yanaşma tərzi ürəkaçan deyildi. Çinli qadınlar da, avropadakı həmcinsləri ilə eyni taleyi paylaşırdılar. Hətta bir sıra məsələlərdə vəziyyət daha acınacaqlı idi.

Bəs islamaqədərki Azərbaycanda, azərbaycanlı qadınların hüquqi vəziyyəti necə idi? Nə qədər təzadlı görünsə də, Avropa və ərəb dünyası ilə, o cümlədən Çinlə və qonşu slavyan xalqları ilə müqayisədə, türk dünyasında vəziyyət fərqli idi. Türk qadını sərbəst idi. Onun işi, təkcə dünyaya uşaq gətirməklə məhdudlaşmırdı. Tarixi zərurətdən və müharibə şəraitindən asılı olaraq, türk qadını təsərrüfatı idarə edir, vətənin müdafiəsində düşmənə qarşı mübarizəyə qoşulur, kişiləri ilə çiyin-çiyinə, düşmənə qarşı döyüşlərdə, birgə iştirak edirdi. Türk kişisi döyüşə gedəndə, gözü arxada qalmırdı. Çünki bilirdi ki, onun qadını təkcə ana yox, həm də gözəl idarəçi və döyüşçüdür. Türk qadını, evlilik dönəmində seçim hüququna malik idi. Zorla ərə verilməzdi. Elçisi çox olan qızın istəyinə əsasən, elin-obanın iştirakı ilə, özünün də iştirakçısı olduğu yarış səhnəsi düzənlənərdi. Oxatma, qılıncoynatma, atçapma və güləş yarışlarında, yalnız ona qalib gələni adaxlı olaraq seçər və həmin igidi, gələcək həyat yoldaşı olaraq, qəbul edərdi. Yarışların qalibi olan igid, adaxlı titulu qazanmaqla yanaşı, gələcəkdə qurulacaq ailədə "ailənin kişisi" titulunu qazanmaqla, yekun söz demə haqqını da əldə edirdi.

Türk təfəkküründə qadına olan münasibət hər zaman yüksək səviyyədə olmuşdur. Türk dünyasının igid sərkərdəsi Çingiz xan qadını haqda: Mən sizin xanınız Çingiz xanam (qadınını göstərərək) Bu da mənim "Xan"ımdır deyirdi. İslamı qəbul edən türklər, ərəb mədəniyyətinin təsiri ilə türk ailəsinə daxil olan və xanım sözünün qarşılığı olaraq işlədilən "övrət" sözünə, bir müddət sonra müdaxilə edərək, ciddi şəkildə korrektə etdi. Qadının eyibli yeri mənasını verən

"övrət sözünə, türk ailə əxlaqının dəyərlərini özündə əks etdirən milli libas geyindirildi. Mənfi çalarlı "övrət" titul adını, türk dilində müsbət mənəvi dəyərlər daşıyan "arvad" titulu ilə əvəz etdi.

Təəssüflə qeyd etmək istərdim ki, islam dininin cəmiyyətimiz tərəfindən qəbulu müsbət xüsusiyyətlər gətirsə də, mənfilikləri də az olmayıb. Azad hüquqa malik türk qadını qapadılmağa başlanıldı. Təkcə geyimi yox, ruhu da. Artıq vəzifəsi uşaq doğub, ərinə yemək hazırlamaq oldu. Azad Tomrisdən, Asenadan, hüquqsuz Fatma, Tükəzbana çevrildi. Artıq Azərbaycanda qadına qarşı münasibət ana kultundan çıxıb "Qızını döyməyən, dizini döyər", "Qız ağacı, qoz ağacı, hər keçən bir daş atar", "Qız ilə qızıl gizlin gərək", "Qız kəsilməmiş qarpıza bənzər" kimi səviyyəsizləşməyə, dəyərsizləşməyə başladı.

Bu gün qadınlar dünyadakı rollarını müəyyənləşdirirlər. XIX əsrin əvvəllərində səs vermək hüququ belə olmayan və bunun üçün ciddi mənada uzun mübarizə aparıb yol qət edən qadınlar artıq XXI əsrdə siyasi rollar öhdəsinə götürür və hətta artıq ölkə başçısı rolunu belə ifa edirlər. Artıq qadın təkcə ana deyil, o həm də satıcıdan tutmuş, şirkət rəhbəri və yuxarıda qeyd etdiyimiz kimi, ölkə başçısı vəzifəsinə də qalxa bilən, öz iqtisadi və siyasi azadlığını təmin edən, ayaqları üstdə durmağı bacaran bir varlıqdır. Bu günün qadını zəif cinsdən artıq zərif və güclü cins ünvanına qalxa bilib.

Qeyd etməliyəm ki, qadınların hüquqları uğrunda mübarizəsi əsasən XIX əsrdən başlamış, XX əsrdə isə geniş vüsət almışdır. Bu mübarizədə Azərbaycanın mövqeyi olduqca demokratik idi. 1918-ci il 28 mayda yaradılmış Azərbayan Xalq Cümhuriyyəti yarandığı dövrdən Azərbaycan qadınının hüquq və bərabərliyi uğrunda mübarizə aparmışdır. 1918-ci il qurultayında M.Ə.Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirdi. M.Ə.Rəsulzadə deyirdi: "Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır". Bu fikirlər 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapdı. Nəticədə, Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə oldu. 1918-ci il dekabrın 8-də işə başlayan Azərbaycan parlamentinə seçkilərdə də azərbaycanlı qadınlar iştirak etmişdir. Lakin qadınlar rəhbər vəzifələrə öz namizədlərini irəli sürməkdən imtina etdiklərindən parlamentdə təmsil olunmamışdılar.

Bu gün dünyanın ən demokratik ölkəsi sayılan Almaniyada qadınlara seçki hüququ 1919-cu ildə, Amerika Birləşmiş Ştatlarında 1920-ci ildə, Fransada isə 1944-cü ildə qəbul olundu. Göründüyü kimi, bu ölkələrin hamısında qadınlara səsvermə hüququ I Dünya müharibəsindən sonra verilib. Bu, cəbhədə döyüşən kişi işçilərin yerinə qadınların cəlb edilməsi zərurətindən irəli gəlmişdi. Halbuki, o zamana qədər bəzi ölkələrdə müxtəlif dövrlərdə qadınlara ən yaxşı halda, zavod-fabriklərdə ucuz işçi qüvvəsi kimi baxılırdı. Cəmiyyətin müxtəlif sahələrində o zamana qədər geniş tərkibdə iştirak etməyən qadınlar müharibə dövründə arxa cəbhənin işini aparmaqla öz yerini bərkitmiş oldu və bir daha əvvəlki mövqeyinə qayıtmaq istəməyərək cəmiyyətdəki öz layiqli yerinə iddia etməyə başladı. Bununla da, siyasətçilər platformalarında bu məsələləri nəzərə almalı oldular və qadının dünya ölkələri üzrə rolu artmağa başladı.

Bu gün dövlətimizdə, ölkəmizdə gender bərabərliyinin təminatı üçün müəyyən addımlar atılmışdır. Bunlardan biri də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması olmuşdur.

Artıq ölkənin istənilən fəaliyyət sahəsində qadınların rolu artmışdır. Azərbaycanda "Gender bərabərliyi haqqında" qanun 2006-cı ildə qəbul olunmuşdur. Bu qanuna görə, Azərbaycanın, demək olar, bütün qanunvericiliyi gender ekspertizasından keçirildi. Bu gün dövlət büdcəsindən gender məsələlərinə görə xüsusi büdcə ayrılır. Azərbaycan bu yolda bir çox

ölkənin təcrübəsini öyrənir. “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” hazırlanmışdır.

Son onilliklərdə bu sahədə tərəqqi nəzərə çarpsa da və Azərbaycandakı qadınların hüquqi vəziyyəti, şübhəsiz ki, yaxşılaşsa da, qadınlar və kişilər arasında effektiv bərabərlik reallığa çevrilməkdən uzaqdır.

Çox qəribədir ki, məhz 2006-cı ildən Azərbaycanda nikah və boşanmalarla bağlı ciddi narahat olunmalı statistika yaranıb.

2006-cı ildə Azərbaycanda nikaha daxil olanların sayı 79.443 nəfər boşananların sayı 7817 nəfər, 2011-ci ildə nikaha daxil olanların sayı 88.145 nəfər, boşananların sayı digər illərə nisbətdə artaraq 10747 nəfər olmuşdur. 2019-cu ildə isə bu rəqəm iki dəfə artmışdır. 63869 ailə həyatı qurana nisbətdə 17148 nəfər boşanmışdır.

Bu statistika Azərbaycanda gender bərabərliyi məsələsinin işlənməsində müəyyən problemlərin olduğunu büruzə verir. Dövlətin bu sahəyə kifayət qədər vəsait ayırmağına baxmayaraq, gender bərabərliyi məsələsində bir sıra uğurlar qazanılsa da, lazımi nəticələr əldə etmək mümksüz görünür. Eyni zamanda bu məsələ ilə məşğul olan QHT-lərə kifayət qədər pul ayrılır. Bu, bizə onu deməyə imkan verir ki, gender bərabərliyi məsələsi birtərəfli işlənir və ən əsası da gender bərabərliyinin Azərbaycan modeli işlənilib hazırlanmalıdır. Çünki bizim cəmiyyətə təbiq edilən Avropa dəyərlərinə əsaslanan, Avropa insanına hesablanan modeldir, bu səbəbdən də Azərbaycana bu modelin tətbiqi nəticəsində biz çox da uğurlu nəticələr əldə edə bilməyəcəyik.

Gələk gender bərabərliyi tərbiyəsində qadının rolu məsələsinə.

Azərbaycan xalqının ailə əxlaqı, olduqca zəngin mədəni irsə sahibdir. Lakin təəssüf ki, kənar mədəniyyətlərin təsiri ilə yaranan bir çox fəsadlı düşüncələr, hələ də bir çox müasir azərbaycan ailələrində hakim mövqeyini qoruyub saxlayır. Qadına olan düşüncə və münasibətlər nə qədər müasirləşsə də, həyatımıza sonralar daxil olan, mənfi baxışlarımızdan qurtara bilməmişik. Qadınlara qarşı şiddət və məişət zorakılıqları artan sürətlə davam edir. Günahkar kimdir? Göstərilən şiddət və məişət zorakılıqların qida mənbəyini harada axtarmaq lazımdır? Səbəbləri qidalandıran mənbələr çoxdur.

Bu gün müəyyən qadın qruplarında, heç də obyektiv olmayan belə bir tezis səsləndirirlər: “qadınların ən böyük düşməni kişilərdir”. Deyəsən biz yaranmış vəziyyətlə bağlı, başqalarını günahlandırmağı daha çox sevirik. Lakin nə qədər qəribə görünsə də, baş verən şiddət və zorakılıqların səbəbini qidalandıran əsas mənbə, kişilərdən daha çox, elə qadınlar özləridir. Axı gələcəyin anası olan qızlarımıza, evin xanı - xanımı titulu ilə şərəfləndirilən qadınlarımıza qarşı, şiddət və zorakılıq göstərmə potensialına malik olan oğulları və gələcəyin kişilərini böyüdüb tərbiyə edən elə qadınlardır. Nədənsə, biz həmişə “günah keçisi”ni öz bağımızda deyil, başqasının bağçasında axtarırıq. Uzun müddətdir ki, tapmacaya çevirdiyimiz şiddətin və zorakılıqlarının baş vermə səbəblərini şərtləndirən sualların cavablarını axtarırıq. Amma “tapmaca”nın cavabı, qadınların özündədir. O qadınlar ki, kişilərlə nisbətdə həm məktəbəqədər müəssisələrdə, həm də orta və ali təhsil ocaqlarında üstünlük təşkil edirlər. Elə ailədə də, uşaqların tərbiyəsi ilə, əsasən, qadınlar məşğul olurlar. Deməli, gender bərabərliyi tərbiyəsində kişilərlə müqayisədə, qadınların rolu və manevr etmə imkanları daha genişdir.

Azərbaycan cəmiyyətində kişilərin çox böyük əksəriyyəti, ailədaxili tərbiyə məsələlərində ananın işinə, demək olar ki, qarışmır. Atanın müdaxiləsi ya aparılan müşahidələr, ya da ananın verdiyi informasiyalar əsasında baş verir. Onun əsas işi, ailəni maddi baxımdan təmin etmək və qoruyucu funksiyasını yerinə yetirməkdir. Atanın tərbiyə işinə qarışması və ya müdaxilə etməsi halları daha çox oğul övladı ilə bağlı olur. Qız uşaqlarının tərbiyəsi ilə mütləq mənada ana məşğul olur. Görünür “anasına bax, qızını al” deyimi də, bu vəziyyətdən qaynaqlanır.

Gender bərabərliyi mövzusunda qadınların rolu danılmazdır. Çünki gender bərabərliyini pozan, qadınların cəmiyyətdə, dünyada lazımi mövqelərini tutmağa “imkan verməyən” kişiləri

dünyaya gətirib, onlara tərbiyə verən, fikirlərini formalaşdıranlar da elə qadınların özüdür. Onun üçün də bu günün anaları övladlarını tərbiyə edərkən bəzi nüanslara diqqət etməlidirlər.

Cinsi rollar qəlibləşməyib. Bu gün dünyanın bir çox yerində kişilərlə qadınların toplumda olan rolları eyniləşməyə başlayıb. Yəni gender bərabərliyi deyəndə təkcə qadını kişinin cəmiyyətdə malik olduğu hüquqlarla silahlandırmaq deyil, eyni zamanda qadının bacarıq və vəzifələrini kişilərdə də tərbiyə etmək nəzərdə tutulur. Kişilər ənənəvi olaraq qadına məxsus olaraq görülən rolları, qadınlar isə kişilərə məxsus rolları mənimsəyir və icra edirlər. Bütün bunlar toplumların dünyaya olan baxışından, həyat tərzlərindən və ən əsası da iqtisadi vəziyyətdən irəli gəlir.

Bu gün ölkəmizdə gender bərabərliyi problemlərinin yaranmaması üçün mütləq XXI əsr Azərbaycan anası, qadını övladını böyüdərkən ona gender bərabərliyi məsələlərini başa salmalıdır. Artıq əmək prosesinə, ev işlərinin görülməsinə təkcə qızını cəlb etməməlidir. Oğluna da bu cür işləri öyrətməlidir.

Dünyamız qloballaşır. Bu gün artıq istənilən şəxs maddi və zehni imkanları əl verərsə dünyanın istənilən ölkəsində yaşaya, təhsil ala bilər. Ev işlərini bacaran Toğrul Amerikada daha rahat təhsil ala biləcək. Çünki o, vaxtını ev işlərinin öyrənilməsinə sərf etməyəcək, artıq o uşaq vaxtından ev işlərinə alışdırılıb. Toğrul həyati bacarıqlara yiyələnib. Çünki onun ailəsi daha modern olub və yemək bişirib, evi təmizləməyə qız işi kimi baxmayıb. Çünki anasına kömək etmək istəyən balaca uşağa qarşı "Qızbibisən? Get, maşınla oyna!" kimi sözlər söylənilməyib, şüursuz fikirlər aşılanmayıb.

Bu gün ana övladına hər iki cinsin də bərabər hüquqa malik olduğunu başa salmalıdır. Bu günün oğlan uşağı gələcəyin ailə başçısıdır. Qadının da onunla bərabər hüquqa malik olduğunu bilən oğlan həyat yoldaşına aşağı gözlə baxmayacaqdır, onun geyiminə, danışığına, sosial kimliyinə qarışmayacaqdır, onunla şəxsi mülkü imiş kimi davranmayacaqdır.

Buna görə də mütləq savadlı analar yetişdirmək gərəkdir. Çünki analar bu cəmiyyətin özəyini təşkil edir. Bir millətin qadını savadlı, təhsillidirsə o millət mütləq inkişaf edəcəkdir.

Cəmiyyətdə qadına olan bütün məişət zorakılığının qaynağı demək olar ki, qadın tərəfindən yaxşı tərbiyə olunmamış kişilərdir. Hər birimiz bilirik ki, ölkəmizdə cəmiyyət tərəfindən kişilərə verilən hüquqlar daha çoxdur. Qadınlar isə adətən mentalitet adlı məfhumun təzyiqi altında əzilir.

Cəmiyyətimizin tərbiyə üsullarında oğlan və qızın tərbiyə olunmasında nəzərə çarpacaq dərəcə fərqliliklər mövcuddur. Əgər oğlanlara hər cür sərbəstlik, haqq verilirsə, əksinə qızlara qarşı isə kifayət qədər sədlər, məhdudiyyətlər mövcuddur. Əgər qız "Qız bərkdən gülməz", "Qız, başıaşağı olar", "Arvadın başı kişi işlərinə ərməz", "Qadın gərək yerini bilə" kimi cinsi düşmən sözlərlə böyüdülərsə, o qız bu təzyiqlərdən əzilib özünü formalaşdıra bilməyəcək, onda özünüdərk kimi müsbət xüsusiyyət formalaşmayacaq. Bu cür böyüdülmüş qız uşaqlarında natamamlıq kompleksi yaranır. Bir çox hallarda əvvəldən bu cür sözlərlə böyüdülən qızlar daha yaxşı bir dünyaya sahib ola biləcəklərini belə dərk etmirlər və ana olduqda da onlar da öz qız övladlarını bu şəkildə böyüdürlər və bu təəssüf ki, əxlaq kodeksinə çevrilir. Öz statusunu bərpa etməyə, həyatdakı layiqli yerini tutmağa çalışan qızlarımız isə "dikbaş" adlandırılaraq "sındırılmağa" çalışılır.

Azərbaycan qadınının problemləri bununla da bitmir. O, həmcinsi tərəfindən doğru təfəkkürlə, tərbiyə üsulu ilə böyüdülməmiş həyat yoldaşı tərəfindən də təzyiqlərə məruz qalanda da yenə həmcinslərinin "Kişidir sevər də, döyər də", "Tək sən deyilən ki?" kimi sözlərinin qurbanı olur. Təzyiqlərə məruz qalan qadın boşana bildikdə isə bu dəfə də ona cəmiyyət tərəfindən "Ərsiz arvad, yüyənsiz at" damğası vurulur. Yalnız ən cəsarətlilər və bacarıqlılar bu cür cəmiyyətdə öz ayaqları üstdə durmağı bacarırlar. Bəzən təəssüf ki, intihar yolu seçilir.

Bütün bu problemlərin mənbəyi qadının böyütdüyü fərdlərdir, dolayı yolla desək, qadının qadına qarşı zorakılığı.

Lakin bütün bunlarla yanaşı yuxarıda da qeyd etdiyimiz kimi, dövlətimizin qayğısı nəticəsində bir sıra müsbət halların da şahidi ola bilərik. Bu gün təhsilli qadınlarımız sayı gözlə görüləcək qədər artır. Qadın ailənin və cəmiyyətin özəyini təşkil edir. Bir millətin qadını savadlı və təhsillidirsə, o millət mütləq inkişaf edəcəkdir. Azərbaycan özündə multikultural dəyərləri daşıyan bir ölkədir və tolerantlığı ilə dünyanın ən demokratik ölkələrinə belə örnək ola bilər. Məhz ölkəmizin bu potensialını nəzərə alıb gender bərabərliyi məsələsində də uğur qazana bilməyimiz üçün mütləq şəkildə Azərbaycan modelini işləməliyik. Yalnız bu təqdirdə biz bu məsələ ilə bağlı istədiyimizi tam əldə etmiş olacağıq.

Ümid edirik ki, bu kimi tədbirlər Azərbaycan qadınının həyat şəraitini yaxşılaşdıracaq, cəmiyyətimizdə ona qarşı olan mənfiliklərin aradan qaldırılmasına kömək edəcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, MBM, 2012, 408 s.
3. K.Ağayeva. Azərbaycanda gender məsələləri. Dərs vəsaiti, Bakı-2014, 211 səh
4. Məişət zorakılığının qarşısının alınması haqqında» 2010-cu il 22 iyun tarixli Azərbaycan Respublikasının Qanunu //www.e-qanun.az

**Гюнай Маммедзаде**

**ИСТОРИЧЕСКИЙ И СОЦИАЛЬНЫЙ ВЗГЛЯД НА ГЕНДЕРНОЕ РАВЕНСТВО И РОЛЬ ЖЕНЩИН В ЭТОМ ПРОЦЕССЕ**

**Резюме:**В статье рассматривается проблема гендера с исторической и социальной точки зрения, а также приводится информация о том, какое значение придается женщинам в различных обществах. В статье также определяется роль женщин в решении гендерной проблемы в Азербайджане. Здесь также было уделено внимание шагам, предпринятым азербайджанским государством в связи с вопросом гендерного равенства.

**Ключевые слова:** гендер, Азербайджан, женщины, равенство

**Gunay Mammadzada**

**HISTORICAL AND SOCIAL REVIEW OF GENDER EQUALITY AND THE ROLE OF WOMEN IN THIS PROCESS**

**Summary:** The article approaches the issue of "gender" from a historical and social point of view, and provides information about the value given to women in different societies. The article also identifies the role of women in solving the gender problem in Azerbaijan. In here was also given attention to the steps taken in Azerbaijan state on gender equality.

**Key words:** Gender, Azerbaijan, women, equality

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:fəlsəfə üzrə fəlsəfə doktoru, dos. Rəşad Əsgərov**

**UOT:31:340:342.7:371.**

**Jalə Fərhadova**
**Sumqayıt Dövlət Universiteti**
**Müəllim**
**E-mail: cale80@mail.ru**

## ŞƏXSİYYƏTİN FORMALAŞMASINA MƏİŞƏT ZORAKILIĞININ MƏNFİ TƏSİRLƏRİ

**Xülasə:** Məişət zorakılığı ailədə böyüyən boya başa çatan uşaqların tərbiyəsinə, psixologiyasına, sağlam düşüncə tərzinin formalaşmasına mənfi təsir göstərir. Uşaqlıq dövründə zorakılığa məruz qalan və ya zorakılıq şahidi olan uşaqların böyüdükdə zorakılıq törətməyə meyilli olmaları ehtimalı çox yüksəkdir. Bu da onların gələcəkdə davranışlarında, psixologiyasında özünü büruzə verərək, sağlam düşüncəli insan kimi formalaşmasına mənfi təsir edir.

**Açar sözlər:** cəmiyyət, şəxsiyyət, yeniyetmə, inkişaf, zorakılıq

Hər bir zorakılıq əməli, o cümlədən, məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial nəticələr doğurur. Zorakılığın şahidi olmuş ailə üzvlərinin sağlamlığı ilə yanaşı, davranışında da problemlər ortaya çıxır. Belə uşaqlar emosional travmadan əziyyət çəkir və tədris prosesində çətinliklərlə üzləşirlər. Evlərində zorakılığın müşahidə edilməsi nəticəsində uşaqlar arasında yuxu pozuntusu və qida qəbulu ilə bağlı çətinliklər, fikri cəmləşdirmək, ümumi narahatçılıq yaşamaq, əyləncəyə marağı itirmək, özünə qiymət verməmək, həmyaşıdlarından kənar gəzmək və ya uzaqlaşmaq, məktəb mühitində özünü dikbaş və ədəbsiz aparmaq, təhsildə geriləmək, təhsildən yayınmaq halları daha çox rast gəlinən ümumi problemlərdir.

İcmalarda intensiv baş verən məişət zorakılığı birbaşa cəmiyyətin inkişafına öz mənfi təsirini göstərir. Məişət zorakılığının cəmiyyət üçün ən başlıca ağır fəsadlarından ən öndə dayananı ruhi travma almış uşaqlardır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, məişət zorakılığı mühitində yaşayan uşaqların 60%-i inkişaflarının sonrakı dövrlərində müəyyən növ psixi problemlər yaşayırlar və bu simptomlar irəliləyərək hətta klinik səviyyəyə də çata bilir. Əlbəttə ki, burada məişət zorakılığı zamanı uşağın buna necə şahid olduğu, onun nəyi gördüyü, nəyi eşitdiyi və neçə yaşında olması da öz təsirini göstərir. Körpə uşaqlar olan ailələrdə baş verən məişət zorakılığı hallarında adətən uşağın yatmaq və yemək rejimində ciddi problemlər yaşandığından uşaqda artıq dərəcədə çığırmaq və ağlamaq vərdişləri yaranır və körpənin normal inkişafı təmin edilmir (1). Məktəbəqədər uşaqlarda isə həddən artıq utancaqlıq, ünsiyyətdən çəkinmə, yeniyetmələrdə isə məişət zorakılığının baş verməsində özlərini günahlandırma halları müşahidə edilir. Bəzən psixoloji travmanın təsirindən uşaqlarda əsəb tutmaları, ürəkkeçmələr kimi fiziki əlamətlər müşahidə olunur və bəzən özləri də fiziki şiddətin qurbanlarına çevrilirlər.

Məişət zorakılığı mütəmadi olaraq yaşanan ailələrdə qanqaraçılıq, qəzəb, özünə qapanma halları çox müşahidə olunduğundan bu ailənin üzvləri cəmiyyətin ümumi rifahının yaxşılaşdırılması üçün təşəbbüs göstərməyə və sosial aktiv vətəndaş kimi fəaliyyətə meyilli olmur. Digər bir tərəfdən isə məişət zorakılığı hallarının baş verdiyi ailələrdə ailə üzvləri hər hansı bir qınaqla üzləşməmək üçün ətraf cəmiyyətlə sıx əlaqədə olmaqdan yayınırlar. Bu çox vaxt ailənin zorakı üzvünün ailə üzvlərini ətrafdan sosial və emosional olaraq təcrid etməsinə görə baş verir.

Psixologiyada insan şəxsiyyəti homoestaz (yunanca homois-bənzər, stsis-hərəkətsiz deməkdir) bir sistem kimi xarakterizə olunur. Homoestaz prinsipinə görə (2) orqanizm sistem üçün təhlükəli olan dəyişikliklər haqqında impuls alan kimi özünütənzimetmə mexanizmi vasitəsi ilə özünün bundan öncəki müvazinətini bərpa etməyə başlayır. Bu ideya insanı özünü tənzimləyən sistem kimi xarakterizə etmək üçün böyük eviristk əhəmiyyətə malik idi. K.Levin

və bir çox başqa psixoloqların fikrincə isə şəxsiyyət həm də bu yolla inkişaf edir. Ümumiyyətlə şəxsiyyətin inkişafından danışdıqda inkişafın özlüyündə necə bir proses olduğunundan danışmaq lazımdır. İnkişaf dedikdə maddi və ideal obyektlərdə baş verən dəyişikliklər nəzərdə tutulur. Lakin hər bir dəyişikliyə inkişaf demək olmaz. İnkişaf 3 xassəyə görə dəyişikliyin digər növlərindən fərqlənir: 1. Dönməzlik (əvvəlki vəziyyətə qayıtmamaq) 2.Qanunauyğunluq 3.Dəyişikliyin müəyyən istiqamət üzrə baş verməsi.

Şəxsiyyətin inkişafında əsas hərəkətverici qüvvə əksikliklərin mübarizəsidir. Bildiyimiz kimi şəxsiyyətin fəallığının əsas mənbəyini onun tələbatları və ehtiyacları təşkil edir. Bu sahədə əmələ gələn ziddiyyətlər şəxsiyyətin inkişafının əsas hərəkətverici qüvvəsidir. Tələbatlar bir qayda olaraq fəaliyyət və ünsiyyət prosesində dəyişirlər. Əmələ gələn və təmin olunan tələbat əsasında başqa tələbat meydana gəlir. Bu iki tələbat hətta eyni tipli olduqda belə onlar bir birini təkrar etmirlər və onların məzmunu tədricən genişlənir. A.N.Leontyevin fikirinə əsasən şəxsiyyətin psixi inkişafında aparıcı fəaliyyətin xüsusiyyətlərini nəzərə almaq mütləq haldır. Hər yaş dövrünə görə aparıcı fəaliyyətin müxtəlif növləri vardır. Psixi inkişafın bir mərhələsində fəaliyyətin bir növü aparıcı rolu şəxsiyyətin inkişafıdır. Fəaliyyətin digər növləri isə az əhəmiyyət tələb edir.

Yeniyetməlik yaş dövründə şəxsiyyətin inkişafının əsas motivi intim-şəxsi ünsiyyət və tədris-peşə fəaliyyətidir. Bildiyiniz kimi yeniyetməlik yaş dövründə ünsiyyət və fəaliyyət vəhdət təşkil edir. Ünsiyyətin funksiyaları fəaliyyətin məzmundan və məqsədindən asılıdır. Şəxsiyyətin ictimai mahiyyəti haqqında Marksist idealogiyaya görə insan ancaq cəmiyyətdə bir-biri ilə real əlaqə və münasibətlərdə yaşayır, fəaliyyət göstərir və şəxsiyyət kimi inkişaf edir. İnsanın şəxsiyyət kimi bütün münasibətləri, o cümlədən ətraf aləmə olan münasibəti onun başqa insanlarla münasibətləri ilə şərtlənir.

Ünsiyyət insanların qarşılıqlı təsiri prosesidir. Bu proses özlüyündə dialektik prosesdir. İnsanın ünsiyyət tələbatında bir-birinə əks olan iki meyl aydın nəzərə çarpır. Şəxsiyyət, xüsusi ilə yeniyetməlik yaş dövründə bir tərəfdən, başqalarına oxşamağa, cəmiyyət içində, kollektivdə olmağa can atır, öz psixoloji rahatlığını özünü təsdiq etmə və yaşlılıq tələbatını ünsiyyət vasitəsi ilə ödəməyə çalışır. Digər tərəfdən yeniyetmə öz "Mən"-ini sosial mühitdən ayırmağa, özünün xüsusi bilik və bacarıqlarını kəşf etməyə çalışır. Həmçinin şəxsiyyətlərarası münasibətlərdə özünün mövqeyini üstün tutur, insanlara seçici münasibət bəsləyir. Özünü başqa insanlarla müqayisə etmək, başqa insanlar vasitəsi ilə qiymətləndirmə şəxsiyyətin yeniyetməlik yaş dövründə mənlik şüurunun formalaşmasının başlıca mexanizmidir. Yeniyetmə intim-şəxsi ünsiyyət vasitəsi ilə özünə başqa insanların gözü ilə baxmağı, özünü başqa insanın yerində təsəvvür etməyi, onların davranış və rəftarını təhlil etməyi, onlarla birliklidə sevinməyi və kədərlənməyi öyrənir. Daha geniş düşünsək şəxsiyyət ünsiyyət prosesində həm psixoloji təcrübə qazanır, həm də emosional cəhətdən inkişaf edir. Yeniyetməlik dövründə şəxsiyyətin daimi xarakter keyfiyyətlərinin yaranması da aktualdır. Xasiyyətin iradi keyfiyyətləri-inadkarlıq, qətiyyət, məqsədə çatmaq əzmi, çətinlikləri dəf etmək bacarığı nəzərəçarpacaq dərəcədə inkişaf edir. Fəallıq, təşəbbüskarlıq yeniyetməni impulsiv edir. Bu adətən biliklərə yiyələnmə prosesi ilə birgə cərəyan edir.

Yuxarıda sadaladığımız bütün göstəricilər normal ailədaxili münasibət və ünsiyyət prosesi üçün səciyyəvidir. Yeniyetmə şəxsiyyətinin inkişafı həmçinin genetik amillərlə, ətraf mühitin təsiri, tərbiyənin xüsusiyyətləri və digər ziyanlı faktorlarla əlaqəlidir. Bunlar çox zaman psixoloji proseslərin normal gedişatını pozur, bu və ya digər pataloji sindromların formalaşmasına səbəb olur. Müxtəlif xəstəliklər, şəxsiyyət patalogiyaları, asteniya, üzvi sindromlar, əqli inkişafın geri qalması kimi sonradan kompensasiya olunmalı əlamətlər özünü göstərə bilər.

Natamam ailələrdə böyüyən, tez-tez ailədaxili münaqişələrin arasında qalan və ya ailə daxili ünsiyyətin, ümumiyyətlə ailədəki ünsiyyət yoxluğu yeniyetmələrdə aqressiya, autoaqressiya, depressiya və suisid kimi neqativ hallara səbəb olur. Aqressiv davranışı

şəxsiyyətin psixikasının hər hansı konkret sferası ilə bağlamaq çətindir. Bəzən aqressiya emosional sferanın məhsulu kimi nəzərdən keçirilir. Burada ön planda nifrət və qəzəb kimi emosional hallar-affektlər durur. Psixologiyada aqresiyyanı motiv ilə əlaqələndirmək cəhdlərinə də rast gəlinir. İnsanın aqressiv davranışa meyilli olmasının daha çox hansı daxili və ya mühit faktorlarının təsir etməsi məsələsi özünün tam həllini tapmamışdır. Çox güman ki, belə faktorlardan hər biri bu və ya digər dərəcədə aqressiv davranışın formalaşmasında iştirak edir. Nobel mükafatı laureatı Lorensin heyvanlar üzərində apardığı aqressiv davranışın öyrənilməsi ilə bağlı tədqiqatların nəticəsinə görə aqressiv davranış toplanmış aqressiv enerjinin çıxmasını təmin edən və ya tormozlayan xüsusi xarici amillərdən asılıdır. Lorens yazır: "İnsan bir-biri ilə mübarizə aparan heyvanlara bənzəməklə yanaşı onunla unikaldır ki, o öz cəmiyyəti üçün yararlı olmayan yeganə varlıqdır." Eyni zamanda bu məntiqi hipotez aqressivlik olmadan nə elmin nə mədəniyyətin, nə də digər insan xariqələrinin mümkün olmamasını iddia edir. (3) Təsvir olunan hipotezin tənqidçiləri haqlı olaraq bildirirlər ki, heyvanların müşahidəsindən alınan nəticələr avtomatik olaraq insanlara şamil edilə bilməz.

Aqressivliyin təbiətini instinq mövqeyindən izah edən digər konsepsiya psixoanalizin nümayəndələri tərəfindən təklif olunmuşdur. Z.Fred hələ 1920-ci ildə belə nəticəyə gəlmişdi ki, insanda dağıtmağa və həyatı məhv etməyə yönəlmiş xüsusi instinktiv meyl mövcuddur. E.From "İnsanın destruktivliyinin anatomiyası" əsərində aqressiyanı xoş xassəli və bəd xassəli növlərə bölür. Birinciyə daha çox idman yarışlarında rast gəlinən oyun aqressiyası aiddir. Çünki burada məqsəd rəqibi öldürmək deyil, məharət nümayiş etdirməkdir. Xoş xassəli aqressiyanın xüsusiyyəti məqsədə nail olmağa yönəlmiş özünü təsdiq meylidir. Aqressiyanın bəd xassəli formalarına isə paxıllıq və qısqanclıq üzündən törədilmiş zorakılıqlar daxil edilir. Bu zaman insan təkcə istədiyinə malik ola bilməməsi səbəbindən deyil, həmçinin başqasının buna malik olmasına görə aqressiv əməllər törədir. E.From yazır: "Həyata inamın itməsi, nifrətə səbəb olur. İnsan sübut etməyə çalışır ki, həyat amansızdır bütün insanlar qəddardırlar və sən özün qəddar olmalısan."

Çox saylı tədqiqatlar zorakı əməllərin daha çox əhalinin aşağı sosial təbəqələri arasında olmasını sübut etmişdir. Kasıblıq, savadsızlıq, işsizlik, müharibə, qaçqınlıq şəxsin məqsədə çatmaq imkanlarını xeyli zəiflətdiyindən frustrasyanın vacib faktoru kimi aqressiv əməllərə meyli gücləndirir. Alkoqol və narkotiklərdən istifadə də aqressiv hərəkətlərə səbəb olur. Yeniyetməlik dövründə aqressiya adətən öz həmyaşıdları ilə münasibətdə özünü büruzə verir. Həmçinin ailə qayğısından məhrum olmuş uşaqlar bütövlükdə həyata qarşı aqressiv hisslər bəsləyirlər. Ailəsi olan, daha yaxşı sosial şərtlərdə yaşıyan uşaqlara qarşı paxıllıq və qısqanclıq hissləri meydana çıxa bilər. Belə yeniyetmələrin digər yeniyetmələrdən ayrıca və ya onlarla birlikdə kollektivdə fəaliyyət göstərib göstərməməsinə dair müxtəlif fikirlərə rast gəlinir. Bəzi psixoloqların fikrinə görə belə yeniyetmələr eyni kollektivdə fəaliyyət göstərsələr, eyni zamanda psixoloji yardım göstərilərsə, onlar arasında dostluq münasibətləri yarana bilər. Digər tərəfdən aqressiv yeniyetmələrin özlərinə rəqib gördükləri yeniyetmələrə mənfi psixoloji təsir edə biləcəkləri düşünülür.

Natamam ailələrdə böyüyən yeniyetmələr arasında depressiya və bununla əlaqədar suisid halları geniş yayılmışdır. Yeniyetməlik yaş dövrü öz emosional qarışıqlıqları ilə çətin bir dövrdür. Belə bir dövrdə yeniyetmələrə ailə dəstəyinin olmaması onların vəziyyətini daha da çətinləşdirir.

Suisidlərin ilk təsnifatlarından biri fransız sosioloq Emil Dürkheymə məxsusdur. O sosial faktorların rolunu əsas götürərək intiharın üç formasını ayırd etmişdir:

1. Eqoistik suisid - öz sosial qrupu ilə vəhdət hissini itirmiş və buna görə də ailəvi, dini, ictimai nəzarətə tabe olmayan şəxslər tərəfindən törədilir,
2. Anomik susid - sosial və siyasi dəyişikliklər dövründə cəmiyyətlə sosial inteqrasiyası pozulmuş şəxslərdə təsadüf edilir,

3. Altrustik suisid - öz həyatını sosial motivlər naminə qurban verən və bununla yüksək dərəcədə qrup identifikasiyasına malik şəxslərdə təsadüf edir.

Yeniyetmələrdə rast gəlinən əsasən sadə suisiddir ki, bu zaman həyatla hesablaşdığını düşünür. Suisidal davranışın bioloji aspektlərinə nəzər saldıqda məlum olur ki, suisid çox zaman bir ailənin üzvlərinin nəsildən-nəslə izləyə bilir. Tədqiqatçıların fikrincə intihar etmiş şəxslər yaxın qohumluğu olanlar arasında suisidal risk 4 dəfə artıqdır. Ailədəki suisidlərin təqlidi davranışla və ya irsən keçən xüsusi bioloji mexanizmlərlə bağlı olub olmaması alimlər arasında hələ də mübahisəlidir. Suisidal riskin qiymətləndirilməsi cədvəlinə nəzər yetirdikdə görə bilərik ki, uşaqlarda suisidal risk göstərici məhz yeniyetməlik yaş dövründə artır. Yeniyetməlik dövrünün insan şəxsiyyətinin ən böhranlı dövrü olduğunu nəzərə alsaq, bu yaş dövrünə düşən həyatı sınaqların artması, gərgin tədris prosesi, gələcək peşənin seçilməsi, əks cinslə ilk kontaktlar, sosial və əxlaqi əlaqələrin genişlənməsi, həmçinin alkoqol və narkotik vasitələrdən istifadə halları yeniyetmə şəxsiyyətinin inkişafına maneələr törədərək, intihar riskini də artırmış olur.

Hazırda bütün dünyanın mübarizə apardığı COVİD-19 böhranı XXI əsr təhsilinin özəlliklərini qabartmaqla onlayn təhsili zərurətə çevirdi. Əksər ölkələrin təhsil məkanında nisbətən arxa planda qalan onlayn təhsil koronavirus pandemiyasının yayılması nəticəsində ön plana keçdi və internet və digər KİV-lərdən istifadə zərurətə çevrildi. Əslində, müasir təhsil forması olan onlayn təhsil ənənəvi təhsilə dəstək xarakteri daşıyır. Eyni zamanda kritik situasiyalarda əsas təhsil forması kimi də çıxış edir. Bu halda internet resurslarından istifadə mütləq hal olduğu üçün təhsilalanların emal olunmamış məlumatlarla rastlaşmaq ehtimalları yüksəkdir. Bu zaman internet və digər KİV uşaq və yeniyetmələri müxtəlif risklərə məruz qoya bilər. İstər qəsdən, istərsə də düşünülmədən uşaq barədə qeyri-etik məlumatların, məsələn, zorakılığı əks etdirən şəkillərin, irqçi təbliğatın və ya pornoqrafiyanın nümayiş etdirilməsi də bir zorakılıq formasıdır. İnternet uşaqları pedofillərin təqiblərinə də məruz qoyur, hətta evdə belə. Məişət zorakılıqlarının səbəbi olan boşanmalar, valideynlər arasındakı anlaşılmamazlıqlar, valideynin uşağa qarşı olan zorakılığı yeni bir zorakılığa şərait yaradır. Məişət zorakılılğına məruz qalan uşaq və yeniyetmələrdə internet və KİV-lərə meyl güclənir. Bu baxımdan, mediada, elektron KİV-də yayımlanan bəzi proqramlar, verilişlər uşaqlar və yeniyetmələr arasında zorakılıq hallarının çoxalmasına gətirib çıxarır. 2006-cı ildə Avropa Şurasının Nazirlər Komitəsi uşaqların yeni informasiya və kommunikasiya mühitində hüquqları haqqında xüsusi tövsiyə qəbul etmişdir. İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 3-cü maddəsində deyilir: "Heç kəs işgəncəyə və qeyri-insani, ləyaqəti alçaldan rəftar və cəza növlərinə məruz qalmalı deyil". Bu fundamental hüququn təmin edilməsi və qorunması üçün Avropa Şurası zorakılığın bir çox aspektləri ilə məşğul olaraq, qanuni yollarla ictimaiyyətin diqqətini cəlb edərək xüsusi kampaniyalar (məsələn, insan alveri, gender əsaslı zorakılıq, uşaq əməyi, KİV-də zorakılıq mövzularında) həyata keçirir. (4)

**Ədəbiyyat siyahısı:**

1. Knapp, J. F. (1998). The impact on children witnessing violence. Pediatric Clinics of North America, 45, 355-363
2. Ирилова Н. А. Ценностные ориентации в структуре интегральной индивидуальности старших школьников// Вопросы психологии, 2000, № 4, С. 29-37.
3. Michon H. W., Weeghel V. J., Kroon H., Schene A. H. Illness selfmanagement assessment in psychiatric vocational rehabilitation // Psychiatric Rehabilitation Journal, 2011, №35(1), pp.21-76
4. http://www.eycb.coe.int/compasito/ru/pdf/Compasito%20RU%20FINAL%201sted2008.pdf

**Джала Фархадова**

**НЕГАТИВНОЕ ВЛИЯНИЕ ДОМАШНЕГО НАСИЛИЯ НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ**

**Резюме:** Домашнее насилие негативно сказывается на воспитании, психологии и формировании здорового мышления детей, растущих в семье. Дети, которые подвергались жестокому обращению или были свидетелями насилия в детстве, с большей вероятностью будут склонны к насилию, когда вырастут. Это негативно сказывается на их будущем поведении и психологии, а также на их формировании как здравомыслящего человека.

**Ключевые слова:** общество, личность, подросток, разработка, насилие

**Jala Farhadova**

**NEGATIVE EFFECTS OF DOMESTIC VIOLENCE ON PERSONALITY FORMATION**

**Summary:** Domestic violence has a negative impact on the upbringing, psychology and formation of a healthy mindset of children growing up in a family. Children who have been abused or witnessed violence in childhood are more likely to be prone to violence when they grow up. This has a negative impact on their future behavior, psychology, and the formation of a sane person manifesting itself in their behavior and psychology.

**Key words:** society, personality, adolescent, development, violence

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 29. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

**UOT:314:342.7.340.**

**Lalə Cəfərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail: laleceferova2017@gmail.com**

# MƏİŞƏT ZORAKILIĞINDA UŞAQ MÜDAFİƏSİNİN TƏŞKİLİ

**Xülasə:** Bu gün dünyanın bir çox ölkələrində məişət zorakılığı hallarına geniş rast gəlinir. Təəssüf ki, bu zorakılıq əsasən fiziki məhdudiyyətli, daha zəif, ahıl insanlara, qadın və uşaqlara qarşı yönəlikdir. Günümüzdə bu halların qarşısını almaq üçün həm öz, həm də digərlərinin hüquq və vəzifələrini daha dərindən öyrənməli, dövlətimizin qayda və qanunlarına əməl etməli, bir- birimizə qayğı və hörmətlə yanaşmalıyıq.

**Açar sözlər:** Məişət zorakılığı, uşaq, müdafiə, qanun.

Ailə zorakılığı ən çox görülən, çətin və travmatik həyat vəziyyətlərindən biridir. Bu, kompleks bir problemdir ki, nəticəsi həm fərdlər, həm də bütövlükdə cəmiyyət üçün çox ciddi ola bilər. Vətəndaşların ən həssas kateqoriyası məişət zorakılığına məruz qalır: qadınlar, uşaqlar, qocalar və əlillər. Bir çox mütəxəssislər məişət zorakılığının təkrarlanan olduğun bildirir. Xüsusilə uşaqlar böyüdükləri ailədə bu davranış modelini öyrənirlər və bunu öz həyatlarına köçürürlər.

İnsan Hüquqları komissarlarının ailələrdə yaşlıların istismar hallarının artmasını qeyd etməsi təsadüfi deyil. Zorakılığa qarşı konvensiyalar ona üzv olan dövlətlərdən "sosial və mədəni modelləri" dəyişdirməsini, zorakılığı ləğv etmək üçün kişi və qadınların bərabərhüquqlu cəmiyyətdə yaşamasını tələb edir. Qeyd etmək vacibdir ki, məişət zorakılığı probleminin həlli mütəxəssislər tərəfindən onun dinamikasını və xüsusiyyətlərini, şiddət qurbanlarına yardım prinsiplərini başa düşmək, həm də onlarla işləmək üçün təsirli metodlara sahib olmaqdan böyük dərəcədə asılıdır. Bu problemin dövlət sosial siyasətinin prioritetləri siyahısına daxil edilməsi həlli üçün ən vacib şərtdir.

Ailə zorakılığının əsas xüsusiyyətlərindən biri də müxtəlif şiddət növlərinin təkrarlanan bir hadisə olmasıdır. Bunların varlığı "məişət zorakılığı" və "münaqişə"ni fərqləndirən vacib bir göstəricidir. Belə ki, münaqişənin sonu vardır, lakin şiddət sistematikdir. Bundan əlavə, münaqişə həll edilə bilən bir problemə əsaslanır. Ailə şiddəti vəziyyətində bir adam davamlı olaraq başqa birini güc tətbiqi ilə idarə edir, bu isə psixoloji və ya fiziki zədələnməyə səbəb olur. Ailə zorakılığının psixoloji vəziyyəti ağırlaşdıran ikinci vacib xüsusiyyəti, təcavüzkarın və qurbanın yaxın insanlar olması ilə bağlıdır. Yad insan tərəfindən törədilən cinayətdən fərqli olaraq, ailə içi şiddət həyat yoldaşı və ya ortaq, keçmiş həyat yoldaşı, valideynlər, uşaqlar, digər qohumlar, kürəkən və digərləri tərəfindən həyata keçirilir.

Məişət zorakılığı sistematik olaraq təkrarlanan fiziki, psixoloji, cinsi, yaxınlara maddi təsir edən hərəkətlərdir, hansı ki, onlar üzərində nəzarəti əldə etmək üçün törədilmişdir. Araşdırmalara görə, məişət zorakılığının gender əsasları vardır. Bu səbəbdən məişət zorakılığının ən çox görülən qurbanları qadınlar və uşaqlardır. Tez - tez qəzet səhifələrində, televiziya ekranlarında və gündəlik həyatda biz uşaqlara qarşı qəddar rəftar, şiddət faktları ilə qarşılaşırıq. Siyasi, ideoloji və iqtisadi quruluşlarından asılı olmayaraq uşaq istismarının müxtəlif təzahürləri bütün ölkələrdə olub və bu günümüzdə də var.

Uşaqlara qarşı şiddət dərhal aradan qaldırılması tələb olunan ictimai bir fenomendir. Şiddət nəticəsində yaranan pozuntular həyatın bütün səviyyələrini əhatə edir: idrak sahəsi, psixoloji proseslər, fizioloji, somatik sağlamlıq. Onlarda cəmiyyətdə inkişaf və sosiallaşmalarına mane olan davamlı şəxsiyyət pozuntuları müşahidə edilir. Bir uşağa zərər vermək çox asandır. Şiddət hadisələrində uşaqların xüsusi həssaslığı onların fiziki, əqli və sosial yetişməməsi, həmçinin valideynlər, yetkinlərə, müəllimlərə münasibətdə asılı, tabe mövqedə olmaları ilə izah edilir. Əhalinin uşaq hüquqlarını qoruyan və təcavüzkarların cəzalandırılmasına zəmanət verən

qanunvericilik normaları barədə yetərli məlumatların olmaması da xüsusi rol oynayır. Uşaq istismarı və buna laqeydlik müxtəlif formalarda ola bilər, lakin bunun nəticəsi həmişə uşağın sağlamlığı, inkişafı və ictimailəşməsi, həyatı üçün ciddi bir təhlükə ilə yekunlaşır. Qeyd etmək lazımdır ki, uşaqlardan sui-istifadə sosial fenomen və elmi araşdırma mövzusu kimi bir sıra səbəblərdən öyrənilməsi çox çətindir. Uşaqların güclü emosional narahatlıqları və hadisənin iştirakçılarının subyektiv baxışları ilə onlara qarşı təcavüz faktını müəyyənləşdirmək bir mütəxəssis üçün çətindir. Şiddətli davranışın öyrənilməsinin başqa bir çətinliyi isə müasir psixoloji və sosial- pedaqoji ədəbiyyatda təcavüz fenomeninin birmənalı olmamasıdır.

İstismar ilk növbədə hökumətin bütün səviyyələrində həll edilən sosial bir problemdir. İstismara məruz qalan uşaqlara məsələnin həllində kömək etməkdə və profilaktikada təhsil müəssisələrinin mütəxəssislərinin işi xüsusi rol oynayır. Hər bir uşağın hüquqlarını tələb etmək, onu hər cür zorakılıqdan qorumaq, uğur qazanması üçün şərait yaratmaq əsasən biz böyüklərdən asılıdır.

Bu gün uşaqların valideynləri tərəfindən fiziki olaraq cəzalandırılması əksər ölkələrdə qanuni olaraq qalır. Amma hələ də tətbiq etməyə icazə verən Qərb ölkələrində şiddətə qarşı ciddi məhdudiyyətlər mövcuddur. Valideynlərin uşaqları fiziki cəzalandırılmasını qadağan edən ilk ölkə İsveç idi. Valideynlərin övladlarını vurmaq hüququ ilk dəfə 1966- cı ildə ləğv edildi və 1979- cu ilin iyulundan bəri qanunla açıq şəkildə qadağan edildi. Valideynlərin verdiyi fiziki cəza 2016-cı ildən bəri 51 ölkədə qadağan edilmişdir.

Uşaqların müdafiəsində valideynlərin vəzifələrini yerinə yetirməsi həm mənəvi, həm də qanuni bir şərtdir. Ailə uşağın inkişafı üçün optimal mühitdir, yəni bir ailədə yaşayıb böyümək. Digər bir hüquq valideynlərin övladlarına qayğı və təhsil vermək vəzifələridir. Müəyyən edilmiş vəzifələr yalnız ailə qanunvericiliyində deyil, həm də Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Valideynlər uşağın tərbiyəsində şəxsən iştirak etməlidirlər, çünki yalnız bu halda valideyn ilə övlad arasında sabit bir bağlılıq yaranır ki, bu da uşağın şəxsiyyətinin normal inkişafı üçün təməl rolunu oynayır.

Məişət zorakılığı hallarının qarşısının alınması üçün maarifləndirmə işinin gücləndirilməsi dövlətimizin daxili siyasətində bu gün ən mühüm prioritetlərdən biridir. Məişət zorakılığının qarşısının alınması - məişət zorakılığı təhlükəsinin aradan qaldırılması məqsədi ilə həyata keçirilən hüquqi, sosial və qabaqlayıcı tədbirlərdir. Qanunvericiliyə müvafiq olaraq məişət zorakılığının qarşısının alınmasını yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi həyata keçirir. Komitə müvafiq dövlət qurumları ilə birgə “Məişət zorakılığının qarşısının alınması ilə bağlı” 2016 - 2018-ci illər üçün tədbirlər planı çərçivəsində müvafiq işlər görüb.

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu: “Bu Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir”.

Qanunun 15-ci maddəsində məişət zorakılığının qarşısının alınması sahəsində sosial tədbirlərin həyata keçirilməsi formaları göstərilir. Uşaqların tərk edilməsi və dövlət sığınacaqlarında yerləşdirilməsi də şiddətin bir növüdür və bu cür müəssisələrdə böyüyən uşaqlar xüsusilə həssas hesab olunur. Tədqiqat nəticələri müəssisələrə köçürülən və ya həbsdə olan qızların oğlanlara nisbətən daha çox cinsi və fiziki istismara məruz qaldıqlarını göstərir.

Bu gün UNİCEF, uşaq istismarının qarşısını almaq və buna cavab vermək üçün tərəfdaşlarla işləyən ən böyük təşkilat kimi ailədaxili şiddəti, məktəb şiddətini, cəmiyyət şiddətini və onlayn şiddəti azaltmaq və bu gizli epidemiyanın sükutunu pozmaq məqsədi ilə bir çox proqramlar, layihələr həyata keçirir.

BMT-nin Baş Assambleyası tərəfindən UNICEF-ə uşaq hüquqlarının müdafiəsinə fəal dəstək vermək, uşaqların öz əsas ehtiyaclarını təmin etmələrinə kömək etmək və uşaqların öz potensiallarını tam şəkildə reallaşdıra bilmələri üçün onların imkanlarını genişləndirmək səlahiyyətləri verilmişdir.

UNICEF Uşaq Hüquqları haqqında Konvensiyanı rəhbər tutur və uşaqlarla davranış sahəsində etik prinsiplərin və beynəlxalq standartların davam etdirilməsi kimi, uşaq hüquqlarının formalaşdırılmasına çalışır.

UNICEF israrla bildirir ki, uşaqların yaşaması, müdafiəsi və inkişafı insanların inkişafı üçün olduqca vacib olan hərtərəfli inkişaf şərtləridir. Müasir dünyada uşaqları ailədə zorakılıq və təcavüzdən qorumaq problemi getdikcə aktuallaşır. Son vaxtlar uşaqların valideynləri tərəfindən öldürülməsi, ailədə fiziki və əqli, cinsi zorakılıq halları tez-tez baş verir. Çox vaxt uşaqlar yalnız valideynlərin alkoqoldan istifadə etdiyi ailələrdə deyil, firavan ailələrdə də cinayət əməllərinin qurbanı olurlar. Baxımsızlığın və yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınması sisteminin səlahiyyətliləri, lazımi qarşılıqlı əlaqənin olmaması səbəbindən bu cür ailələr və qorunmağa ehtiyacı olan uşaqlar haqqında məlumata sahib deyillər. Uşağın hüquqlarına riayət olunmasının digər bir təminatı, təşkilatların vəzifəli şəxslərinin, uşağın həyatı və ya sağlamlığı üçün təhlükə olduğunu bilən vətəndaşların, hüquqlarının və qanuni mənafelərinin pozulmasına dair bu barədə məlumat vermək məcburiyyətidir. Uşağın olduğu yerdə qəyyumluq orqanı bu məlumatları aldıqdan sonra uşağın hüquqlarını və qanuni maraqlarını qorumaq üçün lazımi tədbirləri görməyə borcludur.

Uşaqların qorunmasında məsuliyyət tədbiri olaraq digər əsas məhkəmə qərarı ilə uşaqlara sərt münasibətdə valideynlik hüquqlarından məhrum edilməsidir. Valideynlik hüququndan məhrumetmənin əsas səbəblərindən biri valideynlik hüquqlarından sui-istifadə, uşaqlara qarşı fiziki və mənəvi zorakılıq da daxil olmaqla qəddar rəftar, cinsi toxunulmazlıq cəhdi, uşaqların həyatı və sağlamlığına qarşı qəsdən bir cinayətin törədilməsidir.

Qanuna uyğun olaraq, məhkəmə, davranışlarına görə uşağın valideynləri ilə qalması təhlükəlidirsə, valideynlik hüquqlarının məhdudlaşdırılması barədə qərar vermək hüququna malikdir. Lakin onları valideynlik hüquqlarından məhrum etmək üçün kifayət qədər əsaslar müəyyən edilməyibsə və valideynlər davranışlarını dəyişdirməzlərsə, qəyyumluq orqanı məhkəmə tərəfindən valideynlik hüquqlarının məhdudlaşdırılması barədə qərar çıxardıqdan 6 ay sonra valideynlik hüququndan məhrum edilməsi üçün məhkəməyə iddia qaldırmaq məcburiyyətindədir. Uşağın maraqları və həyat təhlükəsizliyi naminə belə bir iddia göstərilən müddət bitmədən irəli sürülə bilər. Hüquqlarından məhrum olan valideynlər, uşaqla münasibət faktı əsasında bütün hüquqlarını itirirlər. Eyni zamanda, valideyn hüquqlarından məhrumetmə və məhdudlaşdırma onları uşaqlarını təmin etmək öhdəliklərindən azad etmir.

Bir uşaq üçün ən yaxşı müdafiə, istismara məruz qalan valideynə kömək etməkdir. Ailə şiddəti mühitində yaşayan bir uşağı tanıdıqda və ya həyat yoldaşı tərəfindən döyülən bir qadın haqqında öyrəndikdə məsləhətləşmək və müəyyən bir vəziyyətdə kömək etmək mütləqdir.

Aparılan araşdırmalar sübut edib ki, uşaqlara birbaşa deyil, hətta dolayı yolla da edilən şiddət-ananın döyülməsi, evdə qışqırıqlar, digər bacı və ya qardaşlara edilən zorakılıq halları da onların psixoloji pozğunluğuna, cəmiyyətdə özlərinə yer tapmamaqlarına səbəb olur. Çox vaxt bu hadisələrin qurbanı olan uşaqlar ailədaxili şiddət və işgəncəyə görə özlərini günahkar hiss edirlər. Evdəki vəziyyətdən danışmaqdan çəkinirlər, çünki valideynlərinin nüfuzundan narahatdırlar, utanırlar, yaşadıqlarını sözlə ifadə edə bilmirlər. Bu cür hallarda mütləq şəkildə uşağın təhsil aldığı bağça, məktəb heyəti, müəllim ona düzgün yanaşmalı və bu barədə aidiyyatı orqanlara məlumat verməlidirlər.

Ailə zorakılığı hallarının qarşısının alınmasında iş, ilk növbədə, kütləvi informasiya vasitələrindən istifadəni əhatə edən icma maarifləndirmə kampaniyaları, məlumat paketləri, broşuralar və videoların yayımlanması yolu və uşaqlar üçün məktəb proqramları kimi ibtidai profilaktika proqramlarını əhatə edir. Ailə zorakılığından təsirlənən uşaqların ehtiyaclarını həll

etmək üçün məktəb proqramlarında uşaqların müxtəlif inkişaf mərhələlərini təmin etmək lazımdır. Məsələn, hazırda ABŞ-ın bir çox bölgəsində istifadə olunan Perry Məktəbəqədər Proqramı, müsbət rol modellərini, alternativ münaqişələrin həll strategiyalarının tədrisini və kooperativ oyununu vurğulayan məktəbəqədər tədris proqramına əsaslanır.

Dünya ölkələrində uşaq müdafiəsinə yönəlik fəaliyyət göstərən qurumlar bir çox hədəflər hazırlamışlar:

- Zorakılığa məruz qalan uşaqların bunu açıqlamağa və təhlükəsiz, zorakılıq olmayan əlaqələr qurma qabiliyyətini artırmağa imkan vermək. Valideynlər arasında məişət zorakılığının övladları üzərindəki təsiri barədə məlumatlılığı artırmaq və uşaqlarına qarşı zorakı olmayan, tərbiyəli münasibətlər inkişaf etdirməyə dəstək olmaq. Hazırkı vəziyyəti yaxşılaşdırmaq üçün uşaqların müdafiəsinə xidmət göstərən şəxslər arasında bilik və bacarıq səviyyəsini yüksəltmək. Maddi və psixoloji ehtiyaclarına cavab vermək. Uşaqlar və məişət zorakılığı mövzusunda cəmiyyətin fikirlərini öyrənmək, suallarını cavablandırmaq və bu istiqamətdə maarifləndirmə işinin artırılmasını təmin etmək.

**Ədəbiyyat siyahısı:**

1. http://www.scfwca.gov.az/
2. http://www.e-qanun.az/framework/3292
3. Domestic Violence and its Role in Child Welfare By Jené Toussaint
4. Домашнее насилие: социально-правовой аспект методическое пособие
5. https://www.unicef.org/azerbaijan/az/unicef-missiyas%C4%B1

**Лала Джафарова**

**ОРГАНИЗАЦИЯ ЗАЩИТЫ ДЕТЕЙ ОТ ДОМАШНЕГО НАСИЛИЯ**

**Резюме:** Сегодня во многих странах мира широко распространены случаи домашнего насилия. К сожалению, это насилие в основном направлено против лиц с ограниченными физическими возможностями, слабых, пожилых людей, женщин и детей. Чтобы избежать этих ситуаций в наши дни, мы должны глубже изучать права и обязанности как своих, так и других, соблюдать правила и законы нашего государства, относиться друг к другу с заботой и уважением.

**Ключевые слова:** домашнее насилие, дети, защита, закон

**Lala Jafarova**

**ORGANIZATION OF CHILD PROTECTION IN DOMESTIC VIOLENCE**

**Summary:** Domestic violence is widespread in many parts of the world today. Unfortunately, this violence is mainly directed at the physically challenged, the weaker, the elderly, women and children. Today, in order to prevent this, we must learn more about the rights and responsibilities of both ourselves and others, follow the rules and laws of our state, and treat each other with care and respect.

**Key words:** Domestic violence, children, protection, law

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:31:314:340:371.**

**Nübar Bayramova**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Quba filialı**
**Dissertant**
**E-mail: nubar.bayramova.78@mail.ru**

# UŞAQLARA QARŞI TÖRƏDİLƏN CƏZALARIN NÖVLƏRİ VƏ MULTİKULTURAL SOSİAL SƏRİŞTƏ

**Xülasə:** Bu dünyaya saf və köməksiz gələn uşaq valideynlərin köməyi olmadan tam inkişaf etmək iqtidarında deyil. Valideynlik isə yalnız övladı ilə təkcə bioloji və emosional yaxınlıqla məhdudlaşmır. Səriştəli valideyn anlayır ki, o, öz övladını yalnız ailəsi üçün deyil, ümumilikdə cəmiyyət üçün yetişdirməyə borcludur. Uşaq bağçaya daxil olana kimi rəsmi təhsil prosesi başlamadığından uşağın təlim və tərbiyəsi birmənalı valideynin öhdəliyindədir.

**Açar sözlər:** Valideyn, cəza, sosial səriştə, zorakılıq, damğalamaq, emosional cəza, gərginlik

Bilirik ki, uşaqlar dünyaya xüsusi təlimatla gəlmirlər. Hər birinin fərqli psixologiyası, temperament tipi, intellekti, düşüncə tərzi və bir-birindən kəskin fərqlənən xarakteri olur. Xüsusilə sonuncu cəhət ailədə rəngarəng mühitin və müxtəlif təbəqələşmələrin yaranmasına gətirib çıxardır. Nəzərə alsaq ki, uşaqlar özünəməxsus cəhətləri ilə unikal olub, heç də hər zaman valideynlərin istədiyi kimi davranmırlar. Valideynlər isə onlar üçün hər şeyin yaxşısını arzuladığı kimi, onların özgüvənlərini də qorumalı, özlərinə və ətraflarına hörmətlərini artırmağa təşviq etməlidir. Uşaqlar daşıdıqları genlər və malik olduqları şəxsi və psixoloji ehtiyaclar səbəbindən müxtəlif cür davranır və öyrənirlər.{1}Uşaqların pis davranmalarına səbəb olan faktlardan biri də onların ehtiyaclarının tam təmin edilməməsidir. Əslində onların davranışlarının nədən qaynaqlandığını araşdırdıqda, mənfi davranışlarının nəinki qarşısını ala, hətta müsbət istiqamətə yönəltmək də mümkün ola bilir. Lakin valideynlərin bəzən "nizam-intizam" anlayışı ilə "cəza" anlayışlarının fərqləndirə bilməməsi vəziyyəti gərginləşdirərək xoşagəlməz hadisələrin baş verməsinə gətirib çıxardır.

Bəs ümumiyyətlə cəza nədir və nə üçün hələ də bu termin günümüzün aktual problemi kimi işlədilir? – *Cəza bir kəsin qayda qanunları pozduğu halda tətbiq olunan bir vasitədir.*{2} Çox zaman uşaqlara üç növ cəza forması tətbiq olunur:

1. Şifahi cəzalandırma: bu qınaq, etiraz formasında aparılır;
2. Cismani cəzalandırma: şiddətli şəkildə fiziki və cismani cəza formasında ifadə edilir.
3. Emosional cəzalandırma

Çox təəssüflər olsun ki, hər üç formadan bu gün də ailələrdə geniş istifadə edilir və uşaqlarda olan davranış pozuntularının aradan qaldırılmasına çox cüzi təsir etməklə yanaşı, gələcəkdə daha ağır fəsadlara gətirib çıxarda bilir. Bu uşaqlarda psixoloji olaraq böyüklərin üstün olduqları fikrini təlqin edərək, fiziki güc ilə özündən kiçik və zəif olanlar üzərində üstünlüyə sahib olmanın müsbət və səmərəli bir fikir olduğunu aşılayır. Həmçinin cəza uşaqların özgüvən hissinin azalması, iddia səviyyəsinin aşağı düşməsi ilə yanaşı, özündən böyüklərə nifrət, qorxu, qəzəb, əsəb və hiddət kimi hisslər formalaşdırır. Bütün bunlar uşaq və yaşlılar arasında problemləri günü-gündən artırır, dərinləşdirir. Əslində valideynlər bəzi davranışların cəza tipli olmasını və verəcəyi fəsadları tam dərk edə bilmir, bunun uşağın xeyrinə atılmış addım kimi qələmə verir, özlərini haqlı çıxardırlar. Ona görə də hər üç cəza formasını daha geniş araşdırmağa ehtiyac duyulur.

*Şifahi cəzalandırma nədir?* Bu uşaqların neqativ hallarına iradların bildirilməsində ən çox istifadə edilən cəza üsuludur. Bəzən yaşlılar cismani cəzaların verilməsindən yayınmaq üçün bir

vasitə kimi daha alçaldıcı ifadələrin işlədilməsini çıxış yolu kimi qəbul edirlər. Daha çox işlədilən ifadələrdən:

- Bu sətri 50 dəfə yazmamış yerindən tərpənmə;
- Bu tərzinlə sən hər zaman uğursuz olacaqsan;
- Oxumağı nə vaxt öyrənəcəksən;
- Səndən oxuyan olan deyil;
- Sən kütsən, fərsizsən və s.

Bu kimi cümlələrlə valideyn öz əsəblərini sakitləşdirir, mənfi emosiyalarını boşaldır və uşağa psixoloji təsir göstərir. Lakin bu psixoloji təsirin gələcəkdə onda yaradacağı fəsadları qətiyyən nəzərə almır. Bəzən valideynlər daha fərqli strategiyalardan da istifadə edir. Məsələn, mən indi çox əsəbiyəm, sonra sənə fikrimi bildirəcəm və yaxud, evdən çıxıb kənarada özünü sakitləşdirməyə çalışır. Bir başqa tip valideynlər isə onları əsəbiləşdirən situasiyanın səbəblərini uşaqlara sakitcə açıqlayaraq, sadəcə olaraq öz hisslərini onlarla bölüşür, mövcud vəziyyətin nəticələrini əvvəlcədən onlara izah edir. Düzgün verilmiş izahat situasiyada uşaqları öz vəziyyətini nəinki daha dərindən düşünməyə, hətta doğru qərarlar qəbul etməyə təşviq edir. Ailədə valideynin yol verdiyi xətalardan biri də öz övladını müəyyən əlamət və xüsusiyyətlərinə görə nişanlamasıdır. Bəzən ailələrdə hər hansı bir cəhətinə görə əlilliyi olan uşaqlara rast gəlinir. Bu zaman belə uşaqlara qarşı xüsusi həssas yanaşma sərgiləməli, onların əlamətlərini üzə vurmamalı, yaxud digərlərindən fərqli olaraq çətinlik çəkə biləcəyi işləri etməyə məcbur edərək əlillik cəhətlərini daha da önə çıxardacaq tapşırıqlardan çəkinməlidir. Valideynlər ünsiyyət zamanı şikəst, invalid, dördgöz, kor, debil, anormal, lal, dəli, xəstə, qüsurlu, autist, əlil, kar, fiziki və yaxud əqli qüsurlu, daun və s. kimi ifadələrlə onları nəinki damğalıyır, onların bütün potensial inkişafını və özünəinam hissini təhlükə altına alır. Nəticədə bu cür ifadələr ailədə ümumişlək sözlərə çevrilir və belə uşaqların nəinki ailədə, hətta məktəbdə yaşıdları arasında, gələcək həyatında da ömürlük damğalanmasına səbəb olur, sanki belə damğalar onlarının həyatının möhürünə çevrilir. Bu təkcə şifahi cəzalandırma deyil, həm də uşaqların alçaldılması və təhqirolunması hesab olunur. Bu kimi hallar sonralar uşağın təlim göstəricilərini aşağı salır, ümumən həyatını uçuruma məruz qoyur. Maraqlısı da ondadır ki, bəzən valideynlər bunun heç fərqinə də varmır, belə bir ciddi məqamın üstündən əhəmiyyət vermədən keçirlər.

*Bəs belə halların yaranmasının qarşısını necə almalı?* İlk addım kimi onlarla ünsiyyət üslublarına diqqət yetirmək, düzgün ifadələrdən istifadə etmək lazımdır. Məsələn; Daun sözünün əvəzinə *daun sindromlu şəxs,* kar, kor, lal ifadələrinin əvəzinə *eşitmə əliliyi olan şəxs, eşitmə qabiliyyəti zəif olan və ya olmayan şəxs, görmə əlilliyi olan şəxs, görmə qabiliyyəti zəif və ya olmayan şəxs, nitq əliliyi olan şəxs, nitq məhdudiyyəti olan şəxs* kimi ifadələri işlətmək olar

Valideyn və uşaq arasında uçurumun yaranmasına və gələcəkdə cəzalandırma üsullarına əl atmasına vadar edən nüanslardan biri də daima özlərindən qeyri-ixtiyari olaraq əmrlərlə danışmasına səbəb olur. Onsuz da ailədə vaxtaşırı cəzalara məruz qalan uşağın üzləşdiyi problemlər onun vəziyyətini daha da ağırlaşdırır, psixoloji gərginliyini artırır. Əgər dərindən düşünsək, hər bir valideyn övladlarına gün ərzində əmrlər verməklə onları psixoloji olaraq bezdirmiş olur. Onu da qeyd edək ki, təkrarlanan əmrlər getdikcə fayda vermir, uşaqlar üçün adiləşir və son nəticədə əksinə, valideynin ailədəki nüfuzunun zəifləməsinə gətirib çıxardır. Valideynlərin ən çox istifadə etdiyi əmrlərə: “Bərkdən danışma”; “Qaçma”, “Etmə”, “Mənə arxanı çevirmə”, “Qapını çırpma” və sairə misal çəkə bilərik. Əslində siz özünüz də çox əmr verib verməməyinizi sadə təcrübə ilə yoxlaya bilərsiniz. Uşaqlardan birinə içi xırda daşlarla dolu bir kisəni verərək, mən hər dəfə əmr verəndə daşlardan birini at deyə tapşırıq verin. Həftə sonu torbaya nəzər yetirsəniz ümumən vəziyyətin necə olduğu haqda özünüz nəticə çıxardacaqsınız.

Bəs sual olunur ki, belə məqamlarda nə cür davranılmalıdır? Bəzən *Qaçma* əmrinin əvəzinə *Yeri* ifadəsi daha böyük psixoloji təsir gücünə malik olur. Müsbət nəticəni almaq üçün qəti qaydalar qoymaq əvəzinə daha çox onların nəticələrini izah etmək lazımdır Məsələn, çəkdiyimiz misalda, *əgər otaqda qaçsan, stula ilişərək yıxıla bilərsən, nəticədə ayağın zədələnə*

*və həkimə getməli olarsan.* Hansı ki, hadisələrə bu cür yanaşmanız sizin öz əsəblərinizi qorumaqla bərabər, əlavə problemlərdən də uzaqlaşdırmış olacaqdır.

Şifahi cəzalandırma üsulları valideyn və uşaq münasibətlərini kəskinləşdirməklə yanaşı, həm də onların cismani cəzalara keçid yaradır. Valideynin ünsiyyət zamanı seçmiş olduğu hər bir cümlə onunla uşaq arasındakı münasibətləri tənzimləməklə bərabər, gələcəkdəki psixoloji portretinin formalaşmasında da böyük əhəmiyyət daşıyır.

Çox təəssüflər olsun ki, bəzən valideynlərimiz öz tərbiyə üslublarında cismani cəzalara da üstünlük verir və bəzən bunu vərdiş halına gətirirlər. Ən pisi də bu yanaşmaya get-gedə uşaqlar elə vərdiş olur ki, sanki cəza almanı bir qayda hesab edir, öz yaşıdları ilə ünsiyyətlərində bu üsuldan istifadə edirlər. Cismani cəzanın tətbiqi böyüklərə bəzən sərgilənən davranış pozuntularının gələcəkdə təkrarlanmamasına əmin olmaq üçün qısa və rahat çıxış yolu kimi görsənir. Yəni xoşagəlməz hadisələrin yenidən baş verməməsi üçün sanki hədələyici bir vasitədir.{3} Uşaqlara qarşı rast gəlinən cismani cəzalandırma növlərinə aşağıdakıları misal çəkmək olar:

- Uşaqları əl və yaxud hər hansı əşya ilə vurmaq, zədə yetirmək;
- Uşağı itələmək;
- Təpikləmək;
- Çimdikləmək;
- Ağır fiziki iş görməyə məcbur etmək;
- Ayaq üstə narahat vəziyyətdə dayanmağa məcbur qoymaq;
- Ətraflarına yandırıcı əşya ilə təzyiq göstərmək;
- İyrənc və yaxud xoşlamadığı qidaları yeməyə məcbur etmək;
- Uzun müddət küncdə saxlamaq və sairə.

Çox zaman tətbiq olunan cismani cəzalar alçaldıcı ifadələrlə də müşahidə olunur. Yaşlılar bu prosesi ictimailəşdirməklə bəzən psixoloji təsiri artırmaq niyyətində olur. Xüsusilə bu prosesi uşaqların yaşıdlarına nümayiş etdirərək guya profilaktik tədbirlər görürlər ki, digərlərinin analoji hərəkətlərini qabaqlamağa çalışsınlar. Dostları qarşısında cismani və şifahi cəzalar alan uşaqların nüfuzu zədələnir, özgüvənləri zəifləməsinə səbəb olur.

Cismani cəzalandırma hədə, qışqırıq, sarkazm, lağa qoyma ilə müşaiyyət olunduqda bu artıq *emosional cəzalandırma* adlanır. Əslində emosional və cismani cəzalandırmanın arasında elə də kəskin fərq qoyulmur. Uşaqlar cismani cəzalandırmanı alçaldıcı emosional cəzalandırma kimi qəbul edirlər.{4} Valideynlərin yanaşma tərzindəki ən böyük yanlışlıqları cəzalardan sonra uşaqların qorxu üzərində qurulan hər hansısa, qısa müddətli uğurlarına haqq qazandırmalarıdır. İntihar hallarının qaynaqları araşdırılarkən ailədə baş verən zorakılıq hallarının az əhəmiyyət daşımadığı məlum olmuşdur. Təbii ki, məktəbin praktik psixoloqu bu situasiyalarda valideynləri yalnız qoymamalıdır. Xüsusən də, məktəbin praktik psixoloqunun profilaktik olaraq *məktəbdə uşaqlara qarşı zorakılıq halları* mövzusunda valideynlərlə təşkil edəcəyi psixoloji maarifləndirmə tədbirləri belə halların erkən olaraq qarşısının alınmasında və fəsadlarının tez aradan qaldırılmasında xüsusi əhəmiyyət daşıyır.

*Bəs cəza üsullarını tətbiq etmədən keyfiyyətli, səmərəli tərbiyə prosesinə və sağlam valideyn-övlad münasibətlərinə necə nail ola bilərlər? Yaxud hansı davranış üslubları sayəsində cəzalara ehtiyac qalmayacaq?*

Ailədə valideynlərin pozitiv nizam-intizam yarada bilməsi bir çox problemlərin həlli yolunun tapmasında və bəzən də qaynağından həll edilməsində effektivdir. Pozitiv nizam-intizam həm müsbət sosial münasibətlərin tənzimlənməsində və həm də uşaqlarda müsbət özünəhörmət hissinin formalaşmasında əhəmiyyətlidir. Bu baxımdan bəzi strategiyaları diqqətə almaq olar:

- Tez-tez pozitiv fikirlərdən istifadə etmək;
- Uşaqlara seçim imkanları yaratmaq;

- Arzu olunan davranış formalarını sərgilətmək üçün mükafatlandırma sistemi yaratmaq;
- Onların fikirlərinə diqqətlə qulaq asmaqla onlarda *diqqətlə qulaq asmaq mədəniyyəti* formalaşdırmaq;
- Şəraiti uşaqlara yönəlik tez-tez dəyişdirməklə, onları yaranmış olan daimi bezdirici mühitdən uzaqlaşdırmaq;
- Situasiyaya uyğun bədən dilindən istifadə etmək;
- Düzgün davranış ilə pis davranışın nəticələrini onlara səmimi formada izah etmək;
- Lazım gəldikdə yumor hissindən istifadə etmək və s.

Valideyni uşaqlara qarşı zorakılıqdan çəkindirmək üçün ən əsas cəhətlərindən biri də *valideynin sosial səriştəyə* sahib ola bilməsidir. Sosial səriştələr ölkənin mədəniyyət və dəyərlərində sosial tapşırıq və nəticələri əldə etmək üçün düşüncələri, hissləri, duyğuları və davranışları inteqrasiya etmək bacarığıdır.{5}Bu sahədə valideynə aşağıdakı sosial səriştələr lazımdır:

- Başqaları ilə qarşılıqlı əlaqə yarada bilmək istəyi;
- Müxtəlif sosial bacarıqlara sahib olub, lazım gəldikdə onlardan harada və necə səmərəli istifadə edə bilmək bacarığı;
- Dəyişkənliklərə rahatlıqla və tez adaptasiya qabiliyyəti;
- Hər zaman effektiv alternativ variantların olması.

Məhz sosial səriştələr müəyyən sosial hədəflərə nail olmaqda valideynin yardımçısı ola bilir.

Deyilənləri ümumiləşdirsək, valideynin sahib olacağı multikultural dəyərlər, problemlərə tolerant yanaşması bu məsələlərin həllində ona yardımçı ola biləcəkdir: uşaqlara öyrənmək və sosial davranışlarını nümayiş etdirmək üçün həvəsləndirici imkanlar yaratmaqla gələcəkdə baş verə biləcək bir çox zorakılıq hallarını önləyə, onlarda sağlam şəxsi intizam hissini aşılaya bilərik. Təbii ki, bu, strategiyalara tərbiyə prosesinin ilk günündən etibarən təxirəsalınmaz şəkildə əməl edilməlidir. Valideynlər həm övladları, həm də özləri üçün yüksək davranış gözləntiləri müəyyənləşdirməli, ailə mühitinin onlar üçün rahat, xoşagələn və cəlbedici məkana çevrilməsinə çalışmalıdırlar. Uşaqlara hörmətli münasibət bəsləyərək, proseslərə pozitiv yanaşmaq, hətta qəsdən edilən itaətsizliyi belə şəxsi qəbul etməmək, uşaqlara münasibət sərgiləyərkən təkcə düzgünlüyü deyil, həm də səyləri qiymətləndirmək, onlara səy və çalışmalarını gördüyünüzü, məmnun qaldığınızı və ən əsası da bacarıqlarına inandığınızı göstərmək çox vacibdir. Unutmayın ki, onlar kiçik adam deyil, sadəcə uşaqdırlar.

**Ədəbiyyat siyahısı:**

1. UNESCO "Booklet 4; Creatinq İnklusive, Learning-Friendly Classrooms", Embracing Diversity: Toolkit for Creating İnklusive, Learning-Friendly Environments. Bangkok, 2004.
2. İnklüziv və öyrənmə üçün əlverişli sinifdə pozitiv nizam-intizam, Xüsusi kitabça 1, Müəllim və təhsil mütəxəssisləri üçün bələdçi, 2020.
3. Durrant, Joan E. "Corporal Punishment: Prevalence, Predictors and İmplications for Child Development" in Hart, Stuart N, Eliminating Corporal Punishment: The Way Forward to Constructive Child Discipline. Paris: ÜNESCO Publishing, 2005
4. Ending Corporal Punishment of Children in Zambia. Save the Children Sweden, Regional Office for Southern Africa, Arcadia, 2005.
5. İnklüziv təhsil, T.Loreman, J.Deppeler, D.Harvey, 2020

**Нубар Байрамова**

## ВИДЫ НАКАЗАНИЯ В ОТНОШЕНИИ ДЕТЕЙ И МУЛЬТИКУЛЬТУРНОЕ СОЦИАЛЬНОЕ ОТНОШЕНИЕ

**Резюме:** Ребенок, рожденный наивным и беспомощным, не может полноценно развиваться без помощи родителей. Однако родительство не ограничивается биологической и эмоциональной близостью с ребенком. Компетентный родитель понимает, что на нём лежит ответственность воспитывать ребенка не только для своей семьи, но и для общества в целом. Поскольку формальный образовательный процесс не начинается, пока ребенок не поступает в детский сад, ответственность за образование и воспитание ребенка, безусловно, лежит на родителях.

**Ключевые слова:** родитель, наказание, социальная компетентность, насилие, стигма, эмоциональное наказание, напряжение

**Nubar Bayramova**

## TYPES OF PUNISHMENT AGAINST CHILDREN AND SOCIAL MULTICULTURAL COMPETENCE

**Summary:** A child who comes into this world pure and helpless is not able to develop fully without the help of parents. Parenthood, however, is not limited to biological and emotional intimacy with the child. A competent parent understands that he has a responsibility to raise his child not only for his family but for society as a whole. Since the formal educational process does not begin until the child enters kindergarten, the education and upbringing of the child is clearly the responsibility of the parent.

**Key words:** Parent, punishment, social skills, violence, stigmatize, emotional punishment, tension

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Məftunə İsmayılova**

**UOT:31: 342.7:390.**

**Aynur Səfərli**
**DİN-nin Polis Akademiyası, polis leytenantı**
**Bakı Dövlət Universiteti**
**Doktorant**
**E-mail: seferli_1988@bk.ru**

## MƏİŞƏT ZORAKILIĞININ NÖVLƏRİ VƏ HƏLLİ YOLLARI

**Xülasə:** Zorakılıq insana psixoloji, sosial, iqtisadi təzyiqin tətbiq olunması və ya fikizi zərbənin vurulmasından ibarət olan nəzarət və əziyyət vasitəsidir. Acınacaqlı bir haldır ki, zorakılığın müxtəlif – fiziki, mənəvi, psixoloji, iqtisadi, seksual zorakılıq kimi növləri də yaranmışdır. Zorakılıq halları demək olar ki, bütün dünya ölkələrində çoxluq təşkil edir. Ən çox zorakılıq halları baş verən ölkə ABŞ, Kanada, İsrail, Avstraliya, Cənubi Afrikadır. Qadınlara qarşı zorakılıq dünya miqyaslı bir bəladır. O nə coğrafi sərhəd, nə də yaş həddi tanıyır və heç bir etnik və ya dini qrup bu bəladan sığortalanmamışdır. Məişət zorakılığı Azərbaycanda geniş yayılmış gender problemidir. Azərbaycanda məişət zorakılığına hələ də sosial yüklü və dövlət əhəmiyyətli bir problem kimi yanaşılmır. Məişət zorakılığının qarşısının alınmasında, zorakılıqla üzləşmiş qurbanların problemlərinin həll edilməsində və zorakı şəxslərin cəzalandırılmasında dövlətin birbaşa iştirakı qaçılmazdır.

**Açar sözlər:** məişət zorakılığı, fiziki zorakılıq, mənəvi zorakılıq, psixoloji zorakılıq, iqtisadi zorakılıq, seksual zorakılıq, fiziki şiddət, zorakı, qurban

Zorakılıq insana psixoloji, sosial, iqtisadi təzyiqin tətbiq olunması və ya fiziki zərbənin vurulmasından ibarət olan nəzarət və əziyyət vasitəsidir. Acınacaqlı bir haldır ki, zorakılığın müxtəlif – fiziki, mənəvi, psixoloji, iqtisadi, seksual zorakılıq kimi növləri də yaranmışdır. Fiziki zorakılıq - qarşı tərəfə fiziki cəhətdən zərərin toxunması deməkdir. Bura əsasən vurma, döymə, şilləmə, təpikləmə aiddir ki, bu da bədəndə müxtəlif xəsarətlərə yol aça bilər. Mənəvi zorakılıq - qarşı tərəfin daxili dünyasının dağılması, mənən zərər çəkməsidir. Psixoloji zorakılıq - insan psixikasının pozulmasına, hətta ölümə belə səbəb ola bilər. İqtisadi zorakılıq - qarşı tərəfin iqtisadi və maddi imkanlarına zərər vurulmasıdır. Seksual zorakılıq - qarşı tərəfin razılığı olmadan onu cinsi əlaqəyə təhrik etməkdir. Bu zorakılıqların baş verməsinin əsas səbəbi, insanın cəmiyyətdə hüquqlarını bilməməsi və laqeyd yanaşmasıdır. Qadın hüquqlarının tapdalanmasına qarşı bir çox qanunlar mövcuddur. 1979-cu ildə BMT qadınlara qarşı zorakılığın aradan qaldırılması, hər cür ayrı-seçkiliyin aradan qaldırılmasına aid Konvensiya qəbul etmişdir. 1981-ci ildə bu Konvensiyaya 21, bu günə kimi isə 181 ölkə daxil olmuşdur. 1995-ci ildə isə Azərbaycan ratifikasiya olunduğu, 30 maddədən ibarət bu konvensiyanın 10 maddəsi qadın hüquqlarına aiddir. Zorakılıq halları demək olar ki, bütün dünya ölkələrində çoxluq təşkil edir. Aparılan bir çox araşdırmalar nəticəsində məlum olmuşdur ki, hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalmışdır, hər 3 dəqiqədən bir ən azı bir qadın öldürülür. Dünyada hər 5 qadından 1-i ömrü boyu seksual zorakılığın və ona cəhdin qurbanı olur. Hər il dünyada 3-4 milyon qadın öz həyat yoldaşı tərəfindən döyülür. Məişət zorakılığının 95% qurbanı qadınlar olur və hadisələrin 80%-i kişilər tərəfindən törədilir. Qazaxıstanda hər 3 qadından biri zorakılığa məruz qalır. ABŞ-da hər gün 11 qadın ailə zorakılığı nəticəsində ölür. Ən çox zorakılıq halları baş verən ölkə ABŞ, Kanada, İsrail, Avstraliya, Cənubi Afrikadır. Bu ölkələrdə qadınların 40-70 % -i öz partnyorları tərəfindən öldürülür (3, s.4).

Son zamanlar cəmiyyətin normal inkişafına mane olan fenomenal bir məsələ olan məişət zorakılığı haqqında tez-tez eşitməyə başlamışıq. Tədqiqatçıların bu problemə xüsusi diqqət ayırmasının səbəbi XX əsrin sonu, XXI əsrin əvvəllərində sosial-tarixi vəziyyətdəki rəngarəngliklə əlaqədardır. Belə ki, XX əsr tarixə ən böyük kəşflər əsri kimi daxil olmaqla yanaşı öz eybəcərlikləri ilə də yadda qalan bir dövr oldu. Məhz bu əsrdə bəşəri cinayətlər,

müharibələr və onlardan kütləvi zərərçəkənlər, terrorlar, totalitar rejimlər, özünə qəsdlər, insanlarda soyuqqanlılıq və biganəlik kimi keyfiyyətlər daha intensiv xarakter aldı. Güclünün zəif üzərində hakimiyyətini zorakılıq yolu ilə əldə etməsi, eləcə də şərin xeyir üzərində qələbəsi bu əsrin fenomenal xüsusiyyəti kimi XXI əsrə miras olaraq ötürüldü. Ümumilikdə zorakılıq termini başqalarına münasibətdə müxtəlif məcburetmə formalarının tətbiq edilməsi kimi başa düşülür. Bu mövzunun araşdırması ilə məşğul olan ekspertlərin fikirinə əsasən, məişət zorakılığı dedikdə, beynəlxalq termin kimi ailədaxili zorakılıq başa düşülür. Yəni, bu bir ailə üzvünün digər ailə üzvünü öz nəzarəti altında saxlamaq istəyidir. Bu xüsusən keçmiş patriarxal adət-ənənələrin qaldığı, üstünlük təşkil etdiyi regionlarda daha qabarıq şəkildə müşahidə olunur. Qadınlara qarşı zorakılıq dünya miqyaslı bir bəladır. O nə coğrafi sərhəd, nə də yaş həddi tanıyır və heç bir etnik və ya dini qrup bu bəladan sığortalanmamışdır. Qadınlara və qızlara qarşı zorakılıq insanlığın ən utancverici insan haqları pozuntusu halıdır. Qadınlara qarşı zorakılıq cəmiyyətdə qadınlara və kişilərə fərqli yanaşmadan irəli gəlir. Qadınlara qarşı zorakılığın qarşısının alınması müasir dövrün mühüm məsələlərindəndir. Bu gün ölkəmizdə qadın hüquqlarının təminatını bir sıra yerli və beynəlxalq qanunvericilik təmin edir. 1995-ci ildə Azərbaycan BMT- nin "Qadınlara Qarşı Ayrı Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında" Konvensiyasına (CEDAW) qoşuldu. 10 oktyabr 2006-cı il tarixində Azərbaycan Respublikasının "Gender bərabərliyinin təminatları haqqında" Qanunu qəbul edildi. (3, s.6). Qanunun mühüm cəhəti həm keçmişdə, həm də indi qadınların insan hüquqlarından və fundamental azadlıqlarından istifadə etmələrinə mane olan, onlara qarşı müəyyən kök salmış ayrı-seçkiliyin təzahürlərinin tanıdılıb ortaya qoyulmasıdır. Bu qanuna görə hüquqi, təşkilati və digər mexanizmlər vasitəsilə dövlət kişi və qadınların idarəçilikdə və qərar qəbuletmədə bərabər təmsilçiliyə, bərabər imkanların yaradılmasına, gender bərabərliyinin təmin edilməsinə və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir. Eyni zamanda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Müstəqil Azərbaycanda milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlib. Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. (3, s.8).

Bəzən gəlin-qayınana, gəlin-baldız arasında olan problemlər zorakılıq səviyyəsinə qədər gəlib çıxır. İki qadın bir-birini bağışlamaq istəmir və bir-birinə münasibətdə çox aqressiv olurlar. Mentalitet tabuları çox işlədilir və bu tabuların pozulmasında isə əsasən kişilər daha çox rol oynayır. Məhkəməyə müraciət etmək Azərbaycan qadınının əxlaqına xas deyil. Azərbaycanlılar üçün anadan müqəddəs heç nə yoxdur. Həyat yoldaşı namus timsalıdır. Qız ailəyə mülayimlik gətirir. Gəlin ailənin ən sevimli adamıdır. Bütün obrazlarda qadın bizim üçün əziz bir adamdır. Ayrı-ayrı istisnaların olması Azərbaycan üçün xarakterik deyil (2, s.5). Bu kimi düşüncələrin nəticəsidir ki, arvadını döyən ata gələcəkdə qızının əri tərəfindən döyülməsini normal qarşılayır.

Məişət zorakılığı ilə mübarizə sahəsində ən mühüm boşluqlardan biri faktlara əsaslanan informasiyanın yoxluğudur.

Məişət zorakılığı Azərbaycanda geniş yayılmış gender problemidir. Demək olar əksər ailələrdə məişət zorakılığı özünü müəyyən formalarda büruzə verir. Kimdəsə bu fiziki, cinsi şiddət, kimdəsə də psixoloji təzyiq və təcrid edilmə kimi formalarda müşahidə olunur. Bəs Azərbaycan cəmiyyətində müşahidə edilən məişət zorakılığı halları digər cəmiyyətlərdə baş verən zorakılıq halları ilə oxşardırmı? Məişət zorakılığı və ya ailədaxili şiddətə adətən arvad döymək, qadına qarşı şiddət, ailə üzvlərinin döyülməsi, ər-arvad arasında baş verən dava kimi adlar verilir. Məişət zorakılığının kliniki tərifi onun hüquqi tərifindən daha genişdir və buna görə də araşdırılması çox böyük əhəmiyyətə malikdir. Belə ki, məişət zorakılığı və ya şiddət törətmək seçimi daha çox davranışla səciyyəvi olan bir problemdir və bu problem adətən şəxsin uşaqlıq

vaxtında nə dərəcədə valideynlərinin bir-birinə qarşı zorakılıq törətdiklərinə şahidliyi ilə sonradan öyrənilən bir prosesə çevrilir (8, s.190). Məişət zorakılığının yaranmasında patriarxal dəyərlərin və güc ilə nəzarəti əldə etmək üçün zorakılıqdan istifadənin seçimi də ən başlıca səbəblərdən biridir.

Zorakı şəxs (zorakılıq törədən) və qurban (zorakılığa məruz qalan) arasında baş verən məişət zorakılığı cinsi yönümlülüyündən və genderindən, münasibətlərinin müddətindən, uşaqlarının olub-olmamasından asılı olmayaraq hal-hazırda və ya əvvəllər görüşmüş, birgə yaşayan, evli, yaxud da boşanmış və ya boşanandan sonra da birlikdə yaşayan şəxslər arasında yaşanır. Məişət zorakılığını digər ailədaxili zorakılıqlardan fərqləndirən əsas əlamət onun intim münasibətdə olan iki partnyor arasında baş verməsidir. Sadalanan zorakılıq halları ilə bir dəfə deyil, davamlı olaraq üzləşirlər və zorakılığın effekti münasibətin intim xarakteri ilə daha da kəskinləşir (13). Məişət zorakılığında zorakı şəxsin qurbana davamlı olaraq əli çatır, qurbanın gündəlik həyat tərzini bilir və davamlı olaraq qurbana fiziki şiddət törədir və onun gündəlik yaşamını öz idarəsi və nəzarəti altına sala bilir. Zorakı şəxsin qurbanla intim və ya partnyor münasibəti və eləcə də onunla bir evdə yaşaması ona bu imkanı verir və buna görə də məişət zorakılığında qurbanın zorakı şəxsi tərk etmək və canını qurtarmaq kimi şansları da çox az olur.

Şeçter və Qanlinin qeyd etdiklərinə görə məişət zorakılığı digər ailədaxili şiddət (uşaqlara qarşı törədilmiş şiddət, uşağın valideyninə qarşı törətdiyi şiddət, bacı-qardaş arasında baş verən şiddət halları və ailənin qoca və ya ahıl nümayəndələrinə qarşı törədilmiş şiddət) halları ilə oxşarlığı olmasına baxmayaraq, özünəməxsus xarakteristikası ilə fərqli bir kateqoriyaya aiddir. Belə ki, məişət zorakılığında hüquq və məsuliyyətdə bərabər olmalı olan iki gənc və ya iki yetkin şəxs bir-birinə qarşı güc və nəzarət tətbiq edir. Lakin hüquqi olaraq bunlardan heç birinin digərinə qayda qoymağa və ya biri digərini nəzarət altında saxlamağa haqqı yoxdur. Məişət zorakılığı bu bərabər hüquqlu insanların münasibətində həmin hüquqi bərabərliyin pozulması halıdır.

Məişət zorakılığının baş vermə formaları digər zorakılıq halları ilə demək olar ki, oxşarlıq təşkil edir. Hətta məişət zorakılığında zorakı şəxs tərəfindən istifadə edilən zorakılıq taktikalarını öyrənən tədqiqatçılar onun müharibə əsirlərinə qarşı törədilmiş zorakılıq taktikaları ilə oxşar olduğunu vurğulamışlar. Məişət zorakılığı müharibə əsirləri və ya məhbuslardan istənilən informasiyanı almaq və deyiləni yerinə yetirmək üçün istifadə edilən psixoloji və fiziki zorakılıqdan istifadə üsulları ilə oxşardır. Üstəlik, məişət zorakılığında işlədilən şiddət ona görə daha faciəvidir ki, burada zorakılığı qurbana ən yaxın insan - onun intim partnyoru törədir və buna görə də məişət zorakılığı daha qəliz və kompleks bir davranışdır.

Fiziki şiddət: Fiziki şiddətə kobudcasına qolundan tutub çəkmək, bədən ətraflarını burmaq, itələmək, vurmaq, cırmaqlamaq, dişləmək, nəfəs yollarını yüngül və ya dərindən əngəlləyəcək dərəcədə boğmaq, yumruqlamaq, silkələmək, sürümək, şaçlarını yolmaq, otaqda və ya hər hansı bir yerdə qapısı bağlı şəkildə saxlamaq, tüpürmək, şillə vurmaq, qurbana qarşı ev əşyaları və alətləri, bıçaq, tapanca kimi silahdan istifadə etmək aid edilə bilər. Məişət zorakılığı qurbanlarının çox hissəsini qadınlar ilə uşaqlar təşkil edir və ən çox kişilər fiziki şiddətdən istifadə edirlər. Bəzən itələmək və ya şillə vurmaq kimi zorakı şəxs tərəfindən "yüngülcə törədildiyinə" bəraət qazandırılan davranışlar hətta ən ağır zədələrə, ətrafların zədələnməsinə, sinir sisteminin travmasına, dişlərin itirilməsinə və s. səbəb ola bilər. Fiziki şiddət hallarından qurbanın baş nahiyyəsinə yetirilmiş xəsarət çox təhlükəli travmalara səbəb ola və gələcəkdə psixoloji problemlərə və ya sindromlara gətirib çıxara bilər. Məişət zorakılığı zamanı ölüm halları da məhz fiziki zorakılıq nəticəsində baş verir. (4).

Cinsi zorakılıq: Fiziki zorakılıq kimi cinsi zorakılıq da bir neçə davranış və ya hərəkətlər toplusunu əhatə edir. Cinsi zorakılıq aktlarından ən çox rast gəlinən qurbanın iradəsi əleyhinə gedərək onu cinsi əlaqəyə məcbur etmək, cinsi münasibətə razı olmayacağı təqdirdə fiziki şiddət törədəcəyi və ya zorlayacağı ilə hədələmək və ya manipulyasiya etmək, qurbanı istəmədiyi cinsi əlaqə növünə, məsələn, üçüncü şəxslə cinsi əlaqədə olmağa, qurbanın razılaşmadığı və alçaldıcı

hesab etdiyi seksual davranışlara məcbur etməkdir (13). Qurbanın cinsi əlaqəyə razı olmadığı və ya şifahi olaraq razılığını bildirmədiyi vaxtlarda törədilmiş cinsi məcburetmələr də bura aiddir, məsələn: fiziki işdən sonra çox yorğun olduğu hallarda, digər insanların və ya uşaqların yanında, qurbanı fiziki zorakılığa məruz qoyduqdan sonra, qurban spirtli içkilərin təsiri altında olarkən və ya yatarkən. Qurbanın bu zəmində etirazı adətən zorakı şəxsin ona qarşı yenidən fiziki şiddət törətməsilə nəticələnir. Buna görə də cinsi zorakılıq yaşamış qurban fiziki zorakılıqla da üzləşmiş olur.

Psixoloji zorakılıq: Psixoloji zorakılıq daha kompleks şəkildə həyata keçirilir. Zorakı şəxs qurbanı ona və ya ona doğma olan insanlara qarşı fiziki şiddət törədəcəyi ilə hədələyərək və qorxu altında saxlayaraq idarə edir. Bəzən zorakı şəxs bunu söz ilə, bəzən də öz hərəkətləri ilə göstərir.

Zorakı şəxs emosional şiddət göstərməklə də qurbana psixoloji təsir göstərir. Belə ki, o, qurbanı nalayiq sözlərlə alçaltmaq və söymək, daha çox onun həssas olduğu kəsləri məsələn təzəcə dünyasını dəyişmiş atasını təhqir etməklə, özünü aparmasına, danışığına, haralı olmasına, analıq etmə qaydasına lağ etməklə mənliyini alçaldır və bu aşağılayıcı sözlər şiddət qorxusu kontekstində həyata keçirilir (13). Şifahi emosional zorakılıq söyüşlər, alçaltma, ləqəblər verməklə həyata keçirilir və bu davranışların arxasında sadəcə mümkün zarafat tərkibi deyil, məhz aşağılayıcı niyyət dayanır. Digər hallarda isə zorakı şəxs qurbana ailəsinin, dostlarının və ya küçədə gedərkən insanların qarşısında alçaldıcı sözlərlə hücum edir.

Psixoloji şiddətin ən çox yayılmış formalarından biri də uşaqlarla bağlı hədə-qorxulardır. Zorakı şəxs daima qurbanı uşaqları ondan alacağı, məhkəmənin köməyi ilə uşaqların himayədarlığından çıxaracağı ilə hədələyərək qurbanı öz dediklərinə əməl etməyə məcbur edir (13).

İqtisadi zorakılıq: hər iki partnyorun da işlədiyi ya da təkcə qurbanın işlədiyi və pul qazandığı hallarda yalnız zorakı şəxsin o pula nəzarət etdiyi və necə xərcləməyə qərar verdiyi hallardır. Adətən zorakı şəxs qurbana heç işləməyə və ya gələcəkdə işləməsinə imkan verəcək təhsil üçün dərsə getməyə belə icazə vermir və beləliklə də qurban zamanla iqtisadi cəhətdən zorakı şəxsdən asılı vəziyyətə düşür. Belə ki, qurban yemək, içmək, paltar, yaşayış, uşaqların gündəlik ehtiyacı, ictimai nəqliyyatdan istifadə üçün zorakı şəxsin verdiyi pula möhtac qalır. Ən adi ehtiyaclar üçün belə pulun olmaması onun qurbanın tələbləri ilə razılaşmağına və zorakılığa dözməsinə səbəb olur. Əgər zorakı şəxs qurbana pul versə belə, qurban o pulu müstəqil olaraq istədiyi bir ehtiyacına xərcləyə bilmir. Beləliklə də zorakı şəxs qurban üzərində nəzarəti əlinə almağa nail olur.

Məişət zorakılığı spesifik olaraq genderlə bağlı olan bir davranışdır. Zorakılığı törədən kəslərin böyük hissəsini ənənəvi olaraq məhz kişilər təşkil edir. Məişət zorakılığı çox zaman qadına qarşı törədilən zorakılıq olduğuna görə buna gender əsaslı şiddət də deyilir.

Məişət zorakılığı ilə mübarizə üçün qadınlar hərəkatı 1970-ci illərdə ABŞ-da başlamışdır. O vaxtdan etibarən tədqiqatçılar məişət zorakılığının qarşısının alınması məqsədi ilə onun yaranma səbəbləri haqqında anlayışlara yiyələnmək üçün bir sıra nəzəriyyələr təklif etməyə nail oldular. Bu nəzəriyyələr arasında ən çox məişət zorakılığının sonradan öyrənilən davranış nəzəriyyəsi, daha sonra zorakılıq silsiləsi nəzəriyyəsi və növbəti güc və nəzarət nəzəriyyəsi haqqında daha geniş müzakirələr aparıldı.

Öyrənilmiş davranış forması nəzəriyyəsi: Məişət zorakılığının nə səbəbdən törədilməsi ilə bağlı tədqiqatların çoxu məişət zorakılığının qazanılmış və ya sonradan öyrənilmiş bir davranış forması olduğu fikrini dəstəkləyir. Məişət zorakılığı daxil olmaqla digər zorakılıq baş verən insidentlərin araşdırılması zamanı məlum olub ki, bu halları çox vaxt öz ailəsində zorakılıq görmüş və birbaşa olaraq valideyni tərəfindən şiddətə məruz qalmış şəxslər törədir. Bütün növ zorakılıq halları öz motivləri və törədilmə səbəblərinə görə bir-biri ilə sıx bağlı olduğu üçün bu fikri məişət zorakılığına da aid etmək olar (12, s.26).

Şiddət silsiləsi nəzəriyyəsi: Məişət zorakılığı törətmiş zorakı şəxs bəzən törətdiyi əmələ görə peşman olduğunu söyləyir və bir daha bunun yaşanmayacağına söz verir. Buna fiziki şiddətdən sonra göz yaşı dolu vədlər, hədiyyə almaqlar, "bağışla əsəbi idim" kimi peşmançılıq ifadə edən jestləri misal göstərmək olar. Lakin maraqlı burasıdır ki, əgər bu jestlərə qurban müsbət cavab verməzsə zorakı şəxs yenidən şiddət törətməyə başlayır. Buradan da şiddətin silsilə şəklində təkrarlanan, dövri bir davranış olduğu məlum olur. Şiddət silsiləsi nəzəriyyəsinə görə şiddət üç mərhələli bir prosesdir. Belə ki, partnyorlar arasında baş vermiş anlaşılmazlıq birinci mərhələdə gərginliyin yaranması ilə müşahidə olunur. Bu mərhələdə aşırı qəzəb və dava hissi zorakı şəxsi bürüyür. İkinci mərhələdə toplanmış gərginlik partlayışla nəticələnir. Bu mərhələdə zorakının törətdiyi şiddət özünü fiziki, psixoloji, cinsi kimi formalarda göstərir. Şiddət baş verdikdən sonra isə məsələn, bir neçə gün sonra partnyorlar arasında ilkin ünsiyyət formaları yaranır və getdikcə münasibətlər normaya düşür ki, bu da üçüncü mərhələ olan bal ayı mərhələsi adlanır (7, s.422). Lakin şiddət silsiləsi nəzəriyyəsi ilə bəzi tədqiqatçılar məişət zorakılığına səbəb olan əsas məsələnin nə olduğunun tam aşkara çıxdığına şübhə ilə yanaşmağa başladılar. Çünki bəzən şiddət baş vermiş ailələrdə şiddətdən sonra həmin bal ayı mərhələsi belə müşahidə olunmur və zorakı şəxs məqsədli olaraq qurbanı daima gərgin vəziyyətində saxlayır (9).

Güc və nəzarət nəzəriyyəsi: Daha sonra isə məişət zorakılığının yaranmasının kökündə zorakı şəxsin qurban üzərində güc və nəzarət əldə etmək niyyəti olduğu fikri irəli sürüldü. Qeyd etmək yerinə düşər ki, qadınlara qarşı şiddətin feminist nəzəriyyəsi olan güc və nəzarət nəzəriyyəsi üç əsas "güc, nəzarət və ənənəvi gender rolları kimi anlayışların üzərində dayanır" (6, s.1095).

Məişət zorakılığının spirtli içkilər və ya narkotik maddələrin təsirindən yarandığı çox vaxt səbəb kimi göstərilir. Lakin spirtli içkilərin qəbulu nəticəsində birdən-birə şəxs dönüb zorakı şəxsə çevrilmir. Bu barədə geniş araşdırma aparan və spirtli içkilərin hegemon maskulin davranışlar, güc və nəzarət ilə əlaqəsini öyrənən Qandolf "həddən artıq spirtli içki içməklə qadına qarşı şiddət bir-biri ilə səbəb-nəticə əlaqəsində deyil, lakin onlar sosial yönümlü problemlərin təməl təzahürlərindən biridir" deyərək əslində spirtli içkinin zorakı şəxs üçün "güc və nəzarət savaşında daha bir silah" rolu oynadığını diqqətə çatdırır (10, s.276).

Məişət zorakılığı cəmiyyətin ən çətin həll olunan problemlərindən biri olmaqla yanaşı burada cəmiyyətin inkişafı, fərdlərin müstəqilliyi və dövlətin bu problemin hərtərəfli həllində institusional cavabdehliyi üzərinə götürməsindən çox şey asılıdır. Azərbaycanda isə məişət zorakılığına hələ də sosial yüklü və dövlət əhəmiyyətli bir problem kimi yanaşılmır. Digər patriarxal normaların güclü olduğu ölkələrdə olduğu kimi Azərbaycanda da cəmiyyət hələ kişini evin sahibi və arxa-dayağı hesab edir buna görə də onun partnyoruna qarşı cəza tətbiq etməsi və şiddət törətməsi normal hal kimi qarşılanır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərovun sözlərinə görə 2017-ci il ərzində ölkə üzrə cəmi 7 nəfərə mühafizə orderi verilib. Onlardan 3-ü qısa, 4-ü isə uzunmüddətli olub (3). Məişət zorakılığının qarşısının alınmasında cəmiyyət və dövlət vəhdət şəklində çalışmalıdır.

Azərbaycan cəmiyyətində din, adət-ənənələr və ənənəvi gender rolları kimi anlayışlar (yəni qadın ev işi görməli, kişi isə işləyib evə qazanc gətirməlidir kimi) kişini evin sahibi, evdə olan arvad, uşaqların isə kişinin mülkiyyəti olması kimi stereotipik inancları insanlara aşılayır. Bu sahiblik və mülkiyyət hissi qadının bütün həyat fəaliyyəti üzrə özünü büruzə verir. Qadın geyimi, getdiyi yer, işlədiyi yer, hətta uşaqlarının uşaq bağçası və məktəb seçimi kimi məsələlərində müstəqil qərar verə bilmir.

Məişət zorakılığının həllində dövlətin rolu çox vacib və əhəmiyyətlidir. Aydın olduğu kimi məişət zorakılığı insan haqlarının tapdanması və intim münasibətdə olan iki bərabər hüquqlu şəxsdən birinin digəri üzərində haqsız dominantlıq əldə etmək istəyidir. Məişət zorakılığına insan haqları çərçivəsindən yanaşmaqla bu işdə dövlətin rolunun nə dərəcədə vacib

olduğunu görmək olur. Bu çərçivədən yanaşaraq məişət zorakılığının həllində dövlətin rolunu araşdıran Tomas və Beislinin qeyd etdikləri kimi insan haqları konsepsiyası beynəlxalq olaraq bütün dövlətlər tərəfindən qəbul edilən mənəvi dəyərlərdəndir. "Məişət zorakılığı bu mənəvi dəyərin kökündə dayanan prinsipi yəni insan ailəsinin bütün üzvlərinin daxili ləyaqət və dəyərini, qorxu və istəkdən azad olmağa danılmaz haqqını, qadın ilə kişinin bərabər hüquqa malik olması prinsipini inkar edir, pozur" (14, s.37).

Dövlətin məişət zorakılığının qarşısının alınmasında başlıca təşəbbüs göstərməsi və sosial islahatlar həyata keçirməsi çox mühüm əhəmiyyətə malikdir. Məişət zorakılığında zərər şəkmiş şəxslərin həyatlarının yaxşılaşdırılması üçün müvafiq sosial işin təşkili üzrə struktur dəyişiklikləri yaratmaq üçün dövlət səviyyəsində qanunlar, qətnamələr, tapşırıqlar hazırlanmalı və onların icrasının təmin edilməsinə nəzarət edilməlidir. Dövlət dəstəyi, qeyri-hökümət təşkilatları, ictimai birliklər və ya şəxsi təşəbbüslər, eləcə də, ianələr hesabına məişət zorakılığı qurbanları üçün müvafiq sayda sığınacaqlar tikilməli və onların işinə nəzarət edən, maddi, texniki və digər dəstək verən sistem qurulmalıdır. Qeyri-hökümət təşkilatları, cəmiyyətin bu işdə aktivlik göstərən fərdləri, məhkəmələr, sığınacaqlar, sosial işçilər, hüquq mühafizə orqanları, psixoloji və hüquqi klinikalar arasında vəhdəti təmin edəcək proqramların yaradılmasında və onların icrasının həyata keçməsində dövlətin yaxından iştirakı və ya bunun üçün münbit şərait yaratması problemin həllinə böyük töhfələr vermiş olardı.

Məişət zorakılığının cəmiyyət üçün ən başlıca ağır fəsadlarından biri də ruhi travma almış uşaqlardır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, məişət zorakılığı mühitində yaşayan uşaqların 60%-i inkişaflarının sonrakı dövrlərində müəyyən növ psixi problemlər yaşayırlar və bu simptomlar irəliləyərək hətta klinik səviyyəyə də çata bilir (11, s.196). Əlbəttə ki, burada məişət zorakılığı zamanı uşağın buna necə şahid olduğu, onun nəyi gördüyü, nəyi eşitdiyi və neçə yaşında olması da öz təsirini göstərir. Məişət zorakılığının cəmiyyətin inkişafına zərər vuran əsas amillərindən biri də məişət zorakılığının bir yoluxucu xəstəlik kimi bir nəsildən digərinə yayılması halıdır; şiddətə bəraət qazandıran cəmiyyətdə və ailənin kişi üzvü tərəfindən qadın üzvünə və ya üzvlərinə şiddət törədilmiş ailədə böyüyən yeni nəsil kişilər də gələcəkdə öz partnyor (məsələn, sevgili, nişanlı, ər qismində) və qohumluq (ata, qardaş, əmi, dayı, dayıoğlu, bibioğlu olaraq) münasibətlərində şiddət göstərməyə haqları çatdığını (onlar evin sahibdir, onlar tənbeh etməlidir kimi düşüncə tərzinə görə) düşünəcək və bununla da gələcək münasibətlərə öz mənfi təsirlərini göstərəcəklər.

Araşdırmamızdan bu nəticəyə gələ bilərik ki, məişət zorakılığı bir intim partnyorun digəri üzərində dominatlığını və ya nəzarətini həyata keçirmək üçün işlətdiyi davranışlar toplusu olduğu müəyyən olur. Məişət zorakılığı sosial bir bəladır və patriarxal dəyərlərin üstün tutulduğu cəmiyyətlərdə buna çox rast gəlinir. Lakin məişət zorakılığının qarşısının alınmasında, zorakılıqla üzləşmiş qurbanların problemlərinin həll edilməsində və zorakı şəxslərin cəzalandırılmasında dövlətin birbaşa iştirakı qaçılmazdır. Məişət zorakılığı bir sosial bəla kimi cəmiyyətə öz mənfi təsirlərini göstərməkdədir. Məişət zorakılığının zərər çəkən şəxsin – adətən qadınların ruhi, fiziki və reproduktiv sağlamlıqlarına mənfi zərərləri nəticəsində onların sosial bir fərd kimi cəmiyyətdə iştirakının qarşısı alınır, zorakı şəxs tərəfindən cəmiyyətdən təcrid olunur, özünə əminlikdə ciddi problemlər yaranır, işdə və ailədə fəaliyyətlərində maneələr yaradılır. Daima məişət zorakılığı yaşanan ailədə böyüyən uşaqlar yetərincə qayğı və sevgi görmürlər, onlarda özlərinə qapanma, utancaqlıq, dərslərində geriləmələr müşahidə olunur və təlim-tərbiyələrində ciddi çatışmazlıqlar yaranır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının 22 İyun 2010-cu il tarixli 1058-IIIQ nömrəli Qanunu. Sənəd http://www.e-qanun.az/framework/20131 səhifəsindən əldə edilmişdir.

2. Fərhadova Aytən . Məişət zorakılığı... Qanun qadını qorusunmu? Ekspress.- 2010.- 14 iyul.- S.5.

3. İbrahimova Aygün. 2017. "Ötən il Azərbaycanda Zorakılığa Məruz Qalan 7 Nəfərə Mühafizə Orderi Verilib". Report.Az. https://report.az/sosial-mudafie/oten-il-azerbaycanda-zorakiliga-meruz-qalan-7-nefere-muhafize-orderi-verilib/

4. Mahmudova Lalə. Məişət zorakılığı dövlət və cəmiyyətin ortaq problem. 3 aprel 2019. https://bakuresearchinstitute.org/az/domestic-violence-a-common-problem-of-state-and-society/.

5. Zorakılığa "YOX" deyək-ailəmizi qoruyaq! Layihə rəhbəri: Nailə İsmayılova Ekspert: Nəzakət Balabəyova. Bakı: "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyi, 2017, 44 səh

6. Bridget Busch, NoËl, "Male Customers of Prostituted Women: Exploring Perceptions of Entitlement to Power and Control and Implications for Violent Behavior Toward Women." Violence Against Women, vol. 8, no. 9, Sept. 2002, pp. 1093–1112.

7. Coleman, Frances L. "Stalking Behavior and the Cycle of Domestic Violence." Journal of Interpersonal Violence, vol. 12, no. 3, June 1997, pp. 420–432, doi:10.1177/088626097012003007.

8. Fitch FJ, Papantonio A. Men who batter: some pertinent characteristics. J Nerv Ment Dis 1983;171(3):190–2.

9. Frederick, Loretta. "Presentation On Theories Of Violence At Domestic Violence Workshop In Plovdiv, Bulgaria". Stopvaw.Org, 1997.

10. Gondolf, Ew. "ALCOHOL-ABUSE, WIFE ASSAULT, AND POWER NEEDS." Social Service Review 69.2 (1995): 274-84. Web.

11. Graham, D.L.R., Rawlings, E., & Rimini, N. (1988). Survivors of terror—battered women, hostages and the Stockholm Syndrome. In K. Yllö & M. Bograd (Eds.), Feminist perspectives on wife abuse (pp. 217-233). Newbury Park, CA: Sage.

12. Mihalic, S.W. & Elliott, D. "A Social Learning Theory Model of Marital Violence." Journal of Family Violence (1997) 12: 21. https://doi.org/10.1023/A:1021941816102

13. Schechter, Susan, and Anne Ganley. Domestic Violence : A National Curriculum For Family Preservation Practitioners. Family Violence Prevention Fund. 1995.

14. Thomas, Dorothy Q., and Michele E. Beasley. "Domestic Violence as a Human Rights Issue." Human Rights Quarterly, vol. 15, no. 1, 1993, pp. 36–62.

**Айнур Сафарли**

## ВИДЫ ДОМАШНЕГО НАСИЛИЯ И ПУТИ ИХ РАЗРЕШЕНИЯ

**Резюме:** Насилие - это средство контроля и страдания, заключающееся в применении психологического, социального, экономического давления на человека или нанесении немыслимого ущерба. К сожалению, существуют разные виды насилия - физическое, моральное, психологическое, экономическое, сексуальное. Насилие свирепствует почти во всех странах мира. Страны с наибольшим количеством случаев насилия - США, Канада, Израиль, Австралия и Южная Африка. Насилие в отношении женщин - это глобальное бедствие. Он не признаёт ни географических границ, ни возрастных ограничений, и ни одна этническая или религиозная группа не застрахована от этого бедствия. Домашнее насилие - широко распространенная гендерная проблема в Азербайджане. Домашнее насилие в Азербайджане до сих пор не рассматривается как социально-значимая проблема государственного значения. Непосредственное участие государства в предотвращение домашнего насилия, решении проблем жертв насилия и наказании виновных неизбежно.

**Ключевые слова:** домашнее насилие, физическое насилие, моральное насилие, психологическое насилие, экономическое насилие, сексуальное насилие, физическое насилие, насилие, жертва.

**Aynur Safarli**

**TYPES AND SOLUTIONS OF DOMESTIC VIOLENCE**

**Summary:** Violence is a means of control and suffering, consisting of the application of psychological, social, or economic pressure on a person or the infliction of a physical blow. It is unfortunate that there are different types of violence - physical, moral, psychological, economic, sexual. Violence is rampant in almost every country in the world. The countries with the highest violence rates are the United States, Canada, Israel, Australia and South Africa. Violence against women is a global scourge. It recognizes neither geographical boundaries nor age limits, and no ethnic or religious group is insured against this scourge. Domestic violence is a widespread gender problem in Azerbaijan. Domestic violence in Azerbaijan is still not treated as a socially significant problem of state importance. The direct involvement of the state in the prevention of domestic violence, the solution of the problems of victims of violence and the punishment of perpetrators is inevitable.

**Key words:** domestic violence, physical violence, moral violence, psychological violence, economic violence, sexual violence, physical violence, violence, victim

**Məqalənin redaksiyaya daxil olma tarixi: 07. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15. 04. 2021**
**Məqaləni çapa tovsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

**UOT:390:342.7.311.:31.**

**Aygün Qurbanova**
**Azərbaycan Universiteti**
**Doktorant**
**E-mail: qurbanliaygun1@gmail.com**

# MƏİŞƏT ZORAKILIĞININ QADINLARIN PSİXOAKTİV MADDƏ İSTİFADƏÇİ OLMALARINA TƏSİRİ

**Xülasə:** Məqalədə zərərli maddələrdən asılılığın nəzərəçarpan əlaməti onun asılılığı olan insanların psixi, fiziki və emosional sağlamlıqlarına tədricən artan mənfi təsiri və onların sosial-iqtisadi vəziyyətlərinə vurduğu ağır nəticələrdən bəhs edilmişdir. Həmçinin 2020-ci ildə Respublika Narkoloji Mərkəzində məişət zorakılığı və qadınların psixoaktiv maddə istifadəçisinə çevrilməkləri arasında əlaqə ilə bağlı aparılan tədqiqatlar araşdırılmışdır.

**Açar sözlər:** məişət zorakılığı, zərərli maddələr, psixoaktiv maddələr, zərərli maddələrdən asılılıq

2016-cı il Dünya Narkotika Hesabatına görə 2014-cü ildə hər 20 nəfər yetişkin insandan biri, yəni 250 milyon 15-64 yaş arasında şəxs ən azı bir dəfə hər hansı bir narkotik maddə istifadə edib. Hesabatda deyilir ki, 29 milyon insan psixoaktiv maddə istifadəsinin yaratdığı xəstəliklərdən əziyyət çəkir, onların 14%-i İİV-lu insanlardır [5, s.11]. Bununla yanaşı 2019-cu il Dünya Narkotika Hesabatında göstərilir ki, 2017-ci ildə bütün dünyada 15-64 yaşlı insanların 271 milyonu ötən il ərzində ən azı bir dəfə narkotik maddə qəbul edib. Bu, 15-64 yaş arası dünya əhalisinin 5,5%-ni təşkil edirdi. 2019-cu il hesabatında 2009-2017-ci illər arasında narkotik maddə istifadəçilərinin sayının 210 milyondan 271 milyona qədər artdığı qeyd olunur. Tədqiqatlar həmçinin hansı yaş qrupunun daha intensiv istifadəçi olduğuna da toxunur. Gəlinən nəticəyə görə demək olar ki, dünyanın əksər region və ölkələrində insanlar yeniyetməlik və erkən gənclik yaş dövründə (18-25 yaş) narkotik maddələrdən istifadənin pik nöqtəsinə çatırlar, beləliklə bu da onların fiziki və əqli inkişaflarının həssas dövründə sağlamlıqlarına və həyat tərzlərinə pis təsir edir, bəzən ömürlük qeyri-sağlam həyat sürməklərinə səbəb olur. Son illərdə aparılmış tədqiqatlara görə gənclərin zərərli maddə aludəçiliyinə asanlıqla yönəlməkləri səbəbləri arasında psixoaktiv maddələr haqqında lazımi məlumatın olmaması, onların sağlamlığa və rifaha vura biləcəyi ziyanlardan xəbərsiz qalmaqlarıdır. Digər faktorlar sırasına genetik meyillilik, şəxsiyyət xüsusiyyətləri (məsələn, impulsivlik, yeni hiss axtarışında olmaq), psixi və davranış pozuntularının olması, ailələri tərəfindən laqeyidliyə və ya zorakılığa məruz qalmaq, məktəbə və icmasına bağlılığının olmaması, zərərli maddə istifadəsinə aparıb çıxaran sosial norma, ətraf mühit, kütləvi informasiya vasitələrinin təsirini aid etmək olar [3,s. 12-13].

Dünyanın müxtəlif ölkələri cəzaçəkmə müəssisələrində məhkumların psixoaktiv maddələrdən istifadə etmək halları, həmçinin onların məhbusluqdan əvvəlki həyatlarında zərərli maddə aludəçisi olmaqları haqqında bir-birindən fərqli göstəricilərə malikdirlər. Dünya Narkotik Hesabatında (2019-cu il) deyilir ki, bütün dünyada həbsxana məhkumlarının üçdə birindən çoxu Asiya qitəsinin payına düşür (41%), Şimali və Cənubi Amerika qitəsi üçün bu rəqəm 35% təşkil edir. Məhkumların adətən 90%-dən çoxu kişilər, 1%-i yetkinlik yaşına çatmayanlardır (18 yaşdan aşağı). Hesabatda diqqət çəkən fakt odur ki, məhbus qadınların 35%-i, kişilərin isə 19%-i narkotik maddə ilə əlaqəli cinayətlər səbəbindən tutulublar. Xəstəliklərə gəldikdə isə həbsxana sakinləri digər icmalardan fərqli olaraq infeksion xəstəliklərə qarşı daha həssasdırlar və yoluxma halları adətən yüksəkdir. 2005-2017-ci illər arasında 74 ölkədə aparılmış 204 araşdırmaya görə məhbusların 3,8%-i İİV-dən, 46 ölkədə aparılmış 171 təhlilə görə məhbusların 15,1%-i hepatit C-dən və 25 ölkədə aparılmış 46 tədqiqata görə isə məhbusların 2,8%-i aktiv tüberklyozdan əziyyət çəkirlər [4, s. 32-33].

Yuxarıdakı hallardan əlavə insan sağlamlığı üçün zərərli olan psixoaktiv maddələrdən sui-istifadə və məişət zorakılığının, eləcə də intim partnyor zorakılığının bir-birilə əlaqəli olması haqqında tədqiqatlar da mövcuddur. Amerika Təşviş və Depressiya Assosasiyası 7,7 milyon yetkin yaşda insanın posttravmatik stress pozuntusundan əziyyət çəkdiyini və simptomlarla bacarmaq üçün böyük əksəriyyətin narkotik maddə və ya spirtli içki içdiyini deyir [6].

Məişət zorakılığı və psixoaktiv maddələrdən asılılıq arasında əlaqənin varlığından danışarkən, ekspertlər yalnız spirtli içkilər, yaxud zərərli maddələrin ailədaxili zorakılığa səbəb olmasından deyil, həmçinin məişət zorakılığının da şəxslərin psixoaktiv maddə istifadəçisinə çevrilməklərinə yol açması hallarından bəhs edirlər. Hətta qeyd olunur ki, zərərli maddələrdən fiziki asılılıq davamlı müalicələr vasitəsilə aradan qaldırıla bilinsə də altında yatan zorakılıqla bağlı tendensiyalar həllini tapmadıqca mövcud vəziyyət davam edəcək. Zorakılıq törədən şəxslərin uşaq vaxtı ailə mühitində mütəmadi şəkildə zorakılığa şahid olmaqları və bunun da öz növbəsində onları gələcəkdə spirtli içki və narkotik maddələrdən istifadə etməyə şövq etməsi, tədricən şüurlarında uzun müddət latent şəkildə mövcud olan zorakı tendensiyaları oyatması haqqında araşdırmalar mövcuddur. Araşdırmalara görə məişət zorakılığının nəticələrindən biri kimi çox sayda qurban müdafiə mexanizmi kimi psixoaktiv maddə istifadəçisinə çevrilirlər. Bu da nəsillərarası davam edən fiziki zorakılıqla müşayiət olunan zərərli maddə asılılığı çarxını yaradır [7].

Məsələn, mənfi uşaqlıq təcrübələri (ing. ACEs) kimi tanınan fiziki və psixoloji zorakılıq, laqeydlik də daxil olmaqla uşağın məruz qaldığı məişət zorakılığı təcrübəsi, yəni disfunksional ailədə böyümək, valideynlərinin, yaxud digər ailə üzvlərinin bir-birinə qarşı zorakı davranışına, onların zərərli maddələrdən sui-istifadə etməklərinə şahid olmaq, uşağın həyatında baş verən ən təməl stressli və travmatik hadisələr haqqında uzunmüddətli aparılmış tədqiqatın nəticəsinə verilmiş addır. Tədqiqat Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərində Kaiser Permanente sağlamlığın möhkəmləndirilməsi təşkilatı ilə birlikdə 1995-ci ildən 1997-ci ilə qədər 17,000-dən çox şəxsin iştirakı ilə aparıldı. İştirakçılar əsasən orta təbəqədən, sağlamlıq sığortaları olan şəxslər idilər, onlardan uşaq vaxtı pis qidalanma, disfunksional ailə, hazırkı sağlamlıq vəziyyətləri və davranışları haqqında suallardan ibarət sorğu vərəqlərini doldurmaqları xahiş olunmuşdu. Tədqiqatçılar sorğunun nəticəsində bir insanın topladığı bala görə həyatı boyu psixoaktiv maddə istifadəsindən yaranan asılılıq sindromu da daxil olmaqla keçirdiyi digər xəstəliklər, sosial və davranış problemlərinin sıx əlaqəsinin olduğunu üzə çıxardırlar [2].

Vaxtında müdaxilə edilmədikdə psixo-travmatik vəziyyətlərin uzunmüddətli psixoloji nəticələrə səbəb ola biləcəyi qeyd olunur. Belə hallarda psixoaktiv maddələr yuxarıda da vurğulandığı kimi travmalı epizodları unutmaq, yaxud da xroniki psixoloji nəticələrin öhdəsindən gəlmək, dəf etmək üçün istifadə edilə bilinir. Uşaq vaxtı zorakılıq yaşamış qadınlar söyləyirlər ki, travma ilə assosiyasiya olunan emosiyalarla əlaqəni itirmək üçün narkotik maddə istifadə etməyə başlayıblar, çünki travmada xatirələr anidən xəbərdarlıqsız geri qayıdır. Bu təcrübə onlar üçün o qədər dözülməz və hiddətlidir ki, yada salmamaq üçün özlərini qorumaq məqsədilə zərərli maddələrə üz tuturlar. Ərləri və ya birlikdə yaşadıqları partnyorları tərəfindən zorakılığa məruz qalan qadınların da maddi və ya mədəni səbəblərdən zərərli münasibəti tərk edə bilməməkləri onları düşdükləri vəziyyətin emosional sıxıntılarının öhdəsindən gəlmək üçün psixoaktiv maddə istifadəçisinə çevrilməklərinə təhrik edir, çox vaxt bu maddələr onlara məhz zorakılığa səbəb olan kəslər tərəfindən verilir ki, qadın ümumiyyətlə zorakı münasibətdən yaxa qurtara bilməsin, birlikdə yaşadığı kişidən asılı vəziyyətə düşsün [1].

Azərbaycanda məişət zorakılığının təsirlərindən biri kimi şəxslərin, xüsusilə qadınların psixoaktiv maddə istifadəçisinə çevrilməklərini araşdırmaq üçün 9 ay müddətində (yanvar-sentyabr, 2020) Respublika Narkoloji Mərkəzində tədqiqat apardıq. Bunun üçün mərkəzə yerləşmiş qadınlardan və mərkəzin mütəxəssislərindən müsahibə alındı. Tədqiqatda olduğumuz 9 ay müddətində mərkəzin qadın şöbəsində ümumilikdə 137 nəfər psixoaktiv maddə istifadəçisi qadın müalicə almış, onlardan 132 nəfəri könüllü şəkildə mərkəzə müraciət etmiş, 5 nəfəri

məcburi müalicəyə cəlb olunmuşdur. Respublika Narkoloji Mərkəzində məcburi müalicəyə cəlb olunmaq anlayışı altına həm də penitensiar sistemin daxilində ixtisaslaşdırılmış tibb müəssisələrində xroniki alkoqoliklərin və narkomanların saxlanması rejimi, normativləri və müalicə qaydaları nəzərdə tutulur. Belə ki, xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamədə cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş, cəzaçəkmə müəssisələrindən azad edilmiş, lakin müalicəsinin davam etdirilməsi zəruri olan xroniki alkoqoliklərin və narkomanların, barəsində inzibati həbs tənbeh növü tətbiq edilməklə yanaşı, narkomaniyadan məcburi müalicə təyin edilmiş, yaxud cinayət və ya inzibati həbs nəzərdə tutan inzibati xəta törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi üçün Səhiyyə Nazirliyi nəzdində ixtisaslaşdırılmış tibb müəssisələrin (İTM) fəaliyyət göstərdiyi qeyd edilir.

Adı çəkilən mərkəzdə müalicə alan qadınlardan alınmış müsahibələri ümumiləşdirsək Azərbaycanda da məişət zorakılığının nəticələrindən biri kimi qadınların psixoaktiv maddə istifadəçisinə çevrilməkləri yaşanan hallardandır fikrinə gəlmək mümkündür. Bir istifadəçi qadın müsahibədə söylədi ki, 6 yaşı olanda atasının anasına qarşı qısqanclıq səbəbilə tez-tez fiziki zorakılıq göstərməsi və bunun nəticəsində həm onun, həm də digər bacı-qardaşlarının gözü qarşısında anasına balta ilə xəsarət törtəməsinə, ətrafın qana boyanmasına şahid olmuşdur, hadisə ona pis təsir etmiş və yaddaşında mənfi mənada birdəfəlik iz qoymuşdur. Hadisədən sonra atası həbs edilmiş, uşaqlar ananın himayəsi altında böyümüşlər. Anası maddi ehtiyac səbəbilə uşaqları ilə birlikdə ölkəni tərk etməyə məcbur olmuş, uşaqlar mühacirətdə olduqları ölkədə təhsil almamış və bir müddət sonra heç bir peşə bacarıqlarına sahib olmayaraq geri qayıtmışlar. Qadın erkən gənclik illərində uğursuz tanışlıqlar yaşayır və nəticədə narkotik maddə satıcısı şəxslə vətəndaş nikahına daxil olur və bundan sonra mütəmadi istifadəçiyə çevrilir. Qadının dünyaya gətirdiyi uşağın doğumundan bir neçə gün sonra ölməsi ona daha pis təsir edir və özünün söylədiyinə görə günlərlə narkotik maddələrin təsirindən ayılmadan istifadə etməyə davam edir.

Bu və buna oxşar keysləri təhlil edərkən görürük ki, disfunksional ailədə böyümək, uşaq yaşlarında məişət zorakılığına, cinayətə şahid olmaq şəxsin psixi sağlamlığına dərindən travma vurur, onun sonrakı həyatında sağlam sosial münasibətlər qura bilməsinə mane olur, hər iki cinsdən olan şəxsləri zərərli maddə istifadəçisinə çevrilməyə tətikləyir.

Respublika Narkoloji Mərkəzinin sosioloqu Fidan Alışova müsahibəsində deyir ki, bioloji ailədə qumar, spirtli içki və narkotik maddə asılılığı halları paralel olaraq həmin ailədə məişət zorakılığı əlamətləri ilə müşahidə edilir. Mütəxəssisin rəyinə görə Azərbaycan ailələrində gender bölgüsü aparılarsa, kişilərin daha çox psixoaktiv maddə istifadəçisi olması qeyd olunur, bunun da mümkün xoşagəlməz nəticəsi kimi qız uşaqlarında Mənfi uşaqlıq təcrübələri yaşanır. Azərbaycan ailələrində Mənfi uşaqlıq təcrübələrinin bir nümunəsi kimi natamam ailə amilini göstərmək olar. F.Alışova sözügedən halın necə baş verdiyini izah edir: “ata zərərli maddə asılılığı səbəbindən getdikcə özünün ailədəki əsas rolundan uzaqlaşır, mütəmadi yerinə yetirə bilmədiyi valideynlik öhdəliyi tədricən tam mənası ilə ananın üzərinə düşür. Uzun müddət maddi və mənəvi təminat birtərəfli şəkildə ananın öhdəliyinə düşdüyü üçün o, da fiziki və emosional gərginlikdən yorularaq uşaqlara qarşı laqeyid münasibət göstərə bilir, nəticədə ailə bağları getdikcə qopur, yaxud ailə fərdləri bir-birlərindən uzaqlaşırlar”. Sosioloqun rəyi yuxarıda istinad edilən mənbələrdə göstərildiyi kimi Mənfi uşaqlıq təcrübələrində rast gəlinən disfunksional ailə növünün, bu növ ailələrdə yaşanan laqeydlik və rolların düzgün paylanmamasın əlamətinə uyğundur. Və artıq məlumdur ki, bu da öz növbəsində həmin ailələrdə böyüyən uşaqların gələcəkdə psixoaktiv maddə istifadəçisi olmaq ehtimalını reallaşdırır. F.Alışovanın sözlərinə görə digər bir məsələ də gənc qızların sevgili münasibətində olduqları zərərli maddə istifadəçisi və ya satıcısı kişilərlə birlikdə yaşayaraq onlardan adı çəkilən zərərli vərdişi mənimsəmələridir.

Belə ki, mərkəzdə müalicə alan qadınlar etiraf edirlər ki, sevgili münasibətində olduqları narkotik maddə istifadəçisi kişiləri itirməmək üçün, yəni kişinin daim diqqətində olmaq, "dost-tanış" mühitinə daxil ola bilmək, qısacası onlardan uzaqlaşmamaq üçün partnyorlarının zərərli vərdişlərini qəbul etməyə, bununla da narkotik maddə istifadəçisinə çevrilməyə başlayırlar. Ancaq qadınların psixoaktiv maddə istifadəçisinə çevrilmələri yalnız emosional xarakter daşımır, hətta onların böyük əksəriyyəti ticari məqsədlə sevgililərinin qurbanına çevrilirlər. Mərkəzdə müalicə alan 50 yaşlarında bir qadının verdiyi müsahibədən əldə etdiyimiz məlumata görə, o, gənc yaşlarda bir qıza var idi, qızı hər gün işə getdikdən sonra qadın parkda gəzintiyə çıxır, gəzintilərin birində təsadüfən bir nəfər kişi ilə tanış olur. Müəyyən müddətdən sonra kişi qadına sevgi etirafı edir və evlilik vədi verir. Aralarındakı münasibət dərinləşdikcə qadının evində görüşməyə başlayırlar, günlərin birində qadının sözləri ilə desək yüksək əhval-ruhiyyə bəxş etmək üçün həb verir, qadın həbi qəbul etdikdən sonra əhvalının yaxşılaşdığını söyləyir və getdikcə həmin həbdən daha çoxuna ehtiyac duymağa başlayır. Qadın etiraf edir ki, hər hansı bir növ narkotik maddə əldə etmək üçün nəinki var-yoxdan çıxır, hətta evdəki işlənmiş əşyaları da satır. Qadının qızı anasının vəziyyətinə dözməyərək onu müalicə almaq üçün mərkəzə yerləşdirir.

Respublika Narkoloji Mərkəzində 2020-ci ilin 9 ayı müddətində davam etmiş tədqiqata əsaslanaraq söyləyə bilərik ki, apardığımız araşdırma bizdən əvvəl aparılmış beynəlxalq araşdırmalardan mənfi uşaqlıq təcrübələrinin bir nəticəsi kimi məişət zorakılığına şahid olmuş və məruz qalmış uşaqların gələcəkdə zərərli maddə istifadəçisi olması nəticəsi ilə uzlaşır. Həmçinin əlavə edə bilərik ki, Azərbaycan ənənəvi ailə dəyərlərinə əsaslanan cəmiyyətə sahib olsa da burada məişət zorakılığı hallarının yaşanması və bunun da mümkün nəticələrindən biri kimi qadınların psixoaktiv maddə istifadəsinə yönəlmələri baş verə bilən haldır.

Cəmiyyətin inkişafı, sağlam gələcək nəsillərin təşviqi üçün ailədə valideynlərin fiziki və psixoloji sağlamlıqlarına, ailənin yalnız reproduktivlik funksiyasının deyil, eləcə də təsərrüfat-iqtisadi, bərpaedici, tərbiyəedici funksiyalarının həyata keçirilməsi üçün valideynlərin bərabər şəkildə rol bölgüsünün aparılmasına diqqət yetirilməli, eləcə də Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020- ci il tarixli "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncamının tam mənası ilə həyata keçirilməsi əhəmiyyət daşıyır.

**Ədəbiyyat siyahısı:**


1. "Improving the management of violence experienced by women who use psychoactive substances". Thérèse Benoit. Marie Jauffret-Roustide. 2015
2. Robert Anda, M.D., M.S., Co-Principal Investigator. The Role of Adverse Childhood Experiences in Substance Misuse and Related Behavioral Health Problems. 2018
3. World Drug Report. Global Overview of Drug Demand and Supply. 2019. s. 12-13
4. World Drug Report. Global Overview of Drug Demand and Supply. 2019. s. 32-33
5. World Drug Report. United Nations. 2016. S.11
6. https://adaa.org/understanding-anxiety/related-illnesses/substance-abuse

https://www.theblackberrycenter.com/domestic-violence-and-addiction-exploring-the-connection/


**Айгюн Гурбанова**

## ВЛИЯНИЕ БЫТОВОГО НАСИЛИЯ В ИСПОЛЬЗОВАНИИ ПСИХОАКТИВНЫЕ ВЕЩЕСТВА ЖЕНЩИН

**Резюме:** В статье рассматривается возрастающее негативное влияние токсикомании на психическое, физическое и эмоциональное здоровье людей, употребляющих вредные вещества, и их серьезные социально-экономические последствия. Также было исследовано проведенное в 2020 году в Республиканском

наркологическом центре исследование связи между домашним насилием и употреблением женщинами психоактивных веществ.

**Ключевые слова:** домашнее насилие, вредные вещества, психоактивные вещества, пристрастие к вредным веществам

**Aygun Gurbanova**

**THE EFFECT OF DOMESTIC VIOLENCE ON WOMEN'S PSYCHOACTIVE SUBSTANCES**

**Summary:** The article discusses the growing negative impact of substance abuse on the mental, physical and emotional health of people addicted to harmful substances and their serious socio-economic consequences. Also, research conducted in 2020 at the Republican Narcology Center on the relationship between domestic violence and women's becoming psychoactive substance users was investigated.

**Key words:** domestic violence, harmful substances, psychoactive substances, addiction to harmful substances

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 20. 04. 2021**
**Məqaləni çapa tovsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Rəşad Əsgərov**

**UOT:31.:342.:342.7.**

**Nərgiz Nəsirova**
**Sumqayıt Dövlət Universiteti**
**Doktorant**
**E-mail: nargiz917@gmail.com**

# MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASINDA AZƏRBAYCAN TƏCRÜBƏSİ

**Xülasə:** Məqalədə bildirilir ki, məişət zorakılığı Azərbaycanda da aktual məsələdir. Buna əsasən ölkəmizdə məişət zorakılığının qarşısının alınmasına dair dövlət qanunları, həyata keçirilmiş tədbirlər və görülən işlər yer almaqdadır. Məqalədə məişət zorakılığı nədir, formaları hansılardır və məişət zorakılığının baş vermə səbəbləri haqqında nəzəriyyələr öz əksini tapmışdır. Məqalədə məişət zorakılığının Azərbaycanda da aktual mövzu olması və onun həllində yaranan problemlər vurğulanmışdır. Qeyd olunmuşdur ki, məişət zorakılığı məsələsi cəmiyyətin və dövlətin ortaq problemidir.

**Açar sözlər:** məişət, zorakılıq, qanun, fiziki şiddət, psixoloji şiddət, iqtisadi şiddət, cinsi zorakılıq

**Giriş:**

Məişət zorakılığı fiziki, cinsi, psixoloji, iqtisadi olmaqla müxtəlif yollarla baş verir Məişət zorakılığı xüsusi olaraq cinslə (genderlə) bağlı hərəkət və ya davranışdır. Zorakılığın həyata keçirilməsində kişilərin rolu böyükdür. Zorakılığa da gender əsaslı deyilməsi məhz qadına qarşı törədilməsi səbəbindəndir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assembleyasının 1993-cü il tarixli bəyannaməsinə görə gender əsaslı zorakılığın tərifi belədir: "ictimai və ya şəxsi həyatda qadına qarşı törədilən fiziki, cinsi, psixoloji zədə, qorxu və ya şiddət ilə nəticələnmiş və ya nəticələnək, həmçinin bu cür davranışların törədiləcəyi barədə hədə-qorxu gəlmək, kişi tərəfindən qadının hər hansısa bir hərəkətə məcbur olunması, özbaşına olaraq fərdi azadlıqdan məhrum etmək kimi hər hansı bir zorakılıq aktı deməkdir". (5)

BMT Bəyannaməsinə əlavə olaraq qeyd olunmalıdır ki, qadınların da zorakılıq aktı törədə bilməsi halları istisna edilmir, onlar da bəzi hallarda şiddət törədə bilər, lakin bir çox hallarda özünü və ya uşaqlarını şiddətdən müdafiə etmək üçün istifadə edilmiş şiddətlər burada müşahidə olunur.

Məişət zorakılığı nədir? Məişət zorakılığı dedikdə ailədaxili şiddət nəzərdə tutulur adından da məlum olduğu kimi adətən arvad döymək, qadına qarşı şiddət, ailə üzvlərinin döyülməsi, ər-arvad arasında baş verən dava kimi adlar verilir. Məişət zorakılığının hüquqi və kliniki tərifləri mövcudluğu barədə qeyd etmək lazımdır, belə ki, məişət zorakılığının hüquqi tərifi məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunda göstərilmişdir. Qanunda hüquqi tərifi bu cür deyilir: "yaxın qohumluq və ya birgə yaşayışdan istifadə etməklə qarşı tərəfə şiddət göstərməkdir" (1). Kliniki tərifə isə məişət zorakılığı yeniyetmələr, gənclər və böyüklərin öz intim partnyorlarına qarşı törətdikləri fiziki şiddət, cinsi zorakılıq, psixoloji basqı, iqtisadi asılılıq və ya məhrumetmə kimi aşağılayıcı və zorakı davranışların törədilməsinin davam etməsidir. (4). Araşdırmalar nəticəsində məlum olmuşdur ki, kliniki tərif hüquqi təriflə müqayisədə daha genişdir.

Məişət zorakılığı fiziki, cinsi, psixoloji olmaqla müxtəlif yollarla baş verməsinə geniş aydınlıq gətirək

- Fiziki şiddət dedikdə şiddətə məruz qalan şəxsin bədəninə müxtəlif kobud yollarla (ev alətləri, bıçaq, tapanca kimi silah) zərər yetirilməsi nəzərdə tutulur. Bəzən itələmək və ya şillə vurmaq kimi zorakı şəxs tərəfindən "yüngülcə törədildiyinə" bəraət qazandırılan davranışlar hətta ən ağır zədələrə, ətrafların zədələnməsinə, sinir sisteminin travmasına, dişlərin itirilməsinə və s. səbəb ola bilər. Fiziki şiddət hallarından qurbanın baş nahiyyəsinə yetirilmiş xəsarət çox

təhlükəli travmalara səbəb ola və gələcəkdə psixoloji problemlərə və ya sindromlara gətirib çıxara bilər. Məişət zorakılığı zamanı ölüm halları da məhz fiziki zorakılıq nəticəsində baş verir.

- Psixoloji şiddət dedikdə onun kompleks şəkildə olmasını eləcə də şiddət törədənin öz taktikasını seçməsini bildimək lazımdır. Çünki, bu şiddətə müxtəlif misallarla nümunə gətirmək olar. Araşdırılan hadisələr zamanı əldə olunan məlumata görə daha çox bir-birilərinə şiddət törədəcəyinə dair hədə, qorxu gəlmələri psixoloji şiddət hesab olunur.
- Cinsi zorakılıq fiziki zorakılıqla oxşarlığı şiddətə məruz qalan şəxsin bir çox hərəkət və davranışlara məcbur edilməsi hallarından ibarətdir. Buna görə də cinsi zorakılıq yaşamış qurban fiziki zorakılıqla da üzləşmiş olur. Dövlət Statistika Komitəsi ilə Macro International Inc (MII)-in apardığı sorğular nəticəsində məlum olmuşdur ki, "azı bir dəfə belə törədilmiş zorakılıq hallarında cinsi zorakılıqla üzləşmiş qadınların əlli beş faizində kəsiklər, göyərmiş əziklər və ya ağrılar; 35 faizində göz zədələri, burxulmalar, sümük çıxıqları və ya yanıqlar, 12 faizində isə dərin yaralar, qırılmış sümüklər, sındırılmış dişlər və digər ciddi fiziki travmalar yaranmışdır"
- İqtisadi zorakılıq bəzən hər iki tərəfin, bəzən də qurbanın üzləşdiyi haldır, belə ki, qazancı olduğu halda qarşı tərəfin onun pulunu əlindən alması ilə və yaxud da heç bir halda işləməyə, oxumağa icazə vermədiyi qurbanın qarşı tərəfdən iqtisadi asılılığına gətirib çıxarır. İqtisadi asılılıq siniflərarası fərqlərdən asılı olmayaraq müxtəlif iqtisadi səviyyəli ailələrdə də baş verə bilər. İqtisadi zorakılığa qəsdən təşkil edilmiş bahalı məhkəmə prosesləri də aid edilə bilər. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanununda məişət zorakılığı zəminində baş verən iqtisadi zorakılıq bu cür izah olunur: "məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətlərdir" (6)

1970-ci illərdə məişət zorakılığı ilə mübarizə üçün qadınlar hərəkatı ABŞ-da başlamışdır. O vaxtdan etibarən tədqiqatçılar məişət zorakılığının qarşısının alınması məqsədi ilə onun yaranma səbəbləri haqqında anlayışlara yiyələnmək üçün bir sıra nəzəriyyələr təklif etməyə nail oldular. Bu nəzəriyyələr arasında ən çox məişət zorakılığının sonradan *öyrənilən davranış nəzəriyyəsi, zorakılıq silsiləsi* nəzəriyyəsi və növbəti *güc və nəzarət nəzəriyyəsi* haqqında daha geniş müzakirələr aparıldı.

Məişət zorakılığının nə səbəbdən törədilməsi ilə bağlı tədqiqatların çoxu məişət zorakılığının qazanılmış və ya sonradan öyrənilmiş bir davranış forması olduğu fikrini dəstəkləyir. Məişət zorakılığı daxil olmaqla digər zorakılıq baş verən hadisələrin araşdırılması zamanı məlum olub ki, bu halları çox vaxt öz ailəsində zorakılıq görmüş və birbaşa olaraq valideyni tərəfindən şiddətə məruz qalmış şəxslər törədir. Bütün növ zorakılıq halları öz motivləri və törədilmə səbəblərinə görə bir-biri ilə sıx bağlı olduğu üçün bu fikri məişət zorakılığına da aid etmək olar. Məişət zorakılığı törətmiş zorakı şəxs bəzən törətdiyi əmələ görə peşman olduğunu söyləyir və bir daha bunun yaşanmayacağına söz verir. Buna fiziki şiddətdən sonra göz yaşı dolu vədlər, hədiyyə almaqlar, "bağışla əsəbi idim" kimi peşmançılıq ifadə edən jestləri misal göstərmək olar. Lakin maraqlı burasıdır ki, əgər bu jestlərə qurban müsbət cavab verməzsə zorakı şəxs yenidən şiddət törətməyə başlayır. Buradan da şiddətin silsilə şəklində təkrarlanan, dövri bir davranış olduğu məlum olur.

Daha sonra isə məişət zorakılığının yaranmasının kökündə zorakı şəxsin qurban üzərində güc və nəzarət əldə etmək niyyəti olduğu fikri irəli sürüldü. Qeyd etmək yerinə düşər ki, qadınlara qarşı şiddətin feminist nəzəriyyəsi olan güc və nəzarət nəzəriyyəsi üç əsas "güc, nəzarət və ənənəvi gender rolları kimi anlayışların üzərində dayanır"

Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanunun da yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin

edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir. Bu Qanun yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlara; nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvada; qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslərə; qanuni nikahda olmadan birgə yaşayan kişi və qadına, habelə onlarla birgə yaşayan yaxın qohumlarına şamil edilir. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. (1)

Qanunun 13-cü bəndinə əsasən deyilir ki: Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin aşağıdakı növləri vardır:

13.1.1. hüquqi xarakterli tədbirlər - məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi;

13.1.2. sosial xarakterli tədbirlər - zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi;

13.1.3. qabaqlayıcı tədbirlər - əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirlərinin təşkili.

13.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığının qarşısının alınması ilə bağlı tədbirlər üzrə dövlət proqramları qəbul edilə bilər. (1)

Məişət zorakılığının getdikcə artımını dha çox rayon və kənd yerlərində görmək mümkündür. Belə olduğu halda intensivliyin qarşısının alınması üzrə Dövlət Qaunununda qərar qəbul olunmuşdur və burada görə bilərik ki, aidiyyatı qurumların yəni, polis və yerli icra hakimiyyəti orqanlarının qarşısına öhdəliklər qoyulmuşdur. Qanunda şiddət görən şəxs baş vermiş hadisə ilə bağlı hara və kimə müraciət etməsi əks olunmuşdur. Lakin qanunda göstərilməsinə baxmayaraq bu iş üzrə ixtisaslaşmış olan polis, vəkil, psixoloq, sosial işçi mövcud insan resursları, nə də sığınacaqlar və müvəqqəti yaşayışla təmin edilmək üçün nəzərdə tutulan proqramlar üzrə çatışmazlıq müşahidə olunur. Məişət zorakılığı haqqında qanunda yuxarıdakı icra edilməli olan proses bu cür izah olunur: “7.0.1. zərurət olduqda zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya kursunun aparılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərmək” (1). Buradan göründüyü kimi məişət zorakılığının baş verməsi zamanı problemin həlli üzrə işçilərin çoxalmasına, ixtisaslaşmasına və qurbanın lazım olan vəsaitlərlə təmin olunmasında inkişafa ehtiyac vardır.

Qanunda nəzərdə tutulan qısa və uzunmüddətli mühafizə orderlərinin verilməsində və onların icrasında da ciddi pozuntular müşahidə olunur. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi “mühafizə orderi – məişət zorakılığı törətmiş şəxsin zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında akt”dır (1). Bu akt zorakı şəxsin qurbanı izləmək, sığınacaq tapdığı yeri axtarmaq və narahat etmək kimi zorakılığından müdafiə etmək üçün verilir. Sözügedən qanunda göstərildiyi kimi mühafizə orderləri qısa və uzunmüddətli olaraq verilir. Qısamüddətli mühafizə orderi yerli icra hakimiyyəti tərəfindən müraciət daxil olandan 24 saat müddətində verilməlidir. Uzunmüddətli mühafizə orderi isə yerli məhkəmənin çıxardığı qətnamə əsasında verilir. Qısamüddətli mühafizə orderi bir aylıq, uzunmüddətli order isə altı aylıq müddətə verilir. Əgər zorakı şəxs qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməzsə, o zaman şəxsə uzunmüddətli orderin verilməsi üçün məhkəmə 3 gün müddətində qətnamə qəbul edir və orderin müddəti altı aya qədər uzadılır. Qeyd edim ki, Azərbaycanda uzunmüddətli mühafizə orderinin

müddəti digər ölkələrdəkinə nisbətən çox azdır. Məsələn, ABŞ-da bu müddət 2 ilə qədərdir. Mühafizə orderlərinin qoyduğu qadağalara riayət etməyən şəxslər cinayət və inzibati məsuliyyətə cəlb edilə bilər. Lakin göründüyü kimi məişət zorakılığı halları çoxluq təşkil etdiyi bir vəziyyətdə mühafizə orderləri rekord sayda az verilir və bu orderi pozan şəxslərə qarşı cəza və digər qəti imkan tədbirləri görülmür. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərovun sözlərinə görə 2017-ci il ərzində ölkə üzrə cəmi 7 nəfərə mühafizə orderi verilib. Onlardan 3-ü qısa, 4-ü isə uzunmüddətli olub (3).

Məişət zorakılığının qarşısının alınmasında cəmiyyət və dövlət çalışmalı, qarşısının alınması üçün birgə fəaliyyət göstərməlidirlər. Əgər qonşusunda baş verən fiziki zorakılığı zamanı qonşu polisə xəbər verərəkən cəmiyyət tərəfindən qınanılırsa, zorakılıq törədən kişinin “öz ailəsidir” deyib keçmək əvəzinə bu işdə məsuliyyət daşıdığı ona bildirilmirsə və eləcə də dövlət polis orqanlarında məişət zorakılığı hallarına qarşı həssaslığı, peşə hazırlığını artırmırsa, digər sosial strukturlu islahatları həyata keçirmirsə, onda məişət zorakılığının daha geniş vüsət almasında cəmiyyət və dövlət olaraq birbaşa rol oynamış oluruq. Sadəcə bu işlərin həlli istiqamətində məsuliyyətli olduğu nəzərdə tutulan qadın məsələləri üzrə işləyən təşkilatların, psixoloji yardım mərkəzlərinin bu işin həllində iştirakı və bu işdə öhdəçilik götürməsi kifayət deyil (8,s.98).

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası Qanunu, 2010
2. Bent-Goodley və Tricia 2007
3. İbrahimova, 2017
4. Schechter və Ganley, 1995
5. UN resolution, 1993
6. L.Mahmudovahttps://bakuresearchinstitute.org/az/domestic-violence-a-common-problem-of-state-and-society/


**Наргиз Насирова**

**ОПЫТ АЗЕРБАЙДЖАНА В ПРЕДОТВРАЩЕНИИ ДОМАШНЕГО НАСИЛИЯ**

**Резюме:** В статье указывается, что вопрос домашнего насилия актуален и в Азербайджане. На этой основе в нашей стране существуют государственные законы, направленные на предотвращение домашнего насилия, применяются меры, пресекающие эти явления. В статье нашли отражение вопросы о том, что такое домашнее насилие, каковы его формы, теории о причинах домашнего насилия, а также причины их возникновения. Подчеркнуты актуальность этой темы в Азербайджане, а также проблемы, существующие в решении этого вопроса. Было отмечено, что проблема домашнего насилия является общей проблемой общества и государства в целом.

**Ключевые слова:** быт, насилие, закон, физическое насилие, психологическое насилие, насилие, экономическое насилие, сексуальное насилие

**Nargiz Nasirova**

**THE EXPERIENCE OF AZERBAIJAN ON THE PREVENTION OF DOMESTIC VIOLENCE**

**Summary:** The article states that domestic violence is also a topical issue in Azerbaijan. According to this, there is placed the state laws, measures taken, etc. on the prevention of domestic violence in our country. The article contains theories about what domestic violence is, what its forms are, and the causes of domestic violence. The article emphasizes that domestic violence is a topical issue in Azerbaijan and the problems that arise in its solution. It was noted that the issue of domestic violence is a common problem of society and the state.

**Key words:** domestic, violence, law, physical violence, psychological violence, economic violence, sexual violence.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**UOT: 31.:314:342.7.:390.**

**Hökümə Hacıyeva**
**Sumqayıt Dövlət Universiteti**
**Dissertant**
**E-mail: Agazade_hokuma@mail.ru**

# MƏİŞƏT ZORAKILIĞI SAHƏSİNDƏ BEYNƏLXALQ VƏ REGİONAL ƏMƏKDAŞLIQ

**Xülasə:** Ailə məişət zorakılığı qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılıq hesab edilir. Müasir cəmiyyətlərin qarşısında duran əsas məsələlərdən biri də ailə daxili şiddətin, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsinin təşkil edilməsi, onların lazımı hüquqi yardımla təmin edilməsidir. İstər müxtəlif dövlətlərin milli qanunvericiliklərində, istərsə də beynəlxalq dövlətlərarası səviyyədə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilməkdədir.

**Açar sözlər**: zorakılıq, ailədaxili şiddət, insan hüquqları, qadınların müdafiəsi

Müasir dövrdə dünya dövlətlərinin üzləşdiyi və aktiv şəkildə mübarizə aparmağa yönəldiyi qlobal sosial problemlərdən biri də məişət zorakılığı məsələsidir. İstər inkişaf etmiş, istərsə də üçüncü dünya dövlətlərində qadınlar ailədaxili zorakılığa, döyülmə və zorlanma hallarına məruz qalır, insan alverinin obyektinə çevrilir. İnsan hüquqlarının bu formada pozulması təkcə ayrı-ayrı fərdlərin ziyan və əzab çəkməsi ilə nəticələnmir, eyni zamanda bütövlükdə cəmiyyətin əsaslarını sarsıdır. Belə ki, ailədaxili zorakılıq, qadınların mütəmadi olaraq fiziki və verbal şəkildə təzyiq və təhqirlərə məruz qalması cəmiyyətin davamlı inkişafında öz mənfi təsirlərini göstərmiş olur. Hansı formada təzahür etməsindən (fiziki, psixoloji, iqtisadi, cinsi), qurbanın kimliyindən asılı olmayaraq məişət zorakılığı tarixən formalaşmış və bu günümüzdə də aktuallığını qoruyan problemli məsələlərdən biridir.

Hələ 1800-cü illərin ortalarına qədərdir çox dövlətlərin hüquq sistemləri qadınların döyülməsini ərin qadın üzərində hakimlik həyata keçirmək hüququ kimi nəzərdən keçirirdi. Zaman keçdikcə siyasi təbliğatın artması və feminist hərakatların genişlənməsi nəticəsində ABŞ, Birləşmiş Krallıq kimi ölkələrdə ictimai fikir və qanunvericilik dəyişməyə başlayır. 1850-ci ildə ilk dəfə olaraq ABŞ-ın Tenessi ştatı ailə daxili münasibətlərdə qadının döyülməsini qanundan kənar elan edir. Artıq 1870-ci illərdə əksər ştatlar ərin öz həyat yoldaşı üzərində fiziki zorakılıq tətbiq etmək hüququnu rədd edir (10). Ailədaxili zorakılıq formaları ilə mübarizənin təşkil edilməsinin institusional səviyyədə həyata keçirilməsinin tarixi keçən əsrin 70-ci illərinə təsadüf edir. Həmin dövrdə Böyük Britaniyada zorakılıqdan əziyyət çəkmiş qadınların müdafiəsi üçün ilk mərkəzlər yaradılmışdır. Bu mərkəzlər feminist təşkilatların fəaliyyətinin nəticəsi olaraq meydana gəlmişdi. Bu tip hüquq müdafiə mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi və həmin sahədə irəliləyişlərin əldə edilməsi səbəbi ilə məişət zorakılığı problemi və bu hüquq pozuntusun aradan qaldırılması metodlarının araşdırılması kimi məsələlər geniş müzakirələrə səbəb oldu. Belə mərkəzlərin yaradılması fikri zaman keçdikcə bütün dünyaya yayılmağa başladı və artıq XX əsrin 80-ci illərində ailədəki şiddətin təkcə qadınların şəxsi çətinliyi deyil dünya cəmiyyətinin qlobal sosial problemi olması məsələsi ön plana çıxdı (8).

Müasir dövrdə ailədaxili şiddət problemi təkcə hüquqşünasların, administrativ və cinayət hüququ sahəsində fəaliyyət göstərən ixtisaslaşmış mütəxəssislərin deyil, eyni zamanda psixologiya, sosiologiya, pedaqogika və digər elm sahəsində fəaliyyət göstərənlərində marağına və zorakılıqla mübarizə üsullarının hərtərəfli araşdırılmasına səbəb olmuşdur. Bu sahədə aparılmış araşdırmaların nəticələrinə əsasən məişət zorakılığına məruz qalanların 93-95 faizini qadınlar təşkil edir (8). Növbəti sırada isə ailənin nisbətən daha zəif fərdləri - uşaqlar, əlillər və yaşlı nəslin nümayəndələri dayanır. Bu problemlə qarşılaşanların böyük əksəriyyəti məsələnin

aradan qaldırılmasını sərbəst şəkildə təmin edə bilmir. Bu cür zərərçəkmiş şəxslərə kənardan mütəxəssislərin yardım etməsinə ehtiyac duyulur. Həmçinin araşdırmalar göstərir ki, müasir qlobal şəraitdə ailə məişət zorakılıq halları artmaqda və onların aqressivlik səviyyəsi yüksəlməkdə davam edir.

Son iyirmi ildə bir çox dövlətlər zorakılıq hallarının qarşısını almaq və qadınlara qarşı şiddət problemini həll etmək məqsədilə yeni qanunvericilik qəbul etmiş və ya mövcud qanunların təkmilləşdirilməsi istiqamətində fəaliyyət göstərmişdirlər. Artıq bir çox dünya dövlətlərinin qanunvericilik sistemində qadınlara qarşı şiddət cinayət əməli olaraq təsnif edilir, günahkarlar mühakimə olunur və cəzalandırılır, zorakılıq qurbanlarının hüquqları genişləndirilir və onlara dövlət dəstəyi həyata keçirilir. Bundan əlavə, zorakılıq və şiddətə məruz qalmış qadınlara mülki hüquqi müdafiə vasitələrindən istifadə etmək üçün hərtərəfli şərait yaradılır.

Qeyd etmək lazımdır ki, istər beynəlxalq təşkilatlar çərçivəsində, istərsə də regional səviyyədə məişət zorakılığının aradan qaldırılması, qadınların hüquqlarının qorunması, şiddətə məruz qalanların müdafiə olunması, şiddət tədbiq edənlərin müvafiq şəkildə cəzalandırılması istiqamətində dövlətlərarası əməkdaşlıq təşkil edilir. Bu sahədə beynəlxalq əməkdaşlıq ilk növbədə müxləlif konvensiya və protokolların qəbul edilməsi, üzv dövlətlərin öz üzərilərinə öhdəlik götürməsi və qəbul edilmiş qərarlara nəzarətin təşkili üçün müvafiq mexanizmlərin yaradılması fonunda həyata keçirilir. Bu istiqamətdə əldə edilmiş əsas sənədlərdən biri Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi İnsan hüquqları haqqında ümumi bəyannamədir (2). **İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə** (İHHÜB) hər insanın eyni hüquqlara sahib olması fikrinə əsaslanan ilk beynəlxalq sənədlərdən biridir. Əvvəlki beynəlxalq bəyannamə və sazişlərin əksəriyyəti hüquqları yalnız milli qanunvericiliklə irəli sürüldüyü halda tanıyırdı. İlk olaraq, İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə 58 coğrafi, mədəni və siyasi cəhətdən fərqli bölgəni ümumbəşəri bir sənədin yaradılması nəticəsində bir araya gətirmişdi. İHHÜB-nin məcburi olmamasına baxmayaraq, o, müxtəlif beynəlxalq müqavilələrdə öz əksini tapan beynəlxalq insan hüquqları standartları yaratmışdır (10). İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə 30 maddədən ibarətdir. Bəyannaməyə əsasən bütün insanlar qanun qarşısında bərabərdirlər və qanun tərəfindən bərabər müdafiə hüququna malikdirlər. Bəyannamədə qeyd olunur ki, "bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və bir-birlərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar (maddə 1). Heç kim işgəncəyə və ya qəddar, qeyri-insani və ya onun ləyaqətini alçaldan münasibətə və cəzaya məruz qalmamalıdır (maddə 5). Yetkinlik yaşına çatmış kişilər və qadınlar irqi, milli və dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulmadan nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikaha daxil olarkən, nikah müddətində və onun pozulması zamanı eyni hüquqlardan istifadə edirlər (maddə 16)" (11). 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatı qadınlara qarşı müxtəlif sahələrdə (ailə, iş, bütövlükdə dövlət səviyyəsində) bütün növ zorakılıqların qarşısının alınması haqqında növbəti bəyannamə qəbul edir (7). Bəyannamə qadınların əsas insan hüquqları və mədəni, ictimai, siyasi, iqtisadi və digər bütün sahələrdəki azadlıqlarından bərabərhüquqlu şəkildə istifadə etmə hüququnu bir daha təsbit edir. Bu hüquqlara aid edilir:

- yaşamaq hüququ;
- bərabərlik hüququ;
- şəxsi azadlıq və toxunulmazlıq hüququ;
- istənilən sahədə ayrı-seçkiliyə məruz qalmamaq hüququ;
- ən yüksək səviyyədə fiziki və zehni sağlamlıq hüququ;
- ədalətli və əlverişli iş şəraiti hüququ;
- işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzalara məruz qalmamaq hüququ (7).

BMT Baş Assambleyasının 1993-cü ildə qəbul etdiyi qadınlara qarşı şiddətin ləğv edilməsi haqqında bəyannamənin 4-cü maddəsində qeyd edilir:

- qadınlara qarşı şiddəti hüquqi şəkildə qınamaq, şiddətin aradan qaldırılmasından yayınmaq məqsədilə adət ənənələrə, dini aspektlərə əsaslanmamaq;

- daxili qanunvericilik çərçivəsində qadınlara qarşı hüquq pozuntularının cəzalandırılması, qurbanlara dəymiş ziyanın ödənilməsi istiqamətində mülki, cinayət, əmək və administrativ sanksiyaları işləyib hazırlamaq;

- milli qanunvericiliyə müvafiq olaraq ədalətli və effektiv hüquqi müdafiə vasitələrinin əlçatanlığını təmin etmək;

- qadın və kişilər arasında fərq qoymayan qanunların, hüquq mühafizə metodlarının və digər vasitələrin tətbiqi nəticəsində qadınların təkrar zorakılığa məruz qalmasının qarşısını almaq (7).

Analoji olaraq 1995-ci ildə qadınların vəziyyətinə dair dördüncü Pekin konfransında qəbul edilmiş Pekin platforması da aşağıdakı maddələri ehtiva edir (3):

✓ qanunsuz hərəkətləri cəzalandırmaq, qadınlara və qızlara dəymiş ziyanı aradan qaldırmaq məqsədilə daxili cinayət qanunvericiliyi çərçivəsində mülki, əmək və inzibati sanksiyaların qəbul edilməsi və möhkəmləndirilməsi;

✓ qadınlara qarşı zorakılığın aradan qaldırılmasında effektivliyi təmin etmək, günahkarların cəzalandırılmasını və məsuliyyətdən yayınma hallarının qarşısının alınması üçün qanunvericiliyin, məhkəmə komissiyalarının yaradılması, tətbiqinə nəzarətin təşkil edilməsi;

✓ şiddətə məruz qalmış şəxslərə dəymiş ziyanın və kompensasiyaların ödənilməsi, onların səhhətlərinin bərpa edilməsi də daxil olmaqla ədalətli və effektiv məhkəmə vasitələrinə zorakılıq qurbanı qadınların birbaşa çıxışının təmin edilməsi məqsədilə müvafiq tədbirlər planının qəbul edilməsi, qanun pozucularının reabilitasiyasının təşkil edilməsi (3).

Son illərdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası həm qadına qarşı şiddətlə əlaqəli ümumi məsələləri, həm də qadın alveri problemi, məişət zorakılığı, “namus müdafiəsi” adı altında həyata keçirilən cinayətlər də daxil olmaqla özünəməxsus formaları və təzahürləri haqqında müxtəlif bəyannamələr qəbul etmişdir. Müvafiq bəyannamələrdə BMT Baş Assambleyası üzv dövlətləri yuxarıda sadalanan sahələrdə milli qanun çərçivəsini möhkəmləndirməyə çağırışlar edir. Eyni zamanda BMT təşkilatı bütün üzv dövlətlər üçün ailədaxili şiddətə qarşı mübarizə aparmaq üçün qanunvericilik modelləri də təklif edir. Bu model məişət zorakılığı anlayışını, onun formalarını, zərərçəkmişlərin hüquqlarının müəyyənləşdirilməsini, müxtəlif strukturların öhdəliklərini, zərərçəkmişlərə təcili və planlı yardım tədbirlərinin təşkili üsullarını təsnif edərək üzv dövlətlərin qanunvericik sistemində tətbiqini nəzərdə tutur. Nümunəvi qanun modeli məsləhət xarakteri daşıyır. Bu modelin əsas məqsədləri aşağıdakılardır (4,1):

a) İnsan hüquqları sahəsində qadına qarşı şiddətin aradan qaldırılması haqqında BMT Bəyannaməsində ifadə edilmiş standartlara əməl olunması. Qadınlara psixi, fiziki, cinsi ziyan vuracaq, onların əzab çəkməsinə səbəb ola biləcək cinsi əlamətlərə əsaslanan istənilən zorakılıq aktının və ya təhdidinin mövcud olması, ictimai və şəxsi həyatda azadlıqdan məhrum edilməsi qadınlara qarşı şiddətə aid edilir (5);

b) məişət zorakılığının şəxsiyyət və cəmiyyətə qarşı bağışlanmayan ağır bir cinayət olduğunun qəbul edilməsi;

c) qadınlara qarşı zorakılığı qadağa edən, zorakılıq qurbanı olmuş qadınları müdafiə edən və gələcəkdə də onların şiddətə məruz qalmasının qarşısını alan qanunvericiliyin qəbul edilməsi zorakılıq qurbanlarının maksimum hüquqi müdafiə ilə təmin edilməsi;

d) zorakılıq qurbanlarının ehtiyaclarına cavab verən ailədəki şiddətin qarşısının alınması və cəzalandırılması, onların təhlükəsizliyinin təmin edilməsi üçün nəzərdə tutulan cinayət və mülki qanunvericilik tədbirlərinin təşkil edilməsi;

e) ailə və ya digər yaxın münasibətdə olduğu qadınlara qarşı şiddət tətbiq edən şəxslərə münasibətdə qanun pozuculuğunun cəzalandırılması və qarşısının alınması istiqamətində diskriminasiyadan kənar cinayət məcəlləsinin təmin edilməsi;

f) ailədaxili zorakılığa məruz qalmış qadınlar üçün xüsusi proqram və xidmətlərin hazırlanması, onlara sığınacaq və məsləhət verilməsi üçün protokol və öhdəliklərin hazırlanması (5).

Qadınlara qarşı zorakılığın aradan qaldırılması istiqamətində regional səviyyədə də dövlətlər arası əməkdaşlıq təşkil edilir. Bu əməkdaşlıq həm ailə məişət zorakılıq hallarının aradan qaldırılması həm də ümumilikdə qadınların hüquqlarının müdafiəsinin təşkilinin genişləndirilməsi istiqamətlərini özündə əks etdirir. Qadınlara qarşı zorakılığın aradan qaldırılması, müvafiq cinayətlərin cəzalandırılmasını nəzərdə tutan Amerikalararası Belema-du-Para konvensiyası yeganə regional bəyannamədir ki, məhz qadınlara qarşı zorakılığın aradan qaldırılmasını ehtiva edir. Bu konvensiyanın 7-ci maddəsinə əsasən üzv dövlətlərin üzərinə aşağıdakı öhdəliklər düşür (8):

✓qadınların hüquqlarının pozanların cəzalandırılması istiqamətində hüquq normalarının qəbul edilməsi;

✓müvafiq qanunvericiliyin və qadınlara qarşı şiddətə tolerantlıq göstərən adətlərin modifikasiya edilməsi;

✓zorakılıq qurbanları üçün ədalətli və effektiv hüquqi prosedurların hazırlanması;

✓qurbanların effektiv və ədalətli hüquq mühafizə vasitələrinə çıxışın təmin edilməsi üçün lazımi hüquqi və administrativ mexanizmlərin işlənib hazırlanması.

Cənubi Asiyada, Cənubi Asiya Regional Əməkdaşlıq Birliyi (SAARC) qadın və uşaq alverinin qarşısının alınmasına dair Konvensiyanı qəbul etmişdir.

Avropa regionunda da qadınlara qarşı zorakılığın aradan qaldırılması istiqamətində bir çox tədbirlər təşkil edilmişdir. 2011-ci ilin may ayının 11-də İstanbulda Avropa Şurasının Qadınlara qarşı şiddətin və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiyası qəbul olunmuşdur (9). Konvensiya şiddətin qarşısının alınması, qurbanların qorunması və cinayətkarların cəzasızlığına son qoymağı hədəfləyir. 12 mart 2012-ci ildə Türkiyə konvensiyanı təsdiqləyən ilk ölkə oldu. Ardınca 2013–2019-cu illərdə digər 33 ölkə müqaviləni təsdiqləmişdir. Konvensiya 1 avqust 2014-cü ildə qüvvəyə minmişdir. 2019-cu ilin mart ayından etibarən 45 ölkə və Avropa Birliyi tərəfindən imzalanmışdır (9). İstanbul Konvensiyası, "qadınlara yönəlmiş şiddətə qarşı mübarizə üçün hərtərəfli bir hüquqi baza və yanaşma yaradan" ilk qanuni məcburi vasitədir və məişət zorakılığının qarşısının alınması, qurbanların qorunması və təqsirləndirilən cinayətkarların mühakimə olunmasına istiqamətlənmişdir. Qadınlara qarşı şiddəti insan hüquqlarının pozulması və ayrıseçkilik forması kimi xarakterizə edir (Maddə 3 (a)). Ölkələr şiddətin qarşısını alarkən, qurbanları müdafiə edərkən və cinayətkarları mühakimə edərkən lazımi səy göstərməlidirlər (Maddə 5). Konvensiyada cinsiyyət tərifi də yer alır: Konvensiyanın məqsədi üçün maddə 3 (c)-də cinsiyyət "müəyyən bir cəmiyyətin qadınlar və kişilər üçün uyğun hesab etdiyi sosial cəhətdən qurulmuş rollar, davranışlar, fəaliyyətlər və xüsusiyyətlər" olaraq göstərilir. Bundan əlavə, müqavilə qadınlara qarşı şiddət kimi xarakterizə olunan bir sıra cinayətləri təyin edir. Konvensiyanı təsdiqləyən dövlətlər aşağıdakılar da daxil olmaqla bir sıra cinayətləri cinayət məsuliyyətinə cəlb etməlidirlər: psixoloji zorakılıq (Maddə 33); təqib etmək (maddə 34); fiziki zorakılıq (Maddə 35); təcavüz daxil olmaqla cinsi zorakılıq (Maddə 36), məcburi nikah (Maddə 37); qadın cinsiyyət orqanının kəsilməsi (Maddə 38), məcburi abort və məcburi sterilizasiya (Maddə 39). Konvensiyada cinsi narahatçılığın "cinayət və ya digər qanuni cəzaya" məruz qalması lazım olduğu bildirilir (Maddə 40). Konvensiyaya ayrıca "namus" adı verilən cinayətləri hədəf alan bir maddə də daxil edilmişdir (Maddə 42) (9).

Qadın hüquqlarının müdafiə olunması Avropanın ən böyük təhlükəsizlik təşkilatı olan ATƏT-ində gündəmindədir. Belə ki, Avropada hərbi - siyasi, iqtisadi, ekoloji və insan hüquqları sahəsində təhlükəsizliyi nəzərdə tutan Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı qadın hüquqlarının müdafiəsini də təhlükəsizliyə kompleks yanaşmanın bir hissəsi kimi təhlil edir. O qəbul edir ki, təkcə hərbi və polis gücünə əldə edilən ənənəvi təhlükəsizlik deyil ayrı ayrılıqda bütün fərdlərin təhlükəsizliyi də önəm kəsb edir. 2004-cü ildə ATƏT-in Nazirlər Şurası bütün

üzv dövlətlər tərəfindən gender bərabərliyini dəstəkləyən qərar qəbul etmişdir. Bu qərar üzv dövlətlər üçün gender zorakılığının istənilən formasının aradan qaldırılmasını təmin etmək üçün proqramların hazırlanması və müvafiq tədbirlərin təşkil edilməsini nəzərdə tutur. 2005-ci ildə isə təşkilat qadınlara qarşı şiddəti insan təhlükəsizliyinə hədə kimi qəbul edir (12). Həmçinin Nazirlər Şurası üzv dövlətlərə qızlara və qadınlara qarşı gender zorakılığının bütün formalarının aradan qaldırılması istiqamətində qanunvericiliyin qəbul edilməsi, nəzarətin həyata keçirilməsi və bu sahədə siyasətin formalaşdırılması üçün çağırışlar edir (6).

Yuxarıda sadalananlardan da göründüyü kimi beynəlxalq hüquqi aktlar cəmiyyətləri uçruma sürükləyən qadına şiddət faktoruna qarşı birgə mübarizəni şərtləndirir. Qarşıya qoyulan tələblərin dəqiqliklə yerinə yetirilməsi, məişət zorakılığına qarşı artıq mövcud olan qanunvericiliyin inkişaf etdirilməsi və təkmilləşdirilməsi dünya dövlətləri qarşısında duran vacib addımlardır.Bunun üçün bütün dövlətlərin hakimiyyətləri qarşısında aşağıdakı tələblərin qoyulması məqsədəuyğun hesab edilə bilər :

a) məişət zorakılığının qarşısının alınmasında hakimiyyət ilə cəmiyyətin tam birgə fəaliyyətinin təşkili;

b) ailədə şiddət probleminin aradan qaldırılması zamanı yarana biləcək problemlərin öncədən müəyyən edilməsi və həll yollarının təhlili;

c) məişət zorakılığının profilaktikası üçün mövcud metodların təkmilləşdirilməsi;

d) məişət zorakılığına məruz qalanların zamanında müəyyən edilməsi və şiddətə məruz qalmış şəxslərlə iş sahəsində mövcud olan çətinliklərin aradan qaldırılması;

e) sosial iş praktikasının inkişaf etdirilməsi və zorakılıqdan əziyyət çəkmiş şəxslərə sosial dəstəyin həyata keçirilməsi;

f) ziyan çəkmişlərin professional hüquqi dəstəklə təmin olunması və onların müdafiə altına alınması, ixtisaslaşmış yardım mərkəzlərinin yaradılması;

g) ailədaxili zorakılığa şərait yarada biləcək faktorların öncədən aradan qaldırılması üçün müvafiq orqanlar tərəfindən ailələrlə profilaktik işlərin aparılması.

**Ədəbiyyat siyahısı:**


1. Amnesty International, International Criminal Court: Guidelines for Effective Implementation. См. www. amnesty.org/en/library/info/IOR40/013/2004/en/.
2. Всеобщая декларация прав человека / принята Резолюцией 217 А (III) Генеральной Ассамблеи ООН : от 10.12.1948 г.
3. Доклад четвертой Всемирной конференции по положению женщин, Пекин, 4–15 сентября 1995 года (издание Организации Объединенных Наций, в продаже под № R.96.IV.13), пункт 124.
4. Доклад Специального докладчика Организации Объединенных Наций по вопросу о насилии в отношении женщин, его причинах и последствиях (1996 год) «Структура типовогозаконодательства» . Конвенция Совета Европы о противодействии торговле людьми, статьи 18–20.
5. Модельное законодательство о насилии в семье / принято Резолюцией Генеральной Ассамблеи ООН в 1996 г
6. ОБСЕ, Борьба с насилием в отношении женщин в регионе ОБСЕ,2017
7. Резолюция 48/104 Генеральной Ассамблеи от 19 декабря 1993 года.
8. https://www.un.org/womenwatch/daw/vaw/handbook/Handbook%20for%20legislation%20on%20VAW%20(Russian).pdf
9. https://az.wikipedia.org/wiki/%C4%B0stanbul_Konvensiyas%C4%B1
10. https://az.wikipedia.org/wiki/%C4%B0nsan_H%C3%BCquqlar%C4%B1_Haqq%C4%B1nda_%C3%9Cmumi_B%C9%99yannam%C9%99

11. https://dejure.az/az/legislation/insan-huquqlari-haqqinda-umumi-byannam
12. https://www.osce.org/files/f/documents/7/9/373252.pdf

**Хокума Гаджиева**

**МЕЖДУНАРОДНОЕ И РЕГИОНАЛЬНОЕ СОТРУДНИЧЕСТВО В ОБЛАСТИ ДОМАШНЕГО НАСИЛИЯ**

**Резюме:** Домашнее насилие или же семейно-бытовое насилие – это насилие или дурное обращение одного человека по отношению к другому, совершаемое в домашних условиях, например, в браке или сожительстве. Одной из основных проблем, стоящих перед современным обществом, является предотвращение домашнего насилия, его негативных правовых, медицинских и социальных последствий, организация социальной защиты жертв домашнего насилия, оказание им необходимой юридической помощи. Принимаются меры по устранению причин домашнего насилия как в национальном законодательстве разных стран, так и на международном уровне.

**Ключевые слова:** насилие, домашнее насилие, права человека, защита женщин.

**Hokuma Hajiyeva**

**INTERNATIONAL AND REGIONAL COOPERATION IN THE FIELD OF DOMESTIC VIOLENCE**

**Summary**: Domestic violence is defined as abuse of kinship, cohabitation or cohabitation. One of the main problems facing modern society is the prevention of domestic violence, its negative legal, medical and social consequences, organization of social protection for victims of domestic violence, providing them with the necessary legal assistance. Measures are being taken to eliminate the causes of domestic violence both in the national legislation of different countries and at the international level.

**Key words:** violence, domestic violence, human rights, protection of women

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tovsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Məftunə İsmayılova**

**UOT: 31.:342.7.:390.**

**Bilqeyis Əliyeva**
**Bakı Dövlət Universiteti**
**Dissertant**
**E-mail: aliyevabilqeyis123@gmail.com**

# QADINLARIN TARİXİ DƏYƏRİNİN İŞIQLANDIRILMASI BƏŞƏRİYYƏTİN YARI TARİXİNİN CANLANDIRILMASIDIR

**Xülasə:** Cinsi qavrayışlar yalnız zaman və məkanla dəyişmir. Eyni cəmiyyətdə insanların kişilik və qadınlıq haqqında təsəvvürləri bir insanın yaşına, sosial vəziyyətinə, etnik qrupuna, dininə, ailə vəziyyətinə və digər amillərə görə fərqlənir. Digər sosial münasibətlər sistemləri kimi, gender münasibətləri də güc tarazlığına və güc bölgüsünə əsaslanır. Bu güc tarazlığı, müəyyən cəmiyyətlərdə və cəmiyyətin müxtəlif qrupları daxilində kişilər və qadınlar üçün tətbiq olunan qayda, qadağan və gözləntilərdə əks olunur. Sosial qaydalar və qadağalar kişilər və qadınlar üçün fərqli davranışları təyin edir. Gözləmələr, ailədə, işdə, kollektivdə və digər sosial mühitlərdə həyatda nələrin əldə olunacağına dair qadın və kişilərin ümumi fikirlərini əks etdirir.

**Açar sözlər:** qadın, kişi, gender, ailə, sosial, cəmiyyət, qadağa

Bioloji fərqlər əsasında müəyyənləşdirilən cinsdən fərqli olaraq gender (sosial cins) kişi və qadınların ictimai münasibətlər çərçivəsində məsələn, ailədə, məktəbdə, iş kollektivində formalaşan rol və vəzifələrini əhatə edir. Bu rollar və vəzifələr konkret cəmiyyətdə mövcud olan kişi və qadın sosial kateqoriyalarının mahiyyətini təşkil edir. Digər mühüm sosial kateqoriyalarla birgə (ictimai sinif, irq, etnik qrup) gender insanların cəmiyyətdəki mövqeyini müəyyənləşdirən amillərdən biridir.

Şimali Qafqaz xalqları arasında ənənəvi olaraq oğulların tərbiyəsi ilə kişilər məşğul olurdu. Atalıq adlanan qədim bir variantında oğlan uşaqları erkən yaşdan öz ailəsindən ayrılır, başqa ailəyə və ya başqa bir kəndə verilirdi. Orada kişi ailə üzvləri tərəfindən tərbiyə edilib öz valideynlərinin yanına yalnız yeniyetməlik çağında qayıdırdı.

Genderə aid təsəvvürlər təkcə zaman və məkanla dəyişmir. Eyni cəmiyyətdə insanların kişilik və qadınlıq xüsusiyyətləri haqqında təsəvvürləri konkret insanın yaşı, sosial mövqeyi, etnik qrupu, dini, ailə statusu və başqa faktorlardan asılı olaraq fərqlənir. Digər sosial münasibətlər sistemləri kimi gender münasibətləri də güc balansına hakimiyyət bölgüsünə əsaslanır. Bu güc balansı konkret cəmiyyətlərdə və cəmiyyət içərisində müxtəlif qruplarda kişi və qadınlara aid edilən qaydalar, qadağalar və gözləntilərdə öz əksini tapır. İctimai qaydalar və qadağalar kişi və qadınlar üçün fərqli davranış tərzlərini müəyyənləşdirir. Gözləntilər isə qadınların və kişilərin həyatda nəyə nail olacağına dair ailə, iş, kollektivi və digər sosial mühitlərdə ümumi rəyləri əks etdirir. "Seçimlərinizi məhdudlaşdıran müxtəlif faktorlar arasında cəmiyyətdə və ailədə bərqərar olan bərabərsizlik mərkəzi yer tutur. Qeyri-bərabər hüquq və imkanlar şəraitində seçimlərin genişləndirilməsi yalnız konkret kateqoriyalara aid insanlar üçün mümkün olur. Beləliklə bərabərsizlik nəticəsində "insan inkişafı" yalnız konkret kateqoriyalı insanların inkişafı ilə əvəzlənir". (4, 5)

Qadın və kişinin psixoloji xasiyyətnamələrindəki fərq bəlkə də kişi başlanğıcının birinciliyini və üstünlüyünü sübut etmək məqsədi güdən alimləri həmişə maraqlandırmışdır, çünki qadının psixoloji xasiyyətnaməsi kişi alimləri tərəfindən diqqətəlayiq sayılmırdı. Mahiyyətcə müəyyən mənada qadının psixoloji əlamətlərinə toxunan ilk psixoloq-alim Avstriya psixoloqu, psixoanalizin müəllifi Ziqmund Freyd idi və o qadını yarımçılıq kompleksindən əziyyət çəkən, kişi cinsiyyəti üzvləri arasında olan və ona həsəd aparan alçaldılmış kişi kimi təsvir edirdi. Sonralar Karl Qustav Yunq Animu kişi şəxsiyyətinin şüursuz qadın tərəfi, Animusu isə qadın şəxsiyyətində şüursuz kişi tərəfi kimi qeyd edərək, heterogen şəxsiyyət strukturundan

söhbət açır. Karen Horninin neofreydizmini qadın psixologiyasının rüşeymi hesab etmək olar. Karen Horni öz nəzəriyyəsində psixoanalizin irəli sürdüyü kompleksləri altüst edərək və psixologiyada sosiomədəni yanaşmanı inkişaf etdirərək, cinsi rolların formalaşmasında mədəniyyətin əhəmiyyətinə diqqəti yönəltməklə qadının inkişafdan qalmış kişi kimi nəzərdən keçirilməsini ciddi tənqidə tutur. Alfred Adler, Erik Erikson, Bern Şon kimi bəzi Qərb psixoloqları da qadının psixoloji inkişafına müəyyən dərəcədə diqqət yetirirdi. Azərbaycan psixologiyasında professor Əbdül Əlizadə ilk dəfə olaraq cinsi dimorfizm aspektinə diqqət vermiş, psixi cins dedikdə onu dəlil sahəsinin, dəyərlər istiqamətinin, özünüdərkin, mənəvi təfəkkürün və digər psixoloji xüsusiyyətlərin formalaşması kimi nəzərdən keçirməyin lazım olduğunu qeyd etmişdir. (3, 199)

Evdən kənarda təhsil almaq qadağası XX əsrin əvvəllərində Azərbaycan ailələrinin əksəriyyətində qızlara şamil edilirdi. O dövrdə bəzi ziyalı ailələrində qızların təhsilinə icazə verilirdi. Dövrün böyük ədibləri, məşhur yazıçıları və ictimai xadimləri M.F.Axundov, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, Ə.Ağayev, C.Məmmədquluzadə, H.Z.Tağıyev, C.Cabbarlı, M.Ə.Sabir, Ü.Hacıbəyov və başqaları Azərbaycanda qızların, qadınların təhsilinin ictimai qadağalardan azad olması yolunda yorulmadan çıxış edirdi. XX əsrin əvvəllərində C.Məmmədquluzadə və Ö.F.Nemanzadənin redaktorluğu ilə fəaliyyətə başlamış Molla Nəsrəddin jurnalında qadın azadlığı ilə bağlı tənqidi məramlar öz əksini tapmışdır. Qadına münasibətdə müəlliflər ən mütərəqqi mövqedən çıxış edir, onların hüquq və bərabərliyni qorumağa çalışırdı. Burada nəşr edilən hekayə, satirik şeir, felyeton, satirik karikatura və başqa formalarda qadın azadlığı və hüquqsuzluğunu tənqid edən kəskin materiallar nəşr olunmuşdur. C.Məmmədquluzadənin “Ölülər” əsərində toxunulan qadın hüquqsuzluğu probleminə ədibin “Qanlı faciə” (1910) felyetonunda da rast gəlirik: “Allahın göydə gəzən ayı hər gecə qanlı faciələrə şahid olur və əgər kişilərin otağına zorla cəkib apardığınız balaca qızların göz yaşlarını bir yerə yığsaq təzə bir ümman dəryası əmələ gələr”. (2, 50)

Azərbaycan cəmiyyətində qadına münasibət müqəddəs olmaqla eyni zamanda uzun bir tarixi yol keçmişdir. 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti müasir dünyada qadınların seçki hüququnu tanıyan ilk dövlətlərdəndir. Bu baxımdan Azərbaycan hətta ABŞ, Böyük Britaniya kimi qabaqcıl Qərb dövlətlərini də qabaqlamışdır. Bununla belə Azərbaycan qadınlığının yolu keşməkeşli olmuşdur. Ölkəmiz bolşevik işğalına məruz qaldıqdan sonra qadın və kişilər arasında hüquq bərabərliyi istiqamətində bir sıra qanunlar qəbul edildi. Ümumilikdə sovet qadınları üçün nəzərdə tutulan hər bir qanun Azərbaycan qadınlarına da şamil edildi. Bütün SSRİ dövründə qadınların hüquq bərabərliyi istiqamətində verilən sərəncam əmrləri ümumi şəkildə belə idi; kişi və qadınların siyasi və sosial hüquqları bərabərdir, burjua ailələri daha mövcud deyil və onları kişi və qadının azad ittifaqı əvəz edir, ev işləri ilə paralel qadın, kişi ilə bərabər ictimai istehsalatda çalışır və s. (1, 155)

Tarixi miqyasda kifayət qədər kiçik vaxt ərzində sovet siyasəti (kollektivləşmə, təhsil islahatları, sənayeləşmə, şəhər əhalisinin artımı, ailə, qadın və nikah sahəsində qəbul edilən qanunlar və aparılan ictimai kateqoriyalar) və İkinci dünya müharibəsi şəraitində cəmiyyətdə əmək bölgüsünün dəyişməsi gender münasibətlərinə ciddi dəyişiklik gətirdi. Qadınlara tətbiq olunan bir sıra qadağalar bu dəyişikliklərin nəticəsində aradan qaldırıldı. Qadınlar və qızlar təhsil almaq imkanı qazandı, oğlan və qızların ictimai sahədə mütəmadi olaraq ünsiyyətdə olması üçün şərait yarandı. Qızların müəllimlik sahəsində ixtisaslaşıb işləməsi kütləvi hal aldı. Artıq 2012-ci ildə Azərbaycanda təhsil müəssisələrində təhsil alanların 47%-ni qızlar təşkil etmiş, təhsil sahəsində çalışanların mütləq əksəriyyəti (68%) qadınlar olmuşdur.

“Gender bərabərsizliyi təkcə qızların və qadınların maraqlarına ziyan vurmur; o həmçinin oğlanlar və kişilərə mənfi təsir göstərir. Bu təsvir bioloji əlaqələr və sosial əlaqələr vasitəsilə həyata keçir”. (Amarta Sen,Many faces of gender inequality).

Çox zaman gender və feminizm termini yanlış olaraq eyniləşdirilir. İndiki dövrdə feminizmi müxtəlif formalarda müəyyən edirlər. Çox zaman feminizm qadınların azadlıq

uğrunda hərəkatının əsasında duran cinslərin bərabərliyi nəzəriyyəsi kimi anlaşılır. Lakin daha çox onu geniş şəkildə-cinslərin hüquq bərabərliyi təsəvvürlərinə əsaslan qadın hüquqlarının müdafiəsi üzrə müxtəlif hərəkatlar kimi izah edirlər (bu halda termin qadın hərəkatının sinonimi kimi işlədilə bilər)

Feminizm qadınlara verilən ictimai qiymətləndirmədə ədalətsizliyin olmasının qəbul edilməsindən meydana çıxmışdır. O, qadınların sıxışdırılmasının əsaslarını və səviyyələrini təhlil edərək, onların azadlığına nail olmağa çalışır.

Beynəlxalq təcrübəyə əsasən qeyd etmək olar ki, qanunverici orqanlarda qadınların iştirakını artırmaq üçün xüsusi məqsədlər daşıyan konkret tədbirlərin həyata keçirilməsi əksəriyyət hallarda arzuolunan nəticələri vermir. Bunları yerinə yetirməkdən ötrü hər şeydən əvvəl qadınlar maliyyə cəhətdən asılı olmamalı və əmək bazarında dövlət tərəfindən gender bərabərliyi təmin edilməlidir. İnkişaf etmiş, gender bərabərliyi siyasətini uğurla həyata keçirdən Avropa və Amerika ölkələrinin münasib qurumları ilk növbədə ailə vəzifələrinin kişilər və qadınlar arasında bərabər bölüşdürülməsinə nəzarəti gücləndirir, çünki bu gender mədəniyyətinin formalaşmasına təkan verən əsas amillərdəndir. Azərbaycan patriarxal cəmiyyətində qadın və kişilərin cinslərin oturuşmuş streotipləşmiş rolları mentalitetinə söykənən, insanları tənəzzülə sürükləyən adət-ənənlər bu sahədə tərəqqiyə mane olduğundan problemin kökündə duran səbəblər aşkar edilməli və məsələnin həlli hərtərəfli həll olunmalıdır. Bu məsələnin uğurlu həllində başlıca rol KİV və ailə institutlarının üzərinə düşür. Cəmiyyətdə gender stereotipləri hər zaman davam edicidir. Buna səbəb müasir dövrdə qadınların inkişafında əsas maneələrdən biri də adət-ənənələr və məhz həmin stereotiplərdir. (1, 170-171) Qadınların tarixi dəyərinin işıqlandırılması bəşəriyyətin yarı tarixinin canlandırılmasıdır. Cəmiyyətin hansı inkişafından söz açmaq olar ki, hələ də bu gün də əhalinin yarısından çoxunu təşkil edən qadınların yaradıcılıq təcrübəsinin üstündən xətt çəkməyə cəhd göstərənlərin sayı kifayət qədərdir.

Qadın müstəqilliyi ənənəsinin sonrakı dövrlərdəki mövcudluğuna, onun ellinizmdən (e.ə IV əsr- e.ə III əsr) qabaqkı və o dövrün sinfi cəmiyyətlərində təkamülünə nəzər salaq.

Hökmdar qadın - massagetlərin başçısı Tomris haqqındakı mif maraq doğurur ki, ona əsasən massagetlərin çarlığı Araz çayından şimala doğru, Xəzər dənizinin sahili boyunda yerləşirdi. Herodotun qeyd etdiyinə görə, çar Kir eramızdan əvvəl V əsrdə Tomrisə elçilər ilə evlənmək təklifi göndərir. Tomris başa düşür ki, Kir massaget torpaqlarına göz dikib və ona rədd cavabı verir. Bundan sonra Kir massagetlərə qarşı açıq döyüşə başlayır. Tomris Kirin yanına çapar yollayır ki, o, öz niyyətindən əl çəksin. Tomrisin xəbərdarlığında deyilirdi: “Miliyalıların çarı. Əgər sən massagetlərə hücum etmək həvəsindəsənsə, çay üzərindən körpü tikməyi dayandır. Sakitcə bizim ölkəyə gəl, çünki biz də çaydan üçgünlük məsafədə olacağıq. Əgər bizi öz ölkənizə buraxırsansa da, belə et”. Kir də öz hiyləgər müşaviri Krezin məsləhətinə əməl edərək Tomrisə xəbər edir ki, o geriyə çəkilsin, çünki Kir onun torpağına daxil olmaq niyyətindədir. Vədinə əməl edən Tomris geri çəkilir. Kir qoşunu ilə birlikdə Arazı keçir, bir günlük keçid ilə ölkəyə daxil olur, ordusunun sol hissəsini yerində qoyaraq qalanları ilə yenidən Araza sarı çəkilir. Massagetlərin qoşununun üçüncü hissəsi Tomrisin oğlunun rəhbərliyi altında Kirin qoyduğu döyüşçülərlə hücum edir və onlara qalib gəlir. Qələbədən sonra farsların atıb getdiyi yemək və şərabı görən massagetlər kef məclisi qurur və sonra yatırlar. Onda hiyləgər Kir öz qoşunu ilə massagetlərə qəfildən hücum edib onları qırır. Sağ qalmış döyüşçüləri və Tomrisin oğlunu əsir götürürlər. Bundan xəbər tutan Tomris Kirin yanına çapar göndərir; “Qaniçən Kir! Qələbənlə öyünmə... Mərdliklə silah gücünə yox, üzüm salxımı ilə, zəhərlə sən mənim oğlumu üstələdin... Oğlumu mənə qaytarıb və öz xoşunla mənim torpağımdan çıx get. Massagetlərin hakimi Günəş allahına and verirəm ki, belə etməsən, mən doğrudan da sənə öz qanını içirəcəyəm”. Kirin, onun sözlərini eşitmədiyini bilən Tomris bütün qoşunu ilə birlikdə farslara hücum edir və onları qırır, Kir isə həlak olur. Tomris şərab tuluğunu insan qanı ilə doldurur və əmr edir ki, Kirin cəsədini oraya atsınlar.

Bu mif müəyyən dərəcədə əmin-amanlıq və müharibə dövründə iki hökmdarın gender münasibətlərinə işıq salır, hökmdarlara xas olan xüsusiyyətləri açır, qadın hökmdarın ağlını, iradəsini, döyüş əzmini, ədalət hissini, sözündə sədaqətli olmasını əks etdirir.

Dünyanın yaranması haqda Bibliya rəvayəti arxasında universal bir mif durur ki, etnoloqlar onu bu və ya başqa variantda bütün Avropada, Ön və Orta Asiyada, Hindistanda, Afrikada, Çində tapırlar.

Amerika alimi S.N.Kramerin tapdığı kimi, Bibliyadakı Həvva şumer mifologiyasındakı Ana ilahə Ninxursaç ilə həmahəngdir. Bu mifə əsasən, Ana ilahə Ninxursaçın şumer cənnətində səkkiz bitki var idi ki, onları yeməyə icazə verilmirdi. Enki isə bu qadağanı pozdu və Ninxursaç onu ölümlə hədələdi. Enki ölümcül xəstələndi. Ninxursaç onu xilas etməyə qərar verdi. Enkinin bədənindəki hər bir xəstə yerdən o, şəfaverici Allah yaratdı. Enkinin xəstə yerlərindən səkkizincisi qabırğası idi. Ana ilahə dedi buradan isə sənə yoldaş, ilahə Nintini yaradacağam. Gözəl bir şəkildə qadın kişini yox, kişi qadını doğdu. Varlıq Kitabına əsasən, əvvəl məxluqun çələngi – kişi yaranmışdır; qadın sonradan və həmin materialdan deyil, kişinin qabırğasından yaranmışdır.

Bibliyada məhz Həvva əməl törədir, kişini – Adamı "dərk" ağacının yasaq barından dadmaq üçün yoldan çıxarır. Bunun üstündə onlar ikisi də cənnətdən qovulur. Həvvanın qəbahəti olmasaydı, yer üzündə nə ehtiyac, nə ölüm, nə sevgi, nə də nəsil olmazdı. Həvva Adamı "oyatdı". Mif bunda insanlığa lənət görür, nəticədə isə lənətlənən qadın olur. Həvvaya və onun qızlarına – bütünlükdə qadın cinsinə edilən lənət ilahiyyatçıların çox sevdiyi mövzülardandır. Onlar üçün Həvva haqqındakı mifin mənası mənəvi məsuliyyətin təntənəsində və Yaradana tabeçilikdədir.

Hər hansı mif kimi, Həvva haqqında mif də real tarixi hadisəyə şəhadətlik edir – matriarxatın sonunu göstərir. Varlıq Kitabında biologiyanın əksinə olaraq qadın kişini yox, kişi başlanğıcı qadını yaratmışdır. Həvva haqqında mif "böyük ana"nı taxtdan salır və onu tabeçilik vəziyyətinə qoyur. Burada ana alçaldılır, uşaq doğmaq günahla və düz yoldan çıxmaqla bağlı olur: qadın qorxu içərisində doğmalı olur. Varlıq Kitabında mif Ata Allahın qələbəsini və patriarxal düşüncə tərzinin təntənəsini sübut edir.

Pater-latınca atadır. Patriarxat deyəndə ata hüququna əsaslanmış cəmiyyətin təşkili nəzərdə tutulur. Yəhudilərdə dini təsəvvür sahəsində absolyut patriarxart formalaşmışdır. Patriarxart qəbilədə böyük, ailənin yaxud nəslin atası deməkdir. Dinlər arasında iudaizm birinci olaraq kosmik politeizmi (çoxallahlıq), təbiət hadisələrinin ilahi mübarizəsi haqqında təsəvvürü dəf edərək onu ata Allahın mənəvi qanunları ilə əvəz etmişdir. Bu zaman matriarxatda birinci yerdə duran qadının qiyməti mühüm dərəcədə aşağı enir. İudaizmdən ata allah barədə təsəvvürü və Həvva haqqında rəvayəti götürən xristianlıq onu daha da inkişaf etdirdi.

Xristianlıqda qadına qarşı münasibəti, yeni dini məzhəbin banisi olan İususun qadına qarşı münasibətini dəqiqləşdirmək üçün xristianlığın tarixinə müraciət etmək gərəkdir. Xristianlığın yaranması və inkişafı bir çox ölkə və xalqların ictimai-siyasi, sosial və mədəni həyatının bütün sahələrində dönüş sayılan ellin dövrünə təsadüf etmişdi. Ellin mədəniyyətinin inkişafı sayəsində ictimai vəziyyətinə təsir göstərdi. Ellinizm coğrafi üfüqü genişləndirdi, eyni zamanda insan qadının da ictimai vəziyyətinə təsir göstərdi. Ellinizm coğrafi üfüqi genişləndirdi, eyni zamanda insan düşüncəsi də genişləndi və həyat haqqında yeni humanist təsəvvür yarandı. Yunan dramaturqu Manandr (e.ə IV-III əsrlər) etik monoteizm ruhunda ellinist humanizmi prinsipini formalaşdırdı: "Allah hamı üçün birdir-azad insan üçün də, qul üçün də". O həm də başqa bir məşhur ifadənin müəllifidir. "İnsan insan olanda nə gözəl məxluqdur". Manandr bu anlayışa eyni səviyyədə həm kişini, həm də qadını daxil edir. O, insanların zəifliyini tənqid edir, qadını dərindən anlayır. Demək olar ki, psixoloji baxımdan qadının mahiyyətini açan yalnız ellinizm oldu.

"Stoisizm fəlsəfi məktəbinin nümayəndələri qadın, yaxud kişi, azad insan, yaxud qul, yunan yaxud barbar olmasından asılı olmayaraq bütün insanların mənəvi bərabərliyindən

danışırdı. Qadının vəziyyətinin dəyişməsi ilə bağlı nikaha yeni münasibət yarandı. Böyük Aleksandrın tərbiyəçisi olan Aristotel qadına və nikaha qarşı baxışların dəyişməsinə çağırırdı. Aristotelin fikrinə görə, nikah eləcə nəslin artmasına xidmət etməli deyil, o, ümumi vəzifəni yerinə yetirmək üçün birləşmiş iki insandan ibarət cəmiyyət olmalı, həmin vəzifələr bölünməlidir, çünki hərənin işi başqadır, "ikisi də bir-birinə kömək edir və hərə öz bacardığından tutur, qurduğu cəmiyyətdə fayda və məmnuniyyət tapır". Əgər ailə üzvlərinin hər ikisi mənən safdırsa, o nikahın mənəvi əsası olur". (3, 11)

"Qadın tarixi bəşəriyyətin yalnız tarixi deyil, ona bütövlükdə aiddir. Bəlkə də bəşəriyyətin bir yarısının tarixi ilə, onların hər birini isə bütövlükdə tarixlə uzlaşdırmaq cəhdindəki ən vacib dönüş qadınlara bir sosial qrup olaraq yanaşma sayəsində baş verdi. Müvafiq olaraq kişilər də müəyyən gender qrupu kimi qəbul edilməyə başladı. Bu isə o deməkdir ki, ümumi tarix həm də gender tarixi kimi, yəni qarşılıqlı gender təsiri tarixi olaraq araşdırılmalıdır". (3, 13)

XVIII əsrdə Rusiyada yaşamış abbat d'Otterot öz kitabında yazırdı ki, rus qadınları öz ərinin köləsidir. Bəs onlar kölədirsə, bu köləlik nə vaxt başlanıb? Cəmiyyətdə qadının sosial vəziyyəti hər şeydən əvvəl dövlətin idealogiyasına müvafiq olaraq köklü sürətdə dəyişirdi. Rus tarixçisi V.Y.Şulqinin dəqiq ifadəsinə görə, bütpərəstlik dövründə həyatın bütün sahələri qadının üzünə açıq idi. X-XIV əsr rus bilinalarının səciyyəvi xüsusiyyəti-bir dənə də "qadın düşmənin" olmamasıdır. Məhz qadın ilahələr insanlara qarşı rəhmdil və mehriban idi. Bu vəziyyət XIX əsrə kimi qismən saxlanmışdır.

XX əsrin son onilliklərində demokratiya ideyalarının yayılması, əksər ölkələrdə qadına seçki hüququnun verilməsi hakim nüfuza sahib olmaq və onu saxlamaqda kişi ilə qadının qeyri-bərabər imkanlarını aktuallaşdırdı. Federal və yerli qanunvericilik və icra orqanlarında gender bərabərliyinə və hakimiyyətin ən yüksək pillələrində onlar arasında ədalətli tarazlığa nail olmaq məsələsi ilə bağlı elmi mübahisələrdə əhalinin bəzi qruplarının, o cümlədən qadınların sayının nədən daha çox olmasının vacibliyi tez-tez qaldırılır. Qərar qəbul etmə səviyyəsində qadınların daha çox sayda təqdim olunmasının xeyrinə səslənən çoxsaylı dəlillər bir neçə demokratiya nəzəriyyəsi ilə əlaqələndirilir.

Təbii ədalət və rəmzi bərabərlik prinsipinə əsaslanan demokratiya nəzəriyyəsi qadınların siyasi hakimiyyətdə, ictimai vəzifələrdə, müxtəlif sahələrdə (təhsil, biznes, istehsal), idarəetmədə kişilərlə bərabər iştirakı üçün bünövrə yaradır. Çünki Amerika tədqiqatçısı Syuzan Kerollun dediyi kimi, onların daha çox sayda təqdim olunması demokratik hüquq kimi nəzərdən keçirilir, qadınların fəal iştirak etməməsi isə demokratik prinsipin qeyri-düzgün iş indikatoru kimi qəbul olunur. Bununla əlaqədər parlament demokratiyası qadınların sayının bir məqsəd olaraq, dəyişiklik gətirib-gətirməməsindən asılı olmayaraq çox olmasını tələb edir. Mütənasib təmsilçilik ideyası da buna olduqca yaxındır. Mütənasib təmsilçilik nəzəriyyəsinə əsasən, əhalinin müxtəlif təbəqələri, o cümlədən qadınlar hakimiyyətin yüksək eşelonlarında onların ümumi kütlədəki sayına mütənasib təmsil olunmalıdır.

İkinci qrupun mərkəzində belə bir fikir durur ki, daha çox sayda qadının siyasi strukturlara daxil olması və onların ümumiyyətlə hakimiyyətə buraxılması son illərdə siyasətçilərin və siyasi həyatın qoyduğu xoşagəlməz təəssüratın aradan qaldırılmasına xidmət edirdi. Qadınların qərar qəbul etmə prosesindən xaric edilməsi onlar üçün siyasi korrupsiyada iştirak etməyənlər imicini yaratmışdı, yəni onlardan xüsusi maraqlardan azad hərəkət gözləmək daha düzgündür. Həmin nəzəriyyənin tərəfdarları hesab edir ki, lazimi təhsil səviyyəsinə (bir çox ölkələrdə müasir qadınların təhsil və ixtisas səviyyəsi kişilər ilə eyni səviyyədədir və yaxud ondan da yüksəkdir) malik olduğu üçün qadın yüksək vəzifə tuta bilər və diskriminasiya, onun da nəticəsində qadınların məsul vəzifəyə təyin olunmaması cəmiyyət üçün mühüm itki sayıla bilər.

Üçüncüsü, nümayəndəlik demokratiyası qadınların hakimiyyətə daha fəal daxil olmasını ona görə tələb edir ki, belə halda siyasi mədəniyyət və siyasi gündəlik də vacib dəyişikliklərə

məruz qalacaqdır. Qadınların həyat təcrübəsi başqa olduğundan onların siyasi prioriteti kişilərinkindən fərqlənir. Nəticədə daha çox sayda qadının hakim strukturlara təyin olunması ictimai siyasətin dəyişməsinə gətirib çıxaracaqdır.

Eyni zamanda əsasən kişi tərkibli hakimiyyət orqanlarında (məsələn, parlament, nazirlər kabineti, şəhər soveti) qadınların məsul və mühüm vəzifədə olması, yəni onların təmsilçiliyi adətən siyasi prioritetlərə zəif təsir göstərir və dəyişikliklərin baş verəcəyinə zəmanət vermir. Britaniya tədqiqatçısı Jill Bestidinskinin qeyd etdiyi kimi, belə şəraitdə qadınlar hakimiyyətdə o zaman nail ola bilir ki, ya kişi kimi hərəkət edir (buna Marqaret Tetçeri misal gətirmək olar), ya da qadın marağını əks etdirən fikir ifadə etməyə cəhd göstərərsə, kişi həmkarları arasında özünə dəstək tapa bilmir. Skandinaviya və digər Şimali Avropa ölkələrinin təcrübəsinə əsasən isbat etmək olar ki, hakimiyyət orqanlarında qadınların təmsil olunması o zaman təsirli olur ki, bu rəqəm heç olmasa 15% təşkil etsin. Lakin hakimiyyət orqanında qadınların sayının artması özü-özlüyündə azdır. Qadınlar öz maraqlarını dərk etməli, müasir mədəniyyətdə öz səslərinə malik olmağı bacarmalıdırlar.

İnsan hüquqlarının ümümdünya bəyannaməsi insan haqlarına dair Beynəlxalq faktlar insan hüquqlarının və əsas azadlıqlarının qorunması haqda Avropa Konvensiyası hüquq və azadlıqlarının elə universal toplusunu müəyyən etmişlər ki, vəhdətdə o, fərdi normal həyat və fəaliyyətini təmin etməyə xidmət edir. Bu kataloq azadlıq və sosial tərəqqi uğrundan minilllik mübarizə əsasında formalaşmışdır.

Odur ki, müasir şəraitdə insanın əsas hüquqları altında dövlətlərin konstitusiyalarında və beynəlxalq – hüquq sənədlərdə, o cümlədən insan haqlarına dair Beynəlxalq Billdə, həmçinin insan haqlarının qorunması haqqında Avropa Konvensiyasında, Avropa sosial partiyasında əks olunmuş hüquqları başa düşünülməlidir.

İnsan əsas hüquqlarını kateroriyasının qabardılması heç də digər hüquqların "İkinci dərəcəli" və az əhəmiyyətli, yaxud da onların təmin olunması üçün dövlətin az səy göstərməsi demək deyildir.

Gender bərabərliyi demokratik cəmiyyətin ümumi bərabərlik prinsiplərinin tərkib hissəsidir. O, hər şeyi əhatə edən, insan mənşəyindən, dinindən, sosial statusundan, cinsindən və s. asılı olmayaraq hər hansı ayrı seçkiliyi rədd edir. Bərabərliyin yaranma və təşəkkül tarixinin çoxəsrlik kökləri vardır. Cinsi əlamətə görə bərabərlik bir əsrdən azacıq çox vaxt olar ki, vətəndaşların ümumi bərabərlik prinsipi kataloquna daxil olmuşdur və cəmiyyətin inkişaf prosesindən silinə bilməz. Hal-hazırda hamı qəbul edir ki, cins anlayışı həm siyasi, həm konstitusiya planında ziddiyəti, bərabərlik prinsipinin pozulması, kişi və qadına qarşı edilməsindən asılı olmayaraq konstitusiya hüquqlarının pozulması ayrı-seçkilik deməkdir.

Qadınlar haqqında hər hansı formada ayrı-seçkinin ləğvi barədə BMT Konvensiyası özünün birinci maddəsində ayrı-seçkiliyi belə təyin edir: "Qadınlar haqqında ayrı-seçkilik onların cinsi münasibətinə görə və ailə vəziyyətindən asılı olmayaraq kişi və qadın bərabərliyi əsasında siyasi, iqtisadi, sosial, mədəni, vətəndaşlıq və digər sahələrdə insan hüquqlarının əsas azadlıqlarının tanınmasını, ifadəsini və həyata keçirilməsini zəiflətməyə və heçə endirməyə yönəlmiş hər hansı fərq, istisna yaxud məhdudiyyətdir". Bu Konvensiyanı imzalayan hər bir dövlət cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin olduğunu qəbul etdi.

Təəssüf ki, Konvensiyada sadalanan ayrı-seçkilik növləri ilə bu gün daha tez-tez rastlaşırıq. Ayrı-seçkiliyi yaradan səbəblərdən biri də işsizlikdir, əmək bazarında işçi qüvvəsinin çoxluğudur. Bu isə çox vaxt qadınlara,ələlxüsus da evli və uşaqlı qadınlara şamil edilir.

Bütün bu ayrı-seçkiliklərə baxmayaraq Azərbaycan Dövləti bu problemin aradan qaldırılması üçün çalışır.

Azərbaycanda bu gün Prezident sərəncamı ilə ayrıca nazirlik-Ailə, qadın və uşaq komitəsi fəaliyyət göstərir və qadın hüquqlarının qarantı kimi çıxış edir.

Ən yüksək səviyyədə dövlət idarəçiliyində qadınların təmsil olunması Azərbaycan qadınının yüz il ərzində patriarxal keçmişdən müasir cəmiyyətə doğru böyük sıçrayışının

göstəricisidir. Bu gün Azərbaycanın fəxarətlə bütün dünyaya bəyan etdiyi kimi, yüz illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti bir çox Qərb ölkələrindən daha da əvvəl qadını ictimai həyatda ən qabaqcıl dünya standartları səviyyəsində özünü təsdiq edə bilir.

Azərbaycan Respublikasınıın vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkədə və bütün dünyada xeyriyyəçilik, maarif və mədəniyyət sahəsində geniş fəaliyyəti Azərbaycan qadınının şöhrətini daha da yüksəklərə qaldırmışdır.

**Ədəbiyyat siyahısı:**

1. Ağayeva K. Azərbaycanda Gender Məsələləri. Bakı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2014, 416 s.
2. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı. Bakı, Elm və təhsil, 2015, 549 s.
3. Qərb Universiteti Gender Araşdırma Mərkəzi. Gender Tarix Mədəniyyət. Bakı 2003, 356 s.
4. Martha Nussbaum. Women and human devolepment// The capabilities Approach Cambridge uni, 2008, p5

**Бильгейис Алиева**

**ОСОЗНАНИЕ ИСТОРИЧЕСКОЙ ЦЕННОСТИ ЖЕНЩИН - ЭТО ВОЗРОЖДЕНИЕ ПОЛОВИНЫ ИСТОРИИ ЧЕЛОВЕЧЕСТВА.**

**Резюме:** Гендерные представления меняются не только во времени и пространстве. В одном и том же обществе восприятие людьми мужественности и женственности различаются в зависимости от возраста, социального статуса, этнической группы, религии, семейного положения и других факторов. Как и другие системы социальных отношений, гендерные отношения основаны на балансе сил и её распределении. Этот баланс сил отражается в правилах, запретах и ожиданиях, которые применяются к мужчинам и женщинам в конкретных обществах и в различных группах общества. Социальные правила и запреты определяют различное поведение мужчин и женщин. Ожидания отражают общие представления женщин и мужчин о том, чего можно достичь в жизни в семье, на работе, в коллективе и других социальных условиях.

**Ключевые слова:** женщины, мужчины, пол, семья, социальная, общество, запрет

**Bilgeyis Aliyeva**

**THE ENLIGHTENMENT OF THE HISTORICAL VALUE OF WOMEN IS THE REVIVAL OF HALF THE HISTORY OF MANKIND**

**Summary:** Gender perceptions do not change only with time and space. In the same society, people's perceptions of masculinity and femininity differ depending on a person's age, social status, ethnic group, religion, family status and other factors. Like other systems of social relations, gender relations are based on the balance of power and the distribution of power. This balance of power is reflected in the rules, prohibitions, and expectations that apply to men and women in specific societies and within different groups in society. Social rules and prohibitions define different behaviors for men and women. Expectations reflect the general views of women and men on what will be achieved in life in the family, work, team and other social environments.

**Key words:** woman, man, gender, family, social, society, prohibition

**Məqalənin redaksiyaya daxil olma tarixi: 07. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 14. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

**UOT:31.:342.7:340.**

**Şükürانə Səfərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: seferovasukrane@gmail.com**

# MƏİŞƏT ZORAKILIĞI ƏNƏNƏVİ AİLƏ MODELİNİN TƏNƏZZÜL SƏBƏBİ KİMİ

**Xülasə:** Məişət zorakılığı bütün dünyada yayılan sosial problemdir. Məişət zorakılığı ailələrin dağılmasına və insanların hüquqlarının pozulmasına səbəb olur. Məişət problemləri zamanında həll olunmasa zorakılıqla nəticələnir. Zorakılıq isə cinayətdir. Cinayətin gizlədilməsi insan hüquqlarının pozulmasına səbəb olur. Buna görə də, məişət zorakılığının qarşısının alınması üçün psixoloji, sosial, hüquqi tədbirlərin görülməsi vacibdir.

**Açar sözlər:** məişət zorakılığı, ailə dəyərləri, ailə modeli, patriarxal sistem, uşaq psixologiyası, ailə problemləri

Məişət zorakılığı ailə daxilində bir insanın digər ailə üzvlərinə şiddət göstərməsidir. Zorakılıq göstərən şəxs ailənin hər bir üzvü ola bilər. Məişət zorakılığı cinsə görə müəyyən edilmir. Lakin ailələrdə ən çox zorakılıq göstərən insanlar kişilərdir. Zorakılığın qurbanı isə çox zaman qadınlar olur. Bu baxımdan məişət zorakılığını gender əsaslı zorakılıq da adlandırmaq olar. Məişət zorakılığı ilk olaraq psixoloji təsirə malik olur. Daha sonra fiziki, cinsi, sosial, iqtisadi zorakılıqlar meydana gəlir. Zorakılıq hallarına ən çox yoxsul və təhsilsiz ailələlərdə rast gəlinir. Belə ki, ailələrdə işsizlik, maddi gəlirin aşağı olması və yaxud daimi iş yerinin olmaması insanlarda stressin və gərginliyin artmasına səbəb olur. Bu kimi hallar da ailədaxili münaqişələrin və zorakılıqların yaranması ilə nəticələnir. Eyni zamanda, təhsili, işi, maddi gəliri olmayan qadınlar da ailədə zorakılığa dözmək məcburiyyətində qalırlar. Az təminatlı ailələrdə qadınlar ərlərindən iqtisadi cəhətdən asılı olur. Belə ailələrdə kişilər qadını daim itaətdə saxlamaq və ailədə öz hegemonluğunu qorumaq üçün qadını işləməyə qoymurlar. Bunun nəticəsində, qadınlar cəmiyyətdən təcrid olunurlar. Beynəlxalq statistikaya görə, hər üç ailədən biri zorakılıqla üzləşir. Azərbaycanda qadınların 13-20%-i ailədə zorakılığın olduğunu etiraf edir. Zorakılıq törədənlərin 80%-i kişilərdir. Arvada qarşı zor tətbiq edilən ailədə olan uşaqlar da ailə zorakılığının qurbanları sayılırlar. [1, s.6] Ailədə qadınlarla yanaşı, yaşlılar, uşaqlar da şiddətə məruz qala bilər. Məişət zorakılığının bir neçə növü var:

1. Fiziki zorakılıq
2. Psixoloji (emosional) zorakılıq
3. Seksual zorakılıq
4. Sosial zorakılıq
5. İqtisadi zorakılıq
6. Laqeydlik

Azərbaycanın milli ailə modeli qədim köklərə malikdir. Milli ailə modeli mənəvi dəyərlərə əsaslanır. Böyüyə hörmət, uşaqlara məhəbbət, valideynlərin bir-birinə anlayış göstərməsi ənənəvi ailə modelinin təməlini təşkil edir. Lakin bəzi səbəblər genefondumuzun əsasının təşkil edən ailə institutunun dağılmasına səbəb olur. Məişət zorakılığı nəinki Azərbaycanda, bütün dünyada ən əhəmiyyətli sosial problemlərdən biridir. Məişət zorakılığı təkcə boşanmalara deyil, həmçinin ağır cinayətlərin baş verməsinə səbəb olur.

Məişət zorakılığının təməlində patriarxal stereotiplər durur. Cəmiyyətdə dərin kök salmış gender əsaslı stereotiplər bu gün də ailələrdə zorakılıqların olmasına səbəb olur. Qadının ərinə itaətkarlığı, kişilərin sosial statusunu müəyyən edir. Qadınları namus, əxlaq adı altında qətlə yetirən kişilər özlərini qəhrəman hesab edirlər. Cəmiyyət də bu kimi cinayətləri müsbət qarşılayır. Patriarxal sistemin təsiri nəticəsində qadınların döyülməsini kişilərlə yanaşı hətta

qadınlar da normal qəbul edirlər. Maraqlısı da odur ki, bu məsələdə qadınlarla kişilərin fikirləri təqribən eyni səviyyədir. Gənc yaşlı qızlar (15-19) bu məsələ ilə qismən razılaşırlar (39%). Lakin qadınların yaşı artıqca, onların qadınlara qarşı zorakılığa haqq qazandırma səviyyəsi artır (39%-dən 50%-dək). Kişilərdə isə, əksinə proses baş verir. Onların yaşları artıqca, qadınlara qarşı zorakılığa haqq qazandırma səviyyəsi azalır (63% - 50% -ə). Bu onu göstərir ki, patriarxal adət-ənənələr gənc oğlanların düşüncələrində qadınlara qarşı aqressiyanı formalaşdırır. Qadınlar arasında bu kimi düşüncələrin formalaşması və tədricən artması, patriarxal adət-ənənələrin şüurları manipulyasiya etməsi ilə bağlıdır. [2, s.126]

Azərbaycanda müşahidələr göstərir ki, daha çox zorakılığa məruz qalan qadınlar təhsilsiz qadınlardır. Təhsilsiz qadınların işi, maddi imkanları, gedəcək yerləri olmadıqda və valideynləri də sahib çıxmadıqda ailədəki şiddətə dözmək məcburiyyətində qalırlar. Tarixən Azərbaycan ailələri uzunömürlülüyü digər ölkələrin ailə modellərindən fərqlənib. Lakin hər uzunömürlü ailəni xoşbəxt ailə hesab etmək də düzgün deyil. Azərbaycan cəmiyyətində geniş yayılmış "Ər evi, gor evi" deyimi də qadınların ağır zorakılıqlara dözməyə məcbur edir və hətta, polisə müraciət etməkdən belə çəkindirir. Polisə müraciət edən qadınlar isə ciddi qəbul olunmurlar. Onların şikayətlərinə ya gec baxılır ya da qadın ailəni dağıtmamağa sövq edilir. Bu baxımdan Azərbaycanda məişət zorakılığı ilə bağlı olaraq polisə müraciətlərin sayı da azdır. Qadınların zorakılığa dözmələrinin səbəblərindən biri qadının adət-ənənəyə əsaslanaraq utanması və heç kəsin ona inanmayacağını düşünməsidir. Cəmiyyətin bu kimi zorakılıqlara laqeyd yanaşması da zorakılıqların normal bir hal kimi qiymətləndirilməsinə səbəb olur. Azərbaycan cəmiyyətində qadının döyülməsi ailə məsələsi hesab olunduğu üçün heç kim bu məsələyə qarışmır. Bir çox hallarda ailədaxili şiddətlər şəxsi məsələ hesab olunduğu üçün gizli saxlanılır. Əgər ailədaxili zorakılıq cəmiyyət tərəfindən cinayət kimi qəbul olunsa, məişət zorakılıqlarının qarşısını zamanında almaq mümkün olar. Davamlı olaraq döyülən qadınlarda zamanla bu kimi hallar müşahidə olunur:

1. Çarəsizlik, özünəəminlik hissinin zəifləməsi, depressiyaya meyillilik
2. Özünü günahkar hesabetmə;
3. Zorakılığı gizlətmək və ya inkar etmək;
4. Zamanla zorakılığı normal bir hal kimi qəbul etmək;
5. Sosial mühitdən təcridolma;
6. Davamlı olaraq yorğunluq hissi və yuxu rejiminin pozulması;
7. İntihara meyillilik;
8. Xoşagəlməz xatirələr və kədər;
9. Acizlik, ümidsizlik hissi;
10. Ruhi sarsıntılar və s.

Cəmiyyətin zorakılığa qarşı etinasızlığı "Qadın döyülürsə demək ki, bir səbəbi vardır" düşüncəsinə əsaslanır. Lakin heç bir səbəb qadınların şiddətə məruz qalmasına və qətlə yetirilməsinə haqq qazandıra bilməz. Bu ilk növbədə insan hüquqlarının pozulması deməkdir. Məişət zorakılığı törədilən zaman ən dəhşətli məqam ondan ibarətdir ki, bu kimi hallar uşaqların gözləri önündə baş verir. Davamlı olaraq şiddətə məruz qalan qadınlarda psixoloji problemlər yaranır və bu cür zorakılığa məruz qalan insanlar özlərini hər zaman dəyərsiz hiss edir və özgüvənləri aşağı olur.

Ailələrdə uşaqlara qarşı zorakılıq adətən, valideynlər və ya tərbiyəçilər tərəfindən həyata keçirilir. Məişət zorakılığına məruz qalan uşaqlarda depressiyaya meyillik, narahatlıq, özünəinam hissinin aşağı olması, yuxu pozuntusu, stress müşahidə olunur. Davamlı olaraq, zorakılığa şahid olan körpə uşaqlarda yemək rejiminin pozulması, tez-tez ağlaması, körpənin normal inkişafdan qalması kimi hallar müşahidə olunur. Uşaq hüquqlarını pozan və uşaqlara qarşı zorakılıq törədən valideynlər və yaxud digər tərbiyəçilər qanun qarşısında məsuliyyət daşıyırlar. Ataları tərəfindən zorakılığa məruz qalmış uşaqlar aşağıdakı hissləri keçirir:

1. Zorakılıqdan dərhal sonra zədə hissinin yaranması

2. Uşaqda inkişafın normal prosesində dəyişiklik baş verir
3. Onlar özləri və analarına görə qorxu hissi yaşayaraq, əsəb sarsıntısı keçirir və digər problemlərlə bağlı əzab çəkir.
4. Amansız kişilər onlar üçün nümunə modelinə çevrilir. Belə uşaqlar böyüdükdə daha çox risk nümayiş etdirir
5. Onlar fiziki və psixoloji problemlərlə yanaşı müxtəlif asılılıqlara malik olur, eyni zamanda daha tez kriminal fəaliyyətə cəlb edilirlər. [3, s. 16-17]

Bu məqsədlə, BMT-nin 1989-cu il 20 noyabr tarixində "Uşaq Hüquqları Konvensiyası" qəbul olunmuşdur. Konvensiyaya əsasən 18 yaşına qədər hər kəs uşaq hesab olunur və hər bir uşağın yaşamaq, təhsil almaq, fikrini ifadə etmək, mədəni həyatda iştirak etmək və s. hüquqları vardır. Uşaqların sağlam ruhda böyüdülməsi, onların fiziki və psixoloji cəhətdən təhlükəsizliyinin təmin edilməsi sağlam cəmiyyətin formalaşdırılmasına şərait yaradır.

Yaşlı insanlara qarşı zorakılıq dedikdə, ailədə ahıl insanlara qarşı fiziki, psixoloji, mənəvi şiddətin göstərilməsi nəzərdə tutulur. Yaşlı insanlara ailə üzvləri və ya onlara qulluq edən insanlar tərəfindən zorakılıq tətbiq edilir. Yaşlı insanlara qarşı laqeydliyi də buna nümunə göstərmək olar. Bəzən yaşlı insanlar onlara qarşı törədilən zorakılığı digər insanlardan gizlətməyə çalışırlar. Bunun da müxtəlif səbəbləri var:

1. Tək qalmaqdan qorxduqları üçün;
2. Ailə üzvlərinə narahatlıq vermək istəmədikləri üçün;
3. Qocalar evinə göndərilməkdən qorxduqları üçün;
4. Şiddət göstərən insanların onların qayğısına qalan yeganə insanlar olduğuna görə itirməkdən qorxduqları üçün;
5. Zorakılıq törədənlər yaşlı insanın övladlarıdırsa, bunu başqa insanlara söyləməkdən utandıqları üçün.

Yaşlı insanlara qarşı törədilən zorakılıq məişət zorakılığının ən gizli forması hesab olunur. Bu məsələnin gizli saxlanılması şiddət göstərən insanın cəzadan yayınmasına səbəb olur. Buna görə də, bu kimi şiddət göstərən insanlar ilk növbədə yaşlı insanı təcrid etməyə çalışırlar. Yaşlı insanlara şiddət göstərmək ağır nəticələrin yaranmasına səbəb ola bilər. Çünki yaşlılar fiziki cəhətdən zəif və həssas olduqları üçün onların sağalması mümkün olmaya bilər.

Məişət zorakılığının qarşısının alınması üçün maarifləndirmənin güclü olması böyük əhəmiyyət daşıyır. İlk növbədə qadınların hüquqi savadı artırılmalıdır. Çünki qadınlar öz hüquqlarını bilmədikdə, zorakılığı normal bir hal kimi qəbul etməyə başlayırlar. Bununla bağlı cəza tədbirləri görülmədikdə isə, zorakılıq göstərən şəxs də özünü haqlı hesab edir. Zorakılıq ilə mübarizə sahəsində ən böyük çatışmazlıqlardan biri insanların informasiyasının az olmasıdır. Eyni zamanda, zorakılıq göstərən şəxslərin də psixoloqlara, sosial işçilərə yönləndirilməsi vacibdir. Çünki insanları zorakılıq etməyə sövq edən səbəblər çoxdur. Zorakılıq insanların psixi sağlamlığının normal olmamasından xəbər verir. Psixoloji gərginlik, stress, işsizlik, yoxsulluq, alkoqolizmə meyillilik, narkotik vasitələrdən asılılıq, qısqanclıq və s. bu kimi səbəblər məişət zorakılığının əsas səbəbləri ola bilər. Azərbaycanda məişət zorakılığının qarşısının alınması üçün 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul olunmuşdur. Qanunda məişət zorakılığına məruz qalmış insanların hara müraciət etmələri, onların psixoloji, hüquqi yardım almaları, məişət zorakılığına məruz qalan qadınların sığınacaqlarda yerləşdirilməsi, sosial işçilərin psixoloqların hüquq mühafizə orqanlarının bu işə cəlb olunması öz əksini tapmışdır. Məişət zorakılığı ailələrin mövcudluğu üçün böyük bir təhlükədir. Bunun üçün ilk öncə dövlət güclü siyasət həyata keçirməlidir. Həmçinin, hüquq mühafizə sistemi bu məsələyə daha ciddi yanaşmalıdır. Respublika üzrə xüsusilə də, regionlarda, bölgələrdə və məişət zorakılığının ən çox yayıldığı ərazilərdə dövlət qurumlarının güclü maarifləndirmə işini həyata keçirməsi vacibdir.

**Ədəbiyyat siyahısı:**


1. Həsənova.G, Qazıyeva.S, Orucova.L, Abasova.L, Hənifəyeva.S, Rüstəmova.F, Müslümzadə.N. Məişət zorakılığına məruz qalmış şəxslərə tibbi xidmət göstərən mütəxəssislər üçün metodik vəsait. Bakı-2014
2. Məmmədov.R. Erkən evlilik probleminin araşdırılması və ondan çıxış yolları. Bakı-2018.
3. Zorakılığa "YOX" deyək-ailəmizi qoruyaq! Bakı-2017.


**Шукурана Сафарова**

## ДОМАШНЕЕ НАСИЛИЕ КАК ПРИЧИНА УПАДКА ТРАДИЦИОННОЙ МОДЕЛИ СЕМЬИ

**Резюме:** Домашнее насилие - глобальная социальная проблема. Домашнее насилие приводит к распаду семьи и нарушениям прав человека. Приводит к насилию, если домашние проблемы не решаются своевременно. Насилие - это преступление. Сокрытие преступления нарушает права человека. Сокрытие преступления влечет за собой нарушение прав человека. Поэтому важно принимать психологические, социальные и правовые меры для предотвращения домашнего насилия.

**Ключевые слова:** домашнее насилие, семейные ценности, семейная модель, патриархальная система, детская психология, семейные проблемы

**Shukurana Safarova**

## DOMESTIC VIOLENCE AS THE CAUSE OF THE DECLINE OF THE TRADITIONAL FAMILY MODEL

**Summary:** Domestic violence is a global social problem. Domestic violence leades to the breakdown of families and human rights violations. Resulting in violence if domestic problems are not addressed in a timely manner. Violence is a crime. Concealment of a crime violates human rights.Therefore, it is important to take psychological, social and legal measures to prevent domestic violence.

**Key words:** domestic violence, family values, family model, patriarcal system, child psychology, family problems

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tovsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Rəşad Əsgərov**

**UOT: 31.:340.:342.7.:311.**

**Firuzə Sadıqova**
**Bakı Dövlət Universiteti**
**Dissertant**
**E-mail: firuzeesgerova@icloud.com**

# ERKƏN NİKAHDAN MƏİŞƏT ZORAKILIĞINA GEDƏN YOL

**Xülasə:** Bu gün bütün dünyada olduğu kimi ölkəmizdə də doğurduğu fəsadlara və cəmiyyətə vurduğu ziyana görə erkən nikah məsələsi dövrümüzün mühüm və aktual problemlərindən biri olaraq qalır. Belə ki, erkən yaşda qızların ailə həyatı qurmağa məcbur edilməsi onların təhsilinə, bir fərd kimi inkişafına mane olur, psixologiyasına mənfi təsir göstərir. Erkən nikah gələcək nəsillərin sağlamlığı və həyatını təhlükə altına atmaqla yanaşı, həmçinin risklər də yaradır. Belə hallar boşanmalara, sağlamlıq imkanları məhdud uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Hazırda ölkəmizdə bu məsələnin nəzarətdə saxlanılması və həll edilməsi üçün ciddi normativ hüquqi baza mövcuddur. Azərbaycanda erkən nikahların qarşısının alınması üçün mövcud qanunlar təkmilləşdirilib. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən hazırlanmış "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən Azərbaycanda uşaqların, o cümlədən qızların hüquqlarının müdafiəsi sahəsində böyük işlər görülmüş, gələcəkdə görüləcək tədbirlər artıq müəyyən edilmişdir. "Məişət zorakılığının qarşısının alınması haqqında", "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunları bu sahədə olan problemlərin həllinə yönəlib.

**Açar sözlər:** nikah, cəmiyyət, uşaqlar, ailə, ev, qız, hüquq, şiddət, qanun

Ailə məsələlərindən ciddi məqamlardan biri də erkən nikah məsələsidir. Belə ki, ailə quran tərəflərin yaşlarının rəsmi nikah üçün müəyyən olunmuş yaş həddindən aşağı olması bir sıra problemlərə gətirib çıxarır. Bu kimi ailələrdə nikahın pozulması, xəstə uşaqların dünyaya gətirilməsi, məişət zorakılığı, fiziki və psixoloji çətinliklər kimi hallar daha çox müşahidə olunur. Erkən yaşda nikaha daxil olma sosial problem kimi hazırda dünyada aktuallıq kəsb edən məsələlərdən biridir.

Erkən nikah yaşı 18-dən az olan və ya yeniyetmələrin nikaha daxil olmasıdır. 18 yaş uşaqların müdafiəsi baxımından 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında müəyyənləşmiş son həddir. (Uşaq Hüquqları Konvensiyası, maddə 1.) Beynəlxalq standartlara görə, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsində deyilir: "Yetkinlik yaşına çatmış kişilər və qadınlar, heç bir irqi, milli və ya dini məhdudiyyət olmadan bir-biri ilə evlənmək və ailə qurmaq hüququna malikdir. Lakin nikah yalnız hər iki tərəfin azad və tam razılığı əsasında baş verə bilər. Əgər nikaha daxil olmaq istəyən bir tərəf yetkinlik yaşında deyilsə və gələcək həyat yoldaşı haqqında məlumatlı qərar qəbul etmək iqtidarında deyilsə, bu cür razılıq "tam və azad" ola bilməz. Azərbaycan qanunvericiliyinə görə, yalnız rəsmi şəkildə bağlanmış nikahlar qanuni sayılır. Yaxın qohumlar, himayəçilər arasında nikahlara, eləcə də nikah bağlayan tərəflərdən biri artıq evli və ya ruhi xəstə olduğu halda nikaha icazə verilmir. Rəsmi nikahın bağlanması üçün iki əsas şərt vardır: nikah könüllü olmalı və nikah tərəflərinin yaşı qanunvericilikdə icazə verilmiş həddə olmalıdır.

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)" və eləcə də "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)" təsdiq edilmişdir. Azərbaycan 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul etməklə və bu qanuna uyğun digər müvafiq qanunlara edilən dəyişikliklərlə məişət

zorakılığının qarşısının alınması və qurbanların müdafiə olunması üçün hüquqi əsasın yaranmasına gətirib çıxarmışdır. Lakin Azərbaycan hələ də Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" İstanbul Konvensiyasına qoşulmamışdır. İstanbul Konvensiyası dünyada qadını hər növ zorakılıqdan qoruyan və eləcə də ona qarşı zorakılığın, eləcə də məişət zorakılığının məhkəmə qaydasında araşdırılması və aradan qaldırılmasına məcburi öhdəlik yaradan ilk müfəssəl hüquqi sənəddir.

UNİSEF-in təklifi ilə Azərbaycan qanunvericiliyində 2011-ci ildən etibarən qadın üçün nikah yaşı 17-dən 18-ə qaldırıldı. Bu, həmçinin BMT-nin 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasına da uyğundur. Hazırda Azərbaycan Respublikasında qanunvericiliyə əsasən erkən nikah 18 yaşından kiçik oğlan və qızların (məcburi) ailə qurması və birgə yaşamasıdır. Bu problemin həlli üçün Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bir sıra beynəlxalq təşkilatlarla, xüsusilə də UNİCEF və UNFPA ilə fəal əməkdaşlıq edir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, UNFPA-nın Azərbaycandakı nümayəndəliyi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin maddi və texniki dəstəyi ilə 2010-cu ilin 11-29–da ölkənin regionlarının şəhər və kənd yerlərində "Qızların erkən nikaha daxil olması, rəsmi və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair" statistik müayinə aparılmışdır. Müayinənin nəticələrinə əsasən 18 yaşadək erkən nikaha daxil olan qadınların 38,9 %-i şəhər, 61,1%-i isə kənd yerlərində qeydə alınmışdır. Azərbaycan Respublikasının "Polis Haqqında" qanununda yeniyetmələrin hüquq və maraqlarının müdafiəsi ilə bağlı maddələr mövcuddur. Eyni zamanda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Qadını nikaha daxil olmağa məcbur etmə" adlı 176-1-ci maddəsində qeyd olunur ki, qadını nikaha daxil olmağa məcbur etmə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmçinin "Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır."

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 60.1, 60.2, 60.3, 60.4. bəndlərində deyilir: Valideynlik hüquqları uşaqların mənafeyinə zidd həyata keçirilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verilə bilməz. Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə ziyan vuran valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar. Uşaqların tərbiyə və təhsilinə aid olan bütün məsələlər uşaqların hüquq və mənafeləri, onların rəyi nəzərə alınmaqla, valideynlərin qarşılıqlı razılığı əsasında həll olunur. Valideynlər (onlardan biri) öz aralarında olan narazılığı həll etmək üçün müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə müraciət edə bilərlər. Valideynlər ayrı yaşadıqda uşaqların yaşayış yeri onların razılığı ilə həll edilir. Valideynlər arasında razılıq olmadıqda məhkəmə mübahisəni uşaqların hüquq və mənafelərini, onların rəyini və sair halları (uşaqların qardaş və bacılarına, valideynlərdən hər birinə olan bağlılığı, valideynlərin əxlaqi və digər şəxsi keyfiyyətləri, uşağın yaşı, onun inkişafı və tərbiyəsi üçün şərait yaradılması) nəzərə almaqla həll edir. Azərbaycan Respublikasının "Polis Haqqında" qanununda yeniyetmələrin hüquq və maraqlarının müdafiəsi ilə bağlı maddələr vardır: "Yeniyetmələrin hüquqlarının pozulmasının qarşısının alınması ilə bağlı polis işçisinin vəzifələri" (maddə 15.1) və "Yeniyetmələrin hüquqlarının pozulması ilə bağlı polis işçisinin hüquqları" (maddə 19.1). Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Qadını nikaha daxil olmağa məcbur etmə" (maddə 176.1.) maddələrində qeyd olunur ki, qadını nikaha daxil olmağa məcbur etmə iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

XX əsrin əvvəllərinədək qızların zorla erkən yaşda ərə verilməsi Azərbaycanda geniş yayılmış bir hal idi. Qızlar çox zaman 12-13 yaşında kəbinli qadın olmaq məcburiyyətində qalırdılar. Qismən Xalq Cümhuriyyəti dövründə, əsaslı şəkildə isə Sovet hakimiyyəti zamanı, yəni XX əsrin 30-cu illərində vidalaşdığımız bu problem, təəssüf ki, yenə də aktuallaşıb. Qızların təhsildən yayındırılaraq erkən yaşda ərə verilməsi indi Azərbaycanın bir sıra regionlarının acı reallığıdır. Hətta qızları bəzən valideynləri ümumiyyətlə məktəbə getməyə qoymur. Orta məktəbi qurtarıb ərə getməyən qız "evdə qalmış" hesab olunur və ictimai qınaq hədəfinə çevrilir. Qızları məktəbdən kənarlaşdırarkən onların rəyi nəzərə alınmır. Qızlar 13-14 yaşına çatdıqda orta məktəbdən məcburi şəkildə çıxarılır və ona ərə getməyin vacibliyinə dair yerli ənənələr məcburi qaydada aşılanır. Bundan imtina etdikdə isə onlar ailə və yaxın qohumlar tərəfindən müxtəlif təzyiqlərə məruz qalır, ictimai qınaqla rastlaşır ki, bu da nəticədə həddi-buluğa çatmayan gənc qızların psixoloji sarsıntı keçirməsinə səbəb olur.

Belə qızlar zorla ərə verilməklə həm də öz sosial hüquqlarından imtina etmək məcburiyyətində qalırlar. Qızların 4, 5 və 6-cı siniflərdən məktəbdən çıxarılması və 13, 14 yaşlarında nişanlanması, 14-15 yaşdan etibarən ərə verilməsi bəzi bölgələrdə yerli ənənə hesab olunur. Beləliklə, onlar təhsil almaq və cəmiyyətə inteqrasiya etmək hüququndan məhrum edilir və cəmiyyətdən təcrid vəziyyətinə düşürlər.

Yetkinlik yaşına çatmayan qızlar dini kəbin kəsməklə ərə verilir və rəsmi nikahdan kənarda qalırlar. Bu isə qanunvericiliyin tələblərinin pozulması ilə yanaşı, qızların müstəqil ailə qurmaq və təhsil almaq hüququnun əlindən alınması ilə nəticələnir.

Azərbaycanda qadına qarşı zorakılıq üzrə Xüsusi Məruzəçinin (XM) hesabatı bir sıra tövsiyələri də əhatə etməklə ölkədə qadına qarşı zorakılığın hüquqi əsaslı təhlilini əks etdirir. Bura aşağıdakı sahələr daxildir: hüquqi və siyasi islahatlar; hesabatlılıq; gender stereotiplərinə və qadınların səlahiyyətləndirilməsinə, eləcə də statistika və məlumat toplanılmasına ünvanlanmış məlumatlandırma kampaniyaları daxil olmaqla cəmiyyətdəki mövcud münasibətlərin transformasiyası. Bəzi tövsiyələr qadına qarşı zorakılıq məsələlərinə ünvanlanmış olsa da, digərləri qadınların səlahiyyətləndirilməsi və CRSH kontekstindədir. Tövsiyələrin siyahısı çox uzun olduğu üçün onlar Əlavə 4-də təqdim edilir. Ancaq irəliləyişi monitorinq etmək üçün bəzi indikatorlar XM-nin tövsiyələrini əks etdirir. (1, 32)

UNİCEF-in Azərbaycanda həddi-buluğa çatmayanlar arasında nikahların sayının artmasından narahatlıq ifadə edən hesabatında bildirilir ki, Azərbaycanda aparılan araşdırmalar bu təbəqədə hər səkkiz nəfərdən birinin on səkkiz yaşına çatmamış evləndiyini və ya ərə getdiyini göstərir. Hesabat müəllifləri deyir ki, belə təmayül çox zaman fiziki və əqli problemlərin yaranmasına gətirib çıxarır. Bəzi hallarda isə depressiya və əsasən gəlin getmiş qızın intiharı ilə nəticələnir.

Təşkilatın sözçüsü Mark Herevord vurğulayıb ki, bununla bağlı təcili addımlar atılmalıdır: "Uşaqlar üçün ilk növbədə məsuliyyət daşıyanlar ata-analarıdır. Onlar anlamalıdır ki, erkən yaşda nikaha girmək övladlarına potensial olaraq müxtəlif cür ziyan vura bilər: Həm fiziki, həm emosional və həm də əqli. Xüsusilə, qızlar üçün tez ərə getmək çox ziyanlı ola bilər".

İstər oğlan, istərsə də qız bioloji cəhətdən daha tez ana-ata ola bilir. Psixoloji baxımdan isə müəyyən vaxt lazımdır ki, bir insan kimi tam formalaşsın. Erkən nikahla ailə qurmağa hazır olmayan insan faktiki bunu etməyə məcbur edilir. İkincisi, onlar hələ tam real qərar qəbul edə bilmirlər. Deməli, onların əvəzinə kimsə qərar qəbul edir. Bu kimsə adətən ata-ana olur. Erkən nikahların sonradan çox sayda fəsadları çıxır. Erkən ərə gedən qızların ana olan zaman öz uşaqlarına qarşı laqeyd yanaşması real problem olur. Çünki onun özü hələ uşaqdır. Ana ilə uşaq arasında 14-15 yaş fərq olur. Bacı-qardaş arasında da belə fərq ola bilər. Həm də onların emosiyası da tam böyük insanın emosiyası deyil. Onlar üçün orta rəng yoxdur. Həyat ya qara, ya ağ, yaxşı, ya da pisdir. Ona görə də reaksiyaları bəzən çox kəskin olur. O cümlədən öz uşaqlarına qarşı. Özü hələ uşaq olan, gəlinciklərlə oynamaqdan doymayan bir insanın özünün övladı dünyaya gələndə o uşaq ona artıq kimi görünür. Analıq hissini qətiyyən dərk etmirlər. O

qızlarda analıq hissi yerli-dibli inkişaf etmir. Analıq hissinin inkişafı üçün qadına müəyyən yaş həddi lazımdır. Həmin yaş həddi yetişmədiyinə görə, ana olmaq onlar üçün psixoloji zərbədir.

Ekspertlər hesab edirlər ki, erkən nikah demoqrafiyaya böyük zərbədir. Çünki ana olmağa hazır olmayan qadının dünyaya gətirdiyi uşaq çox vaxt tam normal olmur. Bundan başqa, uşaq ölümünün artması faktlarında bu məsələ az rol oynamır. Bununla yanaşı, erkən nikah məsələsində cavanlaşma amili də özünü qabarıq büruzə verir. Belə ki, 2003-cü ildə daha çox 15-16 yaşlı qızların ərə verilməsi faktları mövcud idi. Bu gün isə 13, hətta 12 yaşlı qızların ərə getməsi hallarına rast gəlmək mümkündür.

Mütəxəssislərin fikrincə, Mülki, Ailə, Cinayət məcəllələrində, "Təhsil haqqında" qanunda xüsusi hüquqi məsuliyyət müəyyən edən və erkən nikahların qarşısını alan maddələr öz əksini tapmalıdır ki, gənc qızların təhsildən yayındırılaraq və zorakılığa məruz qalaraq ərə verilməsinə yol verən şəxslər – istər valideynlər, istərsə də kəbin kəsən mollalar özlərində hüquqi məsuliyyət hiss etsinlər və buna yol verməsinlər. Bu baxımdan qanunvericiliyin sərtləşdirilməsinə ciddi ehtiyac var.

Ana nə qədər təhsilli, dünyagörüşlü olarsa, onun yetişdirdiyi övlad da bir o qədər savadlı, cəmiyyət üçün faydalı olar. Bunu nəzərə alıb, gələcəyin anası olacaq qızların kamil, intellektli, təhsilli insan kimi yetişməsinə şərait yaratmaq lazımdır.

Erkən nikah əslində ailənin təməlinin dağılmasıdır. Qız yetkin olanda daha ailəcanlı olur, ailənin, uşağın dəyərini dərk edir, öz məsuliyyətini anlayır. Yeniyetmə yaşında olan qızlar ailə üzvlərinin, valideynlərin təzyiqi əsasında özlərindən qat-qat böyük kişilərə ərə verilirlər. Bir müddət sonra xasiyyətləri tutmadıqda və ya zorakılığa məruz qaldıqda boşanmağa məcbur olurlar. Boşandıqda isə rəsmi nikahları olmadığından heç bir mülkiyyət hüququ əldə edə bilmirlər.

Erkən nikah ümumiyyətlə istər Şərq, istərsə də Qərb ölkələrində çox aktual bir məsələdir. Ailə cəmiyyətdə mövcud olan mühüm institutlardandır. Onu qurmaq, qoruyub saxlamaq, yaş və psixi baxımından inkişaf tələb edir. Biz bu gün erkən nikahların fəsadlarını-nəticələrini boşanmaların səbəblərində axtarmalıyıq, internat evlərində uşaqların sayının artmasında axtarmalıyıq, insan alverinin qurbanı olan qadınların saylarının artmasında axtarmalıyıq. Bu kimi problemlərin həlli yolunda isə güclü maarifləndirmə işləri aparmalıyıq. Erkən nikah mühüm problemdir, çünki iki nəslin, həm indiki, həm gələcək nəslin nümayəndələrinə sağalmaz yaralar vurur.

Erkən nikahlar qadınları təhsildən yayındırır, yaxşı iş tapmaq imkanlarından məhrum edir. Təhsilsizlik və işsizlik isə radikallaşmanın səbəblərindən biridir. "Bir insan təhsil alıb işləyərsə, ekstremist bir təşkilatın üzvü olma ehtimalı azalar" Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) hesabatında belə deyilir. Mütəxəssislər tez-tez vurğulayırlar ki, təhsili olmayan insanlar, həmçinin qadınlar radikallaşmaya və ekstremizmə daha çox meyillidirlər. Erkən nikahlar da natamam təhsilin nəticəsi kimi ərindən boşanmış, dul qalmış qadınların maddi rifahını təhlükə altına alır. Bəzi hallarda erkən nikahın qurbanı olan təhsilsiz və işsiz qadınlar radikallaşmış ərlərindən asılı vəziyyətdə qalmağa məcbur olurlar.

Azərbaycan, Orta Asiya, Türkiyə üzrə materiallarda azyaşlı gəlinlər ərləri və ərlərinin qohumları tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalmaları və həmin ərəfədə dəstək tapmağın nə qədər çətin olduğu haqda ətraflı danışıblar. Həmin azyaşlı gəlinlərin təhsil almalarına və işləmələrinə ərləri və onların qohumları tərəfindən qadağalar qoyulub (indi də qoyulur), bu da öz növbəsində həmin qadınların iqtisadi azadlıqlarına əngəllər yaradaraq, onların bu münasibətlərdən canlarını qurtarmasına imkan verməyib. Geniş tədqiqatlar göstərir ki, ər-arvad arasında çox vaxt rast gəlinən əhəmiyyətli yaş fərqi və qarşılıqlı münasibətlərdəki bərabərsizlik və məcburiyyət erkən nikahların məişət zorakılığı ilə xarakterizə olunmasının səbəblərindəndir. Erkən nikaha, qızlara qarşı gender əsaslı zorakılığın bir forması kimi baxıla bilər. Bu, qız uşaqlarının öz azad seçim hüququndan və sərbəst hərəkət azadlığı hüququndan məhrum edir.

Təhsilin yoxluğu həm sosial və iqtisadi, həm də sağlamlıq hüququndan istifadəni məhdudlaşdıra bilər. Müxtəlif xəstəliklər, ana və uşaq ölümləri kimi hallar təhsilin aşağı səviyyəsinin nəticələrindəndir. Ona görə də təhsilin kəmiyyət və keyfiyyətinə sağlamlığın bir hissəsi kimi baxmaq tövsiyə olunur.

Tədqiqatlarda həmçinin qeyd olunur ki, iqtisadi asılılıqla ekstremist zorakılıq arasında mümkün mövcud bağlılığı istisna etmək olmaz. Məşğulluq məsələsi zorakı-ekstremist qruplaşmalara üzv olan şəxslərin ən aktual problemlərindən biri kimi üzə çıxır. 2016-cı ildə YUNESKO-nun antiterror təşəbbüsündəki təmsilçisi və terrorizmin yayılmasında çalışan işçi qrupun həmsədri təhsilin zorakı ekstremizmin qarşısını almaqda qabaqlayıcı tədbir kimi rol oynadığını, təhsilin ancaq məzmununa deyil, həmçinin onun hansı səviyyədə təmin olunmasına diqqət ayırmağın vacibliyini qeyd edir.

Erkən nikaha məcbur edilən qadınlar da təhsilsiz, işsiz olduqlarına görə ya ərləri tərəfindən məcbur edilərək, ya da ərləri öldükdən, yaxud boşandıqdan sonra özlərini və uşaqlarını dolandırmağa gücləri çatmadığından ekstremizm qurbanına çevrilə bilirlər.

Radikalizm, ekstremizm erkən nikahların nəticələrindən, əlbəttə, biridir. Uşaq yaşda evliliklər əksər hallarda erkən hamiləlik və erkən doğuşla müşayiət olunur, anaların və uşaqların xəstələnmə və ölüm riski artır. Erkən nikah bəzən qız uşaqlarını icmalardan qaçmağa və intihara sürükləyir. Erkən nikah qızları təhsil almaq və ixtisasa yiyələnmək imkanından məhrum edir, onları asılı və müdafiəsiz duruma salır.

UNİCEF-in məlumatına görə 12 Fevral 2019-cu il ərzində dünya üzrə 650 milyondan çox qadın erkən nikaha məruz qalıb. Hər il ən az 12 milyon qız uşağı 18 yaşına çatmadan evlənir (və ya evləndirilir). Bu, hər dəqiqəyə 28 qız uşağının, ya da hər beş qızdan birinin yetkinlik yaşına çatmadan evləndirilməsi deməkdir. Az inkişaf etmiş ölkələrdə, bu göstərici iki qata çıxır.

Rəsmi rəqəmlər göstərir ki, Azərbaycanda erkən nikahların sayı azalmaqdadır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsi müdirinin müavini Aynur Veysalovanın dediyinə görə, pik hədd 2011-ci ildə qeydə alınıb, 5 min 138 qız 18 yaşına çatmamış ərə verilib. Həmin il Parlament Ailə və Cinayət Məcəlləsində qadınların evlənmə yaşının 18 olmasını və erkən evliliyə məcburiyyətə görə məsuliyyəti nəzərdə tutan normalar qəbul edib 2017-ci ildə həmin göstərici 317-ə düşüb.

BMT azalmanın bütün dünyada müşahidə edildiyini bildirir (son 10 ildə 15% azalma var), ancaq vurğulayır ki, erkən nikah fenomeninin kökünü tam kəsməyə hələ çox var. Təşkilatın İnsan Haqları Şurası 2017-ci ildə qəbul etdiyi qətnamədə bütün dövlətləri qadınların və qızların təhsil almaq hüquqlarına hörmət bəsləməyə, onların cinsi və reproduktiv sağlamlıqlarının qorunmasını təmin etməyə çağırır.

Azərbaycanda gender üzrə bu hədəfin yerinə yetirilməsi üzrə ilkin istinad edilən sənəd ana qanun olan Konstitusiyadır. Milli Konstitusiyanın kişi və qadın arasında hüquq və azadlıqlar bərabərliyi və cinsi mənsubiyyətə görə ayrı seçkiliyin qadağan olunması sahəsində müəyyən etdiyi hüquqi çərçivə (25-ci maddə) Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Cinayət Məcəlləsi və digər qanuni aktlarda da öz əksini tapmışdır. Məsələn, 1999-cu ildə qəbul edilmiş Əmək Məcəlləsinin 16-cı maddəsinə əsasən əmək münasibətləri müstəvisində cinsə görə işçilər arasında hər hansı ayrı seçkiliyin qoyulması və ya hüquqların məhdudlaşdırılması qadağandır. Eləcə də hamiləlik və uşağa süd verməni əsas götürərək, qadınları işə götürməkdən imtina etmək (240-cı maddə), həmçinin bu səbəblərə görə qadınların əmək haqlarının azaldılması qadağandır. Əmək Məcəlləsinin 241-ci maddəsinə görə qadınların ağır və ziyanlı işlərdə işləmələri qadağandır (bu pozitiv diskriminasiya hesab olunur). Eləcə də hamiləlik və uşağa baxmaqdan ötrü qadınlara əlavə fasilələr və məzuniyyət verilir. Əmək Məcəlləsində işçilərin işə qəbulu zamanı qabiliyyətlərindən, ixtisasdan asılı olmayıb, ancaq cinsə və digər amillərə görə diskriminasiya etmək hüquq pozuntusu sayılır.

Beynəlxalq ictimaiyyət cari minillikdə bəşəriyyətin inkişaf məqsədlərini müəyyənləşdirərkən demokratiyanın inkişafını, sosial ədalət və tolerantlığın əldə olunmasını

gender bərabərliyindən asılı olduğunu müəyyənləşdirmişdir. Bu baxımdan gender bərabərliyi cəmiyyətdə sosial, mədəni normalar, dəyərlər, inkişaf modellərinin mərkəzində dayanır. Milli və regional xüsusiyyətləri, müxtəlif tarixi, mədəni və dini amillər nəzərə alınmaqla, bütün dövlətlər öz siyasi, iqtisadi və mədəni sistemlərindən asılı olmayaraq, insanların bütün hüquq və fundamental azadlıqlarını, eləcə də sağlamlıq hüquqlarının təmininə cavabdehdirlər. Belə bir fəaliyyətin insanın bütün hüquqlarına və fundamental azadlıqlarına müvafiq qaydada, o cümlədən milli qanunlar çərçivəsində həyata keçirilməsi və strategiyaların, siyasətin, proqramların və inkişaf prioritetlərinin müəyyən edilməsi hər bir suveren dövlətin vəzifəsidir.

Ölkəmizdə məişət zorakılığı hallarının mövcudluğu hüquqi müstəvidə bu hallarla mübarizəni gündəmə gətirir. Məişət zorakılığına qarşı mübarizə bütün cəmiyyətlərdə olduqca mürəkkəb bir problemdir. Ona görə də, məişət zorakılığı və ya ailədə zorakılıq halları yanlız bir ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün təhlükəlidir. Məişət zorakılığı probleminin həlli hərtərəfli yanaşma və məqsədli tədbirlərin həyata keçirilməsini tələb edir.

Məişət zorakılığı hallarının qarşısının alınması üçün maarifləndirmə işinin gücləndirilməsi dövlətimizin daxili siyasətində bu gün ən mühüm prioritetlərdən biridir. Məişət zorakılığının qarşısının alınması – məişət zorakılığı təhlükəsinin aradan qaldırılması məqsədi ilə həyata keçirilən hüquqi, sosial və qabaqlayıcı tədbirlərdir. Qanunvericiliyə müvafiq olaraq məişət zorakılığının qarşısının alınmasını yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi həyata keçirir.

Qadınların iqtisadi cəhətdən gücləndirilməsi, onların zorakılığa məruzqalma səviyyəsinə də təsir edir. İqtisadi cəhətdən asılı olmayan qadın özünə inamlıdır, özünü daha rahat ifadə edə bilir. Xüsusilə, nisbətən daha aztəminatlı, sağlamlıq imkanları məhdud, qaçqın və məcburi köçkün qadınların kiçik və orta sahibkarlığa cəlb edilməsi, müxtəlif peşələrə sahib olması çox vacibdir.

Xüsusilə vurğulamaq lazımdır ki, gender əsaslı zorakılıqla mübarizə aparmaq üçün daha effektiv mexanizmlərin yaradılmasına ehtiyac vardır. Məişət zorakılığının qurbanlarının, eləcə də zorakılığı törətmiş insanların şəxsiyyətlərinin öyrənilməsi, problemin səbəblərinin araşdırılması və preventiv tədbirlərin tətbiqi imkanlarını artırır. Bu baxımdan zorakılığa məruz qalanların sosial-demoqrafik vəziyyətinin, zorakılıq qurbanı ilə zorakılığı törətmiş şəxs arasında qarşılıqlı əlaqənin (qohumluq, qonşuluq, dostluq və s.) eyni zamanda, viktim şəraitin səciyyəvi xüsusiyyətlərinin (yəni zorakılığın situativ və ya uzunmüddətli olması, regional xüsusiyyətləri və s.) öyrənilməsi zəruridir. Bundan irəli gələrək, məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması qaydaları Nazirlər Kabinetinin 19.12.2011-ci il tarixli 207 nömrəli Qərarına əsasən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Məişət zorakılığı ilə bağlı məlumat bankı yaradılmışdır. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və onların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatlar toplanır və təhlil olunur. Bu təhlillərin nəticəsində isə maarifləndirmə təlimlərinin hədəfləri müəyyən edilir.

2017- ci ildə BMT-nin Əhali Fondu ilə birgə keçirdiyimiz "Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqat" (IMAGES) kişi və qadınların gender normaları ilə bağlı təcrübəsi və bu məsələlərə dair yanaşma tərzi, gender bərabərliyi siyasətinə münasibət, qayğı göstərmə və kişilərin ata qismində iştirakı da daxil olmaqla ev təsərrüfatındakı dinamika, ailədaxili zorakılıq, sağlamlıq və iqtisadi təzyiq kimi məsələləri əhatə edən ən müfəssəl araşdırma hesab olunur. Həmin təhlilin nəticələrinə əsasən kişilər tərəfindən zorakılığın istənilən formasının törədilməsini ardıcıl qaydada bir neçə amillə əlaqələndirmək olar: Öz analarına qarşı zorakılığın şahidi olma

və uşaqlıqda fiziki zorakılığa məruz qalma halları ilə rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən törədilən zorakılıq arasında bağlılıq müşahidə olunur və bu nəticə dünyanın müxtəlif yerlərində zorakılığın nəsillərarası zərərli təsiri ilə bağlı aparılmış tədqiqatların nəticələri ilə üst-üstə düşür. “GEM” Şkalasına əsasən gender bərabərliyini daha az dəstəkləyən və xüsusilə də qadınlara qarşı zorakılıq barədə bəzi fikirlərin (məsələn, “qadın öz ailəsini qoruyub saxlamaq üçün zorakılığa dözməlidir” və “bəzi hallarda qadın döyülməyə layiqdir”) tərəfdarı olan kişilər rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxslərə qarşı daha çox zorakılıq törədən şəxslərdir. 2018-ci ildə BMT-nin Əhali Fondunun Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsi ilə birgə hazırladığı “Azərbaycanda qadına qarşı zorakılığın iqtisadi nəticələri” adlı tədqiqat aparılıb və 2019-cu ildə onun ictimaiyyətə təqdimatı keçirilib.

Qanunvericiliyə görə tam fəaliyyət qabiliyyəti olmayan şəxslər uşaq hesab edilir. Belə olan halda uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Erkən nikah qanun pozuntusu olmaqla yanaşı, həm də insan psixologiyasına, xüsusilə də azyaşlı qızların sağlamlığına təhlükə yaradır. Erkən nikahlar psixoloji fəsadlar yaratdığından, maarifləndirmə işləri həm də, insanlarla psixoloji aspektdə aparılmalıdır. Erkən yaşda ailə quran qızlar təhsildən də kənarda qalırlar. Təhsil çox vacib amildir. Ən azından ibtidai təhsilli bir xanımla, orta məktəbi tam olaraq bitirmiş bir xanımın ailəsində çox böyük fərqlər olur. Bu qarşılıqlı münasibətdə, övlad yetişdirməkdə özünü çox aydın büruzə verir. Təhsil həm psixoloji, həm sosioloji, həm də fiziki cəhətdən təsiredici amil kimi qiymətləndirilir. Buna görə də, valideynlər öz övladlarını erkən nikaha sövq etməkdən çəkinməli, onların təhsillərini bitirmələrinə şərait yaratmalıdırlar.

Qız uşağını böyütməyin çətin olması, gələcəkdə ailə qurub evi tərk edəcəyinə görə ona kapital qoymağın faydasız olması “düşüncəsi” nəticədə onların erkən nikahına gətirib çıxarır. Bununla da bəzi valideynlər məsuliyyətdən xilas olduqlarını düşünürlər. Övladlarını erkən nikaha məcbur edən bir çox valideynlərin digər əsaslandırmaları qıza qarşı baş verə biləcək hər hansı neqativ hallardan onu qorumaqdır. Amma, nəticə daha faciəvi olur. Məktəb yaşlı bir uşaq üçün əlbəttə ki, ailə qurmaq, yeni ailəyə köçmək yad bir anlayışdır. Uşaq birdən-birə məktəbdən, həmyaşıdlarından, öz uşaq həyatından məcburi ayrılaraq ailə həyatına atıldığı üçün yeni vəziyyətə adaptasiya olunması çox çətin olur. Özünün qayğıya ehtiyacı olduğu halda, digərlərinin qayğısına qalması, yeni mühit, yeni öhdəliklər uşaq-gəlinlərdə psixoloji gərginlik yaradır. Bu da onun üçün gələcəkdə daha böyük problemlərin yaranmasına səbəb olur. Uşaq öz mühitindən, dərslərindən, dostlarından ayrılmaq istəməsə belə, valideynlər buna məhəl qoymurlar. Bəzi hallarda valideynlərinə qarşı etiraz edən, fikirlərini açıq bildirən uşaqların təəssüf ki, ata-anaları tərəfindən fiziki zorakılığa məruz qalması halları olur. Valideynlər erkən nikahın mənfi tərəflərini də düşünməlidirlər, xüsusən də burada mənfi nümunələrə baxmalıdırlar.

Bu məsələ nəticə etibarilə bütövlükdə cəmiyyət üçün çox ciddi problemdir. Bunun nəticəsində təhsilsiz qadınların sayı, zorakılıq halları artır, məişət zorakılığı zəminində qətillər törədilir, boşanmaların sayı çoxalır, uşaqlar stress şəraitində böyüyürlər. Həmçinin belə hallar pis nümunədir. Çünki bu hallar baş verdikcə bəzi insanlar bunu normal hal kimi qəbul edib öz övladlarına qarşı da tətbiq edirlər. Bu məsələdə cəmiyyətin hər üzvünün üzərinə məsuliyyət düşür. Əlbəttə ki, burada əsas məsələ valideynlərin həm qız, həm də oğlan uşaqlarını maarifləndirməsidir. Oğlan uşaqlarının kiçik yaşlardan maarifləndirilməsi onların gələcəkdə öz şəxsi həyatlarında bu hala yol verməmələrinə səbəb ola bilər. Digər məsələ məktəb rəhbərlərinin, müəllimlərin erkən nikahların qarşısının alınmasında rolunun artırılmasıdır. Həmçinin erkən nikaha qarşı ictimai qınaq olmalıdır. Erkən nikahın potensial iştirakçıları ola biləcək hər kəs bu işə qarşı olsa, bu hallar azalar. Belə ki, nikahın kəsilməsində iştirak edən din xadimi, toy mərasiminin keçirilməsini təşkil edən məkan sahibi, ora qonaq kimi dəvət olunacaq insanlar bu məsələyə etiraz etsə, ictimai qınaq yaranacaq və bu təşəbbüslə çıxış edən insanlar səhvlərini dərk edib uşaqların erkən nikaha cəlb olunmasından vaz keçəcəklər. Bu məsələdə

icmanın, icma idarəçilərinin də üzərində böyük məsuliyyət var. Belə hallarla bağlı ilkin məlumat alan kimi müdaxilə edilsə, erkən nikahın qarşısını almaq olar.

Erkən nikah-ailə anlayışı və həyatı hələ kifayət qədər dərk etməmiş, psixoloji cəhətdən ailə quracaq qədər formalaşmamış yeniyetmələr ilə bağlanan nikahdır. Erkən nikah faciədir, erkən nikah acı sonluqdur. Hələ bu nikahlardan dünyaya gələn uşaqlar hansı travmaları yaşayır, bu da məsələnin ciddi sual doğuran başqa bir tərəfidir. Yəni, ailə həyatına həm maddi, həm də mənəvi-psixoloji hazırlıq olmadan uğurlu nikahdan danışmaq doğru olmaz. Erkən nikahlarda ən çox təsadüf edilənlər obsessiv-kompulsiv pozuntu əlamətləri, depressiya, təşviş pozuntuları və buna paralel baş verən panik ataklardır. Bəzən erkən nikah zamanı tərəflərin bir-birlərini tanımağa kifayət qədər vaxtı olmur. Bu da öz növbəsində gələcəkdə tərəflər arasında ünsiyyət azlığı, ailədaxili rolların düzgün mənimsənilməməsi, yeni mühitə adaptasiya oluna bilməmək, konfliktli situasiyaların yaranması, şiddət, dolayı və ya birbaşa yönəlmiş verbal aqressiya və s. kimi neqativ hallara yol açır. Nəticə etibarilə tərəflərdən biri, bəzən isə hər ikisində depressiv əlamətlər təzahür edir. Erkən nikah zamanı müəyyən problemlərin vaxtaşırı müzakirə olunmaması və aqressiyanın daxildə toplanması, tərəflərdə şüuraltı olaraq neqativ düşüncələrin toplanmasına səbəb olur. Uzun müddət bəhsi gedən neqativ düşüncələr şüur altında toplanır və nəticədə panik ataklar formasında özünü büruzə verir.

Maddi çətinlik yaşayan valideyn el arasında "Qız yükü, duz yükü" deyilən ağırlıqdan xilas olur. Həm də qızları yemək-içmək qayğısı çəkməyəcək. Valideyn özünü bir növ övladı üzərində olan borcunu yerinə yetirmiş hesab edir, bundan sonra məsuliyyət daha ərin üzərindədir. Varlı kişini "gəlincik"lə evlənməyə vadar edən nədir? Burada onların özləri üçün haqlı bildikləri bir çox səbəb olur. Nəticə etibarilə sözügedən üçlüyün heç biri istədiyi mənəvi-psixoloji rahatlığı tapmayacaq. Valideyn də, övlad da, "yaşlı aşiq" də hər biri ayrı-ayrılıqda fərqli psixoloji travmalar alacaq. Ən çox zərər çəkən isə təbii ki, yeniyetmə olacaq. Bir çox ailələrdə qadınlara, qızlara söz haqqı verilmir, onlar hər zaman əzilən tərəf olurlar. Öz hüququnu bilməyən, haqqını müdafiə etməyən ana təbii ki, qız övladını da mütiliyə öyrədəcək. Unutmayaq ki, oğul və qızı böyüdən, tərbiyə edən ailədir. Yəni, ilkin mərhələdə bünövrə ailədə qoyulur. Sonrakı mərhələlərdə təbii ki, bağça, məktəb və cəmiyyətin rolu gəlir. Uşaqlar təhsildən uzaqlaşdırılmamalı, onların hüquq və azadlıqları əlindən alınmamalıdır. Erkən nikahları yaradan əsas amillərdən biri də savadsızlıqdan doğan nadanlıq və cəhalətdir.

Baxmayaraq ki, silsilə tədbirlər həyata keçirilir, maarifləndirmə işləri aparılır, lakin hələ də erkən nikah Azərbaycanda aktual problemlərdən biri olaraq qalmaqdadır. Belə problemlərlə rastlaşmamaq üçün gənclərimiz maarifləndirilməlidirlər.

**Ədəbiyyat siyahısı:**

**1.** Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi. Bakı, 2015, 120 s.

**Фируза Садыгова**

## ПУТЬ ОТ РАННЕГО БРАКА К ДОМАШНЕМУ НАСИЛИЮ

**Резюме:** Сегодня, как и в остальном мире, проблема брака в нашей стране остается одной из самых важных и актуальных проблем современности из-за своих последствий и ущерба для общества. Таким образом, принуждение девочек в раннем возрасте к семейной жизни препятствует их образованию, развитию как личности, негативно влияет на их психологию. Ранние браки не только ставят под угрозу здоровье и жизнь будущих поколений, но и сопряжены с риском. Подобные ситуации приводят к разводам, рождению детей-инвалидов и увеличению числа социально уязвимых групп. В настоящее время в нашей стране существует серьёзная нормативно-правовая база для контроля и решения этого вопроса. Даже если ребенок не хочет быть разлученным со своим окружением, классами и друзьями, родители игнорируют это. К сожалению, в некоторых

случаях дети, которые протестуют против своих родителей и открыто выражают свои взгляды, подвергаются физическому насилию со стороны родителей. Родители также должны учитывать риски раннего брака.

**Ключевые слова:** брак, общество, дети, семья, домашнее хозяйство, девушка, закон, насилие, закон

**Firuza Sadigova**

**THE PATH FROM EARLY MARRIAGE TO DOMESTIC VIOLENCE**

**Summary:** Today, as in the rest of the world, the issue of marriage in our country remains one of the most important and urgent problems of our time due to its complications and damage to society. Thus, forcing girls to marry at an early age hinders their education, development as an individual, and has a negative impact on their psychology. Early marriage not only endangers the health and lives of future generations, but also poses risks. Such situations lead to divorce, the birth of children with disabilities, and an increase in the number of socially vulnerable groups. At present, our country has a serious regulatory framework to control and resolve this issue.

Existing laws have been improved in Azerbaijan to prevent early marriages. Great work has been done in Azerbaijan in the field of protection of the rights of children, including girls, in accordance with the State Program "Azerbaijani youth in 2017-2021" prepared in accordance with the Development Concept "Azerbaijan 2020: vision for the future" approved by the Decree of the President of the Republic of Azerbaijan dated December 29, 2012 , future measures have alreadym been identified. The Laws of the Republic of Azerbaijan “On Prevention of Domestic Violence”, “On Ensuring Gender Equality (Men and Women)” are aimed at solving problems in this area.

**Key words:** marriage, society, children, family, home, girl, law, violence, law

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 20. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Ceyran Rəhmətullayeva**

**UOT: 31.:311.:314.**

**Şalan Novruzov**
**Azərbaycan Universiteti**
**Magistrant**
**E-mail: salan.novruzov@gmail.com**

## ALKOQOLİZM VƏ MƏİŞƏT ZORAKILIĞI

**Xülasə:** Məqalədə gənc nəslin zərərli vərdişlərdən istifadəsi və bu istifadənin ailələrdə yaratdığı demoqrafik problemlər mahiyyətindən bəhs olunur. Qloballaşma, dəyişən zaman və müasir inkişafın müsbət tərəfləri olduğu kimi, heç şübhəsiz mənfi tərəfləri də mövcuddur. Bu mənfi tərəflərindən biri də, məhz gənclərin zərərli vərdişlərə meyl etməsidir Qadına qarşı şiddət və ya gender əsaslı şiddət, fiziki sağlamlıqdan əlavə olaraq zehni sağlamlığa da təsir edən, qarşısının alınması mümkün ictimai sağlamlıq problemidir. Hansı ki, məqalədə həmin problemin mahiyyəti açıqlanır.

**Açar sözlər:** ailə, zərərli vərdişlər, alkoqolizm, asılılıq, demoqrafik, problemlər, qorxu hissi, məişət zorakılığı.

Məişət zorakılığı ailə münasibətlərində olan bir insanın digərinə nəzarət etmək, onu hədələmək, qorxu hissi yaratmaq məqsədi ilə getdikcə daha da çox təkrarlanan fiziki, şifahi, mənəvi, iqtisadi təhqir və təhdiddir. [Buka, S. ve Earls, F. (1993). Early Determinants of Delinquency and Violence. Health Affairs, 12(4), 46-64.]

"Məişət zorakılığı" anlayışı qurban və təcavüzkarın cinsinə görə müəyyən olunmur. Ailədə təcavüzkar kimi kişi, qadın, böyüklər və uşaqlar da ola bilərlər. Amma ailə zorakılığının daha çox yayılmış forması – kişinin öz gücünü ailənin qadın üzvlərinə, o cümlədən intim münasibətlərdə olduğu qadına qarşı istifadə etməsidir.

Məişət zorakılığının qurbanları:

a) həyat yoldaşı/keçmiş həyat yoldaşı
b) valideynlər
c) övladlar
d) nəvələr
e) qardaş və bacılar
f) bir yerdə yaşayan insanlar (nikah və ya heç bir qohumluq əlaqəsində olmayanlar)
g) nişanlı olanlar, evlənmək istəyənlər və s.

Zorakılıq harada baş verə bilər?

1. Evdə;
2. Məktəblərdə, yaxud digər təhsil müəssisələrində;
3. Müəssisələrdə - uşaq evləri, həbsxanalar və yaxud islahedici müəssisələrdə;
4. İş yerlərində;
5. İcmada və s.

Zorakılığın növləri:

1. fiziki zorakılıq-qarşı tərəfə fiziki cəhətdən zərərin toxunması deməkdir. Bura əsasən vurma, döymə, şilləmə, təpikləmə aiddir ki, bu da bədəndə müxtəlif xəsarətlərə yol aça bilər;
2. cinsi zorakılıq-qarşı tərəfin razılığı olmadan onu cinsi əlaqəyə təhrik etməkdir;
3. psixoloji zorakılıq-insan psixikasının pozulmasına, hətta ölümə belə səbəb ola bilər;
4. iqtisadi zorakılıq-qarşı tərəfin iqtisadi və maddi imkanlarına zərər vurulması nəzərdə tutulur.

Ailə münaqişəsi və məişət zorakılığı yaradan səbəblər qismində aşağıdakıları qeyd etmək olar:

- ailədə ərin və arvadın xəstəliyi nəticəsində uşaq doğulmaması;

- tələbatların ödənilməməsinin insanda aqressivlik, qəddarlıq kimi mənfi keyfiyyətlərin yaranmasına səbəb olması;
- ailəyə kənar müdaxilə hesab edilən, qayınana, qayınatanın təsiri;
- ailədə təhqirlərə səssizcə dözməyin qadının ləyaqəti kimi qiymətləndirilməsi;
- qadınların iş tapmaq və ya iş yerini qorumaq məqamlarında əxlaqi olmayan təhlükələr qarşısında daha çox zəif olması;
- zorakılıq faktı ilə işləyən psixoloqlar, sosial işçilər, hüquqşünaslar və digərlərinin qeyri-peşəkarlığı və səriştəsizliyi;
- Təhsilsizlik
- Uyumsuzluq
- Alkoqol
- Narkomaniya
- Stereotiplər
- Uydurma adət ənənələr
- Antisosial ve narsissistik xarakter pozuntuları
- Qısqanclıq sayıqlamaları ilə gedən paranoid pozuntu ve şizofreniya xəstəliyi
- Spirtli içki və narkotik vasitə istifadəsi
- Qısqanclıq
- İmpulsivlik
- Xətalarını görməmək [Genç, Y. (2016). Gençleri Fiziksel Şiddete İten Sebepler, Öğrenme Yoları ve Şiddet Eğilimleri. The Journal of Academic Social Science Studies, 44, 51-62.]

**Alkoqolizm** - spirtli içkilərin sui-istifadəsi nəticəsində yaranmış və xroniki intoksikasiya doğuran, spirtli içkilərdən psixi və (və ya) fiziki asılılıqla, habelə digər mənfi tibbi–sosial nəticələrlə ifadə olunan xəstəlik vəziyyətidir.

Alkoqolizm bir çox insanlar tərəfindən alkoqol asılılığı mənasında istifadə olunur.

Bəzi insanlar alkoqoldan asılı olmadan həyatlarında çətin vəziyyətlər olduğu halda alkoqol qəbul edirlər.

Alkoqoldan asılı vəziyyət yaranarsa, onda bu zərərli vərdişdən qurtulmağa detoksikasiya kömək edə bilər.

• Dünyada spirtli içki qəbul edilməsi səbəbindən hər il 3,3 milyon insan ölür, bu bütün ölümlərin 5,9%-ini təşkil edir.

• Alkoqol qəbulu 200-dən çox xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

• Alkoqol-bütün xəstəliklərin və zədələrin qlobal yükünün 5,1%-ni təşkil edir.

• Akoqol qəbulu həyatın erkən mərhələlərində ölüm və əlilliyə səbəb olur. 20-39 yaşlı insanlar arasında ölümlərin təxminən 25% -i spirtli içki qəbul edilməsi səbəbi ilə bağlıdır.

• Alkoqolun qəbulu nəinki fərdin sağlamlığına, həmçinin bir sıra insanların və cəmiyyətin ictimai və iqtisadi vəziyyətinə zərərli təsir göstərir. [Schuckit, M.A., (1985): The Clinical Inıplications of Primarx Diognostic Groups Among Alcoholics. Ardı Gen Psychiatry Vol: 42 N: 11, 1043-1049.]

Alkoqolizm fərdə, ailəsinə və cəmiyyətə zərər verən önəmli qlobal bir problemdir. İnsanlarda yaratdığı ağır ruhi və bədənsəl xəstəliklərdən əlavə, insanlar arası münasibətlərin pozulmasında, ailədaxili zorakılıq və gərginliklərin artmasında, boşanmada, yaralama, ölüm yaxud cinayətlərdə başda gələcək səbəblərdən biridir.

Asılılıq yaradan vərdişlərdən biri olan spirtli içkilərin həddən artıq qəbulu insanlarında bəzi xüsusiyyətləri formalaşdırır. Spirtli içki qəbulu, xüsusi ilə utancaqlıq da varsa, insanlarla ünsiyyət qurmanı asanlaşdırır, dincəlməyə kömək edir. Təbii ki, alınan spirtin miqdarından asılı olaraq qavramanın pozulması da şiddətlənir. Əgər içməyə davam edilərsə, müvazinətin pozulmasını halları baş verir.

Daha çox içilməyə başlandığında yuxusuzluq, baş ağrısı, narahatçılıq hissi şiddətlənər və ya huşsuz vəziyyətə keçilə bilər.

Uzunmüddətli spirtli içki qəbulu nələrə səbəb olur?

- İçki içmək seçim olduğu halda artıq məcburiyyət halını alır;
- Daha erkən saatlarda içilməyə başlanır;
- İşlərdə axsamalar yaranır;
- Gündəlik içmə davranışı münasibətlərə mənfi təsir edir;
- İçkinin verdiyi zərərlərə baxmayaraq içməyə davam edilir;
- Eyni təsiri görmək üçün daha çox içməyə başlanılır (tolerans);
- İçkinin əhəmiyyəti qalan bütün münasibətlərin, davranışların, işlərin önünə keçir;
- İçkinin uzun müddətə olan təsirləri;
- Psixoz halı – yanınızda heç kim olmadığı halda səs eşitmə;
- Demensiya – yaddaşın itirilməsi;
- Fiziki zərərlər – orqan xəstəlikləri.

Alkoqolizm bir çox ailənin dağılmasına, boşanmalara və ailə içində ciddi problemlər yaşanmasına səbəb olmaqdadır. Alkoqol asılılığı fərdə və ailəyə bir çox cəhətdən təsir edir, bir tərəfdən fərddə ciddi zehni və fiziki problemlərə, digər tərəfdən fərdin şəxsiyyətlərarası münasibətlərində, ailə həyatında pisləşmə, məişət zorakılığı, ailə problemlərinin artması və ər-arvad arasında münaqişə yaranmasına səbəb olur. Schuckit (1985) alkoqoliklər arasında ayrı yaşama və boşanmanın 50-60 faiz, Hasselbrockve (1985) 43 faiz olduğunu qeyd edirdi.

Alkoqol içdikdən sonra evdə şiddət olması halında, o evdə yaşayan hər fərd bu şiddət və narahatlıqdan öz payını alır. Xüsusilə evdə yaşanan bu şiddətli davranışların nəsildən-nəslə ötürülməsində böyük payı var. Alkoqoliqlərin həyat yoldaşlarında yüksək dərəcədə psixonevrotik, psixosomatik pozğunluq halları tez-tez baş verir. Qısqanclıq, aldatma, dava, yaralama və öldürmə halları bu cür ailələrdə yaxud cütlüklərdə tez-tez görülən hallardandır. Alkoqoliq ataların uşaqlarına qarşı zorakılıq halları xüsusilə də cinsi istismar etmək halları da baş verir. Çünki ailənin təməl sosiallaşma funksiyasını yerinə yetirən ilk qurum olması ilə əlaqədardır. Məktəbəqədər ailədə uşağın inkişafı və ya sosiallaşma tərzi uşağın gələcəkdə zorakılığa yönəlməsini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Bu çərçivədə, şiddətli davranış göstərən şəxslərin, şiddətli davranış nümayiş etdirməyənlərə nisbətən daha şiddətli davranışın nümayiş olunduğu mühitdə böyüyənlərdən daha çox məişət zorakılığı yaşadıqlarını söyləmək olar.

Uşaqlara göstərilən bu təsirlərdən əlavə alkoqol asılılığı fərdin və ailəsinin sosial münasibətlərində pozulmaya cinsi əlaqələrin pisləşməsinə, ailədəki və sosial mühitdəki insanlararası ünsiyyət problemlərinə, gündəlik işdəki çətinliklərə, özünə inamsızlığa, problemləri həll etməmək və bu təsirlərə əlavə olaraq uşaqlar üzərində, iqtisadi çətinliklərə də səbəb olur. Bundan əlavə, spirtli içki qəbul edən şəxsin yaşadığı ailədə çox çətin vəziyyətlər meydana gəlir; həyat yoldaşları və ya ailələr psixosomatik xəstəliklərdən əlavə depressiya, acizlik, qidalanma pozğunluqları, sosial çəkilmə və kimi problemlərlə qarşılaşırlar. Həmçinin araşdırmalar göstərir ki, spirtli içkininin təsiri altında olan insan ailəsinə qarşı törətdiyi zorakılığı tam dərk eləmir və spirtli içkinin təsirindən qurtulduqdan sonra bunu xatırlamır.[Kültegin Ögel-Bağımlı Aileleri İçin Rehber KitapAlkol, Uyuşturucu, Bilgisayar, Sigara ve Diğer Bağımlılıkları Olanların Yakınlarına Bilgiler, İş Bankası Kültür Yayınları, 2018]

Alkoqolizm, bir çox ailənin dağılmasın da və yaxud boşanmalar da, eyni zamanda ailə içində ciddi problemlər yaşanmasında ciddi rol oynayır. Burada problem, sadəcə spirtli içkiləri istifadə edən fərdlərin davranışlarından deyil, onların yanında olan insanların bu cür davranışlar qarşısında necə reaksiya verəcəklərini, yaxud da necə davranış göstərəcəklərini bilməməsindən də qaynaqlanır. Bu səbəblə spirtli içki aludəsi olan fərdlərin ailələri üçün terapiyalardan istifadə olunur. Terapiyada fərdlərin bəzi davranışlar üçün nəzərdə tutulmuş münasibətləri, alınması

vacib olan qərarların nələr olduğu, hansı vəziyyətlərdə necə davranış göstərməsi gərəkdiyi kimi məsələlər işlənilir.

Ailə terapiyasının əsas məqsədi ailə institutunun sağlam şəkildə qorunmasını təmin etməkdir. Eyni zamanda, ailənin dağılma mərhələsində sağlam düşüncə və davranış tərzini müəyyənləşdirmək və bu çətin müddətdə dinc bir mühit təmin etməkdir. Başqa bir məqsəd ailədə böyüyən uşaqların psixoloji və emosional inkişafının sağlam davam etməsi üçün lazımi tədqiqatları aparmaqdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə gənclərə alkoqolizmin nə olduğu, alkoqolizmin yaratdığı problemlər, məişət zorakılığı haqqında məlumat verilmişdir və bu kimi vərdişlərin nə dərəcədə ziyan olduğu və uzaq durmağın vacibliyi göstərilmişdir. Məqalədə verilən məlumatlar, araşdırmalar bu məqalənin elmi yeniliyi kimi nəzərdə tutulur.

**Məqalənin praktik əhəmiyyəti və tədqiqi.** Məqalədən sosial iş təhsili alan gənclər yaxud bu sahədə çalışan insanlar, habelə bu sahədə araşdırma aparan insanlar istifadə edə bilər.

**Nəticə:**

Araşdırmalara əsasən alkoqolizm və məişət zorakılığı nəinki ölkəmizi hətta bütün dünyanı narahat edən qlobal problemlərdən biridir. Bu kimi problemlərin minimuma endirilməsi və aradan qaldırılması üçün sosial siyasətin və maarifləndirmənin rolunu mütləq qeyd etmək lazımdır.

**Ədəbiyyat siyahısı:**


1. Quliyev R.M. Sosiologiya: Nəzəriyyə və tədqiqat metodoloqiyası: (Monoqrafiya). Bakı, Siyasət, 1995, 423 s.
2. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, 2007.)
3. Şəfiyeva E. İ. Klinik psixologiya. - Bakı.: BDU nəşriyyatı, 2002. - 81 s.
4. Şəfiyeva E.İ. Somatik xəstəliklərin klinikasının psixoloji problemləri. Bakı, 2013, 195 s.
5. Ayan, S. (2006). Şiddet ve Fanatizm. Ç.Ü İktisadi İdari Bilimler Dergisi, 7(2), 191-209.
6. Buka, S. ve Earls, F. (1993). Early Determinants of Delinquency and Violence. Health Affairs, 12(4), 46-64.
7. Furlong, M. ve Morrison, G. (2002). The School in School Violence: Definitions and Facts. Journal of Emotional and Behavioral Disorders, 8(2), 71-81.
8. Genç, Y. (2016). Gençleri Fiziksel Şiddete İten Sebepler, Öğrenme Yoları ve Şiddet Eğilimleri. The Journal of Academic Social Science Studies, 44, 51-62.
9. Genç, Y. ve Seyyar, A. (2010). Sosyal Hizmet Terimleri Sözlüğü. Sakarya: Sakarya Yayınevi.
10. Krug, E. G., Dahlberg, L. L., Mercy, J. A., Zwi, A. B. ve Lozano, R. (2002). World Report on Violence and Health, Ceneva: World Health Organization.
11. MEB, Eğitimi Araştırma ve Geliştirme Dairesi Başkanlığı (2008). Öğrencilerin Şiddet Algısı. www.meb.gov.tr
12. Ünsal, A. (1996). Genişletilmiş Bir Şiddet Tipolojisi. Cogito, 6-7, Kış-Bahar, 29-36.
13. Hasselbrock, MN; M eyer, RE; Keener, JJ; (1985): PsycJıopatlıology in Hospitalized Alcoholics, Ardı Gen Psychiatry, 42-11, 1050-1055.
14. Schuckit, M.A., (1985): The Clinical Inıplications of Primarx Diognostic Groups Among Alcoholics. Ardı Gen Psychiatry Vol: 42 N: 11, 1043-1049.
15. Schuckit, MA, (1986): Gcnetic and Clinical Inıp lications of Alcoholism and Affective Disorder, Am J Psychiatry, 143/2, P: 140-147. 10- Ünal M. (1981): Alkolizm ve Alkol Psikozları, Ruh Sağlığı ve Hastalıkları ders kitabı içinde (Ed. M.O. Öztiirk), Meteksan Ltd. Şti. S: 263-292, Ankara.
16. Kültegin Ögel-Bağımlı Aileleri İçin Rehber KitapAlkol, Uyuşturucu, Bilgisayar, Sigara ve Diğer Bağımlılıkları Olanların Yakınlarına Bilgiler, İş Bankası Kültür Yayınları, 2018

17. Ögel,K., Tamar,D., Karalı,A., Çakmak, D.: Alkol ve Madde Kullanım Bozuklukları El Kitabı. Amatem, Bakırköy Ruh ve Sinir Hastalıkları Hastanesi, 1998.

18. T.C. Sağlık Bakanlığı, Sağlık Hizmetleri Genel Müdürlüğü Madde Bağımlılığı Tanı ve Tedavi Kılavuzu El Kitabı,2012

**Шалан Новрузов**

## АЛКОГОЛИЗМ И ДОМАШНЕЕ НАСИЛИЕ

**Резюме:** В статье рассматривается использование вредных привычек молодым поколением и характер демографических проблем, которые это использование создает в семьях. Помимо положительных аспектов глобализации, переменчивых времен и современного развития, несомненно, есть и отрицательные аспекты. Один из его отрицательных аспектов заключается в том, что именно молодежь склонна к вредным привычкам и создает почву для возникновения подобных негативных ситуаций. Насилие в отношении женщин или гендерное насилие - это предотвратимая проблема общественного здравоохранения, которая влияет не только на физическое, но и на психическое здоровье. В статье разъясняется суть проблемы.

**Ключевые слова:** семья, вредные привычки, алкоголизм, наркомания, демографические, проблемы, страх, домашнее насилие.

**Shalan Novruzov**

## ALCOHOLISM AND DOMESTIC VIOLENCE

**Summary**: The article discusses the use of harmful habits by the younger generation and the nature of the demographic problems that this use creates in families. Undoubtedly, globalization has both positive and negative aspects, as well as positive aspects of changing times and modern development. One of the disadvantages is that young people are prone to bad habits and such negative conditions. Violence against women, or gender-based violence, is a preventable public health problem that affects not only physical but also mental health. The article explains the essence of the problem

**Key words:** family, harmful habits, alcoholism, addiction, demographic, problems, fear, domestic violence.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 30. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

**UOT:390.:39.**

**Akifə Abbasova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: akife.abbasova98@gmail.com**

# LARS VON TRİYER FİLMLƏRİNDƏ ANTİ-FEMİNİST YANAŞMALAR (“DOQVİL”, “MELONXOLİYA” VƏ “ANTİXRİST” FİLMLƏRİ ƏSASINDA)

**Xülasə:** Məqalə dünya kinematoqrafları tərəfindən anti-feminist adlandırılan Lars von Triyerin “Doqvil”, “Melonxoliya” və “Antixrist” filmlərindən bəhs edir. Filmlərdə qadına qarşı törədilən zorakılıq aspektləri diqqət cəlb edir. “Doqvil” filmində Qreys obrazının yaşadığı haqsızlıqlarla, “Melonxoliya” filmində Gastinin yaşadığı depresiya və ən nəhayət “Antixrist” filmində qadının şeytanlığı təmsil etməsi Triyeri həqiqətən “qadın düşməni” adlandırmağımıza icazə verir.

**Açar sözlər:** Lars von Triyer, qadın, şiddət, anti-feminizm, melonxoliya, doqvil, antixrist

Bəşəriyyətin yaralı yeri olan qadın azadlığının məhdudlaşdırılması, ona qarşı şiddət və zorakılıq hallarının sərgilənməsi incəsənət sahələrinə də sirayət etmişdir. Tarixən incəsənətin bir sıra növlərində bu mövzu fərqli aspektlərdən işləmişdir. Öz növbəsində kinematoqrafiya da bu mövzuda müxtəlif nümunələr yaratmışdır.

Danimarkanın səs-küylü və eyni zamanda dahi rejissoru Triyerin özünəməxsus qəribəliklərlə dolu filmi olan “Dogville”-ə nəzər salaq. Fərdiyyət və cəmiyyət mövzusunu hər dəfə fərqli baxış bucağından bizə göstərən rejissor filmin sonunda bizi vicdanımızla baş-başa buraxır. Rejissor eyni zamanda qadına qarşı münasibəti ilə də seçilir. Kişidən daha aşağıda göstərilən qadın onun üçün günahın və şeytanlığın rəmzidir. 2003-cü il istehsalı olan “Dogville” istər dekorasiyası ilə istərsə də süjet xətti ilə unikal bir filmdir. Adi filmlərdə alışdığımız məkan yerinə Triyer qarşımıza teatr dekorasiyasını çıxardır. Böyük bir studiyada baş verən hadisələr balaca bir küçədə baş verirmiş kimi göstərilir. Triyer “artıq dekorasiya tamaşaçının diqqətini dağıdır” fikri ilə belə bir priyomdan istifadə edir. Lakin bunun digər səbəbləri də var. Əsas səbəb isə mövzunun özü ilə bağlıdır. Filmin adından da göründüyü kimi “it şəhəri” olaraq da bilinən Dogvil zahirən yaxşı görünən insanlara ev sahibliyi edir. Triyer bizə insanlığın əsl vəhşi üzünü göstərərək, mədəniyyətlərin insanlara saxta maskalar taxdığını sübut edir. Filmi izləməyə başlayarkən teatr estetikasını gördükdə təəccüblənən tamaşaçı daha sonra filmdəki teatrallığı unudub “olmayan” əşyaların varlığına inanır. Həqiqətən bir divar və yaxud bir qapı görür. Filmdəki insanlar xaricində hər şey sadəcə sözdən ibarətdir. Nə divarlar, nə də evlər var. Hər kəs hər şeyi görür. Hər kəs hər şeydən xəbərdardır. Lakin üç meymunu oynayıb saxta yaxşılıq maskalarını taxmağa davam edirlər. Tolstoyun dili ilə desək “ən yaxşı hekayələr ya kiminsə başqa bir yerə gəlməyi və yaxud kiminsə bir yeri tərk etməsi ilə başlayır.” Bu filmdə də hadisələr Qreys adlı bir qızın gecənin bir yarısı Elm küçəsinə gəlməsi ilə başlayır. Qreys rolunu Nikol Kidman ifa edir. Qreys zərafət və saflıq mənasını verir və bu təsadüfi deyil. Triyer kimi bir rejissorun filmində heç nə təsadüfi deyil. Hekayədəki tək saf və zərif məhz Qreysin özüdür. Ta ki, son səhnəyə qədər. Doqvil bizə fəlsəfənin, dinlərin, psixologiyanın, insan xislətinin dərinliklərini göstərir və bizə dəyərlərimizi yenidən sorğuladır. Film kadrarxası nitqlə başlayır. Bu səs film müddətincə bizə hadisələri “nəql edir”. Doqquz hissədən ibarət olan filmdə hər hissə hadisələri və insanların daxili dünyalarını getdikcə açmağa davam edir. Hər obrazın üstünə götürdüyü bir simvol var. Bu simvollar filmin finalına doğru bizə ümumi mənzərəni göstərir. Kadrarxası nitqin “bu acıqlı bir hekayədir” deməsi ilə başlayırıq. Elm küçəsinin bir mənzərəsi canlanır. Tamaşaçı hər evi, hər evdə baş verənləri görür, hər kəsin həyat tərzi ilə tanış olur. İlk olaraq əsas personojlardan biri Tomla tanış oluruq. Tom insanlarla söhbətləşib, suallar verən və cavablar axtaran bir şairdir. Küçədə insanlarla danışıb həyat fəlsəfəsi haqqında müzakirələr edir.

Qreysin qəflətən gəlişinə müsbət yanaşan ilk insan da məhz Tom olur. Tom düşünür, Tom küçəni gəzir, müşahidə edir bizim üçün filosof görkəminə bürünür. Tom Qreysin xilaskarı olduğunu düşünür və onu ilk hissələrdə xalqdan qoruyur. Qreysin bir gecə yarısı qanqsterlərin əlindən qaçması ilə özünü hər kəsə aciz göstərməsi Tomun Qreys üçün çarələr axtarmasına vəsilə olur. Tom Elm küçəsi sakinləri və Qreys arasında bir körpü rolu oynayır. Kiminlə danışırsa danışsın Tom hər zaman düşüncəlidir. Sakinləri Qreysi öz aralarına almaq üçün bir yığıncaq təşkil edirlər. Bu yığıncağa müdaxilə edə bilməyən Qreys sakitcə qərarı gözləyir. Zahirən o hər şeyi görür, çünki divarlar yoxdur. Lakin filmin məntiqinə əsasən Qreys hər şeydən xəbərsizdir. Yığıncağın verdiyi qərara görə Qreysə iki həftə bu qəsəbədə yaşamağa icazə verilir. Bu müddət ərzində Qreys özünü onlara sevdirməlidir. Qreys vaxt itirmədən bütün qapıları tək-tək döyərək sakinlərin köməyə ehtiyacları olub-olmadığını soruşur. Son qapıya yaxınlaşanda görür ki, heç kəsin onun köməyinə ehtiyacı yoxdur. Qreys insanlara əvvəlcə azdığını desə də sonradan axtarılan bir qaçaq olduğunu açıqlayır. Dogvil sakinləri əvvəl aciz və köməksiz olduğunu gördükləri qızı yaxına buraxmasalar da qəddar rəftar etmirdilər. Lakin qəsəbə əhlinin maskaları düşdükcə Qreysi qanqsterlərə təhvil verməklə hədələyib hər cür əziyyəti edirlər. Ancaq filmdəki tək maskalı qəsəbə sakinləri deyil.

Qəsəbə sakinlərinin “elə də vacib olmayan” işlərini görən Qreys gördüyü hər işə görə pul əldə edir. Qazandığı pulla özünə kiçik suvenerlər alır. Yeddi suveneri tamamlayarsa özünü qəsəbənin sevgisini qazanmış kimi hiss edəcəkdi. Onun fikrinə görə qəsəbə sakinlərlə arasındakı emosional bağlılığı kiçik suvenerlər təmin edəcəkdir. Lakin getdikcə iş qaydaları çətinləşir və qanqsterlərə hər an təhvil edilmə qorxusu ilə qəsəbə sakinlərinin hər istədiyini edir. Hər cür təcavüzə, təhqirə və şiddətə dözür, lakin yenə də qəsəbə sakinlərinə hər hansı şiddət göstərmir. Bir vaxtlar Dogvilə pənah gətirən Qreys artıq Dogvilin oyuncağıdır. Qaçmağa çalışma cəhtinin uğursuzluğundan sonra çəkdiyi əziyyətlər ikiyə qatlanır. Artıq Tom belə ona qarşı qəddarlaşmağa başlayır. Tomun ona kömək edirmiş kimi görünüb əslində heç bir xeyrininin dəyməməsi, daha da işləri çətinləşdirməsi tamaşaçının əsəblərini tarıma çəkir.

Kadrarxası nitqin də dediyi kimi özünü yazıçı adlandıran Tomas Edison yəni Tom film müddətincə heç nə yazmır. Fəlsəfəsi də lazımsız və zahiridir. Qreysə belə sona qədər sahib çıxmağı bacarmır. Yaza biləcəyinə inanan lakin heç nə yaza bilməyən saxta filosofdur Tom. Adının Tomas Edison olmağı Triyerin ironiyasıdır. Bəlkə də Tomas Edisonun Teslanın yaratdıqlarına sığınıb özünü filosof adlandırmasına gülürdü. Filmin əvvəllərində bir öndər kimi rəftar edən Tom, film irəlilədikcə bir müşahidəçiyə çevrilir. Triyer burada insanların peyğəmbər kimi rəftar etmələrinə gülür. Məsləhət verməyə hər an hazır olanlar, iş görməkdən o qədər uzaq olurlar.

Filmdəki fəlsəfi motivlər qədər dini motivlər də vacibdir. Filmin əvvəlində Qreysin qəsəbəyə gəlişini hürərək sakinlərə bildirən, filmin finalına qədər səsini çıxartmadan döşəməyə çəkilmiş bir şəkil olaraq qalan Moses yəni Musa, filmin finalında canlıya çevrilib bir daha hürür. Musanın filmdəki yeganə sağ qalan canlı olması nəzərlərimizdən yayınmır. Qreys Dogvildə yaşayan tək canlının o olduğunu düşündüyü üçün ona toxunmur. Filmdəki yeddi suvener yeddi ölümcül günahın rəmzidir. Həmçinin filmdəki yeddi uşaq Daliya, Olimpiya, Diyana, Atena, Pandora, Jason və körpə də təsadüfi deyil. Ad seçimində yunan mifologiyasından təsirlənən Triyer finalda bizi təəccübləndirir. Rejissor “ən böyük cəlladlar başı kəsilməyən məzlumların arasından çıxar” ifadəsini doğrulayır. Qreysin Dogvil sakinləri tərəfindən öz daxilindəki vəhşini üzə çıxartması, uşaqları belə öldürməsi əsəbləri tarıma çəkilmiş tamaşaçının ürəyinə su səpir. Atasının əslində Qreysə gücün nə olduğu barədə dərs verməsini öyrənən Doqvil sakinləri gördükləri mənzərə qarşısında nə edəcəklərini bilmirlər. Hədələdikləri, boynuna ağır dəmir zəncir bağladıqları, təcavüz etdikləri qızın onları öldürə biləcəyini ağıllarına belə gətirmirdilər. Qreysin zərafət maskası da beləcə düşür. Filmdəki alma ağacları, Qreysin maşında alma səbətlərinin içində getməsi Triyerin dinə olan ironik yanaşmalarının növbəti sübutudur. Bir növ Doqvil yer üzünün yalançı cənnətidir. Həvvaya görə yer üzünə qayıtmaq məcburiyyətində qalan

insanlıq çəkdiyi əzabların günahını da məhz Həvvada görür. Qreys də burada Həvvanın simvolu idi. Almaların arasında yatan mələk görünüşlü "ilanı" təmsil edirdi.

Triyerin "Depresiya" trilogiyasına aid "Melonxoliya" filmi qadın obrazları ilə diqqət cəlb edir. Film 2011-ci il istehsalıdır. Rejissor burada da yalnızlıq mövzusuna toxunur. Yenə burjuaya qarşı sərt reaksiya və sarkazm hiss edirik. Triyer filmdəki depresiyanı o qədər gözəl hiss etdirir ki, tamaşaçı filmin finalında depresiyanı bütün iliklərinə qədər hiss edir. Burjuaziyanın çürümüş dəyərləri toy səhnəsində bütün çılpaqlığı ilə ekrana köçürülür.

Film təbiətin sakit ahənginin müşayiəti ilə başlayır. Rejissor bizi olacaq hadisələrə hazırlayır. Tamaşaçını melonxoliya ilə ilk dəfə bu kadrlarda tanış edir. Təbiət susur, hər şey susur. Bütün yer kürəsi sakitcə qaçınılmaz ölümü gözləyir. Uzun əsrlər boyu fəaliyyətini davam etdirən dünya artıq yorğundu. Ancaq kameralar bizim diqqətimizi yavaş-yavaş böyük malikanədə baş verəcək toya çəkir. Burjuaziyanı görürük. Böyük salonda hər kəsin bir maskası və o maskanın arxasında gizlətdiyi təhlükəli bir üzü var. Sartrın "Ürəkbulantısı"-nı xatırlayaq: "Salona göz gəzdirirəm. Tamamilə komediyadır. Bütün hər kəs ciddi bir görkəmdə ziyafətdədirlər. Xeyir, yemirlər, üstlərinə düşən vəzifəni icra edirlər. Hər biri varlığını sübut etməyə çalışan siçovullardı. Onlardan heç biri heç nə və heç kəs üçün lazımsız olduğuna inanmır." Əsas xarekter Gastin də öz toyunda, ziyafətdəkilər üçün eynisini düşünür. Hər fürsətdə toydan yayınır. Gastin və Maykıl cütlüyünün maşını toya gecikir, lakin bu Gastini zərrə narahat etmir. Gastin toya getmək yerinə axırdakı Abraham adlı atla vaxt keçirməyi üstün tutur. Ziyafətə çatanda evin içində gəzir, bəzən bacısı Klerin oğlu ilə oynayır, arabir üzündə təbəssüm yaranır, lakin sonra yenə də sönür. Hər kəs depresiyanı və yaxınlaşan təhlükəni daxilən hiss edir. Ancaq biz hər şeyi Gastinin gözləri ilə izləyirik. Toyda valideynlərinin dalaşması ilə yenidən "həyat yoldaşını" tərk edib salondan çıxır. Gastin evlənməkdən və sevincdən uzaqdır. Onun anlaşılmaz depresiyası ilk növbədə evlənməyə hazırlaşdığı həyat yoldaşını daha sonra isə, bacısı Kleri və onun həyat yoldaşı bütün toyu təşkil edən Conu narahat edir. Con Gastini yola gətirməyə cəhd etsə də cəhdi uğursuz alınır. İlk növbətə "evlənmək istəməyən" qız təsiri bağışlayan Gastin əslində isə Melonxoliyanın varlığını hiss edən ilk insandır. Film iki hissədən ibarətdir. Toy və qiyamətin gəlişi. Yenidən Sartrın "Ürəkbulantısı"-nı xatırlayaq. "Əslində məni maraqlandırırlar. Amma məni darıxdırırlar. Onları özümdən elə uzaq hiss edirəm ki...həmişə rahatdırlar. Ətraflarındakı sarı divarlara güvənirlər. Heç vaxt heç nə onları tərk etməyəcəkmiş, heç vaxt ölməyəcəkmiş kimi rahatdırlar." Gastinin ziyafəti izləyərkən keçirdiyi hisslərlə eyni hissləri bölüşürlər. Triyerin toy ziyafəti ilə qiyaməti göstərməsi təsadüfi deyil. Dünyanın alışdığı kiçik zövqlər artıq əhəmiyyətsizdir. Hər şey dəyərsizləşib. Sevgilər, ailə, dostluq. Hər şey fəaliyyətini lazımından artıq davam etdirib. Qiyamət qaçınılmazdır. Lakin Triyerin bizə göstərdiyi qiyamət Hollivud filmlərində alışdığımız qiyamətlərdən deyil. Dünyanın dağılmasını texnologiyanın, xüsusi effektlərin köməyi ilə deyil minimalist şəkildə göstərir. Xaos bəzən səs-küyün yaranması deyil, bəzən ən böyük xaos səssizlikdi. Filmdəki obrazları təhlil etdikdə yenə də yaşadığı gücün, narsistliyin köləsi olmuş burjuaziyanı görürük. Conun bu toya böyük pul xərcləməsini hər fürsətdə Kler və Gastinin üzünə vurması öz eqosunun, narsistliyinin simvoludur. Əslində narahat olduğu məsələ Gastinin depresiyası deyil, ziyafətə xərclədiyi pullardı. Burjuaziyaya qarşı pərt olmaqdan narahatdır. Digər obraz Gastinin atası toya iki cavan məşuqəsi ilə daxil olur. Gastin ona ehtiyacı olduğunu desə də daha vacib işi olduğunu bildirib toyu tərk edir. Gastin özünü yenə depresiyanın qollarına atır. Gastinin müdiri Cek "əgər gəlinlə işçi arasında qalsam işçini seçərəm" dedikdən sonra könüllü işə götürdüyü cavan oğlanı Gastinin üstünə atır. Gənc işini itirmək qorxusundan Gastinin yanından ayrılmır. Yenə güc və pul üzərindəki hakimiyyət bizə bir daha göstərilir. Buna dözə bilməyən Gastin Cekə işinə nifrət etdiyini bildirib işdən çıxır. Film irəlilədikcə tamaşaçı da Gastin qədər depresiyanın ən dib nöqtələrinə enir. Gastin əvvəlcə toyu, sonra Maykılı, ardınca işini tərk edir. Hər tərk edilişdən sonra üstündən yük qalxsa da yenə də boşluqdan xilas ola bilmir. Boşluq Melonxiya qədər yaxınlaşmaqdadır. Toydan sonra səssizlik davam edir. Gastin həyatdan artıq tamamilə qopur. Conun Abrahamla birlikdə ölməsindən sonra

Triyer dünyada üç obrazı saxlayır. Gəlməyəcək gələcəyin simvolu uşaq və iki qadın. Artıq mavi rəngli Melonxoliyanı ümidsizliklə gözləyən Kler analıq psixologiyası ilə öləcəyini bildiyi halda yenə də oğlunun üstünü örtür. Qapının astanasında olan ölümü üçü birlikdə bir dost kimi salamlayırlar. Zaman heç vaxt var olmamış kimi yox olur. Triyer dünyanın mövcudluğunda heç bir məqsəd görmür. Gastinin dili ilə desək bu lənətə gəlmiş dünyada tamamilə təkdirlər. Artıq dünyada sadəcə təbiət və iki qadın var. Bütün mifologiyada, dinlərdə qadının varlığı təbiətin varlığı ilə eyniləşdirilir. Tanrı kişi obrazında olsa da, təbiət dişidir. Sonda Tanrı ölür və geriyə təbiət qalır. Dünənki toyda hər kəsin qadınları "ikinci" cins olaraq görməsi, onların psixoloji şiddətə məruz qalması ekrana addım-addım yansıyır. Lakin sonda anti-feminist sayılan rejissor qadının dünya üzərindəki hegamonluğunu dərk edir.

"Depresiya" trilogiyasının növbəti filmi "Antixrist" rejissora qadın düşməni damğasını vurdu. Film 2009-cu il istehsalıdır. "Melonxoliya" filmindən bizə tanış olan aktrisa Karlotte Qensburq burada baş rol ifaçısıdır. Film altı hissədən ibarətdir. Başlanğıc, əzab, ağrı, ümidsizlik, üç dilənçi və son söz. Filmin girişinin ağ – qara çəkilməsi mövzusunun təməlini təşkil edir. Gorg Fredrix Handelin məşhur ariyası olan "İcazə ver ağlayım"-ın müşayiəti ilə uyğunsuz vəziyyətdə olan qadın və kişini görürük. Filmin ilk dəqiqəsi son səhnə ilə səsləşir. Valideynləri cinsi əlaqədə olarkən yavaş-yavaş pəncərəyə çıxan uşaq özünü aşağı atır. Onun pəncərəsinin önündə üç oyuncaq var. Bu oyuncağın birinin üstündə əzab, digərlərində isə ağrı və ümidsizlik yazılıb. Triyerin üç dilənçisi məhz bunlardır. Filmin əvvəlindən sonuna kimi oğlu öldüyünə görə əzab çəkən qadının filmin sonunda öyrəndiyimiz həqiqəti ona qarşı münasibətimizi dəyişir. Qadın oğlunun təhlükədə olduğunu görmüş ancaq onu dayandırmamış və həzz hissinə davam etmişdir. Triyerə bu filminə görə bir çox tənqidçi tərəfindən anti-feminist damğası vurulsa da düşünürəm ki, filmdə bəzi məqamlarda iplər tamamilə qadının əlinə verilir. Nitşenin eyni adlı kitabında şeytan qadın olaraq göstərilir. Triyer isə filmdə heç kimə şeytan damğası vurmur. Rejissorun mövqeyini izləyərkən belə qənaətə gəlirik ki, o, ssenariyə müdaxilə etməmişdir. Hadisələr tamamilə personajların iradəsinə tabedir. Obrazların adı yoxdur. Onların sadəcə cinsiyyəti məlumdur: qadın və kişi. Əsasən kişinin daha üst və daha soyuqqanlı olduğunu izləsək də, xatırlatmalı olduğumuz iki mühüm məqam var. Birincisi kişinin psixoloq olması. İkincisi isə uşağın ölümündə qadın qədər günahkar olmaması. Kişi bəzən Triyerin özü olur. Təbiəti və hadisələri izləyir. Onun vəzifəsi qadına dəsdək olub, onu müşahidə etməkdən ibarətdir. Qadın isə müxtəlif dinlərdə olduğu kimi günahkar olaraq göstərilir. Tramva yaşamış hər insanın keçdiyi psixolojik mərhələlərdən keçən qadın faciəvi hadisədən sonra səssizləşir və əzab çəkir. Kişi psixoloq olduğu üçün qadını sakitləşdirmək məqsədi ilə əvvəl getdikləri bir meşəyə üz tutur. Qatarda ikən qadının yanındakı güzgüdə qorxulu şeytan fiquru görünür. Bu qadının çıxacağı yolda şeytana çevriləcəyinin simvoludur. Getdikləri meşə Eden adlanır. Eden bir çox mənbədə cənnət olaraq da bilinir. İlk bölümün sonlarında Edendə kişi ceyranla qarşılaşır. Ceyran üç dilənçidən birincidir. Yəni saflıq və paklıq, eyni zamanda qurban və yaxud əzabın rəmzi sayılır. Ceyran Tanrının da simvolu kimi verilə bilər. Bətnindən çıxdığı balaca ceyran balası da insana nişanədir.

İkinci bölüm ağrıdan bəhs edir. Qadın artıq yaşadığı şokdan yavaş-yavaş çıxaraq oğlunun ölümünü qəbul etməyə və bundan şiddətli əzab çəkməyə başlayır. İkinci hissədə yuxuya gedən qadın və kişini görürük. Kişi yuxudan ayılarkən əlinə yapışmış gənələrdən qurtulmağa çalışır. Gənə xristianlıq dinində intiqam simvolu olaraq bilinir. Triyer qadını ikinci hissədən etibarən yavaş-yavaş şeytana çevirir. Kişiyə verdiyi ilk əzab bununla başlayır. Gənələrin olduğunu bildiyi halda ona məlumat verməyərək. Filmdəki digər bir metafora isə ölü körpə bir quşun yırtıcı bir qartal tərəfindən yeyilmə səhnəsidir. Qadının tramvanın təsirindən ani isteriyaya qapılıb yaxşı olduğuna inanmasını və bu səhnədən sonra yenidən əvvəlki vəziyyətinə qayıdaraq təbiətin qəddarlığını dərk etməsini görürük. Beləliklə üç dilənçidən biri də artıq məlumdur. Qadın getdikcə təbiətdə vəhdət halına gəlir. Adı cənnət olan əslində isə cəhənnəmi vəd edən bu meşənin şeytanı məhz qadındır. Kişinin mövqeyinə qayıtdıqda isə ikinci hissədən etibarən İsa

peyğəmbərin görkəminə bürünür. Üç dilənçidən biri olan tülkü ilə qarşılaşır. Tülkü ona "xaos hökm sürəcək" deyə bildirir. Yenidən Nitşenin kitabına qayıdırıq. Burada tülkü ağlın və hiyləgərliyin simvolu olaraq verilir.

Üçüncü hissə: ümidsizlik. Kişi qadının araşdırdığı məqalələrə və kitablara göz atır. Burada tarixdə cəzalandırılmış qadınlar haqqında təhlükəli məlumatlar tapır. Qadının digər qadınları günahkar göstərməsi kişini əsəbləşdirir. Qadın isə onu cinsi əlaqəyə məcbur edir. Bu məcburiyyət nəticə vermədikdə qadın meşədə vahiməli ağacın dibində uzanır. Biz bu ağacın köklərindən çıxan bir neçə qadın əli görürük. Bu cəhənnəmə həbs edilən cadugər qadınların əlləridi. Lakin filmin sonunda azadlıqlarına qovuşurlar. Kişi ölmüş oğlunun xəstəxana kağızlarına baxanda oğlunun ayağında problem olduğunu görür. Qadın bunu bildiyi halda uşağa ayaqqabılarını tərs geyindirərək əvvəldən onu istəməməyinin intiqamını almışdır. Bu həqiqətlərin üstünün yavaş-yavaş açılması qadını kişiyə qarşı daha da qəddarlaşdırır. Filmin finalına doğru hadisələr daha da dözülməz hala gəlir. Qadın özünü və kişini cəzalandırır. Üç dilənçini də yerdə yarıcan uzanmış qadının yanında görürük. Filmin finalında Eden artıq bir cəhənnəmdir. Tarkovskiyə həsr edilən film bir çox hissədə onun kadrlarına çox oxşayır. Filmin əsas rəngi mavidir. Mavi sakitlik və harmoniya rəmzidir.

Beləliklə, bu üç filmdə cəmiyyətin qadına yüklədiyi günahların bir daha şahidi olduq. Tarix boyu qadınlar bəşəriyyətin bəlası olaraq tanınır. Dinlərdə belə qadınlar ikinci dərəcəli bir varlıqdır. Lakin Triyer filmlərində qadına qarşı göstərdiyi sərt münasibətlə yanaşı ona qarşı heyranlığını da gizlətmir. "Doqvil" filmində Qreysin mələk kimi görünüb sonda uşaqları öldürə biləcək caniyə çevrilməsi, "Antixrist" filmində qadının öz uşağını öldürməsi, "Melonxoliya" filmində Gastinin nankorluğu Triyerə icazə verir ki, qadının əslində göründüyü qədər zəif olmadığını müdafiə etsin. Hətta bu baxımdan Triyerin ideyaları yunan rejissor Yorqos Lantimosun ideyaları ilə səsləşir. Son dövr art-xaus filmlərində yaranan anti-feminist tendensiya əslində Nitşe fəlsəfəsinə dayanır. Nitşenin qadını "şeytanın yer üzərindəki zərrəsi" olaraq görməsi kinoda yaranan bu istiqaməti dəstəkləyir.

**Акифа Аббасова**

**АНТИФЕМИНИСТСКИЕ ПОДХОДЫ В ФИЛЬМАХ ЛАРСА ФОН ТРИЕРА (ПО МОТИВАМ ФИЛЬМОВ «ДОГВИЛЛЬ», «МЕЛАНХОЛИЯ» И «АНТИХРИСТ»)**

**Резюме:** В статье повествуется о фильмах Ларса фон Триера «Догвилль», «Меланхолия» и «Антихрист», которые мировые кинематографисты называют антифеминистскими. Аспекты насилия в отношении женщин в фильмах привлекают внимание. С несправедливостью, которую испытывает образ Грейс в «Догвилле», депрессией, которую испытывает Гасти в «Меланхолии», и, наконец, с тем, что женщина представляет сатанизм в «Антихристе», это то, что позволяет нам по-настоящему назвать Триера «врагом женщины».

**Ключевые слова:** Ларс фон Триер, женщина, насилие, анти-феминизм, меланхолия, Догвилль, Антихрист.

**Akifa Abbasova**

**ANTIFEMINIST APPROACHES IN THE FILMS OF LARS VON TRIER (BASED ON THE FILMS "DOGVILLE", "MELANCHOLY" AND "ANTICHRIST")**

**Summary:** The article deals with Lars von Trier's "Dogville", "Meloncholia" and "Antichrist", which have been called anti-feminist by world cinematographers. The film focuses on aspects of violence against women. The injustices experienced by Grace in "Dogville", the depression experienced by Gastin in "Meloncholia", and finally the satanic representation of women in "Antichrist" allow us to call Trier truly an "enemy of women."

**Key words:** Lars von Trier, woman, violence, anti-feminism, melancholy, Dogville,, antichrist

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 11. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**

**UOT:31.:314.:342.7**

**Reyhanə Abasova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail: Reyhane064@gmail.com**

# MƏİŞƏT ZORAKILIĞI VƏ ONUN YARANMA SƏBƏBLƏRİ

**Xülasə:** Məişət zorakılığı müasir dövrün ən aktual problemlərindən biri hesab olunur. Məqalədə cəmiyyətdə insanlara, xüsusən də qadın və uşaqlara qarşı şiddətin artması hallarının qarşısının alınması, məişətdə zorakılığın hansı hadisələrə səbəb olması kimi fikirlər yer almışdır. Məqalədə eyni zamanda məişət zorakılığı, insanlara qarşı şiddətin yaranma səbəbləri, zorakılıqla bağlı dövlətlərin həyata keçirdikləri tədbirlər haqqında da məlumatlar verilmişdir.

**Açar sözlər:** məişət zorakılığı, fiziki şiddət, zorakılıq

Vətəndaş cəmiyyətinin üzvü kimi, hər bir fərdin şəxsi hüquqları–onun azadlığını və muxtariyyətini, hər hansı bir qanunsuz müdaxilədən hüquqi müdafiəsini təmin etməyə yönəlmişdir. Şəxsi hüquqlara və azadlıqlara kənardan hər hansı bir müdaxilə və ya qəsd (əgər bu müdaxilə dövlətin və cəmiyyətin maraqlarının qorunmasından irəli gəlmirsə) zorakılıq sayılır.

Zorakılıq kompleks bir anlayışdır. Zorakılıq tez-tez yaralanma, zərər yetirmə, məhrumiyyət və ya ölümlə nəticələnə bilən qüvvə təhdidi və istifadəsi kimi başa düşülür. Fiziki, şifahi və ya psixoloji formada ola bilər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) zorakılığa "ölüm, psixoloji ziyan və ya məhrumetmə ilə nəticələnən və ya nəticələnmə ehtimalı yüksək olan, özünə, başqa bir şəxsə, qrupa, cəmiyyətə qarşı təhdid və ya faktiki olaraq fiziki qüvvənin, gücün qəsdən istifadəsi" kimi tərif verir. Bu tərif zorakılıq faktının qəsdən edilməsini vurğulayır və güc əlaqələrindən yaranan hərəkətləri əhatə etmək üçün konsepsiyanı genişləndirir.

Zorakılıq bir çox formada təsnif edilə bilər. Belə təsnifatlardan biri aşağıdakılardan ibarətdir:

- birbaşa zorakılıq, məsələn, müharibə, zorbalıq, məişət zorakılığı, təcrid etmək və ya işgəncə kimi fiziki və ya davranış zorakılığı;
- struktur zorakılıq, məsələn, yoxsulluq, əsas resurslar və hüquqlara çıxışdan məhrum edilmə; kasıb, gücsüz və təcrid olunmuşları istismar edən və təhqir edən təzyiqçi sistemlər;
- mədəni zorakılıq, məsələn, müəyyən insan şəxsiyyətləri və həyat tərzlərini dəyərsizləşdirmək və məhv etmək, cinsiyyətçilik, etnosentrizm, irqçilik və müstəmləkəçi ideologiyalar, təcavüz, hökmranlıq, ədalətsizlik və zülmü rasionallaşdıran əxlaqi istisnaların digər formaları.

Hər il dünyada 1.6 milyondan çox insan zorakılıq nəticəsində həyatını itirir. Zorakılıq nəticəsində ölən hər insanla yanaşı bir çox digər insanlar yaralanır və fiziki, cinsi, psixi sağlamlıq problemlərindən şikayətlənir. Zorakılıq səhiyyə, hüquq-mühafizə və məhsuldarlıq sahəsində milli iqtisadiyyata zərbə vurur.

Zorakılığın struktur və mədəni formaları, cəmiyyətlərdə təbii olaraq qəbul edilmə nöqtəsinə qədər dərin şəkildə hopdurulur. Bu cür zorakılıq daha uzun müddət davam edir, nəticədə ya birbaşa şiddət kimi bənzər nəticələrə səbəb olur, ya da bəzi hallarda, məsələn, qurbanın cavab olaraq birbaşa zorakılığa əl atmasına gətirib çıxarır. Əlverişsiz bölgələrdə aşağı təhsil imkanları, əcnəbilər üçün əyləncənin məhdud imkanları, müəyyən iş sahələrində zərərli iş şəraiti və s. insanların hüquq əldə etməsinə birbaşa təsir göstərən struktur və mədəni zorakılıq aktlarıdır. Lakin zorakılığın bu formaları nadir hallarda insan hüquqlarının pozulması kimi tanınır.

Məişət zorakılığı anlayışı adətən, qadına, ailə daxilində həyat yoldaşına, ailə üzvlərinə qarşı şiddət kimi halların ümumiləşdirilmiş adı kimi nəzərdə tutulur. Lakin qeyd etmək lazımdır ki, məişət zorakılığının hüquqi və kliniki tərifləri mövcuddur. Məişət zorakılığının hüquqi tərifi məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanununda

göstərilmişdir. Bu qanuna əsasən məişət zorakılığı "yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır" (1058-IIIQ). Kliniki tərifə gəldikdə isə məişət zorakılığı yeniyetmələr, gənclər və böyüklərin öz partnyorlarına qarşı törətdikləri fiziki şiddət, cinsi zorakılıq, psixoloji basqı, iqtisadi asılılıq və ya məhrumetmə kimi aşağılayıcı və zorakı davranışların törədilməsi ardıcıllığıdır.

Məişət zorakılığının kliniki tərifi onun hüquqi tərifindən daha genişdir və buna görə də araşdırılması çox böyük əhəmiyyətə malikdir. Belə ki, məişət zorakılığı və ya şiddət törətmək seçimi daha çox davranışla səciyyəvi olan bir problemdir və bu problem adətən şəxsin uşaqlıq vaxtında nə dərəcədə valideynlərinin bir-birinə qarşı zorakılıq törətdiklərinə şahidliyi ilə sonradan öyrənilən bir prosesə çevrilir. Məişət zorakılığının yaranmasında patriarxal dəyərlərin və güc ilə nəzarəti əldə etmək üçün zorakılıqdan istifadənin seçimi də ən başlıca səbəblərdən biridir.

Şeçter və Qanlinin qeyd etdiklərinə görə məişət zorakılığı digər ailədaxili şiddət halları ilə oxşarlığı olmasına baxmayaraq, özünəməxsus xarakteristikası ilə fərqli bir kateqoriyaya aiddir. Belə ki, məişət zorakılığında hüquq və məsuliyyətdə bərabər olmalı olan iki gənc və ya iki yetkin şəxs bir-birinə qarşı güc və nəzarət tətbiq edir. Lakin hüquqi olaraq bunlardan heç birinin digərinə qayda qoymağa və ya biri digərini nəzarət altında saxlamağa haqqı yoxdur. Məişət zorakılığı bu bərabər hüquqlu insanların münasibətində həmin hüquqi bərabərliyin pozulması halıdır.

Məişət zorakılığının baş vermə formaları digər zorakılıq halları ilə demək olar ki, oxşarlıq təşkil edir. Hətta məişət zorakılığında zorakı şəxs tərəfindən istifadə edilən zorakılıq taktikalarını öyrənən tədqiqatçılar onun müharibə əsirlərinə qarşı törədilmiş zorakılıq taktikaları ilə oxşar olduğunu vurğulamışlar. Məişət zorakılığı müharibə əsirləri və ya məhbuslardan istənilən informasiyanı almaq və deyiləni yerinə yetirmək üçün istifadə edilən psixoloji və fiziki zorakılıqdan istifadə üsulları ilə oxşardır.

Partnyor tərəfindən törədilən məişət zorakılığı müxtəlif formalarda baş verir. Bunları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**Fiziki şiddət**: Fiziki şiddətə şiddətin bir çox formaları daxildir: kobudcasına qolundan tutub çəkmək, itələmək, vurmaq, nəfəs yollarını yüngül və ya dərindən əngəlləyəcək dərəcədə boğmaq, yumruqlamaq, aid edilə bilər.

Məişət zorakılığı qurbanlarının çox hissəsini qadınlar ilə uşaqlar təşkil edir və ən çox kişilər fiziki şiddətdən istifadə edirlər. Bəzən itələmək və ya şillə vurmaq kimi zorakı şəxs tərəfindən "yüngülcə törədildiyinə" bəraət qazandırılan davranışlar hətta ən ağır zədələrə, ətrafların zədələnməsinə, sinir sisteminin travmasına, dişlərin itirilməsinə və s. səbəb ola bilər. Fiziki şiddət hallarında qurbanın baş nahiyyəsinə yetirilmiş xəsarət çox təhlükəli travmalara səbəb ola və gələcəkdə psixoloji problemlərə və ya sindromlara gətirib çıxara bilər. Məişət zorakılığı zamanı ölüm halları da məhz fiziki zorakılıq nəticəsində baş verir.

Psixoloji zorakılıq: Psixoloji zorakılıq daha kompleks şəkildə həyata keçirilir və onun da bir neçə növləri məlumdur. Zorakı şəxs qurbanı ona və ya ona doğma olan insanlara qarşı fiziki şiddət törədəcəyi ilə hədələyərək və qorxu altında saxlayaraq idarə edir. Məsələn, zorakı şəxs qurbanın ən çox sevdiyi məişət əşyalarını atıb-sındırır, paltarlarını kəsib-doğrayır, içində şəxsi sənədlərin olduğu çantasını gizlədir. Bəzən də qurbanın gizləndiyi otağın qapısını sındırmaqla və onun ətrafındakı əşyalara, divara yumruq vurmaqla növbəti belə yumruqların ona yönələcəyi mesajını verir. Bunların hamısı qurbanı zorakı şəxsin öz psixoloji hədəsi altına salmaq üçün törədilir, bəzən də öz hərəkətləri ilə göstərir.

**Cinsi zorakılıq:** Hazırkı vəziyyətdə cəmiyyətin ən böyük problemlərindən biri olan cinsi zorakılıq məişət zorakılığının ən geniş yayılmış formasıdır. Cinsi zorakılıq qurbanın öz istəyindən asılı olmadan, məcburi formada onunla cinsi əlaqəyə girmək cəhdidir. Cinsi zorakılığın baş vermə səbəbləri müxtəlifdir. Bu insanın psixoloji vəziyyətindən, narkotik

maddələrin qəbulundan, spirtli içkilərdən çox istifadə etmək nəticəsində və müxtəlif mövcud vəziyyətdə yarana bilir.

Cinsi zorakılığın günümüzdə yayılmış ən geniş forması pedofiliyadır. Pedofiliya – azyaşlı uşaqların cinsi zorakılığa məruz qalmasıdır. Məlum olmuşdur ki, pedfilliyə meyilli olan insanların sayı rəsmi pedofillərdən daha çoxdur. Bu isə cəmiyyətdə uşaqlar üçün olduqca böyük təhlükədir. Çünki bu tip insanları öncədən təxmin etmək çox çətindir. Cinsi zorakılığa daha çox qadınlar və uşaqlar məruz qalır.

Məişət zorakılığı spesifik olaraq genderlə bağlı olan bir davranışdır. Zorakılığı törədən kəslərin böyük hissəsini ənənəvi olaraq məhz kişilər təşkil edir. Məişət zorakılığı çox zaman qadına qarşı törədilən zorakılıq olduğuna görə buna gender əsaslı şiddət də deyilir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1993-cü il tarixli deklarasiyasına görə "gender əsaslı zorakılıq ictimai və ya şəxsi həyatda qadına qarşı törədilən fiziki, cinsi, psixoloji zədə və sarsıntı ilə nəticələnən və ya nəticələnə biləcək, eləcə də bu kimi aktların törədiləcəyi barədə hədə-qorxu gəlmək, nəyəsə məcbur etmək, özbaşına olaraq fərdi azadlıqdan məhrum etmək kimi hər hansı bir zorakılıq aktı deməkdir" (UN 1993). Bəzi hallarda qadınlar da şiddət törədə bilər, lakin bu, əksər hallarda ya özünü, ya da uşaqlarını şiddətdən müdafiə etmək üçün baş verə bilir.

Məişət zorakılığı ilə mübarizə üçün qadınlar hərəkatı 1970-ci illərdə ABŞ-da başlamışdır. Həmin vaxtdan etibarən tədqiqatçılar məişət zorakılığının qarşısının alınması məqsədi ilə onun yaranma səbəbləri haqqında anlayışlara yiyələnmək üçün bir sıra nəzəriyyələr təklif etməyə nail oldular. Bu nəzəriyyələr arasında ən çox məişət zorakılığının sonradan öyrənilən davranış nəzəriyyəsi, daha sonra zorakılıq silsiləsi nəzəriyyəsi və növbəti güc və nəzarət nəzəriyyəsi haqqında daha geniş müzakirələr aparılmışdır.

**Öyrənilmiş davranış forması nəzəriyyəsi:** Məişət zorakılığının nə səbəbdən törədilməsi ilə bağlı tədqiqatların çoxu məişət zorakılığının qazanılmış və ya sonradan öyrənilmiş bir davranış forması olduğu fikrini dəstəkləyir. Məişət zorakılığı daxil olmaqla digər zorakılıq baş verən insidentlərin araşdırılması zamanı məlum olub ki, bu halları çox vaxt öz ailəsində zorakılıq görmüş və birbaşa olaraq valideyni tərəfindən şiddətə məruz qalmış şəxslər törədir. Bütün növ zorakılıq halları öz motivləri və törədilmə səbəblərinə görə bir-biri ilə sıx bağlı olduğu üçün bu fikri məişət zorakılığına da aid etmək olar (Michallic və Elliot 1997, 26). Belə ki, evdə anasına və eləcə də özünə qarşı şiddət görmüş kəslər gələcəkdə şiddət törətməyə daha çox meyilli olurlar. Belə insanlar şiddətin norma olaraq qəbul edildiyi ailə və ya sosial mühitdə (məsələn, uşaq bağçası və məktəb) böyüyərək, bunu gündəlik həyat norması kimi qəbul edir. Valideynləri arasında və özünə qarşı şiddət görmüş şəxslərin gələcəkdə zorakılıq törətmədiyi hallar da var. Lakin zorakılığın sonradan öyrənilən bir davranış forması olduğu nəzəriyyəsi üzərində daha çox fikir mübadiləsi aparılmış və bu fikir əsaslandırılmışdır.

**Şiddət silsiləsi nəzəriyyəsi:** Məişət zorakılığı törətmiş zorakı şəxs bəzən törətdiyi əmələ görə peşman olduğunu söyləyir və bir daha bunun yaşanmayacağına söz verir. Buna fiziki şiddətdən sonra göz yaşı dolu vədlər, hədiyyə almaqlar, "bağışla əsəbi idim" kimi peşmançılıq ifadə edən jestləri misal göstərmək olar. Lakin maraqlı burasıdır ki, əgər bu jestlərə qurban müsbət cavab verməzsə zorakı şəxs yenidən şiddət törətməyə başlayır. Buradan da şiddətin silsilə şəklində təkrarlanan, dövri bir davranış olduğu məlum olur.

**Güc və nəzarət nəzəriyyəsi:** Zorakı şəxs müəyyən şiddət taktikaları ilə qurbanın hərəkətlərinə, düşüncəsinə və seçimlərinə nəzarət edərək onu idarə edir və bununla da qurbanın yalnız onun (zorakı şəxsin) istəklərini yerinə yetirməsinə nail olur.

Məişət zorakılığının davamlı proses olmasında həmçinin müəyyən qurumların bəzi inancları da mühüm rol oynayır. Bunlardan din, media, təhsil, hüquqi və sosial yardım sistemi zorakılığın davam etməsinə təsir edir: məsələn, dində qadının ərinə tabe olmasının vacib sayıldığı və qadının onun ərinin mülkiyyəti olmasının vurğulanması; medianın məişət zorakılığı hallarına adi xəbər kimi yanaşması və az işıqlandırması; zorakılıq qurbanlarının şikayətlərinə düzgün formada baxılmaması; şikayət edən qadına qarşı polis şöbələrində qeyri-ciddi münasibət,

utandırma; zorakı şəxsə müvafiq cəzaların verilməməsi və ya verilən cəzaların icrasına nəzarət edilməməsi; təhsildə gerilik, qadın və kişinin bərabər hüquqlu insanlar olduğunun şagirdlərə kiçik yaşlarından aşılanmaması və s. kimi amillərdəndir. Şiddətdən istifadənin normal qarşılanması və zorakı şəxsin hərəkətlərinə cəmiyyətin də haqq qazandırması məişət zorakılığının geniş yayılmasına gətirib çıxarır. Bu kimi inancların hüquq mühafizə orqanlarında polis və digər şəxslər tərəfindən də dəstəklənməsi məişət zorakılığının həllində və dayandırılmasında əsas rolu olan şəxslərin düzgün işləməməsinə və qanunun düzgün icra edilməməsinə səbəb olur.

Məişət zorakılığının geniş yayılmasına səbəb cəmiyyətdə gücün və səlahiyyətin kişinin əlində cəmlənməsi, patriarxal təsəvvürlərin, kişinin qadına tabe olması kimi dini inancların sosial norma sayılmasıdır. Pekin Fəaliyyət Planında da deyildiyi kimi "qadına qarşı şiddət tarixən qadın və kişi arasındakı qeyri-bərabər güc münasibətlərinin təzahür formasıdır ki, bu da kişilərin qadınlar üzərində dominantlığına və qadınların diskriminasiyasına, eləcə də qadınların hərtərəfli inkişafının qarşısının alınmasına gətirib çıxarmışdır" (UN 1995, paraqraf 118).

Aydındır ki, məişət zorakılığı insan haqlarının tapdanması və intim münasibətdə olan iki bərabər hüquqlu şəxsdən birinin digəri üzərində haqsız dominantlıq əldə etmək istəyidir. Məişət zorakılığına insan haqları çərçivəsindən yanaşmaqla bu işdə dövlətin rolunun nə dərəcədə vacib olduğunu görmək olur. Bu çərçivədən yanaşaraq məişət zorakılığının həllində dövlətin rolunu araşdıran Tomas və Beislinin qeyd etdikləri kimi insan haqları konsepsiyası beynəlxalq olaraq bütün dövlətlər tərəfindən qəbul edilən mənəvi dəyərlərdəndir. "Məişət zorakılığı bu mənəvi dəyərin kökündə dayanan prinsipi yəni insan ailəsinin bütün üzvlərinin daxili ləyaqət və dəyərini, qorxu və istəkdən azad olmağa danılmaz haqqını, qadın ilə kişinin bərabər hüquqa malik olması prinsipini inkar edir, pozur" (Thomas və Beasley 1993, 37).

**Ədəbiyyat siyahısı:**

1. http://www.e-qanun.az/framework/20131
2. https://azkurs.org/movzu-qenderde-zorakiliq-nezeriyyesi.html
3. https://en.wikipedia.org/wiki/Domestic_violence
4. http://stopvaw.genderaz.org/index.shtml?id_main=14&id_sub=26
5. https://rm.coe.int/ic-explanatory-ic-aze-web/16808e9a39

**Рейхана Абасова**

**БЫТОВОЕ НАСИЛИЕ И ПРИЧИНЫ ЕГО ВОЗНИКНОВЕНИЯ**

**Резюме:** Домашнее насилие - одна из самых актуальных проблем современности. В статье рассматриваются вопросы предотвращения роста насилия в отношении людей, особенно женщин и детей, и причины домашнего насилия. В статье также представлена информация о домашнем насилии, причинах возникновения насилия в отношении людей, мерах, принимаемых государствами в связи с насилием.

**Ключевые слова:** домашнее насилие, физическое насилие, насилие.

**Reyhana Abasova**

**DOMESTIC VIOLENCE AND ITS CAUSES**

**Summary:** Domestic violence is one of the most pressing problems of our time. The article discusses the prevention of increasing violence against people, especially women and children, and the causes of domestic violence. At the same time, information was provided on domestic violence, the causes of violence against people, and the measures taken by states in connection with violence.

**Key words:** domestic violence, physical violence, violence.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 14. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

**UOT:31.:342.7.:340.**

**Nərgiz Yusifova**
**Sumqayıt Dövlət Universiteti**
**Laborant**
**E-mail: nl.kerimzadə@gmail.com**

# AİLƏDAXİLİ ZORAKILIQ HALLARININ YARATDIĞI PROBLEMLƏR VƏ BU PROBLEMLƏRİN HƏLLİNDƏ SOSİAL İŞİN AÇDIĞI QAPILAR

**Xülasə:** Şiddətin fərdlər üzərində fərqli qısa və uzunmüddətli təsirləri vardır. Psixoloji təsirlər: Qorxu, günahkarlıq, utanc hissi, zəiflik, təklik və köməksizlik, başqalarına güvənməkdə çətinlik, özünə hörmət və özünə inam itkisi, əhəmiyyətsiz hiss, daim ayıq, narahat və əsəbi olmaq, pis bir şeyin baş verdiyini hiss etmək, emosional reaksiyalar, asanlıqla təəccüblənir, təkrarlanan özünə zərər verən davranışlar (kəsmə, ülgüc doğramaq, yaraların qopması və s.), intihar düşüncələri və cəhdləri, alkoqol və maddə asılılığı, yemək pozğunluqları, cinsi pozğunluqlar, yuxu pozğunluqları, qəzəblənmək, başqalarından tamamilə fərqli hiss etmək, tamamilə dəyişmiş hiss etmək, itirilmiş hiss etmək, təcrid olunmaq, geri çəkilmək, dəfələrlə təhlükəli vəziyyətlərə salmaq şiddətin psixoloji nəticələri arasındadır.

**Açar sözlər:** Ailədaxili zorakılıq, sosial iş, ailə, zorakiliq, cəmiyyət, şiddət

Ailədaxili zorakılıq ailə zorakılığı və ya ailə şiddəti də adlandırılır. Ailədə zorakılıq ailənin bir üzvü tərəfindən digərinin fiziki, psixoloji, iqtisadi, cinsi zorakılıq və ya məcburetmə ilə konstitusiya hüquq və azadlıqlarının pozulmasıdır. Zorakılığın formaların araşdırdıqda bir sıra növləri aydın olur.

**Fiziki zorakılıq**: döymək, işgəncə vermək, sağlamlığı zədələmək, qeyri-qanuni şəkildə azadlıqdan məhrum etmək və ya fiziki ağrıya və ya əzaba səbəb olan digər hərəkət; sağlamlıq vəziyyəti ilə əlaqədar olan tələbləri təmin etməmək, bu da ailə üzvünün sağlamlığının zədələnməsinə və ölümünə səbəb olur;

**Psixoloji zorakılıq**: təhqir, şantaj, alçaltma, hədələmə və ya insan ləyaqəti və şərəfinə xələl yetirilməsinə səbəb olan digər hərəkət;

**İqtisadi zorakılıq**: qida, yaşayış yeri və normal inkişafın digər şəraiti ilə təmin etmək, mülkiyyət və əmək hüquqlarını həyata keçirmək, eləcə də birgə mülkiyyətdə olan əmlakdan istifadə etmək və əmlak üzərində olan öhdəlikdən üzərində sərəncam vermək hüququnun məhdudlaşdırılmasına səbəb olan hərəkət;

**Cinsi zorakılıq**: zorakılıqla, zorakılıqla hədələməklə və ya qurbanın acizliyindən istifadə etməklə cinsi əlaqə; yetkinlik yaşına çatmamış şəxsə qarşı cinsi əlaqə və ya cinsi xarakter daşıyan digər növ hərəkət və ya azğın hərəkət;

**Laqeydlik (etinasızlıq)**: valideyn və/və ya qanuni nümayəndə tərəfindən uşağın fiziki, psixoloji zərurətlərinin təmin edilməməsi, baza təhsili almaq hüququnun məhdudlaşdırılması, təhlükədən müdafiə edilməməsi, doğumun qeydiyyatı, tibbi və digər xidmətdən istifadə etmək üçün zəruri hərəkətlərin həyata keçirilməməsi bir halda ki, valideyn və/və ya qanuni nümayəndə müvafiq xidmət barədə müvafiq məlumata, imkana malikdir və həmin xidmət onun üçün əlçatandır.

Ailədaxili zorakılıq, əksinə, digər birinə qarşı intim münasibətdə olan şəxslərdən biri tərəfindən törədilən və heteroseksual və ya eyni cinsli münasibətlərdə və ya keçmiş həyat yoldaşları və ya ortaqları arasında baş verə biləcək intim tərəfdaş şiddətinin sinonimi kimi istifadə olunur. Geniş mənada, ailədaxili şiddət uşaqlara, yeniyetmələrə, valideynlərə və ya yaşlılara qarşı şiddəti də əhatə edir. Fiziki, şifahi, emosional, iqtisadi, dini, reproduktiv və cinsi istismar da daxil olmaqla bir çox formada olur, bunlar incə, məcburi formalardan ailə təcavüzünə və boğulma, döyülmə, qadın cinsiyyət orqanının kəsilməsi bu kimi şiddətli fiziki istismara qədər

dəyişə bilər. Ailədaxili cinayətlər arasında daşqalaq, gəlin yandırma, namus üstündə öldürmə daxildir.

Fiziki təsirlər: Yaralanmalar, qalıcı əlillər, ölüm, xroniki ağrı və yaşla artan sağlamlıq problemləri, mütəmadi olaraq həkimə müraciət edilməsinin qarşısını almaq nizamlı olaraq yemək yeyə bilməmək,zehni sıxıntının əks olunması bədən, tiroid, mədə, bel, baş ağrıları, huşunu itirmə epizodları, müvəqqəti iflic, abort və ölü doğuş nisbətləri, az çəkili körpələrə sahib olmaq şiddətin fiziki təsirlərindəndir.

Sosial təsirlər: Sosial təcrid, erkən nikah, erkən analıq, ana və körpə itkisi, ciddi məktəb və işsizlik, məktəb və iş itkisi, iqtisadi zərər (işləməmək), şiddət nəticəsində yoxsulluq, ailə münasibətlərinin pozulması, emosional və sosial ehtiyaclara cavab vermək şiddətin sosial təsirlərindəndir.

Ailədə zorakılıqla üzləşən şəxs və ya şəxslər məhkəməyə müraciət etmək hüququna malikdirlər kı, bunlara: qurban (ehtimal edilən qurban), onun ailə üzvü, yetkinlik yaşına çatmamış şəxs təqdirində isə - qəyyumluq və qayğı orqanı, həmçinin qurbanın razılığı ilə qurbana tibbi, hüquqi və psixoloji yardım göstərən şəxslər. İnzibati-hüquqi mexanizmlərdən, hüquq pozuntusu, qanunvericiliyə uyğun olaraq, cinayət hüquq məsuliyyətinə səbəb olmadığı və inzibati hüquq pozuntuları məcəlləsinin normalarına uyğun olaraq onun qarşısını almaq mümkün olduğu təqdirdə, istifadə edilir. Ailə zorakılığı faktı üzrə operativ reaksiyanın verilməsi üçün səlahiyyətli orqan və ya vəzifəli şəxs tərəfindən qurbanları müdafiə etmək və zorakının müəyyən hərəkətlərinin məhdudlaşdırılmasını təmin etmək üçün, müvəqqəti tədbir şəklində müdafiəedici və məhdudlaşdırıcı orderlərdən istifadə edir.

Məhdudlaşdırıcı və müdafiəedici orderlər arasındakı fərq aşağıdakılardan ibarətdir:

Məhdudlaşdırıcı orderi polis əməkdaşı bilavasitə olaraq fakta reaksiya verildiyi zaman (konkret zorakılıq zamanı polis çağırılarkən) verir və o, 24 saat ərzində təsdiq olunması üçün məhkəməyə təqdim edilir və təqdim edildikdən sonra 24 saat ərzində orderin verilməsinin məqsədəuyğunluğunu müzakirə edir və onun təsdiq edilməsi və ya təsdiq edilməsinə rədd cavabı barədə qərar qəbul edir.

Məhkəmə səlahiyyətli şəxsin ərizəsini aldıqdan sonra 10 gün müddətində müdafiəedici orderin verilməsi, ləğv edilməsi, qüvvəsinin uzadılması və ya verilməsinə rədd cavabının verilməsi barədə qərar qəbul edir.

Qanuna əsasən, müdafiəedici orderin verilməsini tələb etmək hüququna qurban, eləcə də onun ailə üzvü və ya qurbanın razılığı ilə, qurbana tibbi, hüquqi, psixoloji yardım göstərən şəxs malikdir. Adı çəkilən şəxslər qeyd edilənlər barədə məhkəməyə müraciət etməlidirlər. Müdafiəedici order 6 ayadək müddət ilə verilir. Onun qüvvədə olduğu konkret müddəti məhkəmə müəyyən edir. Müdafiəedici orderin qüvvədə olduğu müddətinin uzadılması order qüvvədə olduğu müddətdə və əlavə olaraq – qurbana və ya digər ailə üzvünə qarşı təhlükə olduğu təqdirdə, 3 aydan artıq olmayaraq mümkündür.

Müdafiəedici və məhdudlaşdırıcı orderlərin qüvvədə olması tərəflər barışdığı zaman hakimin müvafiq qərarı ilə, məhkəməyə tərəflərin birgə müraciəti əsasında ləğv edilə bilər. Əgər ailədə zorakılıq faktı ailənin digər üzvlərinin, xüsusilə - yetkinlik yaşına çatmamış şəxsin maraqlarına xələl yetirirsə, tərəflərin barışması müdafiəedici və məhdudlaşdırıcı orderlərin verilməsinə maneçilik törətmir və ya verilmiş müdafiəedici və məhdudlaşdırıcı orderlərin qüvvədə olmasnın ləğv edilməsinə səbəb olmur.

Məhdudlaşdırıcı order 1 ayadək müddət ilə verilir və onu səlahiyyətli şəxsin müraciətindən sonra 24 saat ərzində məhkəmə təsdiq edir və ya təsdiq edilməsinə rədd cavabını verir.

Ailədaxili zorakılığa məruz qalmış şəxslər sosial işçilərin köməkliyi ilə müəyyən xidmətlərdən istifadə edə bilərlər.

- Qurban vurulan ziyan üçün təzminatı almaq hüququna malikdir;
- Sığınacaqdan/böhran mərkəzindən istifadə etsin;
- Dövlət hesabına hüquqi yardım xidmətindən yararlansın;

• Sığınacaqda/böhran mərkəzində olduğu zaman, qanunvericiliklə müəyyən edilmiş qaydada, ildə 30 gün əmək münasibətlərini dayandırmaq hüququndan yararlansın və işini itirməsin;

• Əgər qurban əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdirsə, o, Azərbaycanda müvəqqəti yaşamaq üçün icazəni almaq üçün müvafiq dövlət orqanlarına müraciət edə bilər.

Məişət zorakılığı tək fiziki zorakılıq deyil. Ailədaxili zorakılıq, məqsədi həyat yoldaşı, tərəfdaş, qız / oğlan və ya yaxın ailə üzvü üzərində güc və nəzarət əldə etmək olan hər hansı bir davranışdır. İstismar öyrənilmiş bir davranışdır; buna qəzəb, zehni problemlər, narkotik və ya alkoqol və ya digər ümumi bəhanələr səbəb olmur.

Dünyada hər 3 qadından 1-i ömrü boyu fiziki və / və ya cinsi zorakılıqla qarşılaşmışdır. Hər il 15 milyon qız 18 yaşından əvvəl evlənir, yəni hər dəqiqədə 28 qız. 10 milyona qədər uşağın cinsi istismara məruz qaldığı təxmin edilir. Dünya əhalisindən 80 ilə 100 milyon arasında qız 'itkin düşmüşdür - gender əsaslı uşaq öldürmə, femisid, qidalanma və baxımsızlıq qurbanları. Hər 4 qadından 1-i hamiləlik zamanı fiziki və / və ya cinsi zorakılıqla qarşılaşır. Hər il dünyada 150 milyona yaxın qız, ümumiyyətlə ailə fərdlərinin biri tərəfindən təcavüzə və ya cinsi zorakılığa məruz qalır. Günümüzdə yaşayan 700 milyondan çox qadın erkən nikaha (18 yaşınadək) məcbur edilib. Dünyada hər il bildirilən 5.000 şərəf cinayəti var. Mütəxəssislər "namus" qətllərinin həqiqi sayının daha çox olduğunu təxmin edirlər. 2015-ci ildə gənclər arasında yeni HİV infeksiyalarının 58% -i yeniyetmə qızlar və gənc qadınlar arasında baş verib. Şiddət və ya zorakılıq təhdidi qızların və gənc qadınların özlərini HİV-dən qorumaq qabiliyyətinə təsir göstərir.

Ailədaxili zorakılıq dünyadakı qadınların çox böyük hissəsini əhatə edən qlobal bir problemdir.

Qlobal olaraq hər gün 137 qadın ortağı və ya bir ailə üzvü tərəfindən öldürülür. 15 ilə 44 yaş arasındakı qadınların təcavüz və məişət zorakılığı riski xərçəng, avtomobil qəzaları, malyariya və ya müharibədə yaralanma riskindən daha yüksəkdir.

Milyardlarla qadın və qız hər gün dərin bərabərsizlik və zorakılıqla üzləşməyə davam edir. Bu statistika, VAWG ilə mübarizə və məlumatlılığı artırmaq üçün daha çox iş görməyimiz lazım olduğuna dair güclü bir xatırlatma təmin edir. Biz dünyanın hər yerində qadın və qızların hüquqları uğrunda dururuq. Cinsi və fiziki zorakılığa, iqtisadi, mənəvi, siyasi, sosial və mədəni bərabərsizliyə son qoymaq və qadınlara və qızlara öz müstəqil gələcəklərini yaratmağı gücləndirmək.

Qadınların və qızların mübarizələri qiymətləndirilməlidir. Xüsusilə müharibə və aclıq kimi böhran zamanlarında ən çox təsirlənən qadınlardır.

Müsbət dəyişiklik yaratmaq üçün yerli icmalar və QHT-lər daxilində siyasət müəyyən edənlərlə işləyirik. Ailədə zorakılığın qurbanı üçün dövlət tərəfindən sığınacaqlarla təmin edilib, həmin sığınacaqda qurbanın psixoloji-sosial reabilitasiyası, ona hüquqi və tibbi yardımın göstərilməsi həyata keçirilir. Böhran mərkəzi–ailədə zorakılığın ehtimal edilən qurbanların və qurbanların müvəqqəti yerləşdirmə yeri mövcuddur, hansı ki, psixoloji-sosial reabilitasiyaya, ilkin və təxirəsalınmaz tibbi xidmət və hüquqi yardıma xidmət edir. Həmçinin həmin yaşayış yeri zorakının mülkiyyəti olduğu təqdirdə də qurbanın müvəqqəti olaraq yaşayış yerində qalması və zorakının həmin yaşayış yerindən uzaqlaşdırılması mümkündür.

Ailədə zorakılıq olduqda, uşaqların duyğusal ehtiyacları ödənilmir. Bunu mütləq gələcəkdə özlərini ifadə etmək üçün istifadə etdikləri yeganə metod olaraq seçirlər. Qəzəb özü ilə şiddət gətirir. "Qəzəb, çatışmazlıq, uğursuzluq bir çox mənfi duyğunun əks olunması olaraq ortaya çıxa bilər.İdeal ailə yoxdur, çünki hər ailənin öz problemləri, öz çatışmazlıqları vardır. Ancaq valideynlər elə etməlidirlər ki, uşaqlar öz ailəsini ideal ailə kimi görsün. Mübahisə olan zaman onların yanında etməsinlər. Yoxsa bu uşağın psixologiyasına güclü zərbə vura bilər.

Uşağı və qadını döymək güclü olmanın deyil zəif bir iradənin nəticəsidir.

Ailə zorakılığına məruz qalan uşaqlar eyni şiddəti sonrakı həyatlarında başqalarına tətbiq edə bilərlər!

**Ədəbiyyat siyahısı:**


**1.** Bayramov Ə.C., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Azərbaycan Dövlət Nəşriyyat. Bakı, 1986, 210s

2.Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, ADPU, 2005, 150s.

**3. Erix Fromm"Marksın İnsan konsepsiyası", Solfrant, 2012, 144s.**

**4.** AZSIIB Sosial işdə etik qaydalar .

5. Sosial iş. https://az.m.wikipedia.org/wiki/Sosial_i%C5%9F

6. Sosial iş mütəxəsisi. http://psikososyalhizmet.com/blog/shu/

7. Social Work Values and Ethics Frederic.G.Reamer.1970

8. Ethical and Values in Social Work, Third Edition, Macmillan Press,

9. Kitzinger, Jenny 2004. *Framing abuse: media influence and public understanding of sexual violence against children.* London: Pluto Press.

10. Emily M Lund, Jessica E Vaughn-Jensen Victimisation of children with disabilities


**Наргиз Юсифова**

## ПРОБЛЕМЫ, ВЫЗВАННЫЕ ДОМАШНИМ НАСИЛИЕМ, И ВОЗМОЖНОСТИ СОЦИАЛЬНОЙ РАБОТЫ ДЛЯ РЕШЕНИЯ ЭТИХ ПРОБЛЕМ

**Резюме:** Насилие по-разному влияет на людей в краткосрочной и долгосрочной перспективе. Психологические эффекты: страх, вина, стыд, слабость, одиночество и беспомощность, трудность доверять другим, потеря самооценки и уверенности в себе, чувство незначительности, постоянная бдительность, беспокойство и нервозность, ощущение, что происходит что-то плохое. постоянные, эмоциональные реакции, легкое удушье, повторяющееся самоповреждающее поведение (порезы, бритвы, заживление ран и т.д.), суицидальные мысли и попытки, употребление алкоголя и психоактивных веществ, расстройства пищевого поведения, сексуальные расстройства, расстройства сна, вспышки чувствовать себя совершенно отличным от других, чувствовать себя полностью изменившимся, чувствовать себя потерянным, чувствовать себя изолированным, отступать, подвергаться постоянным опасным ситуациям - это одни из психологических последствий насилия.

**Ключевые слова:** домашнее насилие, социальная работа, семья, насилие, общество.

**Nargiz Yusifova**

## PROBLEMS CAUSED BY DOMESTIC VIOLENCE AND THE DOORS OPENED BY SOCIAL WORK TO SOLVE THESE PROBLEMS

**Summary:** Violence has different short- and long-term effects on individuals. Psychological effects: Fear, guilt, shame, weakness, loneliness and helplessness, difficulty in trusting others, loss of self-esteem and self-confidence, feeling insignificant, being constantly awake, anxious and nervous, feeling that something bad is happening. occurs all the time, emotional reactions, easily surprised, recurrent self-harming behaviors (cutting, razor cutting, wound healing, etc.), suicidal thoughts and attempts, alcohol and substance abuse, eating disorders, sexual disorders, sleep disorders, outbursts of anger, to feel infected, to feel completely different from others, to feel completely changed, to feel lost, to be isolated, to retreat, to repeatedly expose yourself to dangerous situations are among the psychological consequences of violence.

**Key words:** domestic violence, social work, family, violence, society.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 30. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Rəşad Əsgərov**

**UOT: 31.:342.7.:390.**

**Bəhram Şamilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: almaz_lak@mail.ru**

## MƏİŞƏT ZORAKILIĞI İLƏ MÜBARİZƏDƏ SOSİAL İŞÇİLƏRİN ROLU

**Xülasə:** Məqalədə məişət zorakılığı ilə bağlı əsas məlumatlar qeyd olunmuşdur. Hər hansısa bir zorakılıq qadın hüquqlarının ciddi şəkildə pozulması hesab olunur. Məişət zorakılığı ümumiyyətlə, cəmiyyət üçün ciddi fiziki, emosional, iqtisadi və sosial nəticələri vardır. Sosial işçilərin bu problemlərin həllində rolu böyükdür. Məqalədə ölkədə məişət zorakılığının qarşısının alınmasına dair ətraflı məlumat verilmişdir.

**Açar sözlər:** Məişət zorakılığı, qadınlar, zorakılığın qarşısının alınması

Məişət zorakılığına məruz qalan qadınlar sosial iş kontekstində prioritet təşkil edən qruplardan biridir. Bu qəbildən olan zorakılığın aradan qaldırılmasında cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. İstər beynəlxalq, istərsə də milli qanunvericilikdə nəzərdə tutulmuş bir sıra hallar ailədaxilində gender əsaslı zorakılığın aradan qaldırılmasına öz müsbət təsirini göstərir. Azərbaycanda qəbul edilmiş "Məişət zorakılığı haqqında" Azərbaycan Respublikasının qanunu (2 oktyabr 2010-cu il) bu sahədə atılmış addımlardandır. [1]

Bütün qruplarla olduğu kimi ailədaxili zorakılığa məruz qalan qadınlarla aparılan sosial iş həm mikro (fərdlərlə), həm mezo (qruplarla), həm də makro (dövlət səviyyəsində) səviyyədə aparıla bilər. Bu mənada ailədaxili zorakılığa məruz qalan qadınların hüquqlarının təmin edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş hallar makro səviyyədə həyata keçirilən sosial iş baxımından böyük əhəmiyyət daşıyır. Ailədaxili zorakılığa məruz qalmış şəxslərin maarifləndirilməsində KİV-lər böyük önəm daşıyır. Lakin ailə zorakılığına məruz qalmış şəxslərlə fərdi iş aparılması həm problemin daha dəqiq öyrənilməsi baxımından, həm də müdaxilənin birbaşa aparılması anlamında böyük əhəmiyyətə malikdir. Fərdlərlə aparılan sosial işin məqsədi fərd və onun ailə, digər birliklər və ya ətraf mühiti arasında olan əlaqələrin pozulmasına səbəb olmuş amillərin tam və ya qismən aradan qaldırılmasından ibarətdir.

Ailədaxili zorakılığın nəticələri sosial işçilər üçün olduqca əhəmiyyətlidir; bu cür zorakılığa məruz qalan şəxslər ilkin və ya ikinci dərəcəli qurban hesab edilir. Bizim bir çoxumuz öz ailəmizdə bu cür zorakılığın təsirini hiss etmişik. Sosial işçilər ailədaxili zorakılığı aradan qaldırmaq məqsədilə effektiv iş həyata keçirməli, bu məqsədlə bütün müdaxilə üsullarından (mikro, makro, mezo səviyyələrdə) istifadə etməlidirlər. Ailədaxili zorakılıq həm də cinayətdir. Ailədaxili zorakılıqlar ailə daxilində latent formada baş verdiyi üçün onların sayını müəyyənləşdirmək çətindir. Tədqiqatlar göstərir ki, cinayət səviyyəsində evli şəxslərin 25-50%-i ömürlərində bir dəfə də olsa kobudluqla qarşılaşırlar. Zorakılıq ailələrdə sosial-iqtisadi səbəblər, təhsil, mühitlə əlaqədar yarana bilər. Kişilərin 40%-dən çoxu öz tərəfdaşlarına qarşı müəyyən məqamda zorakı davranış nümayiş etdirirlər. Ailədaxili zorakılıq əsasən gender əsaslı zorakılıq kimi özünü daha çox göstərir. Ailədaxili zorakılıq qadınlara qarşı yönəlmiş bir cinayətdir. Ailədaxili zorakılıqların 95%-dən çoxu kişilər tərəfindən qadına qarşı törədilir. Zorakılıq, yalnız münaqişə və qəzəblə deyil, həm də tabe etmək və nəzarət istəyi ilə bağlıdır.

Ellen Pens və Maykl Paymarın 1986-cı ildə nəşr etdirdikləri "Güc və Nəzarət" adlı kitabı ailədaxili zorakılığa məruz qalan şəxslərlə çalışan sosial işçilər üçün proqram hesab edilə bilər. Onlar öz yanaşmalarını zorakılığa məruz qalan qadınların həyat hekayələrini dinləməklə formalaşdırmışlar. Pens və Paymar ailədaxili zorakılığı makro səviyyədə araşdıraraq, ona sosial iş baxımından yanaşmağa çalışmışlar. Onlar izah edirlər ki, kişilərin qadınları təzyiq altında saxlamaları tarix boyu davam etmiş bir proses olmuşdur. Onların yanaşmalarının bir aspektini də "İcma Əsaslı Cavabdehlik" təşkil edir ki, bu da problemin həllində cəmiyyətin bütün

strukturlarının –prokurorluğun, hüquq - mühafizə orqanlarının, verilən sərəncamların, dini və s. idarələrin birgə səyini nəzərdə tutur. [23,s.92].

Ailədaxili zorakılıq həm də uşaqlar üçün böyük təhlükədir. Zorakılığa məruz qalanların 70%-dən çoxu uşaqlardır. Belə ki, həyat yoldaşlarına qarşı zorakılıq törədən kişilər öz uşaqlarına qarşı da müxtəlif zorakılıqlar törədirlər. Hətta zorakılığa şahidlik etmək də uşaqlar üçün təhlükədir. Bu cür zorakılıq uşağa bir neçə cür təsir göstərə bilər. Zorakılıq uşaqlarda dərhal tramva və yaxud onların normal inkişafına mənfi təsir göstərə bilər.

Fiziki təzyiqlərə məruz qalan qadınlar köməksiz, zərif və əqli problemləri olan şəxslər deyil. Fiziki təzyiqlərə məruz qalan qadınların zəif, aciz, əsəbi olmaları ilə bağlı stereotiplər mövcuddur. Lakin bu stereotipləri ümumiləşdirmək olmaz. Belə ki, zorakılığa məruz qalan qadınlarla zorakılığa məruz qalmayan qadınların xarakter xüsusiyyətləri fərqlənməyə bilər. Bu təzyiqlərlə qarşılaşan qadınlarla çalışan sosial işçilər onları təsvir edərkən nəinki əsəbi, köməksiz və ya zəif kimi, əksinə güclü, həyatla mübarizə aparan şəxslər kimi onları tərənnüm edirlər.

Əlilliyi olan şəxslər ailədaxili zorakılıq üçün böyük risk qrupu hesab edilə bilər. Nəzərə alsaq ki, əlilliyi olan şəxslər cəmiyyətdə daha çox məhrumiyyətlərlə qarşılaşan şəxslərdir və onların ailədaxili zorakılıqların üstünlük təşkil etdiyi ailələrdə daha çox müdafiəyə ehtiyacı var, bu baxımdan sosial işçilər bu cür müştərilərlə işləyərkən daha çox diqqətli olmalıdırlar. Onlar sui-istifadə, istismar və cəmiyyətdən təcrid hallarına qarşı daha həssasdırlar. Əlilliyi olan şəxslər ailənin digər üzvlərinin və ya onlar üçün ayrılmış köməkçilərin yardımı ilə yaşadıqları üçün bu asılılıq zorakılıq üçün şərait yarada bilər. Fiziki təzyiqlərə məruz qalan əlilliyi olan qadınlar daha çox sığınacaqlara müraciət edir.

Məişət zəminində baş verən zorakılıq hallarının aradan qaldırılması üçün fikrimizcə insanlar arasında maarifləndirmə işi daha çox aparılmalı, zorakılığa məruz qalmış şəxslərin hara və necə müraciət etməsi ilə bağlı praktiki işlər görülməlidir. Yalnız bu halda zorakılıq hallarını minimuma endirmək olar.

**Ədəbiyyat siyahısı:**

1. “Məişət Zorakılığının Qarşısının Alınması Haqqında”, 2 oktyabr 2010 tarixli, 1058-III Q nömrəli Azərbaycan Respublikasının Qanunu.
2. BMT-nin “Qadınlara Qarşı Zorakılığın Aradan Qaldırılması haqqında” Bəyənnamə 20 dekabr 1993-cü il tarixli, 48/104 saylı Qətnamə.
3. Həsənova M. Azərbaycanda ailə: hüquqi və demoqrafik aspektləri. Bakı, 2004.
4. Kadının Statüsü və Sağlığı İle İlgili Gerçekler, Ankara, Afşaroğlu matbaası. 2008

**Бахрам Шамилов**

## РОЛЬ СОЦИАЛЬНЫХ РАБОТНИКОВ В БОРЬБЕ С ДОМАШНЕМ НАСИЛИЕМ

**Резюме:** В статье представлена основная информация о домашнем насилии. Любое насилие - серьезное нарушение прав женщин. Домашнее насилие обычно имеет серьезные физические, эмоциональные, экономические и социальные последствия для общества. Роль социальных работников в решении этих проблем велика. В статье представлена подробная информация о предотвращении домашнего насилия в стране.

**Ключевые слова:** домашнее насилие, женщины, предотвращение насилия.

**Bahram Shamilov**

## THE ROLE OF SOCIAL WORKERS IN THE FIGHT AGAINST DOMESTIC VIOLENCE

**Summary:** The article provides basic information on domestic violence. Any violence is a serious violation of women's rights. Domestic violence generally has serious physical, emotional, economic, and social consequences for society. The role of social workers in solving these problems is great. The article provides detailed information on the prevention of domestic violence in the country.

**Key words:** Domestic violence, women, violence prevention

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14. 04. 2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22. 04. 2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 23. 04. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Lamiyə Rzayeva-Əhmədli**

Çapa imzalanıb:
Format: 60x84 1/4. Qarnitur: Times.
Həcmi: ç. v. Tiraj: 100. Sifariş №

---

**ADMİU-nun mətbəəsində çap edilmişdir.**
**Ünvan:** Bakı şəhəri, H. Zərdabi küç. , 39a
**Telefon:** (+994 12) 434-50-04